Gündüz İsmayılov

# AZƏRBAYCANDA DİNİ MƏSƏLƏ

Təhdidlər və hədəflər

İdeoloji
Milli
İctimai

TƏHLÜKƏSİZLİK MÜSTƏVİSİNDƏ

Gündüz İsmayılov

107352

# AZƏRBAYCANDA DİNİ MƏSƏLƏ: TƏHDİDLƏR VƏ HƏDƏFLƏR

## İdeoloji, milli, ictimai təhlükəsizlik müstəvisində

*Dini icmalara maliyyə yardımının göstərilməsi ilə bağlı Prezident İlham Əliyevin Sərəncamına əsasən çap edilmişdir.*

Azərbaycan Milli Kitabxanası

**Bakı 2016**

**Ön sözün müəllifi: Mübariz QURBANLI**

**Redaktor:** **Nahid Məmmədov**
**Korrektor:** **Aysel Abdullayeva**

**Kitabın üz qabığının dizaynı və tərtibatı:**
**Oqtay Orucov**

Gündüz İsmayılov
**Azərbaycanda dini məsələ: təhdidlər və hədəflər**
İdeoloji, milli, ictimai təhlükəsizlik müstəvisində. Bakı

Kitabda Azərbaycanda ənənəvi dinlərin tarixindən, əsas dini mərkəz və icmalardan, dini təhsil ocaqlarından, eləcə də qeyri-ənənəvi dinlər və dini cərəyanlardan geniş bəhs olunmuş, onların zərərli fəaliyyəti ətraflı izah edilmişdir. Eyni zamanda müstəqilliyimizi bərpa etdikdən sonra din sahəsində ideoloji, milli və ictimai təhlükəsizlik baxımından üzləşdiyimiz təhdidlər qruplaşdırılmış, onların düzgün izahı üçün konkret nümunələr təqdim olunmuşdur.

Qeyd edilənlərə paralel olaraq din sahəsində ideoloji, milli və ictimai təhlükəsizlik baxımından əsas hədəflərimiz və prioritet istiqamətlər kitabda geniş işıqlandırılmışdır.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN: 978-9952-8305-5-2

© Gündüz İsmayılov, 2016





# ÖN SÖZ

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Ümummilli Liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursa uyğun olaraq dövlət-din münasibətlərinin tənzimlənməsi, vicdan azadlığının təmin edilməsi, milli-mənəvi dəyərlərimizin qorunub-saxlanılması, tarixi-dini abidələrimizin bərpası sahəsində uğurlu yol keçib. Bunun səbəbi - Ulu Öndər Heydər Əliyevin formalaşdırdığı dövlət-din münasibətləri sisteminin effektliyini təmin edən başlıca amil - həmin sistemin Azərbaycan xalqının xarakterik xüsusiyyətlərinə, dövrün müasir tələblərinə və vicdan azadlığının təmin olunması prinsipinə əsaslanmasıdır.

Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin Ulu Öndərin zəngin siyasi irsinə söykənən ardıcıl, məqsədyönlü fəaliyyəti nəticəsində ölkəmiz digər sahələrdə olduğu kimi dinə, vicdan azadlığına, tolerant və multikultural dəyərlərə münasibətdə nümunəvi dövlətə çevrilib. Ötən müddət ərzində onlarla tarixi-dini abidəmiz, o cümlədən məscid, ziyarətgah, kilsə və sinaqoqlar təmir olunub, yeniləri inşa edilib, Bakıda "Heydər" məscidi kimi möhtəşəm kompleks dindarların istifadəsinə verilib.

Bu sahədə UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun ardıcıl və təqdirəlayiq fəaliyyətinin də xüsusi rolu var.

Milli-mənəvi dəyərlərimizin qorunmasına və təbliğinə, tarixi-mədəni abidələrimizin bərpasına böyük önəm verən Fondun məscid və ziyarətgahları bərpa etməklə yanaşı, bir sıra qeyri-İslam məbədlərinin bərpası və yenidənqurulması məqsədilə həm ölkə daxilində, həm də xaricdə xüsusi layihələr həyata keçirməsi yüksək qiymətə layiqdir.

Dinlər, mədədniyyətlərarası dialoq, tolerant və multikultural dəyərlərin təbliği, vicdan azadlığının təmin olunması mövzusunda onlarla beynəlxalq konfransa ev sahibliyi etmiş Azərbaycanda bu il BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçirilib. Bu yaxınlarda isə daha bir beynəlxalq tədbir - V Bakı Beynəlxalq Humanitar Forumu uğurla başa çatıb. Bu baxımdan Prezident İlham Əliyevin 2016-ci ili Azərbaycanda "Multikulturalizm ili" elan etməsi təsadüfi sayıla bilməz.

Eyni zamanda qeyd edilməlidir ki, dövlət başçısı milli-mənəvi dəyərlərimizin, ölkəmizdəki zəngin tolerantlıq ənənələrinin təbliği və təşviqi, eləcə də dini maarifçilik işinin aparılması və dini qurumların fəaliyyətinin dəstəklənməsi üçün həm Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə, həm də dini icmalara dövlət büdcəsindən maliyyə vəsaiti ayrılması barədə müxtəlif vaxtlarda sərəncamlar imzalayıb. Bütün bunlar dövlətimizin uğurlu siyasətinin məntiqi və yekun nəticəsidir.

Ancaq təəssüf ki, Azərbaycanın tərəqqisini qəbul edə bilməyən, milli dövlətçiliyimizə qarşı çıxan, milli-mənəvi dəyərlərimizə hörmətlə yanaşmayan, dinlər və məzhəblər arasında qarşıdurma yaratmaq istəyən, din pərdəsi altında gizlənən radikal





qruplar da mövcuddur. Dinlərin və etnik qrupların birgəyaşayışı sahəsində böyük tarixi təcrübəsi olan, günbəgün güclənən Azərbaycan dövlətini və xalqını belə kiçik təxribatçı qrupların öz yolundan döndərməsi, əsrlərlə formalaşmış ənənələrini və dövlətçiliyini zədələməsi qeyri-mümkündür. Amma yenə də təxribatçı qüvvələrin, qanunçuluğu pozan radikal dini qrupların dövlətçiliyimizə və milli maraqlarımıza zidd fəaliyyətini zərərsizləşdirmək qarşımızda duran mühüm vəzifələrdən biri, bəlkə də, birincisidir.

Təbii ki, dövlət vətəndaşların əqidə seçiminə hörmətlə yanaşmaqla bərabər, dini ekstremizm, dözümsüzlük ideyalarının təbliğinin qarşısını qətiyyətlə alıb və bundan sonra da alacaqdır. Dindən siyasi məqsədlər üçün istifadəyə çalışan, insanları radikallığa çağıran qüvvələrin fəaliyyətini genişləndirməsinə, onların dövlətçiliyimiz üçün təhlükə mənbəyinə çevrilməsinə, xalqımızın yüzillər boyu formalaşmış dözümlülük ənənələrinə, milli-mənəvi dəyərlərinə xələl gətirməsinə və ölkədəki dini-etiqad azadlığından sui-istifadə etmələrinə imkan verməyəcəkdir. Bu baxımdan dövlətçiliyimizi və milli-mənəvi irsimizi qorumaq, eləcə də təbliğ etmək sözügedən istiqamətdə işi aparmaq dövlət qurumları ilə yanaşı, həm də dini icmaların, ictimai təşkilatların, ümumiyyətlə, hər bir vətəndaşın başlıca vəzifəsi olmalıdır.

Əlbəttə, din pərdəsi altında gizlənmiş məkirli qüvvələrin məqsədi, fəaliyyəti, iş metodları, real təhlükəsi barədə cəmiyyət mütəmadi məlumatladırılmalı, hədəf düzgün müəyyənləşdirilməli və effektli mübarizə yolları seçilməlidir. Əslində, "Azərbaycanda dini məsələ: təhdidlər və hədəflər. İdeoloji, milli və ictimai təhlükəsizlik müstəvisində" adlı kitab bu məqsədlə hazırlanıb.

Kitabın bir hissəsi, xüsusilə "Azərbaycanda ənənəvi dinlərin tarixi" və "Azərbaycanda ümumi dini mənzərə" bölmələri möv-

zu baxımından yeni deyil. Çünki bu mövzularla bağlı kifayət qədər yazılar var. Lakin ölkənin əsas dini mərkəz və icmaları, eləcə də ibadət evləri və dini təhsil ocaqları barədə indiyədək hazırlanmış və yayılmış məlumatlar bir qədər səthi xarakter daşıyıb. Ona görə də, bu bölmədəki dolğun məlumatlar oxucular, xüsusilə mütəxəssislər üçün mövcud vəziyyəti düzgün təsəvvür etmək və qiyətləndirmək baxımından faydalı ola bilər.

Aydın məsələdir ki, dinə yalnız hüquq, vicdan azadlığı, mil-li-mənəvi dəyər prizmasından baxmaq olmaz. Dinə həm də dövlətin və cəmiyyətin dini-ideoloji, milli, ictimai təhlükəsizliyi baxımından yanaşmaq lazımdır. Əks təqdirdə din sahəsindən dövlətə və cəmiyyətə qarşı ciddi təhdidlərin yaranması realdır. Bu baxımdan kitabın "Təhdidlər" bölməsi xüsusi aktuallıq kəsb edir. Bu bölmədə din sahəsində üzləşə biləcəyimiz təhdidlər geniş və konkret istiqamətlər üzrə göstərilib.

Onu da deyək ki, "din sahəsindən gələn təhdidlər" ilk dəfədir ətraflı şəkildə təqdim olunur. Bu sahədəki problemlərin müxtəlif vaxtlarda deyilməsinə və yazılmasına baxmayaraq, indiyədək bu mövzular kompleks şəkildə işlənilməyib. Kitabda dini kimliyimizin milli kimliyimizə qarşı qoyulması, dindar kontigent daxilində dünyəviliyin, tolerantlığın, ənənəvi İslamın zəiflədilməsi, məzhəbçiliyin, xarici təsirlərin, radikalliğın gücləndirilməsi, eləcə də dinin siyasiləşdirilməsi, cəmiyyətdə dini qütbləşmənin və sosial təbəqələşmənin yaradılması istiqamətlərində məkirli qrupların zərərli fəaliyyətinə geniş yer ayrılıb. Dini zəmində qadın hüquqlarının məhdudlaşdırılması, xurafat meyllərinin gücləndirilməsi cəhdlərindən, habelə, diasporamıza dini zəmində yönəlik təhdidlərdən bəhs olunub.

Sirr deyil ki, bu təhdidlərin böyük əksəriyyəti xaricdən qaynaqlanır. Kitabda bu məqama xüsusi toxunulsa da, hansısa xarici





dövlət hədəf kimi müəyyənləşdirilməyib. Sadəcə, əcnəbi ölkələrdəki bəzi dini-siyasi dairələrin, o cümlədən onlara məxsus dini təhsil müəssisələrinin Azərbaycana yönəlik fəaliyyətinin zərərli və məqsəduyğun olmayan tərəfləri göstərilib. Çünki biz bu cür məkirli planları hansısa dövlətin yox, ayrı-ayrı dini-siyasi dairələrin fəaliyyəti hesab edirik.

Din sahəsində ideoloji, milli və ictimai təhlükəsizlik baxımından təhdidlərin qruplaşdırılmasının və izahının oxucular üçün maraqlı olacağını düşünürük. Lakin gələcəkdə qeyd olunan təhdidlərin daha dərindən araşdırılacağı və ortaya başqa faktların qoyulacağı da şəksizdir.

Kitabda din sahəsində qarşıda duran məqsədlərə, xüsusilə dini-ideoloji, milli və ictimai təhlükəsizlik baxımından hədəflərə xüsusi yer ayrılıb. Bu hədəflər din sahəsində dövlətin bütövlüyünə, cəmiyyətin monolitliyinə və milli məsələlərdə vətəndaş həmrəyliyinə xidmət edən strateji plan kimi xarakterizə olunub. Dini kimliyin milli kimliyə qarşı qoyulmasının, dindar kontingent daxilində dünyəviliyin və ənənəvi İslamın zəifləməsinin, dini zəmində cəmiyyətdə qütbləşmə və sosial təbəqələşmənin yaranmasının, qadın hüquqlarının məhdudlaşdırılmasının, xurafatın güclənməsinin qarşısını almaq ideoloji təhlükəsizlik, xarici təsirlərin güclənməsinin, dinin siyasiləşməsinin, din və məzhəb zəminində tolerantlığın zəifləməsinin, eləcə də radikallığın artmasının qarşısını almaq isə milli və ictimai təhlükəsizlik baxımından əsas hədəflər kimi göstərilib. Qeyd edilib ki, bunlara nail olmadan din sahəsində ideoloji, milli və ictimai təhlükəsizliyimizi tam təmin etməyimiz qeyri-mümkündür.

Eyni zamanda, müəllif kitabda din sahəsində təşkilati-inzibati idarəetmənin dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, milli kadrların hazırlanması, vahid konsepsiya əsasında koordi-

nasiyalı idarəetmə və intensiv dini maarifləndirmə məsələlərinə toxunub və qeyd olunanlarla bağlı subyektiv fikirlərini bölüşüb.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş kitabın dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində çalışan mütəxəssislərə, o cümlədən dinşünaslara, politoloqlara, hətta, din xadimlərinə faydalı olacağını güman edirik.

**Mübariz Qurbanlı,**

*Azərbaycan Respublikası*
*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri*





# I FƏSİL

# AZƏRBAYCANDA ƏNƏNƏVİ DİNLƏRİN TARİXİ

# İSLAM

**"Dinimiz xalqımızın milli-mənəvi sərvətidir".**

*Heydər Əliyev,*

*Azərbaycan xalqının Ümummilli Lideri*

Azərbaycanda tarixən müxtəlif dinlər yaranıb və yayılıb. Amma onların heç biri İslam qədər uzunömürlü olmayıb və ümumxalq dininə çevrilməyib. İslamdan öncə yayılmış xristianlıq Azərbaycanın tarixi ərazilərinin yalnız bir hissəsini, daha doğrusu, Albaniya ərazilərini əhatə edib, atəşpərəstlik isə daha çox Azərbaycanın cənubunda – Atropatenada yayılıb. Bu baxımdan İslam Azərbaycan xalqının yaşadığı tarixi əraziləri bütünlüklə əhatə edən və son 14 əsrdə aparıcı mövqeyini qoruyub saxlayan ümumxalq dinidir.

Ümumiyyətlə, yetmiş bir illik sovet dövrünü nəzərə almasaq, Azərbaycan tarixinin on dörd əsrlik bölümü İslamla bağlıdır. Hətta, sovetlər dönəmində də böyük çətinliklərə baxmayaraq,





İslam mövcudluğunu davam etdirib və dini dəyərlər insanların qiymətli sərvəti olaraq qalıb.

Meydana çıxdığı dövrdən – yeddinci əsrin ortalarından etibarən Azərbaycanda yayılmağa başlayan İslam Azərbaycanın bütün hüceyrələrinə qədər işləyib, silinməz və məhvi qeyri-mümkün olan izlər qoyub. Azərbaycan və azərbaycanlılar üçün təkcə din yox, həm də mədəniyyət demək olan İslam bizim mövcudluğumuzu şərtləndirən və təsdiqləyən fakta çevrilib. Bu nöqteyi-nəzərdən təkcə onu demək kifayətdir ki, Azərbaycanın son 14 əsrlik tarixini, elmini, mədəniyyətini, ədəbiyyatını, məişətini və mənəviyyatını İslamsız təsəvvür etmək mümkün deyil.

Bəzən İslamın Azərbaycanda yayılması ilə bağlı müxtəlif fikirlər söylənilir, hətta bu dinin xalqımıza qılınc gücü ilə - zorla qəbul etdirildiyini iddia edənlər də tapılır. Məqsədli və ya məqsədsiz şəkildə irəli sürülən bu cür iddialar ən azı Azərbaycan xalqına və İslama qarşı hörmətsizlikdir. Çünki azərbaycanlılar nə zorla öz dinini dəyişən xalq, nə də İslam bu zorakılığa haqq qazandıran dindir.

Tarixi faktlar təsdiqləyir ki, İslamın Azərbaycanda yayıldığı dövrdə xalqın narazılığını əks etdirən etirazlar və qiyamlar baş verib, amma bu etirazlar dinə yox, siyasi hakimiyyətə qarşı yönəlib. Digər tərəfdən, əgər İslam qılınc gücünə yayılsaydı, onun Azərbaycanda ömrü bu qədər uzun olmaz və ümumxalq dininə çevrilməzdi.

Hamı tərəfindən qəbul edilən həqiqət budur ki, İslamın türk xalqları arasında, o cümlədən Azərbaycanda yayılması böyük tarixi əhəmiyyətə malik hadisə olub. Dini birlik şüuru etnik və ya milli birlik şüurundan daha güclü və əhatəli olduğundan İslam yeni müsəlman sivilizasiyasının təməlində durub və türk xalqları bu dini qəbul etməklə nəinki daha əhatəli və zəngin bir

sivilizasiyaya qoşublar, həm də bu sivilizasiyanın təşəkkülündə, inkişafında, zənginləşməsində mühüm rol oynayıblar.

Əgər İslam tarixindən, mədəniyyətindən Azərbaycanla bağlı məqamları çıxarsaq, bəlkə də, o, indikindən qat-qat kasıb və natamam təsir bağışlayar. Çünki on dörd əsr boyunca bu coğrafiyada yaşamış və yaratmış insanlar İslam mədəniyyətinin çiçəklənməsi üçün əllərindən gələni əsirgəməyib və bu mədəniyyətin layiqli və görkəmli nümayəndələrinə çevriliblər. İslam mədəniyyətini azərbaycanlılarsız təsəvvür etmək mümkün olmadığı kimi, Azərbaycan mədəniyyətini də İslamsız təsəvvür etmək qeyri-mümkündür. Əgər mədəniyyətimizdən bir anlığa İslamı və onun izlərini silsək, bu zaman Azərbaycan tarixini və mədəniyyətini inkar etmiş olarıq. On dörd əsrlik zaman ərzində milli dəyərlərimiz dini dəyərlərimizlə o qədər çuğlaşıb ki, onların sərhədlərini müəyyənləşdirmək nəinki çətindir, hətta, mümkünsüzdür.

Yetmiş bir illik sovetlər dövründə bütün dinlər və ruhanilər təqib və təzyiqlərə məruz qalıb. Amma ədalət naminə etiraf edilməlidir ki, son 3 əsrdə, xüsusilə sovetlər dönəmində daha çox ədalətsizliklə, haqsızlıqla və təzyiqlərlə üzləşən İslam olub. Bütün bunlara baxmayaraq, İslam mövcudluğunu qoruyub və azərbaycanlıların aparıcı dini olaraq qalıb. Bu, həm İslamın gücünü, həm də xalqımızın bu dinə bağlılığının səviyyəsini göstərir və şübhəsiz ki, zamanın təsdiqlədiyi bu fakt bizim üçün mükəmməl meyar və qiymətli dəyərdir.

Azərbaycanda İslamla bağlı önəmli məqamlardan biri də odur ki, bu din Qafqazda ölkəmiz vasitəsilə yayılıb. Bunun məntiqi nəticəsidir ki, hazırda Azərbaycan Qafqaz regionunda yaşayan bütün müsəlmanlar üçün dini mərkəz rolunu oynayır və bu fakt istər elmi, istərsə də dini dairələr tərəfindən qəbul edilir.





**İslamın Azərbaycanda yayılması:**

Ölkəmizin İslam dini ilə tanışlığı erkən İslam fütuhatları dövrünə təsadüf edir. Bu din bütün Hicaz bölgəsinin ərəbləri arasında yayıldıqdan sonra Ərəbistan yarımadası hüdudlarından kənara çıxmağa başlayıb. Çünki Həzrət Məhəmməd (s) peyğəmbərin vəfatından sonra (632-ci il) onun xəlifələri geniş ərazilər fəth edərək İslam dininin hər yerdə yayılması üçün münasib şəraitin yaradılmasını müqəddəs vəzifə kimi üzərilərinə götürüblər. Buna görə də, ilk olaraq Sasani və Bizans imperiyaları tabeliyində olan ərazilərə əsasən Ömərin xəlifəliyi dövründə (634-644) xilafət qoşunları göndərilməyə başlanılıb. Azərbaycan o dönəmlərdə Sasani imperiyasının tərkibində olub.

Ümumiyyətlə, Ərəb Xilafəti ordusunun fütuhatlara başladığı ərəfədə Azərbaycanda siyasi vəziyyət olduqca mürəkkəb idi. Cənubi Qafqazı ələ keçirmək uğrunda iki böyük imperiya - Bizans və Sasani imperiyaları arasında miladi tarixin III əsrindən başlanan müharibələr fasilələrlə VII əsrin 30-cu illərinin sonunadək davam etmişdi. Son mərhələdə Bizans imperiyası Xəzər tayfaları ilə ittifaq bağlayaraq Sasani hökmdarı II Xosrov Pərvizi 628-ci ildə hakimiyyətdən salaraq edam etdirmişdi. Beləliklə, 603-cü ildə Sasanilər imperiyası tərəfindən başlanılan müharibə bizanslıların qələbəsi ilə başa çatmışdı. 629-cu ildə bağlanan sülh müqaviləsinin şərtinə görə, Ön Asiya əraziləri əsasən Bizans imperiyasının hakimiyyəti altına keçmiş, İberiya müstəqil dövlətə çevrilmişdi. Cənubi Qafqazın ərazicə 90 faizini təşkil edən Albaniya isə Sasanilərin hakimiyyəti altında qalsa da, hər il xəzərlərə müəyyən miqdarda xərac vermək məcburiyyətində idi. Azərbaycanın cənub əraziləri Sasanilərdən tam, şimal hissəsi isə yarımasılı vəziyyətə düşmüşdü.

Belə bir şəraitdə 633-cü ilin əvvəllərində ilk raşidi xəlifəsi Əbu Bəkr (632-634) Ərəbistan yarımadası daxilində yürüşləri tam başa çatdırıb, sərkərdə Xalid ibn əl-Vəlidin və İyad ibn Ğənmin

başçılığı altında qoşun dəstələrini Sasanilərin tabeliyində olan İraqa və Bizansın tərkibindəki Şama göndərdi. Xilafət qoşunu Yərmuq döyüşündə (634-636-cı illər) bizanslıları məğlub edərək, Suriyanı ələ keçirdi. Məhz bu qələbə ərəblərin Sasani imperiyası ərazilərinə yolunu açdı. Ərəbistan yarımadası hüdudları xaricində ilk zəfərlə nəticələnən bu yürüş bir çox xalqların, o cümlədən azərbaycanlıların həyatında bir müddət sonra baş verəcək əsaslı dəyişikliklərin təməlini qoydu.

Ərəblərin hücumlarını dəf etmək üçün İran hökmdarı III Yezdəgird ona tabe olan ölkələrdən köməkçi qoşun dəstələri tələb etməyə başladı. Belə bir əmr alan Albaniya hökmdarı Varaz Qriqor da dörd oğlundan birini - Cavanşiri döyüşə göndərdi. Beləliklə, alban qoşunlarının baş sərkərdəsi Cavanşir öz qoşunu ilə birlikdə 634-cü ildən başlayaraq Sasani ordusu tərkibində ərəblərə qarşı vuruşdu, döyüşlərdə qəhrəmanlıqlar göstərdi.

Bəzi ərəb müəllifləri elə bu illərdə xilafət ordusunun Azərbaycanın cənub ərazilərinə daxil olub, onu fəth etdiklərini qeyd edirlər. IX əsr ərəb tarixçisi əl-Bəlazuri Azərbaycanın Hüzeyfə ibn əl-Yəmənin başçılığı ilə hicri tarixinin 18-ci (639-cu ildə) ilində işğal olunması barədə məlumat verib. Digər mənbələr isə ərəblərin Xəzərsahili vilayətlərə, o cümlədən Azərbaycana hücumunun yalnız 642-ci ildə Nihavənd və Həmədanın fəthindən sonra mümkün olduğunu bildirirlər. Yəni, ancaq bu qələbələrdən sonra işğal olunan ərazilərdə möhkəmlənən ərəblər Şimala doğru istiqamət götürüblər.

Xilafət qoşunları Azərbaycana daxil olan zaman çox güclü müqavimətlə rastlaşıblar. 643-cü ildə Ərdəbil şəhərindən bir qədər aralı Cərmidan dağı yaxınlığında bir neçə gün davam edən qanlı döyüş Azərbaycan qoşunlarının məğlubiyyəti ilə başa çatıb. Nəticədə, 644-cü ildə əhali adından ərəblərlə müqavilə imzalanıb. Müqavilənin şərtlərinə görə, yerli əhali ərəblərə tabe olmalı, can vergisi – cizyə verməli idi. Qadınlar və uşaqlar, həmçinin, yaşamaq üçün vəsaiti olmayan xəstələr, dünya malından heç nəyi olmayan zahidlər bu vergidən azad olunurdular. Ərəb əsgərlərini bir gecə-gündüz evdə saxlamaq da müqaviləyə daxil olan şərtlərdən idi. Bunun müqabilində Xilafət qoşunu Azərbaycanın bütün əhalisinin əmlakına, dini etiqadlarına toxunmamağı, adət və məişətlərinə qarışmamağı öhdəsinə götürmüşdü. Ölkəni tərk etmək istəyənlərə özlərinə sığınacaq tapana kimi imkan verilirdi.





Cərmidan yaxınlığındakı qələbə ərəblərin Şimala – Albaniyaya, Cənubi Qafqaza olan yolunu açdı. Beləliklə, ilk ərəb fütuhatlarından sonra Azərbaycanın cənub hissəsi – Adurbadaqan müstəqilliyini tamamilə itirərək bilavasitə xəlifə canişinlərinin hakimiyyətinə tabe oldu, Şimal hissəsi – Albaniya isə siyasi müstəqilliyini saxlamağa cəhd göstərsə də, Xilafətin vassalı kimi vergi ödəmək şərtilə ondan asılı vəziyyətə salındı. Belə ki, Alban hökmdarı Cavanşir 667-ci ildə Xilafətin paytaxtı Dəməşqə səfər etdi və üç illik danışıqlardan sonra 670-ci ildə Xilafətin vassallığına razılıq verdi. Lakin Albaniyada siyasi vəziyyət heç də sabit deyildi. Cavanşir öz hakimiyyətini möhkəmləndirmək üçün iri feodal əyanlara qarşı uzun müddət idi ki, mübarizə aparırdı. Və bu mübarizə 681-ci ildə ona qarşı sui-qəsdlə nəticələndi.

Xilafət Albaniyadakı daxili çəkişmələrdən məharətlə istifadə edərək onun vassallıq hüququnu da əlindən almışdı. Ölkəni əslində xəlifənin göndərdiyi canişinlər idarə edirdi.

Sonrakı dövrlərdə Azərbaycan uğrunda Ərəb-Xəzər müharibələri (707-730-cu illər) geniş vüsət aldı.

Belə bir tarixi hadisələr fonunda Azərbaycan əhalisinin xilafətin ideoloji məhvəri olan yeni dinlə – İslam dininin əsasları ilə geniş tanışlığı baş verdi. Fəthlərin ilkin dövründə yerli əhali ilə

ərəblər arasında münasibətlər əsasən yürüşlər prosesində bağlanılmış müqavilələrlə tənzimlənsə də, mürəkkəb idi. Ərəbistanda və başqa fəth edilən yerlərdə olduğu kimi, Azərbaycanda da yalnız bütpərəstlər təqib edilirdi. Digər əhaliyə isə əvvəlki etiqad və adətlərinə əməl etməyə icazə verilirdi. "Əhli kitab"a mənsub olanlar, yəni, müqəddəs dini kitabları olan yəhudilər və xristianlar, o cümlədən ilk vaxtlar, atəşpərəstlər əvvəlki etiqadlarında qalır, əvəzində can vergisi – cizyə ödəyirdilər. Cizyə verənlər isə bir qayda olaraq müsəlmanların himayəsi altına keçərək, canlarının və mallarının təhlükəsizliyini təmin edirdilər.

Müsəlmanlar hələ Həzrət Məhəmməd peyğəmbərin dövründən kitab əhlini (xüsusilə yəhudi və xristianları) müşrik hesab etdikləri bütpərəstlərdən fərqləndirirdilər. Azərbaycanda (cənubunda) isə o dövrdə əsas din atəşpərəstlik idi. Bu din şahənşah I Şapurun dövründən Sasani imperiyasının rəsmi dövlət dini elan edilmişdi. Atəşpərəstlərin baş məbədi Qazaka şəhəri yaxınlığında yerləşirdi. Təbii ki, atəşpərəstlər "əhli kitab" hesab edilmirdilər. Lakin ilk müqavilələrin şərtlərinə görə, onlara da aman verilir və müəyyən güzəştlər olunurdu. Albaniyada isə xristianlıqla yanaşı, bütpərəstlik də mövcud idi.

Əksəriyyəti köçəri olan ərəblər fəth olunmuş yerlərdə xalqı yeni dinə məcburi sövq etmirdilər. Hətta, xəlifə Əbu Bəkr ordu sərkərdələrinə düşməni şikəst etməməyi, qocaları, qadınları, uşaqları öldürməməyi, yemək üçün lazım olandan artıq heyvan kəsməməyi və ilkin mərhələdə yerli əhalinin əməl etdikləri qayda-qanunlarla yaşamalarına şərait yaratmağı tapşırmışdı. Bu da öz növbəsində fəth olunan yerlərdə müsəlmanlara müəyyən mənada rəğbət hissi oyadırdı. Ümumiyyətlə, ərəblərin fəthinədək Azərbaycan əhalisi Bizans-İran müharibələrindən, habelə, şimal tayfalarının, xüsusilə xəzərlərin hücumlarından çox zərər çəkdiklərindən İslam dini zəminində onlara səadət və əmin-amanlıq





vəd edən ərəblərə - müsəlmanlara inam və ümid bəsləyirdilər. Çünki onlar vergi və töycüləri aldıqdan sonra yerli əhalinin dini etiqadlarına, adət-ənənələrinə toxunmur, əmin-amanlığı qoruyurdular. İlk dövrdə alınan vergilər isə Sasanilər vaxtının vergilərindən xeyli az idi. Bunun özü də rəğbət hissi oyadırdı.

İslamın verdiyi maddi və mənəvi üstünlüklər, müsəlman icmasının atəşpərəst Sasani cəmiyyətində olduğu kimi zümrələrə bölünməməsi yeni dinin yerli əhali tərəfindən qəbul edilməsinə təsir göstərib. Deyilənə görə, bu işdə İslamı hələ Həzrət Peyğəmbər dövründə qəbul etmiş, əvvəllər atəşpərəst olmuş iranlıların çağırışları da rol oynayıb. Bəzi ərəb tarixçiləri xəlifə Ömərin dövründə işğal olunmuş Sasani vilayətlərinin dehqanlarının İslamı könüllü şəkildə qəbul etdiklərini bildiriblər. Yeni dini qəbul edənlərin can vergisindən azad edilmələri də yerli əhalinin İslamı qəbul etmə prosesini sürətləndirən amillərdən olub.

107352

Ərəblərin bütpərəstlərə qarşı (bütpərəst albanlar, bütpərəst türklər də daxil olmaqla) tutduqları barışmaz mövqe isə bəzən zor tətbiq edilməsi ilə nəticələnirdi ki, bu daha çox İslamın bütpərəstliyə olan münasibətindən qaynaqlanırdı. Məhz bu məqamdan çıxış edərək bəzi müəlliflər İslamın zor gücü ilə yayıldığını irəli sürürlər. Lakin bu fikirlə tam razılaşmaq olmur. Çünki tarixi mənbələrdə yeni dinin qəbul edilməsi prosesinin sürətli olmadığı və tədrici xarakter daşıdığı bildirilir, yəni, bu prosesin VII əsrin ortalarından başlayıb X əsrin ikinci yarısınadək davam etdiyi göstərilir. Belə olan təqdirdə İslamın məcburi şəkildə qəbul etdirilməsindən söhbət gedə bilməz.

Ümumiyyətlə, ərəblər çox yerdə silah gücünə siyasi üstünlük qazansalar da, İslamı, yəni dini sülh yolu ilə yaymağın tərəfdarı idilər. Ona görə də, ilk vaxtlar ərəblərin aktiv din təbliğatı həyata keçirmələrinə baxmayaraq, əhali əvvəlki etiqadlarda qalıb, din-



Azərbaycan ... Kitabxanası

lərindən tez və birdəfəlik üz döndərməyiblər. X əsrin ortalarına kimi Şimali və Cənubi Azərbaycanın xristian əhalisi ilə yanaşı, ölkənin aran və dağ yerlərinin atəşpərəst və bütpərəst əhalisi də islamaqədərki etiqadlarında qalıblar. Hətta, XII əsrin 30-40-cı illərində Azərbaycanın bir sıra şəhər və kəndlərini gəzmiş əndəlüslü Əbu Həmid əl-Qərnati Dərbənd yaxınlığındakı dağ kəndlərində "İslamı qəbul etməmiş, hətta, cizyə də verməyən", dəfn mərasimlərinə görə atəşpərəst olduqları görünən adamlara rast gəlib.

İslam dininin yayıldığı erkən dövrdə onu ilk növbədə ərəblərin simasında özlərinə arxa tapmaq istəyən yerli əyanlar qəbul edirdilər. İslamı qəbul etməklə onlar öz mülklərini və torpaqlarını da qorumuş olurdular. Əhalinin varlı təbəqəsinin yaranmış yeni sosial-iqtisadi və siyasi şəraitə daha tez alışıb İslamı qəbul etmələri onun yayılmasına güclü təkan verib. Buna görə də şəhərlilər kəndlilərə nisbətən yeni dinə daha həvəsli idilər. Lakin kəndlilərə İslamı qəbul etdikdə üstünlüklər tanınırdı. Hətta xəlifə Ömərin fərmanına görə, İslamı qəbul etmiş kəndlilərə xəzinədən mükafatlar da verilirdi.

İslam dininin Azərbaycanın Şimal hissəsində mənimsənilməsinin birinci mərhələsində onu yayan əsas qüvvə ərəblər özləri idi. O dönəmdə müsəlman ruhaniləri rolunu qoşunla gəlmiş din mübəlliğləri (təbliğatçıları) oynayırdılar. Onlar İslamın teoloji ehkamları ilə yanaşı, dinin əməli ayinlərini – kəlmeyi-şəhadət, namaz, oruc, zəkat və həcc ziyarətini yerli əhali arasında yayırdılar. Əslində, İslamın nəzəri-teoloji prinsiplərini ərəb qoşunlarına daxil olan əsgərlərin heç də hamısı yüksək səviyyədə bilmirdi. Çünki onların bir çoxu İslam dinini yenicə qəbul edib, ordu sıralarına yazılmışdılar. Hətta, bəzi hədis mənbələrində Həzrət Osmanın xəlifəliyi dönəmində Azərbaycanın fəthinə yollanmış Hüzeyfə ibn əl-Yəmənin qoşununda dini biliklərin yetərsizliyi səbəbindən Quranı fərqli şəkildə oxumaq üzərində əsgərlər arasında ixtilaf yarandığı da qeyd edilmişdir. Lakin buna baxmayaraq, qoşunun tərkibində dini yaxşı bilən, onun təbliği ilə vəzifələndirilənlər az deyildi. İslamın mədəni gücünün artdığı IX əsrin sonu – X əsrin əvvəllərində isə dini qəbul etmiş yerli əhali özü onu yaymağa başladı.





Həzrət Əlinin hakimiyyəti dövründə (656-661) işğal olunmuş Azərbaycan torpaqlarında yerləşdirilmiş ərəblər yerli əhalini İslama daha intensiv dəvət edirdilər. Məhz həmin dövrdə Cənubi Azərbaycanın baş şəhəri olan Ərdəbildə o zaman Azərbaycanın hakimi təyin edilmiş əl-Əşas ibn Qeys məscid tikdirmişdi.

İlk vaxtlar belə məscidlər ancaq ərəb qəbilələrinin yerləşdirildikləri şəhərlərdə fəaliyyət göstərirdisə, sonralar Azərbaycanın hər yaşayış məntəqəsində kiçik və böyük məscidlər tikildi. İslamın yayılmasında dini ayinlərin əyani surətdə təbliğ və icra edildiyi məscidlərin əhəmiyyətli rol oynadığı şübhəsizdir. Çünki ibadət yerinin bütün dinlərdə olduğu kimi, İslam dinində də təsiredici qüvvəsi var. Ərəb fəthləri dövründə də din təbliğçiləri bu məsələyə önəm verərək, əvvəlcə ibadət üçün xüsusi yer ayırar, sonra isə məscid binası inşa edilməsi qayğısına qalardılar. İbadətdə iştirak edənlərin sayından asılı olaraq namaz məscid binasının içində, dini bayram və cümə günlərində isə hətta, onun ətrafındakı ərazidə qılınardı. Daha sonra isə cümə namazlarının elliklə icra edildiyi və "Came" adı verilən böyük məscidlər inşa olundu. Artıq X əsrdə Azərbaycanın, demək olar ki, bütün şəhərlərində Came məscidləri vardı.

Məscidlər təkcə ibadət yerləri sayılmırdı. Onlardan, həmçinin, əhali arasında mədəni-maarif işinin aparılması, siyasi, ictimai-iqtisadi məsələlərin həllində ümumi toplanış yeri kimi də istifadə olunurdu. Fərmanlar, vəqfnamələr, fətvalar və s. sənədlər əhaliyə məhz məscid minbərlərindən çatdırılırdı. Məscidlər

ilk vaxtlar, həmçinin, ideoloji mərkəz, siyasi hakimiyyət aparatı, hərbi qərargah funksiyasını da daşıyırdı. Çünki xilafətin hər yerində olduğu kimi, işğal qoşunlarında da sərkərdə həm mülki rəis, həm də regionun ən rütbəli ruhanisi hesab olunurdu.

Tədris işi də məscidlərdə cəmləşmişdi. Məscid nəzdində ayrıca tədris binalarının tikilməsi, dini məktəb və mədrəsələrin yaradılması VIII əsrin sonu, IX əsrin əvvəllərinə təsadüf edir. Lakin Abbasilər Xilafəti dövründən başlayaraq (751-ci ildən) məscidlər yalnız ibadətgah və dini ayinlərin icra edildiyi məkanlara çevrildi.

Azərbaycanın fəthindən sonra ərəblərin himayəsi altında olan, öz dini etiqadlarını saxlayan, "zimmi" adlandırılan yerli əhali var-dövlətindən asılı olaraq can vergisi (cizyə) verməyə davam etmişdir. Bu verginin alınması Qurani-Kərimə əsaslanır: "Kitab əhlindən Allaha və qiyamət gününə iman gətirməyən, Allahın və Peyğəmbərinin haram buyurduqlarını haram bilməyən və haqq dini (İslamı) qəbul etməyənlərlə zəlil vəziyyətə düşüb öz əlləri ilə cizyə verincəyə qədər vuruşun" (ət-Tövbə, 29). Lakin Əməvilər sülaləsinin hakimiyyəti dövründə öz şəxsi mənfəətlərini güdən xəlifə canişinləri Qurani-Kərimin bu buyruğunu pozaraq, artıq yeni müsəlmanlardan – məvalilərdən də can vergisi almağa başlayıb. Təbii ki, bu xalq kütlələrinin narazılığına səbəb olub. Bunun nəticəsində xəlifə II Ömər (717-720) canişinlərə yeni müsəlmanlardan cizyə toplamağa qadağa qoysa da, onun ölümündən sonra can vergisinin alınması yenidən bərpa edilib və narazılıqlar yenidən baş qaldırıb.

VIII əsrin əvvəllərində İslam dini Azərbaycanda geniş yayıldığı və hakim din olduğu şəraitdə Albaniyanın bir hissəsində, xüsusilə Qarabağın dağlıq hissəsində xristianlıq əvvəlki mövqeyini saxlaya bilmişdi. Kitab əhli olduqlarına görə, ərəblər burada xristianlığa toxunmadılar. Xristianlığın ilk vaxtlarından burada Alban kilsəsinin hakim olmasına baxmayaraq, onunla erməni qriqorian kilsəsi arasında əsrlər boyu davam edən mübarizə gedirdi.





Bu dövrdə bütpərəstlik və zərdüştiliyin əhəmiyyətini itirməsinə baxmayaraq, "əhli kitab"dan sayılan yəhudilik də mövcudluğunu qoruyub saxlaya bilmişdi. İslama mənsubluq şüuru güclənsə də, etnik köklərlə bağlılıq tamamilə itib getməmişdi. Bunu Abbasilərin hakimiyyətinin ilk dövrlərindən başlanan şüubilik və Babəkin başçılığı ilə aparılan xürrəmilər hərəkatlarında (816-838) daha aydın görmək mümkündür.

Beləliklə, Azərbaycana yayılmağa başladığı ilk vaxtdan etibarən İslam dini sinfi, milli, dini, cinsi və ailə münasibətlərini özünəməxsus şəkildə müəyyən edib, dövlətlərarası münasibətlərdə din amilinin rolunu ön plana çəkən nizam formalaşdırdı. O, ölkə daxilində vətəndaşların həyatının bütün sahələrinə nüfuz edərək onları yenidən nəzərdən keçirib sahmanlayıb və yeni dini hüquq normaları yaratmağı bacardı.

# XRİSTİANLIQ

Dünyada elə bir cəmiyyət, xalq ola bilməz ki, hansısa din onun həyatında ciddi izlər qoymasın, mədəniyyətinin, dünyagörüşünün formalaşmasına təsir göstərməsin. Təbii ki, Azərbaycan xalqı da bu məsələdə istisna təşkil etmir, amma azərbaycanlıların başqa xalqlardan fərqi ondadır ki, onların mədəniyyətinin, dünyagörüşünün, hətta bədii təfəkkürünün formalaşmasında bir yox, bir neçə dinin böyük rolu olub. Bu baxımdan Azərbaycan xalqının tarixində və həyatında önəmli rol oynamış dinlərdən biri Xristianlıqdır.

Xalqımız Azərbaycanda tarixən aparıcı dinlərdən biri olmuş Xristianlığa və onunla bağlı keçmişinə üzüağ, şərəfli tarixinin tərkib hissəsi kimi baxır. Maraqlı məqamlardan biri də odur ki, Azərbaycanda aparıcı din hesab edilən İslamdan fərqli olaraq Xristianlığın, demək olar ki, bütün cərəyanları ölkəmizdə bu və ya digər şəkildə təmsil olunub. Azərbaycanın bu xüsusiyyətinə görə İslam ölkələri arasında analoqu yoxdur və ölkəmiz bu sahədə yalnız bəzi xristian dövlətlərilə müqayisə edilir. Ümumiyyətlə, ölkəmizdə Xristianlığın təxminən 2 min yaşı var ki, bu fakta görə Azərbaycan Xristianlığın meydana çıxdığı bölgə ilə müqayisə edilə bilər.





## ALBAN KİLSƏSİ

Azərbaycanda Xristianlıqdan danışarkən Qafqaz Alban kilsəsinə və onun tarixinə toxunmamaq qeyri-mümkündür. Çünki Azərbaycanda Xristianlığın tarixi, demək olar ki, Alban kilsəsindən başlayır və bütövlükdə bu dinin tarixində həmin kilsənin xüsusi yeri var.

Qədim müəlliflər və qaynaqlar sübut edir ki, Alban kilsəsi nəinki Qafqazda, hətta bütün xristian dünyasında ən qədim kilsələrdən biridir və apostol mənşəlidir. Alban kilsəsinin qədimliyini təkcə tarixi faktlar yox, həm də mövcudluğunu dövrümüzə qədər qoruyub saxlamış qədim alban məbədləri təsdiqləyir.

Qafqaz Albaniyasının ərazisi ilk xristian icmalarının meydana gəldiyi məkanlardan hesab edilir. Xristianlıq hələ dövlət dini statusu qazanmamışdan qabaq – I əsrin əvvəllərində Alban torpaqlarına xristian təbliğçiləri, həvarilər (Ərəblər tərəfindən İsa peyğəmbərin ardıcıllarına verilən ad), onların Qüdsdən və Suriyadan olan şagirdləri gələrək İsa peyğəmbərin göstərdiyi möcüzələrdən danışıblar. Beləliklə, bölgədə İsa Məsihə etiqad edən ilk xristian icmaları yaranıb.

Mənbələrə görə, Albaniyada ilk dəfə Xristianlığı yayan, Qüdsün xristian mərkəzinə bağlı olan həvari Faddeydir. O, bu dinin təbliği ilə əlaqədar I əsrdə Azərbaycanın Artaz vilayətinə (indiki Maku şəhəri, Cənubi Azərbaycan) gəlib və burada qətlə yetirilib.

Daha sonra isə həvari Faddeyin şagirdi Yelisey Qüdsdə ilk patriarx Yakovdan xeyir-dua alıb və təbliğat aparmaq üçün Albaniyanı seçib. O, Cənubi Azərbaycan ərazisindən keçərək Beşbarmaq-Dərbənd arasındakı torpaqlarda yaşayan massagetlərin

yanına gəlib və Çola (hazırda Çullu) adlanan ərazidə Xristianlığın təbliğinə başlayıb. Yelisey Uti vilayətinə, sonra isə Kür çayının sol sahilində Qəbələ yaxınlığında yerləşən Qis (indiki Kiş) kəndinə gəlib və burada kilsə tikdirib. Geri qayıdarkən atəşpərəstlərin ibadətgahı yerləşən Zerguni dərəsində qətlə yetirildiyi qeyd olunur. Sonralar Alban hökmdarı Vaçaqanın göstərişi ilə Yeliseyin nəşinin qalıqları Xruq kəndində torpağa tapşırılıb, çalanın üzərində isə kiçik bir məbəd tikilib.

Azərbaycanda Xristianlığın yayılmasında İsa Məsihin səhabələrindən Varfolomeyin xüsusi rolu olub. Dini rəvayətlərə görə, o, 71-ci ildə yaralanıb və Bakıda vəfat edib. Şəhərin mərkəzində, Qız qalasının yanında adıçəkilən səhabənin qanı tökülüb və bu yer 2 min il ərzində xristianlar tərəfindən müqəddəs hesab olunub.

VIII əsrdə yaşamış alban tarixçisi Musa Kalankatuklu özünün "Ağvan ölkəsinin tarixi" əsərində qeyd edir ki, paytaxtı əvvəlcə Qəbələ, sonralar isə Partav (indiki Bərdə) şəhəri olan Qafqaz Albaniyası Xristianlığın yayıldığı ilk ölkələrdən biri olub. Burada eramızın II yüzilliyindən başlayaraq ilk xristian icmaları yaranıb, IV yüzilliyin I rübündə (313-cü ildə) isə Arşakilər sülaləsindən olan alban çarı Urnayr Xristianlığı dövlət dini elan edib. Müəllifin qeyd etdiyinə görə, Cənubi Qafqazda ilk xristian apostol kilsəsi Qafqaz Albaniyasında təsis olunub. Tədqiqatçı alimlər də bu fikri təsdiqləyərək bütün xristian dünyasında apostol mənşəli ilk kilsələrdən birinin məhz Azərbaycanda formalaşmış Alban kilsəsi olduğunu hesab edirlər.

Həmin dövrdə Xristianlıq dövlət dini səviyyəsinə qalxsa da, ölkədə geniş xalq kütlələrinin dininə çevrilə bilməyib, hakim təbəqələrin dini olaraq qalıb. Çünki o dövrdə adi xalq arasında bütpərəstlik, zərdüştilik, tanrıçılıq (Tenqri) inancı və s. dini





etiqadlar öz təsir qüvvəsini saxlamaqda idilər.

IV əsrin sonu, V əsrin əvvəllərindən isə Xristianlıq nisbətən geniş yayılmağa, ruhanilik və kilsə iyerarxiyası təşəkkül tapmağa başlayıb. Artıq Alban ruhaniləri özləri müstəqil kilsə rəhbərliyi təyin edərək, kilsəyə avtokefallıq (Pravoslav kilsələrinin inzibati müstəqilliyi, özünüidarəetmə hüququ) statusu qazandırıblar. Alban kilsəsinin avtokefallığı iki səbəbə görə baş verib. Birinci səbəb kilsənin apostol mənşəli olması, digər səbəb isə Albaniyanın siyasi statusu, yəni Şərqi Roma imperiyasından tamamilə müstəqil olması ilə bağlı idi. Əslində isə Alban kilsəsinin hüquqi mövqeyi 451-ci ildə keçirilən IV Xalkidon kilsə toplantısında təyin edilib. Həmin toplantıda monofizitliyə üstünlük verən Alban kilsəsinin rəhbərliyi katolikos-arxiyepiskop, patriarx titulu ilə adlandırılıb.

VI-VII əsrlərdə Albaniyada Mehranilər sülaləsinin hakimiyyəti dövründə (628-705) Alban kilsəsinin iqtisadi-siyasi mövqeyi daha da güclənib. Kilsənin və katolikosun səlahiyyətləri artırılıb. Lakin vəziyyət ərəb işğalları və Cənubi Qafqazda İslam dininin yayılması ilə əlaqədar dəyişməyə başlayıb və VII əsrin ikinci yarısından etibarən Xristianlıq tədricən mövqeyini itirib.

705-ci ildə Alban dövləti süquta uğrayıb və ölkədə hakimiyyət ərəb canişinlərinin nəzarəti altına keçib. Albanlar isə etnik dəyişikliyə, mədəni-ideoloji və etnolinqvistik assimilyasiyaya məruz qalıblar. İslamı qəbul edənlər türkdilli tayfalarla qaynayıb qarışıblar. Lakin buna baxmayaraq, VIII-XIII əsrlərdə lokal fəaliyyət göstərən xristian məbədləri ölkədə bu dini qoruyub saxlamağa çalışan əsas dini təşkilatlara çevrilmişdilər. Buna misal kimi Kiçik Qafqazın ucqar yerlərində və Böyük Qafqazın ətəklərində fəaliyyət göstərən Qum (Qax), Xotavəng (Kəlbəcər), Gəncəsər (Ağdərə) və başqa alban məbəd komplekslərini göstərmək olar.

Təxmini hesablamalara görə, VIII-IX əsrlərdə bu məbəd komplekslərinin sayının 30-dan çox olduğu bildirilir. Məbədlər müəyyən müddət alban xristianlığı mühitində mərkəzləşdirilmiş katolikosluq tərəfindən deyil, dindar kütləni öz ətrafında birləşdirən yarımmüstəqil icma kimi fəaliyyət göstərirdilər.

Cənubi Qafqazda feodalizm ictimai-iqtisadi münasibətlərinin bərqərar olması ilə əlaqədar indiki Azərbaycan ərazisində bir sıra feodal dövlətləri – knyazlıqlar və məlikliklər yaranıb. Bunlardan biri X-XVI əsrlərdə mövcud olmuş və əsasən indiki Dağlıq Qarabağ ərazisini əhatə edən Xaçın məlikliyi idi. Burada İslam dinli digər feodal dövlətlərindən fərqli olaraq, alban xristian dini hakim olub. Tədqiqatçılar hesab edirlər ki, qədim Albaniyanın bir hissəsi olan kiçik Xaçın məlikliyi Xaçınçay və Tərtər çaylarının vadisində yerləşib. Məlikliyə rəhbərlik kökü Sasani hökmdarlarına bağlanan qədim alban nəslinin əlində idi. Bunların ən görkəmlisi Həsən Cəlal olub (onu həm də Cəlaldövlə adlandırırdılar). XIII əsrdən (1216-cı ildən) 1836-cı ilə kimi Alban apostol kilsəsinin patriarxları məhz Həsən Cəlalın nəslindən olublar.

Tarixi dövr ərzində albanlara erməni-qriqoryan və gürcü-pravoslav kilsələri də güclü təsir göstərib. Məsələn, X əsr ərəfəsində alban xristianlarının monofizit məzhəbinə etiqad edən kilsələrində qədim erməni dilində (qrapar), diofizit məzhəbli kilsələrdə isə gürcü dilində ibadət etməyə başlayıblar. Bu da həmin kilsələrin müəyyən təzyiqləri nəticəsində albanların assimilyasiyaya uğramalarına təsir göstərib. Amansız xarici və daxili təzyiqlərə baxmayaraq, bu ağır şəraitdə alban xristian kilsəsi yerlərdə özünəməxsus xüsusiyyətlərini və nisbi müstəqilliyini saxlaya bilib. Xristian alban əhalisi isə dinini, dilini, mədəniyyətini, ən əsası isə alban əsilliyini qorumağı bacarıb. Albanların öz təqvimi və analoqu olmayan öz xaç formaları mövcud idi.





XIII əsrdən isə Alban xristian kilsəsinin yeni dini mərkəzi Gəncəsər monastırı olub. Bu monastırı Həsən Cəlal təsis edib. O, uzun müddət alban xristian kilsəsinin yeparxiya mərkəzi, Albaniya katolikoslarının iqamətgahı olub. Onlardan bəziləri ömürlərinin sonunadək burada yaşayıb, burada da dəfn ediliblər.

Monqolların işğalları alban kilsəsinin mərkəzi sayılan Xaçın məlikliyinin həm siyasi, həm də dini həyatına güclü təsir göstərib. Bu dövrdə məliklik gah Cənubdan, gah da Orta Asiyadan gəlmiş monqolların və müsəlman dövlətlərinin asılılığında olduğundan, Alban kilsəsinin vəziyyəti daha da ağırlaşıb. Qonşu xristian kilsələri bundan istifadə edib albanlara öz dini təzyiqlərini daha da gücləndiriblər. Dini mərkəzi və katolikosu Gəncəsər monastırında yerləşən Alban xristian kilsəsi öz təsir dairəsini və qüvvəsini xeyli itirdiyindən 1634-cü ildən etibarən nisbi konfessional müstəqilliyini saxlamaq şərti ilə Eçmiədzin yeparxiyasının üstünlüyünü qəbul etməyə məcbur olub.

Cənubi Qafqazın Rusiya imperiyası tərəfindən işğalından sonra isə Alban kilsəsinin öz konfessional müstəqilliyini saxlamaq imkanı daha da azalıb. Hətta, çar hökuməti erməni katolikosluğuna bir sıra güzəştlərə gedərək, onun avtokefal Alban kilsəsini və patriarxlığını ləğv edib erməni kilsəsinə tabe olunması tələbini yerinə yetirib.

Nəhayət, 1836-cı ildə "Rusiya müqəddəs Sinodu"nun xüsusi fərmanı və imperator I Nikolayın reskripti (imperatora təqdim edilmiş məsələyə onun verdiyi qanun qüvvəsində olan cavabı) ilə ayrıca nizamnaməsi, məxsusi ayinləri olan Alban xristian kilsəsi ləğv edilib, onun arxiv sənədləri də daxil olmaqla bütün əmlakı erməni-qriqoryan kilsəsinə verilib.

Qeyd edilməlidir ki, Alban kilsəsinin monofizit məzhəbinə aid olan qolu erməni-qriqoryan katolikosluğunun sərəncamına veril-

sə də, diafizitizmə meyl edən bir sıra alban kilsələri isə gürcü-pravoslav dini mərkəzinə tabe edilib. 1857-ci ildə isə, ümumiyyətlə Alban kilsəsi, Alban yeparxiyası anlayışları ləğv olunub.

1909-1910-cu illərdə Rusiyanın Ali dini Sinodu Eçmiədzin erməni-qriqoryan dini Sinoduna və İrəvan erməni-qriqoryan konsistoriyasına tabeçiliyindəki yeparxiyaların köhnə arxiv işlərini məhv etməsinə icazə verib. Beləliklə, erməni kilsəsinin köhnə arxivləri ilə birlikdə Alban xristian kilsəsinin də bütün arxiv sənədləri şüurlu şəkildə məhv edilib. Bütün bunlar gələcəkdə Şimali Azərbaycan torpaqlarına yiyələnmək üçün çox uzaqgörənliklə düşünülmüş bir cinayət idi.

Tarixi dövr ərzində alban əhalisi də tədricən dini-etnik assimilyasiyaya məruz qalıb. Ölkənin düzən ərazilərində məskunlaşan əhali İslam dinini qəbul edərək müsəlmanlaşıb, Kiçik Qafqazın cənub-qərbində yaşayan alban əhalisi isə monofizit erməni-qriqoryan dininin təzyiqi altında erməniləşib, Kiçik Qafqazın şimal-şərq regionunun əhalisi isə diofizit gürcü-pravoslav kilsəsinin fəal təsiri altında gürcüləşib. Buna baxmayaraq, albanların heç də hamısı assimilyasiyaya uğramayıb. Qarabağ və Zəngəzurda yaşayan albanların bir hissəsi Kür çayının sol sahilinə yerləşiblər ki, bura da udinlərin qədim yaşayış əraziləri hesab olunur. Albanların nəslindən olan udinlər Azərbaycanın Oğuz və Qəbələ rayonlarında, Gürcüstanın bəzi kəndlərində indi də yaşayırlar.

1836-cı ildən sonra Eçmiədzin kilsəsinin təzyiqlərinə baxmayaraq, udinlər erməni kilsələrinə getməkdən imtina edib və ibadəti öz evlərində yerinə yetiriblər. Bu dövr ərzində onlar müxtəlif ibtidai dinlərin elementlərini xristianlıqla çuğlaşdıraraq özünəməxsus inanc formalaşdırıblar. Onlar öz dillərini, mədəniyyətlərini və etnik xüsusiyyətlərini qoruyub saxlayıblar.





Xristianlıqla bağlı araşdırmalar aparan tədqiqatçıların ümumi qənaətinə görə, Azərbaycanda bu dini yayan ilk xristianların tikdirdikləri və "Şərq kilsələrinin anası" saydıqları Kiş kilsəsi Qafqazda ilk xristian məbədidir ki, günümüzə qədər qorunub saxlanılıb. Əslində, dövrümüzə qədər gəlib çatmış və böyük əksəriyyəti Qarabağ, Qəbələ-Şəki-Zaqatala bölgəsində yerləşən alban abidələri xristian Azərbaycan türklərinin xristian mədəniyyətinə, ümumilikdə, bəşəriyyətin mədəni dəyərlər xəzinəsinə ən böyük töhfəsidir.

Qeyd edək ki, Azərbaycana qarşı işğalçılıq siyasəti aparan təcavüzkar Ermənistan zəbt etdiyi ərazilərdə xalqımızın min illər ərzində qurub yaratdığı tarixi-mədəni abidələri yerlə-yeksan edib, Azərbaycan xalqının tarixində böyük bir mərhələni təşkil edən alban abidələrini saxtalaşdıraraq qriqoryanlaşdırıb. Erməni tarixçiləri heç bir dəlilə əsaslanmadan hər yerdə Azərbaycan-alban toponimlərini dəyişərək saxta tarix yaratmaqda davam edirlər. Təcavüzkar Ermənistan işğal etdiyi ərazilərdə geniş qazıntı işləri apararaq bu torpaqlarda erməni izi axtarır, saxtalaşdırdığı alban məbədlərini dünyada erməni abidələri kimi qələmə verir. Halbuki, həm tikilişinə, həm memarlıq xüsusiyyətlərinə, həm də dini atributlarının formasına görə alban abidələri erməni kilsələrindən fərqlənir və alban ənənələri erməni kilsəsi ilə müqayisədə alban kilsəsinin daha qədim olduğunu təsdiqləyir.

Qarabağdakı alban abidələrinin ermənilərə heç bir aidiyyətinin olmadığını başqa yollarla da sübut etmək mümkündür. Məsələn, tutaq ki, Qarabağdakı xristian abidələri ermənilərə məxsusdur. Bəs, onda Şəki-Zaqatala bölgəsindəki xristian abidələrini kim tikib? Axı ermənilər bu bölgədə heç vaxt kompakt halında yaşamayıblar! Digər tərəfdən, Yuxarı Qarabağda Gəncəsər monastırı ətrafında XIII-XIV əsrlərə aid qəbir daşlarının üstündə xristian adları ilə yanaşı, türk adları da həkk olunub və bu

onu göstərir ki, hələ o dövrdə Qarabağ xristianlarının bir qismi türk etnosuna mənsubiyyətlərini itirməmişdilər.

Məlumdur ki, ermənilər Azərbaycan xalqına məxsus abidələri saxtalaşdırarkən din amilindən, xüsusilə xristianlığın simvolu sayılan xaçdan yararlanmağa çalışırlar, üzərində xaç işarəsi olan bütün tarixi abidələri erməniləşdirirlər. Halbuki, Azərbaycanda xaçın tarixi xristianlığın tarixindən daha qədimdir. Eramızdan əvvəl XIII-XII əsrlərdən xaç, svastika (çərxifələk) kimi işarələr odun, işığın simvolu rolunu oynayırdı. Həmin dövrə aid Gəncəçay, Borsunlu abidələrində bu işarələrin həkk olunduğu çoxlu sayda işarələr var. Məsələn, Borsunlu kurqanında tapılmış dərin boşqabların səthi xaç işarəsinin müxtəlif variantları ilə bəzədilib. Sarıçoban kurqanındakı qəbirlər isə xaç şəklində qazılıb. Bütün bunlar xaç işarəsinin Xristianlıq dinindən çox-çox əvvəl mövcud olmasını və onun tamamilə başqa rəmzi məna daşımasını və həmin abidələrin ermənilərə heç bir aidiyyətinin olmamasını sübut edir.

Azərbaycan tarixinin Xristianlıqla bağlı məqamları təkcə İslamdan öncəki dövrə aid deyil, əksinə, İslam Azərbaycanda aparıcı dinə çevrildikdən sonra da bu ərazilərdə xristianlar yaşayıb və ümumi mədəniyyətimizin formalaşmasında yaxından iştirak ediblər. Üstəlik müəyyən tarixi dövrlərdən başlayaraq bu dinin müxtəlif qolları - pravoslavlıq, katoliklik və protestantlıq, eləcə də lüteranlıq ölkəmizdə yayılıb və yaşamaq hüququ qazanıb.





## PRAVOSLAVLIQ

Azərbaycanda Xristianlığın institutlaşmasının tarixi Alban kilsəsindən başlayır. Bu kilsə mövcudluğunu fərqli formada olsa da, günümüzədək qoruyub saxlayıb. Amma Alban kilsəsi Azərbaycanda ən qədim kilsə olmasına baxmayaraq, hazırda mənsublarının sayına görə pravoslavlardan geridə qalır. Ümumiyyətlə, son iki yüz ildə ölkəmizdə ən çox yayılan xristian məzhəbi pravoslavlıqdır.

Hazırda Azərbaycanda həm gürcü, həm də rus pravoslav kilsəsi fəaliyyət göstərir. Gürcü-pravoslav kilsələri Gürcüstan Katalilos-Patriarxlığına, rus-pravoslav kilsələri isə Moskva və Ümumrusiya Patriarxlığına tabedirlər.

Ölkəmizdə rus-pravoslavlarla müqayisədə gürcü-pravoslavların sayı xeyli azdır. Gürcü pravoslavlar əsasən Qax rayonu ərazisində yaşayır və ümumi sayları 7 min nəfərdən çox deyildir. Bu rayonda onların ibadət etdiyi dörd kilsə fəaliyyət göstərir.

Rus-pravoslav kilsəsinə mənsub xristianlar ölkə əhalisinin təxminən iki faizdən çoxunu təşkil edir. Xristian icmaları içərisində özünəməxsus yeri olan rus-pravoslav kilsəsinin ölkəmizdə yaranma tarixçəsi çox da qədim deyildir. Bu tarix Rusiya imperiyasının işğalına məruz qalan Azərbaycana XIX əsrin əvvəllərindən başlayaraq rusların və xristian dininə etiqad edən digər xalqların, xüsusilə də slavyan xalqları nümayəndələrinin köçürülməsi dövrünə təsadüf edir.

1813-cü il Gülüstan müqaviləsindən sonra Azərbaycanın Bakı, həmçinin, digər iri şəhər, qəsəbə və kəndlərində rus hərbiçilərinin, müstəmləkə üsuli-idarəsi məmurlarının, onların ailələrinin

məskunlaşması, habelə, Rusiyanın müxtəlif əyalətlərindən olan təriqətçilərin ölkəmizə köçürülməsi rus millətindən olan əhalinin sayını süni şəkildə artırıb. Elə rus-pravoslavlığı da Azərbaycanda XIX əsrin əvvəllərindən etibarən çarizmin bölgədə tətbiq etdiyi "köçürmə siyasəti" çərçivəsində təşəkkül tapıb.

Beləliklə, o dövrdə Azərbaycanda sayı xeyli artan rus əhalinin dini tələbatını ödəmək məsələsi gündəmə gəlib və onun həlli istiqamətində tədbirlərin görülməsi aktuallaşıb. Məsələnin həlli özünü çox gözlətməyib və 1815-ci ilin əvvəlində Bakıda ilk rus-pravoslav kilsəsinin açılması barədə qərar qəbul olunub. Bu qərar Şamaxı əyalətinin (quberniyasının) rus qoşunlarının baş komandanı, general N.F.Rtişşevin müvafiq sərəncamı ilə hüquqi təsdiqini tapıb və yeni kilsənin tikintisi üçün vəsait toplanmağa başlanılıb. Lakin tikinti işləri üçün xeyli vaxt tələb olunduğundan, dindarların müvəqqəti olaraq ibadəti üçün yer lazım idi. Elə bu məqsədlə həmin vaxtlar Qız qalası yaxınlığında ərzaq dükanı kimi istifadə edilən baxımsız köhnə bir məscid binası "Müqəddəs Nikolay" adı ilə pravoslav kilsəsinə çevrilib və Tiflisdən dəvət olunan David İvanov adlı bir keşiş burada fəaliyyət göstərməyə başlayıb. Sonralar bu kilsəni 1850-1858-ci illərdə İçərişəhərdə, Qoşa Qala qapısının yanında inşa edilmiş yeni "Müqəddəs Nikolay" kilsəsi əvəz edib. Yararsız vəziyyətə düşən köhnə Nikolay kilsəsi isə bir müddət bağlı qalıb, lakin 1892-ci ildən yenidən təmir olunaraq kiçik kilsəyə çevrilib. Bundan başqa, həmin dövrdə Bakıda Bayıl donanma və hərbi dairə kilsələri də fəaliyyət göstərib.

XIX əsrin II yarısında isə ölkəmizdə neft sənayesinin sürətli inkişafı ilə əlaqədar Rusiya imperiyasının müxtəlif ərazilərindən çoxlu işçi qüvvəsinin və mütəxəssislərin gəlməsi ilə Azərbaycanda rus-pravoslav xristianlığına mənsub əhali daha da çoxalıb. Şərait və mövcud vəziyyət daha böyük sahəyə malik kilsələrin inşa edilməsi zərurətini yaradıb. Beləliklə, 1888-1898-ci illərdə Bakıda "Aleksandr Nevski" adlı yeni kilsə inşa olunub ki, bu kilsə XIX əsrdə Cənubi Qafqazda tikilmiş ən iri və möhtəşəm pravoslav kilsəsi idi. Kilsənin təməlqoyma mərasimində imperator III Aleksandr və onun ailə üzvləri iştirak ediblər (kilsə 1937-ci ildə Sovet hökumətinin qərarı ilə dağıdılıb. Hazırda Bakı şəhərində onun yerində 189 və 190 nömrəli orta məktəblər yerləşir). Ümumilikdə həmin dövrdə Bakıda 17 pravoslav kilsəsi fəaliyyət göstərib. Sovetlər zamanı üçü istisna olmaqla pravoslav kilsələrinin hamısı məhv edilib.





XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycanda pravoslavlığın ən çox yayıldığı dövrdür. 1913-cü ilin statistikasına görə, o illərdə təkcə Bakıda on minlərlə pravoslav yaşayıb. Bakı şəhərində bir sıra məhəllə kilsələri (prixodlar) və sovmələr (çasovnya) də açılıb. Bu dövrün tendensiyaları Azərbaycanın digər bölgələrində də müşahidə olunub. Məsələn, Şamaxı şəhərində Rusiya imperiya ordusunun hərbi dairə komandanlığı yaradılandan sonra, 1820-ci ildə ilk rus-pravoslav prixod kilsəsi fəaliyyətə başlayıb. 1843-cü ildə isə Şamaxı şəhər kilsəsi tikilib. Bundan başqa, Bakı quberniyasının Quba qəza mərkəzində və bu qəzanın ruslar yaşayan kəndlərində, Cavad qəzasının on kəndində, Lənkəran şəhərində, həmçinin, Göyçay qəzasının yeddi kəndində rus-pravoslav kilsələri fəaliyyət göstərib. XX əsrin əvvəllərində isə Bakı quberniyasında iki minə yaxın şagirdi olan kilsə-prixod dini məktəbləri açılıb.

Azərbaycanda olan bütün rus-pravoslav xristianlığına aid dini təsisatlar 1920-ci ilə kimi Gürcüstan ekzarxının ixtiyarında olub və onun təyin etdiyi Bakı blaqoçinliyi tərəfindən idarə olunub. 1904-ci ildə Azərbaycanda iki blaqoçinlik fəaliyyət göstərib. Birincisi Göyçay, Quba və Şamaxı qəzalarını, ikincisi isə Lənkəran və Cavad qəzalarını əhatə edib. Blaqoçinlikləri idarə edən

yepiskoplar Rus-pravoslav Gürcüstan ekzarxındakı arxiyepiskopa, yaxud mitropolitə birbaşa tabe idilər. Sonralar yepiskoplar "Bakı və Xəzəryanı" titulunu alıblar. Bu titulu daşıyan on bir yepiskop olub.

Azərbaycan Xalq Cümhuriyyəti dönəmində də vətəndaşların bütün hüquqları, o cümlədən dini azadlıqları təmin edilib. Parlamentdə bütün dinlərdən olan deputatlar bərabərhüquqlu nümayəndə səlahiyyətinə malik idilər. Dinə münasibətindən asılı olmayaraq, bütün vətəndaşlar Azərbaycan Xalq Cümhuriyyətinin bərabərhüquqlu əhalisini təmsil edirdilər. Yaradılan bu şəraitdən o dövrdə Azərbaycandakı bütün dini konfessiya mənsubları, həmçinin, Rus-Pravoslav Kilsəsinə etiqad edənlər də geniş yararlanıblar.

Azərbaycanda Sovet Rusiyasının hərbi təcavüzü nəticəsində Sovet hakimiyyəti qurulduqdan sonra bütün dini qurumlar kimi rus-pravoslav kilsələrinin də sayı kəskin azalıb, dini təsisatların qeydiyyatı ləğv edilib, ibadət evləri və kilsələr bağlanıb. Ateizmin tüğyan etdiyi dönəmdə, xüsusilə XX əsrin 20-30-cu illərində inzibati zorakılığın tətbiqi çoxlu sayda kilsə binalarının dağıdılmasına, minlərlə xristian ruhani və sıravi dindarların repressiyaya məruz qalmasına səbəb olub. O vaxtlar Bakı yeparxiyasında çalışan Andrey Yeryomin, Yefimiy Savelyev, İyohan Qançev kimi din xadimləri repressiyanın qurbanlarından olublar.

1943-cü ildə Sovet dövləti dinə müəyyən sərbəstlik verdikdən sonra Bakıda "Rojdestvo Boqoroditsa" adlı rus-pravoslav kilsəsi və digər məhəllə kilsələri açılıb. Həmin kilsələr Moskva və Ümumrusiya Patriarxlığının Stavropol və Bakı yeparxiyasının tərkibinə daxil idi və bu təşkilat tərəfindən idarə olunurdu.





# KATOLİKLİK

Hazırda saylarının az olmasına baxmayaraq, Azərbaycanda katolikliyin tarixi pravoslavlıqla müqayisədə daha qədimdir. Təxmini hesablamalara görə, katolikliyin ölkəmizdə tarixi yeddi əsrdən az deyildir. Amma bununla belə, katoliklik Azərbaycanda mövcud olan xristian məzhəbləri arasında heç vaxt aparıcı mövqeyə malik olmayıb, sadəcə, bütün dövrlərdə mövcudluğunu qoruyub saxlaya bilib.

Xristianlığın üç ən böyük qolundan biri olan katolik kilsəsi 1054-cü ildən, yəni, vahid kilsənin iki yerə parçalanmasından sonra bu adla fəaliyyət göstərməyə başlayıb və tarixi dövr ərzində dünyanın əksər ölkələrində yayılıb. Şərq Xristianlığından (Pravoslavlıqdan) öz etiqad, ayin, doqmatik və etik dəyərləri ilə fərqlənən bu xristian konfessiyasının mənsubları Avropa, Afrika, Amerika və Asiyada kilsələr qurub yerli xalqlara inanclarını təbliğ ediblər.

Azərbaycanda katoliklik orta əsrlərdən yayılmağa başlayıb. Xüsusilə XIV əsrin əvvəllərindən missionerlərin fəaliyyəti nəticəsində Xristianlığın bu qolu bölgədə inkişaf edib və XVII-XVIII əsrlərdə Vatikan tərəfindən regiona missionerlər göndərilib. Bu dövrdə Azərbaycanın ən iri şəhərlərində katolik monastırlar, missiya və məktəbləri fəaliyyət göstərib. Bu kilsə mənsublarının ölkəmizdə mövcudolma tarixi haqqında ilkin yazılı məlumatlar XIV əsrə aiddir. 1320-ci ildə fransız rahib Jurden Katalani de Severakın Bakıda və digər Azərbaycan şəhərlərində olması haqqında məlumatlar var. Tədqiqatçılar təqribən eyni dövrdə katolik kilsəsinə mənsub Fransiskan ordeni rahibi Odorik de Pordenonun da Azərbaycanda olmasını qeyd edirlər.

Lakin buna baxmayaraq, Azərbaycanda katolik icmalarının inkişaf dövrü XVII əsrə təsadüf edir. Çünki bu dövrdə Bakıda,

Şamaxıda, Gəncədə, Təbrizdə, Naxçıvanda və başqa şəhərlərdə katolik kilsəsinə məxsus karmelitlər (XII əsrdə yaranmış katolik-rahib ordeni), dominikanlar (XIII əsrdə yaranmış katolik-rahib ordeni), avqustinlər (XIII əsrdə yaranmış katolik-rahib ordeni), kapusinlər (XVI əsrdə yaranmış katolik-rahib ordeni) və yezuitlər (XVI əsrdə yaranmış katolik-rahib ordeni) ordeninin mənsubları məskunlaşaraq monastırlar, kilsələr və tədris ocaqları yaradıblar. Katolik-rahiblər əsasən dini təbliğatla və tibb sahəsiylə məşğul olublar. 1828-ci ildə Azərbaycanın Rusiya imperiyası tərəfindən işğalından sonra əvvəlki dövrün bütün katolik icmaları öz fəaliyyətlərini dayandırsalar da, XIX əsrin ikinci yarısından XX əsrin əvvəllərinə qədər olan dövr icmanın həyatında əhəmiyyətli mərhələ kimi səciyyələndirilir. Çünki bu dövrdə Azərbaycanda katolik Xristianlığına və digər qərb kilsələrinə mənsub əcnəbilərin artımı baş verib. Bunun səbəbi "neft bumu", Polşa üsyanı iştirakçılarının və Rusiya imperiyasının bütün bölgələrindən katoliklərin Qafqaza sürgün olunmasıdır. Bakıda ilk katolik prixodu XIX əsrin 50-ci illərində elə rus ordusu tərəfindən hərbçi katoliklərin Qafqaza sürgün edilməsi nəticəsində yaradılıb. Prixod Tetri-Skarodakı (Gürcüstan) katolik hərbi prixoduna tabe olub.

XIX əsrin 80-ci illərində Bakıda katoliklərin sayı min nəfəri ötüb. Bakı prixodu elə bu dövrdə müstəqilləşib. Sonralar isə Müqəddəs Məryəmin Bakirə Hamiləliyi şərəfinə kilsə (1895-ci ildə) tikilməyə başlayıb və onun fəaliyyəti 1900-cu ildə Çar fərmanı ilə təsdiqlənib. Bundan başqa, Bakı qəbiristanlığında 1903-cü ildə Müqəddəs Xaç kilsəsi inşa olunub. Müqəddəs Məryəmin Bakirə Hamiləliyi kilsəsi sovetlər dönəmində - 1931 və ya 1934-cü ildə dağıdılıb, keşişi Stefan Demurov isə gizli şəkildə dini ayinləri icra etdiyinə görə həbs edilib, daha sonra güllələnib. İnzibati təzyiqlərin güclü olduğu bu dönəmdə katolik icmasının fəaliyyəti demək olar ki, tamamilə dayandırılıb. Lakin Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra katolik icması yenidən formalaşmaq imkanı və hüququ əldə edib.





# PROTESTANTLIQ

Statistikaya əsasən, xristian dünyasında mənsubların sayına görə katolikdən sonra protestanlıq gəlir. Lakin Azərbaycanın bununla bağlı statistik göstəriciləri fərqlidir. Belə ki, mənsubların sayına görə, birinci yerdə pravoslavlıq, ikinci yerdə protestanlıq, üçüncü yerdə isə katoliklik gəlir. Amma ölkəmizdə pravoslavlıqla protestantlığın yayılması tarixi təxminən eyni dövrə - XIX əsrin əvvəllərinə təsadüf edir.

Əslində, katolik və pravoslavlıqdan fərqli olaraq, protestantlıq bir-biri ilə əlaqəsi zəif olan sərbəst missionerlər vasitəsi ilə yaradılmış təriqətlərdən ibarətdir. Protestantlıq Xristianlığın yeni istiqaməti kimi ənənəvi cərəyanlara qarşı müxalif mövqe nümayiş etdirən din adamlarının mübariz hərəkatı nəticəsində yaranıb. Məqsədi Xristianlıqda islahat aparmaq ideyası olan bu cərəyan 1517-ci ildə rahib və ilahiyyatçı Martin Lüterin katolikliyə qarşı çıxması ilə başlayıb. Protestantlıq özü də müəyyən qollara ayrılır və cərəyanın banisinin adı ilə adlandırılan lüteranlıq onların öndə gələnlərindəndir. Eyni zamanda, Azərbaycanda ilk yayılan protestant təriqəti də lüteranlıqdir.

Ölkəmizdə lüteranlığın yaranması XIX əsrin I yarısında almanların və polyakların Cənubi Qafqaza köçürülməsi ilə əlaqələndirilir. Onların gəlişinin səbəblərindən biri XIX əsrin əvvəllərində Almaniyada baş vermiş siyasi-dini iğtişaşlar sayılır. O vaxt Avropada belə bir mövhumat mahiyyətli şayiə yayılmışdı ki, guya Qərbdə qiyamət günü yaxınlaşır, nicat isə ancaq Şərqdədir. Əhali, xüsusilə sektant dindarlar Rusiya imperiyası ərazilərinə, o cümlədən Qafqaza köçməklə qiyamət gününün sorğu-sualından yaxa qurtarmağa çalışıblar. Əsasən Göy-göl (Elenendorf) və

Şəmkir (Anenfeld) rayonları ərazilərində məskunlaşan almanlar burada yaşayış məntəqələri, icma və məhəllələrini (koloniyalarını) yaradıb, mənsub olduqları dini, milli adət-ənənələri qoruyub saxlayıblar. Beləliklə, o dövrdə Yung Ştillinqin simasında xiliostik peyğəmbərliyin təsiri altında minlərlə lüteran Qafqazda yerləşib, "Yeni Yerusəlim" yaratmaqla İsa Məsihin ikinci zühurunu gözləyib. Bəzi mənbələrə görə, 1819-cu ilin əvvəlində Azərbaycanda 209 alman ailəsi yaşayıb.

Əslində, almanların Cənubi Qafqaza köçürülmələrinin yeganə səbəbi Avropada qiyamət gününün yaxınlaşması ilə bağlı mövhumat xarakterli rəvayətlər deyildi. Başqa bir səbəb həmin dövrdə indiki Almaniya torpaqlarında tüğyan edən aclıq və o zamankı rus çarı Aleksandrın anasının alman mənşəli olması idi. Rus çarı almanları Cənubi Qafqaza köçürməklə həm onları aclıqdan xilas etmək, həm bu regionda almanların vasitəsilə əkinçilik mədəniyyətinin inkişafına nail olmaq, həm də Rusiyanin maraqları naminə forpostlar yaratmaq istəyirdi. Alman və polyaklarla yanaşı, pravoslavlıqdan ayrılmış digər təriqətçilərin də Azərbaycanda məskunlaşması eyni məqsədlərə xidmət edirdi. Lakin zaman göstərdi ki, Çar Rusiyası protestantları və rus təriqətçiləri regiona köçürməklə qarşısına qoyduğu məqsədlərə tam nail ola bilməyib.

1821-ci ildə Elenendorfda (indiki Göygöl rayon ərazisində) İsveçrədən gəlmiş missionerlər tərəfindən sinod çağrılıb və burada ümumzaqafqaziya alman icmaları üçün ilk dəfə kilsə nizamnaməsi qəbul edilib. İohann Yakob Krauts adlı şəxs Elenendorf kolonistlərinin ruhanisi seçilib. Əvvəllər təriqət mənsubları Krautsun dini vaizlərini dinləmək üçün onun evinə toplaşıblar. Krautsun evi eyni zamanda azyaşlı uşaqlar üçün orta məktəb olub.

1832-ci ildə pastor Breytsn-Baxın rəhbərliyi ilə Elenendorfda sitayiş evi tikilib və 1840-cı ilə qədər fəaliyyət göstərib. XIX əsrin





ikinci yarısından başlayaraq Elenendorf və Anenfelddə, eləcə də Gədəbəydə bir sıra inzibati binalar qot üslubunda inşa olunub. Eyni zamanda, 4 aprel 1854-cü ildə Elenendorfda qot üslubunda Müqəddəs İohann lüteran kilsəsinin təməli qoyulub. Burada lüteran icmalarının Zaqafqaziya köçündən bəri bir sıra tarixi məlumatlar və o dövrün rus dəmir pullarının kolleksiyası qorunub saxlanılıb. 1868-ci ildə isə Gədəbəydə "Simens və K" şirkətinin maliyyə dəstəyi ilə lüteran kilsəsi inşa edilib.

Yevangelist-lüteran kilsəsi ardıcıllarının ikinci dalğası Azərbaycana, əsasən də Bakı şəhərinə XIX əsrin II yarısında neft yataqlarının istismarında iştirak edən alman sənayeçilərinin gəlişi ilə bağlıdır. 1864-cü ildə Moskvadan Exiler qardaşları, Debur, Otto Lend və başqaları Bakıya gəliblər. Onlar 1870-ci ildə Bakıda Yevangelist-lüteran icması yaradıblar. İcmaya pastor yox, dünyəvi şəxs sədrlik edib. İcmanın sədri və kilsə şurası prixodun iclasında seçilib.

XIX əsrin 70-ci illərində Bakı quberniyasında lüteranlığa mənsub üç mindən çox alman və digər millətlərin nümayəndələri yaşayıb. Bunu nəzərə alaraq, 1877-ci ildə şəhərin qubernatoru general-mayor Pozen lüteranlar üçün kirxa (lüteran kilsəsi) və ibtidai məktəb açılması ilə əlaqədar kilsə şurası üzvlərinin və sədrinin seçilməsinə razılıq verib, bir il sonra isə Bakıda lüteran icması məbədin tikintisini həyata keçirmək üçün aktiv fəaliyyətə başlayıb. Bu məqsədlə Bakı Yevangelist-lüteran Şurasının üzvləri Lemkul, Meyer, Eyxler, Lens, Sinne və başqaları şəhər idarəsinə müraciət edərək, məbədin və məktəbin tikintisi üçün dəfələrlə ərazi ayrılmasını istəsələr də, məsələ öz həllini yalnız 1885-ci ilin noyabrında tapıb. Belə ki, Bakı şəhər Dumasının qərarı ilə icmaya "Telefonnaya" küçəsində (indiki 28 May küçəsi) 1400 kvadrat sajın (1 sajın 2,134 metrə bərabərdir) ərazi ayrılıb.

O biri il isə lüteran icmasına ayrılan ərazidə məktəb tikilib. Məktəb binasından ibadət evi kimi istifadə edilməsinə baxmayaraq, lüteranların sayı çoxaldığından ayrıca kilsənin tikilməsinə ehtiyac daha da artıb. Bu məsələ 1894-cü ilin fevralında icmanın ümumi iclasında müzakirə olunduqdan sonra kilsə binasının layihəsini hazırlamaq 24 yaşlı memar Adolf Eyxlerə həvalə edilib. Bir aydan sonra memar tərəfindən hazırlanan layihə icma iclasında təsdiqini tapıb və 1896-cı ilin baharında Rusiya imperiyasının Daxili İşlər Nazirliyi onun inşasına razılıq verib.

Həmin ilin mart ayının 21-də məbədin rəsmi təməlqoyma mərasimi keçirilib. Tədbirdə o vaxtkı Bakı qubernatoru Lileyev və məşhur Emmanuel Nobel də iştirak ediblər. Əsasən icma üzvlərinin ianələri, xüsusilə də Nobel Qardaşları Şirkətinin maddi köməkliyi ilə inşa olunan kilsəyə (kirxa) "Xilaskar" adı verilib.

1899-cu ildə məbədə zəng və orqan yerləşdirildikdən sonra mart ayında min nəfərdən çox insanın iştirakı ilə kilsənin təqdis olunma mərasimi keçirilib. 1900-cü ilin aprelində kirxada Baxın əsərləri əsasında ilk ruhani orqan konserti olub. Bakı üçün bu, çox əlamətdar hadisə olub, hətta ənənəyə çevrilib.

Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra dini icmalara təzyiqlər Yevangelist-lüteranlardan da yan keçməyib və icma 1937-ci ildə ləğv edilib. Həmin ilin oktyabrında isə icmanın axırıncı pastoru Paul Qamberq, şura üzvləri və icmanın aktivləri həbs edilərək güllələniblər.





## XRİSTİAN TƏRİQƏTÇİLİYİ

Azərbaycanda xristian təriqətçiliyi XIX əsrin 30-cu illərindən başlayaraq Rusiya imperiyasının mərkəzi regionlarından slavyandilli əhalinin Cənubi Qafqaza köçürülməsi nəticəsində meydana gəlib. Təriqətçilər Rus-Pravoslav Kilsəsi tərəfindən qəbul edilmədiklərindən və ümumiyyətlə, sektantlıq hökumətin pravoslavyönümlü din siyasətinə zidd olduğundan, onlar öz doğma yerlərindən sürgün edilib Qafqazda, xüsusən də Azərbaycan ərazilərində dayaq sayılacaq forpostların yaradılması məqsədilə yerləşdiriliblər. Çar Rusiyası digər tərəfdən yerli əhali olan azərbaycanlıların yüksək tolerantlıq xüsusiyyətini də nəzərə alıb və bu amildən maksimum yararlanmağı qarşısına məqsəd qoyub.

Xristian təriqətçilərinin Azərbaycana sürgün olunmaları məsələsi rəsmi şəkildə Rusiya imperiyasının dövlət şurasının 1830-cu ildə qəbul etdiyi qərara əsasən həyata keçirilib. Qərarda Voronej, Saratov, Tambov, Orenburq, Tavriya və Yenisey quberniyalarından, həmçinin Bessarabiya vilayətindən təriqətçi rusların və ukraynalıların köçürülməsi öz əksini tapıb. Təriqətçilər əsasən molokanlar, subbotniklər, raskolniklər, skopçular, baptistlər, duxoborlar və başqaları olublar.

Azərbaycana köçürülənlər əsasən ölkənin Şamaxı, İsmayıllı, Gədəbəy, Göygöl, Quba, Cəlilabad, Sabirabad, Lənkəran, Masallı rayonlarında yerləşdiriliblər. Köçkünlərin ilk saldıqları yaşayış yeri 1834-cü ildə Şamaxı əyalətinin (quberniyasının) Altıağac kəndi olub. Buraya Rusiya imperiyasının Samara və Tambov vilayətlərindən sürgün edilmiş molokanlar köçürülüb.

Molokanlıq Rusiyada XVIII əsrin 60-cı illərində kəndlilər arasında yayılmış təriqət idi. O, sonralar kiçik sənətkar və tacirlər arasında da tərəfdarlar qazanıb. Pravoslavlığa, onun kilsə iyerarxiyasına, rahibliyə, ikonalara və digər müqəddəs əşyalara sitayiş etməyə qarşı olan bu təriqət mənsubları dinin və ictimai həyatın yeganə qaynağının Bibliya olduğunu qeyd edirdilər.

Təriqətçilər XIX əsrin 70-ci illərinə kimi Şuşa qəzasında "Rus qarabulağı" (sonralar Karyagin – Füzuli), Yelizavetpol (Gəncə) quberniyasında "Rus Borisı" yaşayış məntəqəsini, "Slavyanka" kəndlərini, Bakı əyalətində isə 20-dən çox kənd salıblar.

Quba qəzasının Vladimirovka, Alekseyevka, Aleksandrovka, Petropavlovka, Yermolovka, Nikolayevka və Şirvanovka kəndlərində də xristian təriqətçiləri, xüsusilə molokan və baptist dini birlikləri fəaliyyət göstərib.

Tədqiqatçılar hesab edirlər ki, XIX əsrdə Azərbaycan ərazisində 27 təriqətçi kəndi və 1 yaşayış məntəqəsi olub. Lakin təriqətçilər təkcə kəndlərlə kifayətlənməyib, iri quberniya şəhərlərində də məskunlaşıblar.

Rus-Pravoslav Kilsəsinin maraqları çərçivəsində addım atan yerli çar məmurlarının inzibati təzyiqlərinə baxmayaraq, təriqətçilər öz dini məzhəb xüsusiyyətlərini qorumağa çalışıblar.

Təzyiqlər, hətta, bolşevik inqilabından sonra ateist rejimi dövründə də davam edib, amma nəticədə xristian təriqətçilərinin yalnız azalmaları ilə müşahidə edilib. Onların tamamilə yox edilməsi mümkün olmayıb.





# YƏHUDİLİK

Əlverişli iqlimə, münbit torpaqlara və gözəl təbiətə malik Azərbaycan bütün dövrlərdə cəlbedici və diqqət mərkəzində olub. Şübhəsiz ki, Azərbaycan ərazilərində müxtəlif tarixi dövrlərdə çoxsaylı etnik və dini qrupların məskunlaşmasında bu amil böyük rol oynayıb. Amma inkaredilməz faktdır ki, bu məsələdə coğrafi şərait yeganə amil deyil. Müxtəlif xalqlara və dinlərə mənsub insanların Azərbaycana pənah gətirməsinin əsas səbəbi bu ölkədə yaşayan insanların mədəniyyəti və onların xarakterik keyfiyyətinə çevrilmiş tolerantlıq xüsusiyyətidir. Bu, elə bir sərvətdir ki, min illər boyu heç bir qüvvə onu Azərbaycan xalqından ala bilməyib, əksinə, əsrlər keçdikcə daha da zənginləşib və möhkəmlənib.

Azərbaycan xalqının bu zənginliyini təsdiqləyən və min illər ərzində ondan faydalanan xalqlardan biri də yəhudilərdir. Azərbaycanda məskunlaşmalarının tarixi eramızdan öncəyə gedib çıxan yəhudilərin bu böyük tarixi dövr ərzində azərbaycanlılar tərəfindən nə vaxtsa dini ayrı-seçkiliyə məruz qalmalarına dair bir dənə olsun, fakt yoxdur. Amma müxtəlif tarixi dövrlərdə Azərbaycan xalqına qarşı aparılmış soyqırımı siyasətinin qurbanları arasında yəhudilər də olub.

Yəhudilər Azərbaycana gəlməmişdən əvvəl bu ərazilərdə müxtəlif dinlər və inanclar olub, lakin onların heç biri kənardan gəlməyib, burada formalaşıb. Bu baxımdan Azərbaycana kənardan gəlmiş ilk din olan Yəhudilik həm də bu ərazilərdə yayılan ilk səmavi dindir.

Yəhudi xalqının etiqad etdiyi Yəhudilik e.ə. II minilliyin sonunda yaranıb. Qərb dillərində "İudaizm" adlanan bu inanc ən qədim monoteist (təktanrılıq) dindir. Yəhudiliyin Xristianlıq və İslamdan başlıca fərqi ondadır ki, bu dinə başqa millətlər deyil, yalnız yəhudilər etiqad edirlər. Bu baxımdan vəhylə göndərilməsinə baxmayaraq, Yəhudilik səmavi dinlər içərisində milli din hesab olunur.

Yəhudilərin Azərbaycan ərazilərində məskunlaşması tarixi qədim dövrlərə gedib çıxır. Mənbələrə görə, bu proses öz başlanğıcını e.ə. II minilliyin I yarısının sonundan başlayan Yeni Babil Xaldey hökmdarlarının zamanından götürür. Belə ki, eradan əvvəl 586-cı ildə Yeni Babil Xaldey hökmdarı II Navuxodonosor qədim yəhudi çarlığının paytaxtı Qüdsü zəbt etdikdən sonra şəhəri və Süleyman məbədini dağıdıb, 40 min insanı əsir götürərək qula çevirib. Yəhudilərin Azərbaycana köçü də həmin dövrdən başlayıb.

Əsrlər boyu yəhudilər əsasən böyük şəhərlərdə yaşayıb, sənətkarlıq, ticarət, həkimlik, müəllimlik və digər sahələrdə çalışıblar. Azərbaycanda isə yəhudilər Şirvan (orta əsrlərdə indiki Şabran rayonu ərazisində şəhər), Dərbənd kimi böyük şəhərlərdə məskunlaşıblar. Yəhudi yaşayış məntəqələri, həmçinin, Cənubi Azərbaycanın Xoy, Salmas, Təbriz və digər şəhərlərində də olub. Bu dövrlərdə ticarətin inkişafı ilə əlaqədar belə yaşayış məntəqələrinə, hətta, Mərvdən Çinə kimi uzanan şəhər mərkəzlərində də rast gəlmək mümkün idi. Bəzi tarixi mənbələrdə bunu sübut edən məlumatlar var.





Azərbaycanda yəhudilərin yaşamaları haqqında XII əsr yəhudi səyyahı Tudelalı Binyamin məlumat verib. Sonradan İslamı qəbul edən yəhudi həkim Şemuel ben Yəhya əl-Məqribi də yəhudilərin Azərbaycanın Xoy, Salmas, Təbriz, Marağa və Urmiya kimi şəhərlərində məskunlaşmalarından bəhs edib.

XIII əsrin ikinci yarısında Qafqazdan Fars körfəzinə və Əfqanıstandan Suriya səhralarına kimi geniş ərazilərə sahib olan Hülakilər dövləti Azərbaycanı öz imperiyasının siyasi mərkəzinə çevirib. Elxanilər (Hülakilər) dövlətinin ilk nümayəndələrinin dini dözümlülüyü Azərbaycana xeyli sayda yəhudilərin gəlməsinə təsir göstərib. Hətta, həmin dövrdə yəhudilərin dövlət vəzifələrində çalışmaları barədə məlumatlar mövcuddur.

Vaxt keçdikcə İslam dininin qəbulu və miqrasiya nəticəsində Azərbaycandakı yəhudi icmalarının mövqeləri bir qədər zəifləməyə başlayıb. Çoxsaylı icmalar əsasən Şimali Azərbaycanda qalıb. Xanlıqlar dövrü ilə səciyyələnən XVIII əsrin II yarısında isə yəhudi icmaları müxtəlif xanlıqların tərkibində öz mövcudluğunu qoruya biliblər. O dövrdə Azərbaycandakı yəhudi əhalisinin əsasını dağ yəhudiləri təşkil edib.

Hələ XV əsrdən başlayaraq karaimlərin və krımçaqların, 1827-ci ildə isə arami dilində danışan laxluxa adlanan Kürdüstan yəhudilərinin Azərbaycana pənah gətirmələri faktı məlumdur. Karaimlər yəhudiliyi qəbul etmiş xəzərlərin törəmələri hesab olunurlar. Krımçaqlar isə Krım ərazisində yaşayan türkdilli xalqlar olsalar da, onların bir çoxu özlərini yəhudilərin başqa etnodil qrupuna daxil olduğunu qeyd edirdilər.

Bundan başqa, 1832-ci ildən Rusiya imperiyasının qərb quberniyalarından köçərək Azərbaycanda məskunlaşan aşkenazi yəhudilərinin icması yaranıb. Tarixi dövr ərzində Gürcü yəhudiləri də Azərbaycanın şimal-qərb bölgələrində öz icmalarını formalaşdırıblar.

# DAĞ YƏHUDİLƏRİ

Dağ yəhudilərinin mənşəyi və onların Azərbaycanda məskunlaşmaları haqqında müxtəlif fikirlər və ehtimallar mövcuddur. Bunlardan ən qədimi odur ki, Dağ yəhudiləri e.ə. 721-ci ildə Assuriya çarı II Sarqon tərəfindən əsir götürülmüş və digər tayfalarla qaynayıb-qarışaraq assimilyasiyaya məruz qalmış on yəhudi qolunun nəslindəndirlər.

VI əsrdə də yəhudilərin Sasanilər tərəfindən Qafqaz ərazisinə sürgün edilməsi haqqında ilk məlumatlar xəzərlərin Azərbaycan ərazilərinə, yəni Qafqaz Albaniyasına basqınlarından bəhs edən mənbələrdə nəzərə çarpır.

Lakin Dağ yəhudiləri ilə türk Xəzər xaqanlığının əsas əhalisi olan xəzərlər arasında etnik bağların olub-olmaması məsələsi tədqiqatçılar arasında mübahisə və müzakirə predmeti olaraq qalır. VI əsrdə qurulan və X əsrin ikinci yarısında (965-ci il) dağılan bu xaqanlıq Şərqi Göytürk dövləti dağıldıqdan sonra yaranmış, Qara dənizin Şimal sahillərində, Kiyevə qədərki bugünki Ukrayna torpaqlarında, Xəzər dənizinin Şimal və Şimal-Qərbini əhatə edən geniş ərazilərdə hökm sürmüş türk dövləti idi. Paytaxtı əvvəl Səməndər, sonra İdil şəhərləri olub.

Xəzər xaqanı Obadi 790-cı ildə Yəhudiliyi dövlətin rəsmi dini elan edib. Əhalinin bir qismi və hakim sülalə yəhudi dinini qəbul etsə də, ölkədə buna görə qiyam qalxıb, xaqan və oğlanları öldürülüb. Sonra hakimiyyətə Obadinin qardaşı keçib və o, ölkəyə hücum edən peçeneqləri Dneprə qədər qovmağı bacarıb. Lakin daxili çəkişmələr Xəzər xaqanlığını zəiflədib. Nəhayət, 965-ci ildə Kiyev knyazı Svyatoslav hücum edərək Səməndər və





Sarkel şəhərlərini tutub və Xəzər xaqanlığı süqut edib. Xəzərlərin bir qismi Krıma, bir qismi də Şimali Qafqaza köçüblər. Şimali Qafqaza köçən xəzərlər indiki qaraçay türklərinin ulu babaları hesab edilirlər.

Bəzi mülahizələrə görə, Dağ yəhudilərinin formalaşmasında Yəhudiliyi qəbul etmiş xəzərlərin Şimali Qafqaza köçmələrinin müstəsna rolu olub.

Bundan sonrakı dövrlərdə, yəni orta əsr mənbələrində yəhudilərin Qafqaz ərazisində yaşamaları haqqında məlumatlara tez-tez rast gəlinir. Tədqiqatçılar, hətta yəhudilərin orta əsrlərdə Şərqi Qafqazda məskunlaşdıqları arealın Dərbənd şəhərinin şimalında yerləşən Qaytaq vilayətindən Qafqaz Albaniyasının paytaxtı olan Partav (indiki Bərdə) şəhərinədək uzanan ərazini əhatə etdiyini göstərirlər.

İrandan yəhudilərin Şərqi Qafqaza miqrasiyasının ikinci dalğası XVI əsrin sonu – XVII əsrin birinci yarısına, dəqiq desək, I Şah Abbasın (1587-1629) dövrünə təsadüf edib. O, bu ərazilərdə öz mövqelərini möhkəmləndirmək məqsədilə İrandan bir neçə min ailəni buraya köçürdüb. Onların tərkibində yəhudi ailələri də olub. Yəhudilərin bir hissəsi Gürcüstanın şərqində, bir hissəsi Dərbənd şəhərində, bir hissəsi isə onun cənubundakı kəndlərdə yerləşdirilib. Eyni zamanda, müasir Dağıstan ərazisində hələ VI əsrdən başlayaraq yaranmış qədim yəhudi icmaları öz mövcudluğunu qoruyub saxlayıblar. Sonrakı dövrlərdə onların bir hissəsi Azərbaycan ərazisinə köçərək, yeni salınmış kəndlərdə məskunlaşmağa başlayıblar.

Əvvəllər Dağ yəhudilərinin əsas məşğuliyyətini kənd təsərrüfatı, xüsusilə əkinçilik təşkil edib. Onların öz torpaqları olmadığından, qonşuluqdakı varlı müsəlmanlardan, xüsusilə xan və bəylərdən torpaqları icarəyə götürüblər. Əkdikləri isə əsasən

buğda, pərinc, düyü və s. olub. Onların təsərrüfatında bağçılıq və üzümçülük də əhəmiyyətli yer tutub. Rusiyada boyaq otuna və tütünə olan tələbatın artdığını hiss etdikdə isə bu bitkilərin becərilməsinə maraqları xüsusilə artıb.

Onların arasında heyvandarlıq geniş yayılmasa da, sonralar dəri aşılamaq Dağ yəhudilərinin əsas məşğuliyyətlərindən birinə çevrilib. Xalça ticarəti ilə məşhurlaşan Dağ yəhudilərinin sorağı isə bütün Avropa ölkələrinə, o cümlədən İspaniyaya gedib çıxıb.

Azərbaycanda Dağ yəhudilərinin sıx məskunlaşdığı ərazilərdən biri də Oğuz rayonudur. Gilan əyalətindən olan yəhudilər XVII əsrdən burada məskunlaşıb və qonşu yəhudi kəndlərinin əhalisi ilə qaynayıb-qarışıblar. Onların əsas məşğuliyyəti kiçik ticarət, tütünçülük və ipəkçilik olub.

XIX əsrin ikinci yarısında Abşeronda neft sənayesinin inkişafı nəticəsində Bakı şəhəri Rusiya imperiyasının cənubunda ən böyük sənaye mərkəzinə çevrilib. Bu dövrdə Azərbaycanın müxtəlif bölgələrindən Dağ yəhudiləri Bakı şəhərinə axın edərək onun milli-etnik koloritini zənginləşdiriblər. Hələ XVIII əsrin sonlarında Dağ yəhudiləri Bakı şəhərinin şimal ətraf ərazilərində məskunlaşaraq yəhudi məhəlləsi yaradıblar. Vaxtilə "Çadrovaya" və "Bondarnaya" (indiki Mirzağa Əliyev və Şəmsi Bədəlbəyli küçələri) adlanan küçələr həmin məhəllənin əsasını təşkil edib.





## GÜRCÜ YƏHUDİLƏRİ

Dağ yəhudilərindən sonra Azərbaycan ərazisində məskunlaşan ən qədim yəhudi icması Gürcü yəhudiləridir. Bu icma mənsubları əski zamanlardan Gürcüstan ərazisində məskunlaşan yəhudi diasporunun nümayəndələridirlər. Gürcü yəhudiləri dedikdə, gürcü dilində danışan gürcüstanlı yəhudilər nəzərdə tutulur.

Bəzi rəvayətlərə görə, yəhudilərin Kartli və İberiya ərazilərində məskunlaşmaları e.ə. VII əsrin sonuna, yəni Birinci Qüds Məbədinin dağıdıldığı, çoxsaylı yəhudi əhalinin əsir götürülərək Yeni Babil Xaldey çarlığına aparıldığı dövrə gedib çıxır.

Maraqlıdır ki, ermənilərin Cənubi Qafqaza köçürülməsindən azərbaycanlılarla yanaşı, Gürcü yəhudiləri də ciddi ziyan çəkiblər. Belə ki, ermənilər Osmanlı imperyasının Qars və Ərzurum bölgəsindən Gürcüstanda əsasən yəhudilərin kompakt yaşadığı ərazilərə köçürülüblər. Ümumiyyətlə, XVIII əsrin sonu XIX əsrin I yarısında Rusiya imperiyasının Qafqazı işğal siyasətində ermənilərə üstünlük verməsi faktı Gürcü yəhudilərinə, xüsusən də Axalsıx və ətraf kəndlərdə yaşayan yəhudilərə təsirsiz qalmayıb. Rusiya imperatriçəsi II Yekaterinanın Qafqaz siyasətində ermənilərin yad din mənsublarının "zülmündən" azad edilməsi əsas yer tutub.

1828-ci ildə Rusiya ordusunun Osmanlı imperiyası daxilində yerləşən Axalsıxa daxil olması və təqribən bütün Cavaxetiyanın Gürcüstana birləşdirilməsi nəticəsində Osmanlı hakimiyyəti dövründə burada məskunlaşmış yəhudilərə məxsus torpaq sahələri müsadirə edilib və rus qarnizonunun himayəsinə verilib. Bura köçürülmüş ermənilərə məxsus torpaqlara isə toxunulmayıb. Tiflisdə yerləşən Gürcü yəhudilərinə aid muzeydə də

yeni hakimiyyətin yəhudi və müsəlmanlara fərqli, ermənilərə isə xüsusi münasibətini əks etdirən XIX əsrə aid sənədlər var.

Siyasi və inzibati dəyişiklik, rus administrasiyasından uzunmüddətli imtiyaz və maddi yardım alan ermənilərin Osmanlı imperiyasından axınının artması, ticarətdə onlara müəyyən üstünlüklərin verilməsi Axalsıx, Kulaşi, Kareli və Gürcüstanın digər məhsuldar rayonlarında yaşayan yəhudiləri vəziyyətdən çıxış yolu axtarmağa məcbur edib. Bir çox yəhudi ailələri öz üzüm və meyvə bağlarını, sənətkar emalatxanalarını, onlara aid torpaq sahələrini satmalı olublar. Ermənilərin gəlişi ilə antisemitizm: yəni yəhudilərə qarşı irqi, milli və dini ayrı-seçkilik münasibəti Gürcüstanda baş qaldırıb. Yəhudilərə qarşı ittihamlar irəli sürülüb, onlar ticarətdə insafsızlıqda, keyfiyyətsiz məhsul istehsalında və digər əməllərdə təqsirləndiriliblər. Vəziyyət hətta, talan, yanğın və qətllər səviyyəsinə çatıb. Yaranmış ağır vəziyyətdə etibarlı məskən axtarmaq duyğusu Gürcü yəhudilərini Azərbaycan ərazisinə pənah gətirməyə sövq edib.

Gürcü yəhudilərinin Azərbaycana ilk köçünün tarixi haqqında dəqiq məlumat yoxdur. Tədqiqatçılar bu tarixi hətta, XVIII əsrin ortalarına aid edirlər. Çox güman ki, ilk köçən əhali Axalsıx, Oni və Kutaisdən olub.

Ümumiyyətlə, XIX əsrin ikinci yarısından başlayaraq I Dünya müharibəsinədək Gürcü yəhudilərinin Azərbaycana köçməsi prosesi (xüsusən Bakı quberniyası ərazisinə) artan xətt üzrə inkişaf edib. Gürcü yəhudiləri Bakıya axışaraq şəhərin mərkəzində yerləşməyə üstünlük veriblər.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra yəhudilərin Gürcüstandan axını, demək olar ki, dayanıb. Bolşeviklərin dini, milli, etnik mənsubiyyətindən asılı olmayaraq xalqlara azadlıq vəd etmələri və xüsusi xidmət orqanlarının fəaliyyəti də





bu sahədə yaranmış ağır vəziyyətin aradan qaldırılmasına gətirib çıxarıb.

XX əsrin əvvəllərində Bakıda məskunlaşmış bir qrup Gürcü yəhudisi Rus-Qafqaz ticarət evlərinin, birjalarının, kommersiya banklarının və səhmdar cəmiyyətlərinin payçıları olub. İri ticarətlə yanaşı, xırda ticarətlə də məşğul olan Gürcü yəhudilərinin İçərişəhərdə neft, mazut, şam, sabun dükanları, ayaqqabı və dəri emal edən emalatxanaları fəaliyyət göstərib.

1899-cu ildə Rusiya imperiyası Daxili İşlər Nazirliyi yəhudilərə icma vergisi kimi ildə 25 rubl ödəmələri və oturaq yəhudilərin icmaya üzv olmamaqları şərti ilə Bakıda sinaqoq tikməyə razılıq verib. Sinaqoqun tikilişi üçün Bakı şəhərində olan yəhudi icmasına vəsait toplanmasında Dərbənd, Quba, Şamaxı, Şəki, Gəncə şəhərlərindəki yəhudi icmaları köməklik göstərib, yığılan ianələr Bakıya göndərilib. Maddi yardım baxımından azərbaycanlı neft sənayeçilərinin və mesenatların da xüsusi xidmətləri olub.

İllər keçdikdən sonra Bakıda fəaliyyət göstərən ravvinlərin bir neçəsinə leqal şəkildə uşaqlara yəhudi adət-ənənələrini tədris etməyə razılıq verilib. Hələ 1918-1919-cu illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə yəhudi uşaqlarının təhsil səviyyəsinin yüksəldilməsi ilə bağlı məsələ qaldırılıb. Sovet hakimiyyəti dövründə isə təhsilin məcburiliyi yəhudi gənclərin elmi biliklərə yiyələnməsi ilə yanaşı, ateizm təbliğatından təsirlənmələrinə də səbəb olub. Bəzi hallarda yaşlılar o dövrdə gəncləri öz dinlərini unutmaqda qınayıb, onları dədə-baba adətlərini qorumağa çağırıblar.

İkinci Dünya müharibəsi qurtardıqdan sonra Bakı şəhərində yaşayan yəhudilər, hələ müharibədən əvvəl bağlanmış sinaqoqların geri qaytarılmasına nail olublar. 1945-1946-cı illərdə isə keçmiş mərkəzi SSRİ hökumətinin icazəsi və Azərbaycanın dövlət qurumlarının qərarı ilə şəhərin yəhudi icmalarına rəsmi şəkildə

sinaqoqlar üçün yer ayrılıb və bu amil Gürcü yəhudi icmasının fəaliyyətinin yenidən canlanmasına təkan verib.

Demoqrafik vəziyyət baxımından 1960-1980-ci illərdə Azərbaycanda yaşayan Gürcü yəhudiləri arasında azalmalar olub. 1980-1990-cı illərdə isə Bakıdan və Azərbaycanın digər şəhərlərindən yüzlərlə ailə İsrailə, Avropa ölkələrinə, ABŞ-a və digər ölkələrə köçərək həyatlarını orada qurub.





# AVROPA YƏHUDİLƏRİ (AŞKENAZİLƏR)

Azərbaycanda yaşayan yəhudi icmalarından biri də Avropa yəhudiləri, daha dəqiq desək, aşkenazilərdir. Bu termin orta əsrlərdə yəhudilərin Almaniyaya verdikləri addan yaranıb. Belə ki, yəhudi ənənəsində Yasəfin (Nuh peyğəmbərin oğlu) nəvəsi, əfsanəvi Aşkenazanın nəslinin Almaniya torpaqlarında məskunlaşdığı güman edildiyindən, yəhudilər bu adı həmin ölkəyə veriblər. Zaman keçdikcə bu termin subetnik anlayış kimi təkcə Almaniyadakı yəhudilərə deyil, onların nəslindən olan və digər Avropa ölkələrinə köçən yəhudilərə də şamil edilib.

Aşkenazilər hazırda Avropa, Cənubi və Şimali Amerika yəhudilərinin böyük bir hissəsini, İsraildəki yəhudilərin isə təqribən yarısını təşkil edirlər.

Aşkenazilər arasında əsas ünsiyyət vasitəsi idiş dilidir (alman dilinin orta dialekti əsasında formalaşmış yəhudi dili). Özünəməxsus koloriti ilə seçilən Avropa ölkələri yəhudilərinin təşəkkül tarixi tədqiqatçıların da araşdırma mövzusu olub. Alimlər linqvistik, genetik, antropoloji və tarixi tədqiqatlara əsaslanaraq belə qənaətə gəliblər ki, aşkenazilər çoxəsrlik proses zamanı müxtəlif yəhudi əsilli əhalinin qarışıq miqrasiya axınının birləşməsi nəticəsində Polşa ərazisində, daha dəqiq desək, Visla çayının yuxarı bölgələrində təxminən 700-800 il əvvəl təşəkkül tapıblar.

Azərbaycanda Avropa yəhudilərinin məskunlaşmasının öz tarixi var. Hələ 1826-1828-ci illərdə II Rusiya-İran müharibəsinin Türkmənçay müqaviləsi ilə bitməsi nəticəsində rus hakimiyyətinin Cənubi Qafqazda möhkəmlənməsi ilə əlaqədar olaraq aşkenazi yəhudilərinin Azərbaycanda məskunlaşması intensivləşib.

XIX əsrin ikinci yarısında isə Bakıda neft sənayesinin yüksək inkişafı, yeni iş yerlərinin açılması, istehsalat sahələrinin çoxalması Avropa yəhudilərinin buraya köçməsinə təkan verib. Bakıya gələn ziyalı Avropa yəhudiləri içərisində memarlar, müəllimlər, həkimlər, vəkillər də az olmayıb. Ümumiyyətlə, Avropa yəhudiləri sonrakı dövrlərdə Azərbaycanda bütün yəhudi icmalarının sosial tərkibinin müəyyənləşməsində, elmin, mədəniyyətin, səhiyyənin, incəsənətin inkişafında xidmətlər göstəriblər. Məsələn, geofizika elminin inkişafında N.Şapirovskinin, L.Eppelbaumun, V.Listenqartenin, musiqidə Y.Şefferlinqin, S.Kronqoldun, İ. Rozinin, teatr sənətində Y. Fridmanın, M.Kaufmanın, K. İrmiçin və digərlərinin adlarını çəkmək mümkündür.

1897-ci ildə Bakıda təqribən 2500-ə yaxın yəhudi yaşayıb və onların əksəriyyəti Avropa yəhudiləri olub. 1913-cü ildə isə bu say təqribən 10 minə çatıb və 1910-cu ildə Bakıda sinaqoq inşa edilib. Həmin sinaqoq Avropa yəhudilərinin nəinki ibadət yerinə, eyni zamanda təlim-tədris ocağına çevrilib.

Bu dövrdə Bakıda sefard yəhudiləri üçün də gimnaziya açılıb. Gimnaziyada sefard və aşkenazi yəhudilərinin uşaqları ilə yanaşı, Dağ və Gürcü yəhudilərinin övladları da təhsil alıblar. Şəhərdə "iyeşiva" adlı xüsusi yəhudi məktəbləri də fəaliyyət göstərib ki, bu tədris ocaqlarında "Tövrat", "Talmud" və "Mişna" kimi müqəddəs kitablar öyrədilib. Yəhudi qızları üçün də xüsusi gimnaziya və məktəblər açılıb.

XX əsrin əvvəllərində Bakıda Avropa yəhudiləri siyasi mühitdə də fəaliyyət göstərib, siyasi partiyalar yaradıblar. Məsələn, Rusiya imperiyasının Qərb quberniyalarından, xüsusilə yəhudilərə qarşı qırğınlar törədilmiş ərazilərdən gələn aşkenazilər o dövrün şərtlərinə uyğun olaraq, Azərbaycanda "Poaley Sion" (Sion fəhlələri) adlı siyasi partiya yaradıblar. Bu partiya ətrafında sənətkarlar, fəhlələr, ziyalıların bir hissəsi və kiçik burjuaziya nümayəndələri birləşiblər.





Sovet hakimiyyəti dövründə də Avropa yəhudiləri Azərbaycanın ictimai-siyasi, elmi, mədəni mühitində kifayət qədər aktiv fəaliyyət göstəriblər. Bu dövrdə onlar siyasi təqiblərə məruz qalsalar da, yəhudilər arasında faşizmə qarşı mübarizədə xüsusi igidlik göstərən, qəhrəman adına layiq görülənlər olub.

Tarixən Azərbaycan xalqı burada yaşayan yəhudilərə müsbət yanaşıb, dünyada antisemitizmin tüğyan etdiyi dövrlərdə belə onlara yad münasibət göstərməyib. Bu gün də Azərbaycanda aşkenazilər digər yəhudilərlə birgə, antisemitizmdən uzaq bir mühitdə yaşayırlar. Uzun illər öncə əsasən işləmək məqsədi ilə Azərbaycana gəlmiş bu yəhudilər artıq ölkəmiz üçün layiqli vətəndaş, Azərbaycan isə onlar üçün əbədi Vətənə çevrilib.

Yəhudi dininə mənsub insanlar təkcə Azərbaycanda yox, dünyanın əksər ölkələrində yaşayırlar və məlum məsələdir ki, onlara münasibət hər yerdə eyni deyil. Amma Azərbaycanda bu dinin mənsublarına bütün tarixi dövrlərdə münasibət birmənalı olub, hansısa yəhudi nə vaxtsa özünü "ögey övlad" kimi hiss etməyib, əksinə, böyük bir ailənin bərabərhüquqlu üzvü kimi həmişə onun rifahı və inkişafı üçün çalışıb. Ümumiyyətlə, yəhudilərə göstərilən münasibətə görə Azərbaycan yalnız İsraillə müqayisə oluna bilər. Bu fikri təkcə azərbaycanlıların və bu ölkədə yaşayan yəhudilərin yox, həm də başqa dövlətlərin, o cümlədən, İsrail vətəndaşı olan yəhudilərin təsdiqlədikləri həqiqətdir.

Heç kimə sirr deyil ki, yəhudilərin burada yaşadıqları 26 əsr ərzində Azərbaycan ərazilərində müxtəlif dinlərə və xalqlara mənsub insanlar çoxsaylı dövlətlər qurublar, hətta, Azərbaycanın əsrlər boyu işğala və təcavüzə məruz qaldığı dövrlər də olub. Ancaq Azərbaycan xalqı yəhudiləri heç vaxt taleyin ümidinə bu-

raxmayıb, əksinə, ona pənah gətirmiş digər dini və etnik qruplara olduğu kimi, yəhudilərə də himayədarlıq edib. Əgər belə olmasaydı, bu gün dünyada dağ yəhudilərinin kompakt halda yaşadıqları yeganə yaşayış məntəqəsi olan Qırmızı qəsəbə indiyədək mövcudluğunu qoruyub saxlamazdı.

Əsrlər boyu Azərbaycanda yaşamış və yerli əhali ilə qaynayıb-qarışmış, hətta, qohumluq əlaqələri qurmuş yəhudilər, şübhəsiz ki, Azərbaycan mədəniyyətinin inkişafında yaxından iştirak ediblər və bu gün bütün dünya üçün nümunə göstərilən ölkəmizdəki tolerantlıq mühitinin formalaşmasında onların xidmətləri danılmazdır.

Ümumiyyətlə, əsrlər boyu ölkəmizdə mövcud olmuş yüksək dözümlülük mədəniyyəti təkcə azərbaycanlıların deyil, bu ölkədə yaşayan bütün dini-etnik qrupların və xalqların ortaq mədəni sərvətidir. Təbii ki, bu sərvətdə yəhudilərin də böyük payı var.





# II FƏSİL

# AZƏRBAYCANDA ÜMUMİ DİNİ MƏNZƏRƏ

# ƏSAS DİNİ MƏRKƏZ VƏ İCMALAR

## QAFQAZ MÜSƏLMANLARI İDARƏSİ

"Dini etiqad azadlığı haqqında" Qanunun 9-cu maddəsinə əsasən, Azərbaycan Respublikasında İslam dini qurumları öz tarixi İslam dini mərkəzlərində - Qafqaz Müsəlmanları İdarəsində birləşirlər. Eyni zamanda, Qanunun 8-ci maddəsində qeyd edilir ki, təşkilat məsələlərində İslam dini icmaları Qafqaz Müsəlmanları İdarəsinə tabedirlər. Habelə, həmin Qanuna görə, İslam dini qurumları Qafqaz Müsəlmanları İdarəsinə öz fəaliyyətləri haqqında hesabat təqdim edirlər.

Göründüyü kimi, Qafqaz Müsəmanları İdarəsinin statusu Qanunda təsbit olunub və bu, kifayət qədər yüksək statusdur. Əslində, bu, təsadüfi deyildir. Çünki Azərbaycan əhalisinin 96 faizini müsəmanlar təşkil etdiyi üçün onların şəriətlə bağlı işlərini tənzimləyən dini mərkəzin yetərincə səlahiyyətləri olmalıdır. Digər tərəfdən, Qafqaz Müsəlmanları İdarəsinin zəngin tarixi təcrübəsi var. Təxminən iki əsrə yaxın tarixi olan bu qurumu Azərbaycanda ilk hüquqi şəxs kimi qəbul etmək olar.





Həmçinin, nəzərə alınmalıdır ki, Qafqaz Müsəlmanları İdarəsinin fəaliyyət dairəsi Azərbaycanla məhdudlaşmır və o, dini mərkəz kimi regionda, o cümlədən Qafqazda ən nüfuzlu qurumlardan biridir. Ümumiyyətlə, neçə yüz ildir ki, Azərbaycan Şimali Qafqazla Yaxın Şərq arasında körpü funksiyasını yerinə yetirir. Bu funksiya yalnız coğrafi, iqtisadi deyil, həm də mədəni və mənəvi mahiyyət daşıyır. İslam dini cənubdan şimala doğru yayıldığına görə Azərbaycan tarixən Şimali Qafqaz üçün dini-mənəvi mərkəz rolunu oynayıb. Müxtəlif tarixi dövrlərdə bu dini mərkəzin rolu mənəvi rəhbərliyə qədər yüksəlib. Şimali Qafqazda istər Müridizm hərəkatının, istərsə də sufizmin formalaşmasında və yayılmasında Azərbaycanın və Azərbaycan ruhaniliyinin müstəsna xidmətləri inkar edilməzdir. Yalnız Şimali Qafqazda deyil, bütün Qafqazda dini mühitin formalaşması və tənzimlənməsi birbaşa Azərbaycanla bağlı olub. Ölkəmizdə dini mühitdə baş verən proseslər mütləq bütün Qafqazda əks-səda yaradıb.

Əslində, Qafqazda yaşayan bütün müsəlman xalqlar Azərbaycanın mənəvi idarəçiliyini və azərbaycanlıların ağsaqqallığını qəbul ediblər. Çünki Azərbaycan və azərbaycanlılar onların həmişə ümid və pənah yerləri olublar. Azərbaycan xalqı yüz illər boyu davam edən bu funksiyanı bu gün də uğurla yerinə yetirir. Ayrı-ayrı dövlətlərin vətəndaşları olmalarına və müxtəlif idarəçilik formalarına baxmayaraq, Şimali Qafqaz xalqları ilə Azərbaycan xalqı dini məsələlərdə yenə də həmrəydir. Bu gün Şimali Qafqazdakı bütün dini mərkəzlər və ruhanilər Qafqaz Müsəlmanları İdarəsinə tabe olmasalar da, Şeyxülislam Allahşükür Paşazadənin ağsaqqallığını qəbul edirlər. Onlar Qafqaz Müsəlmanları İdarəsinə mənəvi mərkəz, A.Paşazadəyə isə bütün Qafqazın şeyxi kimi yanaşırlar. Bu tarixi missiyanın indi də davam etdirilməsi dini-mənəvi nöqteyi-nəzərdən bütün Qafqazın vahid orqanizm olması deməkdir.

Digər tərəfdən, A.Paşazadə Qafqaz Müsəlmanları İdarəsinin rəhbəri, Şeyxülislam kimi təkcə ölkədəki müsəlmanlar deyil, həm də qeyri-müsəlman icmalar tərəfindən ağsaqqal kimi qəbul edilir. Hazırda müxtəlif dinlərin nümayəndələri çox vaxt ya rəsmi qəbul və görüşlərdə, ya da dinlərarası dialoq və tolerantlıqla bağlı tədbirlərdə bir araya gəlirlər.

Başqa sözlə, dini konfessiyaların rəhbərlərinin görüşü, hətta bir süfrə arxasında əyləşmələri və şəkil çəkdirmələri protokol qaydalarından kənara çıxmır. Lakin bu cür protokol qaydaları Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri üçün yaddır. Onlar, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev və Katolik icmasının rəhbəri Vladimir Fekete bir-birilərinə dost, qardaş münasibəti göstərirlər. Dini liderlərin Şeyxülislamın ağsaqqallığı ilə tez-tez görüşmələri, məsləhət-məşvərət etmələri, müxtəlif tədbirlərdə birgə iştirak etmələri adi haldır. Əslində, onların Şeyxülislamı ağsaqqal kimi qəbul edərək onun ətrafında könüllü birləşmələri qarşılıqlı güzəşt yox, qarşılıqlı hörmət və Azərbaycan xalqına xas Ağsaqqallıq institutunun dini sahəsində özünü təsdiq formasıdır. Bu, dini liderlər arasında təkcə qarşılıqlı hörmət yox, həm də qarşılıqlı etimad deməkdir. Onların bu cür birliyinə çoxları heyrət və qibtə edir. Axı qibtə etməmək mümkün də deyil! Təsəvvür edin ki, Şeyxülislam mübarək Ramazan ayında iftar süfrəsi təşkil edir və iftar süfrəsində ölkə Prezidenti İlham Əliyevin sağında Şeyxülislam, solunda isə digər dini konfessiyaların rəhbərləri əyləşirlər. Üstəlik, iftar süfrəsində yalnız Şeyxülislam deyil, digər dini konfessiyaların nümayəndələri də çıxış edirlər.

Qafqaz Müsəlmanları İdarəsinin və Şeyxülislamlıq institutunun tarixinə gəlincə, bu, kifayət qədər maraqlı və zəngin tarix-





dir. Şeyxülislam ərəb sözü olub, Azərbaycan dilinə tərcümədə "İslamın qocamanı", "İslamın ağsaqqalı" mənasını daşıyır. İslam tarixində təqribən X əsrdən başlayaraq mötəbər fəqihlər, sufi mütəfəkkirləri şeyxülislam titulunu daşımışlar. Bir şəhərdə, bölgədə və ya ölkədə ən nüfuzlu müsəlman din alimi də şeyxülislam adlandırılmışdır. Şeyxülislam titulu verilmir, daha doğrusu, İslamda bu titulu verən elə bir təsisat yoxdur - alim öz ətrafındakıların əksəriyyəti tərəfindən İslamda sözü keçən, rəyi qəbul edilən bir şəxs kimi etiraf edildikdən sonra şeyxülislam sayılır.

Ərəb ölkələrində müfti məqam etibarilə şeyxülislamdan yüksək sayılır. İranda tarixən molla və müctəhidlərdən ibarət şəriət məhkəməsinin sədri şeyxülislam adlanıb. Belə məhkəmələr hər bir böyük şəhərdə fəaliyyət göstərə bilər.

Türkiyədə şeyxülislam titulu İstanbul müftisinə aid edildikdən sonra şöhrət tapıb. XVI əsrdən etibarən İstanbul müftiləri digər İslam alim və fəqihləri arasından seçilib, xüsusilə şeyxülislam titulu daşıyan müftilər Zəmbilli Əli Camali Əfəndi (1501-1525) və Əbussüud (1545-1574) güclü dini-siyasi mövqeyə sahib olduqlarından şeyxülislam təkcə din sahəsində nüfuz sahibi və ya üləmaların başçısı yox, həm də dövlətdə məqam etibarilə ikinci əyan sayılıb, saray mərasimində mühüm rol oynayıb. XVIII əsrdən etibarən Türkiyədə şeyxülislam əvvəlki nüfuzunu itirir, 1924-cü ildə isə şeyxülislamlıq vəzifəsi tamamilə ləğv edilir.

Cənubi Qafqazda, o cümlədən Azərbaycanda da şeyxülislam titulunun və şeyxülislamlıq vəzifəsinin maraqlı tarixçəsi var. XIX əsrin ortalarına qədər Cənubi Qafqazda şeyxülislam şiə-müsəlmanlar arasında şəriət məhkəməsinin başçısı sayılıb. Bu vaxt artıq bölgədə öz mövqelərini möhkəmlətmiş rus çarizmi başqa sahələrdə olduğu kimi, din sahəsində də müstəmləkə siyasəti yeritməyə başlayır.

Rus çarının 29 noyabr 1832-ci ildə Senata göndərdiyi fərmana əsasən, Zaqafqaziya müsəlmanlarının dini işlər idarəsi barədə xüsusi Əsasnamə hazırlanması işi hökumət tərəfindən nəzarətə götürüldü. Lakin hazırlanan layihələrin heç biri bəyənilmədi. 1849-cu ildə Qafqaz canişini knyaz Vorontsovun tapşırığı ilə xarici işlər nazirliyinin əməkdaşı N.Xanıkov Məhəmmədi ruhanilərin təşkili barədə Əsasnamə layihəsini hazırladı. Layihə bütövlükdə bəyənilsə də, Krım müharibəsi onun həyata keçirilməsini ləngitdi. 1864-cü ildə Zaqafqaziya müsəlman ruhanilərinin təşkili barədə Əsasnamə layihəsinin hazırlanması üçün yeni komissiya yaradıldı, yerli şiə və sünni məzhəblərinin nümayəndələri - şeyxülislam və müfti də komissiyanın tərkibinə qatıldılar.

N.Xanikovun layihəsi əsas götürüldü. Komissiyanın qarşısına aşağıdakı vəzifələr qoyulmuşdu:

- *cəmiyyətin möhtəməl müxalifətçi təbəqəsi olan ruhanilər üzərində hökumət üçün nəzarət vasitəsi təmin edilsin;*

- *ruhani təbəqəsi arasında "cəm olma ruhunun" möhkəmlənməsinin qarşısı alınsın;*

- *müsəlman ruhanilərinin fəaliyyət və nüfuz dairəsi mümkün qədər məhdudlaşdırılsın;*

- *ən nüfuzlu müsəlman ruhanilərin maddi maraqlarını hakimiyyətə xidmətlə əlaqələndirmək yolu ilə onlar hökumətdən bilavasitə asılı vəziyyətə salınsın.*

Bir sıra təlimatlar hazırlandı. 1862-1872-ci illərdə qüvvədə olan təlimat müsəlman ruhanilərin vəzifələrini, hüquq və imtiyazlarını, dünyəvi hakimiyyətlə qarşılıqlı münasibətlərini tənzim edirdi. 1867-ci il təlimatında şeyxülislam və müfti üçün nəzərdə tutulmuş səlahiyyətlər onlara dini işləri şəxsən idarə etmək imkanı verirdisə, sonrakı təlimatlarda bu iş onların sədrliyi altında yaradılmış idarələrə həvalə edilirdi. Əgər bu vaxta qədər hökumətdən ancaq şeyxülislam və müfti maaş alırdılarsa, 1867-ci ildən sonra digər yüksək rütbəli müsəlman ruhaniləri də hökumətdən maaş almağa başladılar.





Zaqafqaziya şiə və sünni Məhəmmədi ruhanilər idarəsi haqqında Əsasnamə Dövlət Şurasının təqdimatı ilə Rusiya çarı tərəfindən 5 aprel 1872-ci ildə təsdiq edildi.

İdarənin təşkilində Rus-Pravoslav Kilsəsinin quruluş prinsipi əsas götürülmüşdü. Zaqafqaziyada 2 müsəlman inzibati orqanı - müftinin başçılığı ilə Sünni ruhani idarəsi (müftilik) və şeyxülislamın sədrliyi altında Şiə ruhani idarəsi (şeyxülislamlıq) yaradıldı. Tiflisdə yerləşən bu iki idarənin hər biri sədrdən, idarə heyətinin 3 üzvündən, 2 köməkçisi ilə birlikdə katibdən, mütərcim, mirzə və arxivariusdan ibarət idi.

Hər iki idarənin tabeliyində Tiflis, İrəvan, Yelizavetpol (Gəncə) Bakı quberniyalarının hərəsində 1 məclis olmaqla 4 məclis var idi. Sünni idarəsində 16, Şiə idarəsində isə 20 qazı var idi. İdarələr Daxili işlər nazirliyinin nəzarəti altında idi və şəxsən canişin qarşısında məsuliyyət daşıyırdı. Quberniya səviyyəli ruhanilər quberniya və uyezdlərdəki yerli hakimiyyətlərə tabe idilər.

Cənubi Qafqaz müsəlmanlarının dini işləri 1918-ci ilə qədər bu iki idarə tərəfindən tənzim edilirdi. 1918-ci il dekabrın 11-də Şeyxülislam Məhəmməd Pişnamazzadə vəzifəsindən istefa verir. Azərbaycan Xalq Cümhuriyyəti Sosial təminat və dini etiqad işləri naziri Musa Rəfibəyovun əmri ilə həmin vəzifəyə axund Ağa Əlizadə təyin edilir. Burada daha bir maraqlı məqam ondan ibarətdir ki, 1918-ci ildən sonra Cənubi Qafqazda müsəlmanların dini təşkilatlanmasında o vaxta qədər hökm sürən ikilik aradan qalxır, şiə və sünni idarələr Məşixə adlı vahid bir qurumda birləşirlər.

1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra mayın 15-də hökumət dekreti ilə Dini etiqad işləri nazirliyi və Şeyxülislamlıq təsisatı buraxılır.

1944-cü ildə SSRİ Ali Sovetinin Rəyasət Heyəti Zaqafqaziya müsəlmanlarının dini qurumunun yaradılmasını mümkün hesab edir. Zaqafqaziya müsəlmanlarının I qurultayı 25-28 may 1944-cü ildə Bakıda keçirilir və qurultayın qərarı ilə mərkəzi Bakıda olmaqla Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi yaradılır. Axund Ağa Əlizadə yenidən şeyxülislam seçilir.

Qeyd edilməlidir ki, Cənubi Qafqazda şeyxülislamlıq tarixində Ağa Əlizadə şeyxülislam seçilmiş ilk din adamı olmuşdur. Ona qədər şeyxülislamlar bu vəzifəyə dövlət tərəfindən təyin olunmuş, maaşlarını da dövlətdən almışlar.

SSRİ dağıldıqdan sonra sovet məkanında mövcud olan bütün müsəlman dini təşkilatları böhrana məruz qaldığı, parçalandığı halda, Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi 1980-ci ildə şeyxülislam seçilmiş gənc axund Allahşükür Paşazadənin sədrliyi altında öz fəaliyyət dairəsini daha da genişləndirir, nüfuzunu bütün Qafqaza yayır. Lakin Cənubi və Şimali Qafqazdakı dini prosesləri bir mərkəzdən, Bakıdan idarə etmək məsələsi çətinləşir. Müxtəlif dini istiqamətlərin rəhbərləri ikinci dərəcəli, daha çox deklorativ xarakter daşıyan məsələlərdə bir araya gəlsələr də, hüquqi tabeçilik problemləri öz həllini tapmır. Hazırda Şimali Qafqazda bir neçə dini idarə, müftilik, koordinasiya şurası, 100-dək ali və orta ixtisaslı dini müəssisə müstəqil şəkildə, Rusiya Federasiyasının qanunları əsasında fəaliyyət göstərirlər.

Qafqaz Müsəlmanları İdarəsi beynəlxalq İslam təşkilatları ilə əlaqəsini ardıcıl şəkildə təmin edir, müsəlman ölkələri ilə dini zəmində sıx əməkdaşlıq edir.





Bu gün Qafqaz Müsəlmanları İdarəsi öz səlahiyyətləri çərçivəsində Azərbaycanda İslam dini icmalarına rəhbərlik edir, şəri qayda-qanunların düzgün yerinə yetirilməsinə nəzarət edir, Bakı İslam Universiteti vasitəsi ilə din sahəsində kadrların yetişdirilməsində xeyli işlər görür, ölkədəki dini durumda gedən proseslərin məsuliyyət yükünü daşıyır.

Həmçinin, Qafqaz Müsəlmanları İdarəsi vahid rəhbərlik kəsb edir və şeyxülislam tərəfindən idarə olunur. Müfti Şeyxülislamın birinci müavini sayılır və sünni məzhəb müsəlmanların dini işlərini tənzimləyir. Hazırda müfti nüfuzlu din xadimi kimi tanınan hacı Salman Musayevdir.

# RUS PRAVOSLAV KİLSƏSİNİN BAKI VƏ AZƏRBAYCAN YEPARXİYASI DİNİ QURUMU

XIX əsrdə Rusiyanın Azərbaycanı işğal etməsi və rusların burada məskunlaşması ölkəmizdə pravoslavlığın yayılmasına təkan verib. 1905-ci ildə rus əhalisinin dini tələbatının ödənilməsi və çar Rusiyasının Azərbaycanda mövqeyinin gücləndirilməsi məqsədilə Bakı arxiyerey kafedrası (sonradan Bakı və Xəzəryanı Yeparxiya adlanıb) yaradılıb.

Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra 1934-cü ildə həmin yeparxiyanın fəaliyyəti dayandırılıb. 1998-ci il dekabrın 28-də Müqəddəs Sinodun qərarı ilə dini fəaliyyətini bərpa edən Bakı və Xəzəryanı Yeparxiyanın adı 2011-ci il martın 22-də dəyişdirilərək Bakı və Azərbaycan Yeparxiyası adlandırılıb.

2002-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində qeydiyyatdan keçmiş Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan yeparxiyası pravoslav dini qurumu "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə və dəyişikliklər edildikdən sonra 2009-cu ildə yenidən dövlət qeydiyyatına alınıb.

Bakı və Azərbaycan Yeparxiyasına indiyədək Nikandr Fenomenov (1905-ci il), Qriqori Vaxnin (1907-1910), Pimen Peqov (1911-1912), Qriqori Yatskovski (1913-1917), Pavel Vilkovski (1919-1923), Dimitri Dobroserdov (1923-cü ilin iyun-sentyabr ayları), Mitrofan Ogiyenko (1924-cü ilin yanvar-avqust ayları), Arseni Sokolovski (1924-1928), Serafim Protopopov (1928-1930), Nikon Purlevski (1930-cu ilin aprel-oktyabr ayları), Valeri Rudiç (1930-31-ci illər), Mitrofan Polikarpov (1931-34-cü illər), Aleksandr Rayevski (1933-cü ilin fevral-avqust ayları) adlı din xadimləri rəhbərlik ediblər. 14 yanvar 1999-cu ildən indiyədək Yeparxiyanın rəhbəri arxiyepskop Aleksandr İşeindir.





Aleksandr İşein 1952-ci ildə Yaroslav şəhərində fəhlə ailəsində dünyaya gəlib. Yeniyetməlik dövründən dindarlığa və kilsəyə marağı yaranıb, bu sahədə ədəbiyyatlar oxumağa başlayıb. Orta məktəbi bitirdikdən sonra Leninqrad (indiki Sankt-Peterburq) Kimya-Əczaçılıq İnstitutunda təhsil alıb, 1973-74-cü illərdə isə hərbi xidmətdə olub. Hərbi xidmətdən qayıdandan bir il sonra rahibliyi qəbul edib, Stavrapol və Bakı yepiskopu Antoni tərəfindən İyerodiakon və İyeromonax dini rütbələrinə təyin olunub, Stavrapol yeparxiyasında fəaliyyət göstərib.

Qiyabi olaraq Moskva ruhani seminariyasını bitirib və dörd il Mozdok şəhərində Uspenski məbədində baş keşiş vəzifəsində çalışıb. Şimali Osetiyada bir neçə kilsənin təmir və bərpasında yaxından iştirak edib, Qafqazda Xristianlığın tarixinə dair tədqiqatlar aparıb. 1988-ci ildə Arximandrit rütbəsinə təyin olunub. 1995-ci ildə isə Bakıda "Rojdestvo Boqoroditsa" kafedral kilsəsində baş keşiş vəzifəsində çalışıb.

Ölkənin ağır günlərində onun təşəbbüsü ilə kilsədə təmənnasız naharlar təşkil olunub, uşaq və əlillərə maddi yardımlar edilib, kilsə daxilində müxtəlif xeyriyyə fəaliyyətləri həyata keçirilib. Uzun illərdir Azərbaycanda din xadimi kimi fəaliyyət göstərən və 1999-cu ildən Bakı və Azərbaycan Yeparxiyasına rəhbərlik edən Aleksandr İşein müsəlman və pravoslav icmaları arasında dostluq münasibətlərinin daha da dərinləşməsi, respublikamızla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması və təbliğ olunması işində yaxından iştirak edib.

Bakı və Azərbaycan Yeparxiyası Azərbaycan ərazisini əhatə edərək, iki blaqoçinniyə, yəni inzibati bölgüyə bölünür: 1. Bakı

şəhər blaqoçinnisi; 2. Azərbaycan rayonlarının blaqoçinnisi. Yeparxiyada 30 din adamı fəaliyyət göstərir. Bakı şəhər blaqoçinnisində ştatda olan 12 keşiş, 5 ştatdan kənar keşiş, ştatda olan 6 diyakon və 1 ştatdan kənar diyakon var.

Azərbaycan rayonlarının blaqoçinnisində isə ştatda 3 keşiş, ştatdan kənar 3 keşiş və ştatda olan 1 diyakon fəaliyyət göstərir.

Bakı şəhər blaqoçinnisinin tərkibinə dörd ibadət evi daxildir: "Müqəddəs Jen-Mironosets Baş Kafedral" kilsəsi, "Müqəddəs Məryəmin Miladı" kilsəsi, "Mixail Arxangel" kilsəsi və böyük knyaz "Aleksandr Nevski" adına kiçik kilsə (Rusiyanın Azərbaycandakı səfirliyinin ərazisində yerləşir).

Azərbaycan rayonlarının blaqoçinnisinin tərkibinə 4 ibadət yeri daxildir: Gəncə şəhərindəki "Aleksandr Nevski" kilsəsi, Xaçmaz şəhərindəki "Müqəddəs möcüzə göstərən Nikolay kilsəsi" və Sumqayıt şəhərindəki "Müqəddəs Serafim Sarovski" prixodu və Lənkəran şəhərindəki prixod.

Yeparxiyanın tərkibində Pravoslav Dini Mədəniyyət Mərkəzi də fəaliyyət göstərir. Mərkəz Prezident İlham Əliyevin tapşırığı ilə inşa olunub. 2013-cü il noyabrın 15-də Prezident İlham Əliyevin iştirakı ilə Mərkəzin açılış mərasimi keçirilib. Mərasimdə Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə, Bakı və Azərbaycan arxiyepiskopu Aleksandr İşein, Vereyski arxiyepiskopu, Müqəddəs Sinod yanında Tədris Komitəsinin sədri, Moskva Pravoslav Ruhani Akademiyasının ve Seminariyasının rektoru Yevgeni, Berlin ve Alman arxiyepiskopu Feofan, Moskva Patriarxlığının Sin bölməsinin kilsə və cəmiyyətin münasibətləri üzrə şöbə rəhbəri Vsevolod Çaplin, Bakı Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Avropa yəhudilərinin Bakı dini icmasının sədri Gennadi Zelmanoviç, Quba rayonu,Qırmızı qəsəbə Dağ yəhudiləri dini icmasının sədri Boris





Simanduyev, Azərbaycan Respublikası Alban-udin dini icmasının sədri Robert Mobili, Bakıdakı katolik kilsəsinin ordinarisi Vladimir Fekete, Azərbaycanın rus icmasının sədri, Milli Məclisin deputatı Mixail Zabelin, Rusiyanın və Belarusun Azərbaycandakı səfirləri Vladimir Doroxin ve Nikolay Pastkeviç və digər şəxslər iştirak ediblər.

# "AZƏRBAYCAN RESPUBLİKASINDA KATOLİK KİLSƏSİNİN APOSTOL PREFEKTURASI" DİNİ QURUMU

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra katolik icması yenidən formalaşıb və 1999-cu ildə dövlət qeydiyyatına alınıb. Əvvəllər dini ayinləri evlərdə icra edən icma üzvləri 2001-ci ildə xüsusi bina alaraq kilsəyə çeviriblər, daha sonra Azərbaycan hökuməti ilə Vatikan arasında Bakıda katolik kilsəsinin inşa olunması barədə razılıq əldə edilib.

2002-ci ildə Roma-katolik dini icması Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində təkrar dövlət qeydiyyatından keçib. Eyni zamanda 22-23 may 2002-ci ildə Katolik kilsəsinin sabiq başçısı Papa II İoann Pavel Bakıda rəsmi səfərdə olub. Həmin il Ümummilli Lider Heydər Əliyevin göstərişi əsasında Bakının mərkəzində katolik kilsəsi üçün yer ayrılıb.

Katolik kilsəsinin inşası ilə yanaşı, 2011-ci ildə Azərbaycan Respublikası və Müqəddəs Tax-Tac (Vatikan) arasında "Katolik Kilsəsinin Azərbaycan Respublikasında hüquqi statusu haqqında" Saziş imzalanıb. Həmin sazişdən sonra "Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturası" dini qurumu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində qeydiyyatdan keçib.

Ölkəmizdə yaşayan katoliklərin dəqiq sayı məlum deyil. "Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturası" dini qurumunun məlumatına görə, ölkəmizdəki katoliklərin təqribən 300 nəfəri Azərbaycan vətəndaşıdır. Onların da mütləq əksəriyyəti bir tərəfi polyak, ukraynalı, belarus və başqa millətdən olan qarışıq ailələrdə doğulanlardır. Katolik prixodun





mənsubları arasında müxtəlif xarici şirkətlərdə çalışan əcnəbilər (ABŞ, Meksika, İtaliya, Slovakiya, Filippin və s. dövlətlərin vətəndaşları) üstünlük təşkil edir. Onların təxmini sayı 500 nəfərdir.

Müstəqillik dövründə katolik kilsədə 300 nəfərə yaxın dindar xaç suyuna salınıb. Ortalama hər il 10-12 nəfər vəftiz ayinindən keçir. Respublikamızda katoliklər əsasən Bakıda yaşayırlar. Gəncə və Sumqayıt şəhərlərində də bu xristian məzhəbin az sayda ardıcılı var.

**Apostol Prefekturası.**

Roma Katolik Kilsəsinin yeparxiyaya bərabər tutulan ərazi vahididir. Bu dini təşkilat növü müvəqqəti statusa malikdir və yeparxiyanın yaradıla bilmədiyi ərazilərdə təsis edilir. Azərbaycandakı apostol prefekturası Roma kuriyasının (Müqəddəs Taxt-Tacın əsas inzibati orqanı) doqquz iri təşkilatından biri olan Xalqların İncilləşdirilməsi Konqreqasiyasına tabedir. Prefekturanın başçısı "ordinari" kilsə rütbəsini daşıyır. İnzibati işlərdə ordinariyə müavin və katib vəzifəsini yerinə yetirən rahiblər kömək edir. Dini qurumun təşkilati işini pastorlar, presviterlər və iqtisadi məsələlər üzrə şuralar tənzimləyir. Qurumun nəzdində kilsə mənsubları üçün İstirahət Evi, Nəşriyyat şöbəsi, müxtəlif xeyriyyə cəmiyyətləri mövcuddur.

**"Müqəddəs Bakirə Məryəmin Məsum Hamiləliyi" kilsəsi.**

250-300 nəfərin ibadət edə biləcəyi kilsə Neapol Memarlıq Universitetinin professoru Pado Ruceyro və Bakı şəhərinin baş memarı Akif Abdullayevin layihəsi əsasında inşa edilib. 2005-ci ildə məbədin tikintisinə başlanılıb, Qafqaz Müsəlmanları İdarəsi və Azərbaycanda fəaliyyət göstərən digər konfessiyaların nümayəndələri kilsənin tikintisinə maddi yardım göstəriblər.

2007-ci ilin aprelində Roma-katolik kilsəsinin Cənubi Qafqaz üzrə apostol nunsisi arxiyepiskop Klaudio Qudjerotti yeni kilsəni

təqdis edərək burada ilk ibadəti həyata keçirib. Kilsənin rəsmi açılışı isə Vatikanın dövlət katibi kardinal Tarçizio Bertonenin 2008-ci ilin martında Azərbaycana səfəri çərçivəsində baş tutub. Açılış mərasimində dövlət başçısı İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva, Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə, Rus-Pravoslav Kilsəsinin Bakı və Azərbaycan yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, aparıcı dini icmaların rəhbərləri, diplomatik korpusun nümayəndələri, xarici qonaqlar iştirak ediblər.

Kilsədə dini ayinlər yerli vətəndaşlar üçün rus dilində, əcnəbilər üçün ingilis dilində keçirilir.

**"Şəfaətçi İsa Məsih" kiçik katolik kilsəsi.**

Bakı şəhərində "Gənclik" metrosunun yaxınlığındakı katolik prixodunun ikimərtəbəli həyət evində yerləşən 7 otaqlı binasının birinci mərtəbəsindəki iri zal "Şəfaətçi İsa Məsih" məbədi üçün ayrılıb. İbadətgahda eyni anda 42 nəfər dini ayin yerinə yetirə bilir. Dini ayinlər rus dilində keçirilir. Bundan başqa, kilsənin olduğu binada ordinarinin ofisi və salezian rahiblərinin monastırı qərarlaşıb.

**Kimsəsizlər üçün Şəfqət Evindəki kiçik katolik kilsə.**

Monastır həyatı sürən və kimsəsiz şəxslərə yardım əli uzadan, Afrika qitəsindən, Slovakiya, İtaliya, Hindistan və digər ölkələrdən gələn rahibələrin istifadəsi üçün nəzərdə tutulub. Ümumi sahəsi 28 kv.metrdir. Bu kiçik məbəddə təqribən 20 nəfər ibadət edə bilir.

**"Caritas Azerbaijan" Beynəlxalq Xeyriyyə təşkilatı.**

Salezian rahibləri tərəfindən idarə olunur. Müxtəlif sosial layihələr (pulsuz hüquqi yardım göstərir, mədəni-əyləncə proqramları, uşaqlar üçün yay düşərgələri və s.) həyata keçirən təşkilatın nəzdində xeyriyyə yeməkxanası fəaliyyət göstərir.





**"Məryəm" Xeyriyyə Tədris Mərkəzi.**

"Catholic Relief Services", "Jugend eine Welt", "Austrian Development Cooperation" və "Renovabis" təşkilatları, eləcə də Don Bosko Salezianlar ordeni və Bakıdakı İrland Cəmiyyətinin dəstəyi ilə 2004-cü ildə yaradılan mərkəzin məqsədi imkansız ailələrin uşaqlarına keyfiyyətli təhsil verməkdir. Mərkəzdə CISCO Networking kursu keçirilir, habelə, ingilis, rus, italyan, alman dilləri, Azərbaycan dili və ədəbiyyatı, riyaziyyat, tarix, kimya, fizika fənləri, gitara, rəsm və rəqs dərsləri, kompyuter proqramları və xalça toxuma sənəti öyrədilir. 2015-ci ilin məlumatına görə, təqribən 400 nəfərin tədris aldığı mərkəzdə 25 müəllim və digər əməkdaşlar işləyir.

**Kimsəsizlər üçün Şəfqət Evi.**

Kəlküttəli Tereza Ana Şəfqət Ordeninin şəfqət bacıları tərəfindən idarə olunur. Şəfqət bacıları Azərbaycanda 2005-ci ildən çalışırlar. Belə ki, Roma Katolik Kilsəsinin apostol administrasiyasının başçısı Cuzeppe Pazotto və şəfqət bacısı Albina Tereza Anaya məktub ünvanlayaraq Bakıda sığınacaq evinin açılmasını xahiş edirlər. Nəticədə 2006-cı ilin may ayından ölkəmizin paytaxtında yardıma möhtac adamlar üçün katolik şəfqət evi təsis olunur.

Şəfqət evinin ikimərtəbəli binasında 40-a yaxın şəxs sığınacaq tapa bilir. Evsiz qalanlar burada 2-3 ay müddətinə yerləşdirilir. Onlara gündə 3 dəfə yemək verilir, lazımi tibbi yardım göstərilir, eləcə də şəxsi sənədlərin qaydaya salınmasında, yaşayış yerinin və yaşamaq üçün vəsaitlərin tapılmasında müvafiq kömək edilir. Şəfqət bacıları tənha və atılmış yaşlıların layiqli dəfnlərini belə öz üzərlərinə götürürlər.

Sığınacaq yerində kişi və qadın palataları mövcuddur. Prefekturanın 2016-cı il üzrə verdiyi məlumata görə, sözügedən xeyriyyə təsisatında 5 rahibə çalışır. Maraqlısı isə odur ki, kimsəsiz

insanlara fədakarcasına xidmət göstərən şəfqət bacıları daha çox savab qazansınlar deyə, paltaryuyan maşından məqsədli şəkildə imtina edərək yiyəsiz adamların geyimlərini əlləri ilə yuyurlar.

Şəfqət evinin rahibələri Azərbaycandakı apostol prefekturasının tərkibində çalışsalar da, ordinariyə deyil, bilavasitə öz mərkəzlərinə tabedirlər.

**Ailələrə sosial yardım (PAD).**

"PAD"-ın əsas məqsədi tənha analara övladlarını böyütmək üçün yardım əli uzatmaqdır. Bunun üçün salezian rahibləri Slovakiya, İtaliya və digər Avropa dövlətlərindən olan könüllü himayədarlar axtarırlar. Ehtiyac içində yaşayan, atasız böyüyən uşaqların qayğısına qalmağa razılıq verənlər müvəqqəti olaraq hər ay müəyyən məbləğdə maliyyə yardımı göstərir, beləcə həyatın çətinlikləri ilə üzləşən analara dəstək olurlar.

Prefektura əsasən "Catholic Relief Services", "Jugend eine Welt", "Austrian Development Cooperation", "Renovabis" və digər beynəlxalq katolik təşkilatlar tərəfindən maliyyələşir. Eyni zamanda, 2011-ci ildən başlayaraq ölkəmizdəki dini icmalar, o cümlədən katoliklər Azərbaycan dövlətindən maliyyə yardımı alırlar. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, Azərbaycan Respublikası Prezidentinin 5 iyul 2016-cı il tarixli Sərəncamına əsasən katolik dini qurumuna 100 min manat vəsait ayrılıb.

Apostol Prefekturası ilə Qafqaz Müsəlmanları İdarəsi, Alban-Udi Xristian dini icması, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası və digər icmalar arasında xoş münasibətlər mövcuddur. Dövlət səviyyəli tədbirlərə və müxtəlif əlamətdar dini mərasimlərə prefekturanın rəhbərinin dəvət olunması artıq bir ənənə halını alıb.

Prefektura həftədə bir dəfə rus dilində "Voskresnoye slovo" ("Bazar günü kəlamı") adlı bülleten buraxır.





# BAKI ŞƏHƏRİ DAĞ YƏHUDİLƏRİ DİNİ İCMASI

İslam, pravoslav, katolik dini icmalarından fərqli Azərbaycandakı yəhudi icmaları vahid dini mərkəzdə bir araya gəlməyiblər. Hətta ölkədəki Dağ yəhudiləri belə dini mərkəz yarada bilməyiblər. Bunun nəticəsidir ki, hazırda Bakı, Sumqayıt və Gəncə şəhərlərində, eləcə də Oğuzda və Quba rayonu, Qırmızı qəsəbədə müstəqil yəhudi dini icmaları fəaliyyət göstərir.

Bakı şəhəri Dağ yəhudiləri dini icması Azərbaycanda nəinki dağ yəhudiləri, ümumiyyətlə, bütün yəhudi icmaları arasında ən böyük dini qurumdur. Bu baxımdan Bakı şəhəri Dağ yəhudiləri dini icması ölkədəki bütün dağ yəhudilərinin qeyri-rəsmi dini mərkəzi kimi qəbul edilir. Bu icma mənsublarının sayına, fəaliyyətinə, nüfuzuna görə yalnız Azərbaycanda deyil, bütün Qafqazda ən böyük yəhudi dini icmalarından biridir.

Ümumiyyətlə, qədim dövrlərdən Azərbaycan ərazisində yaşayan dağ yəhudiləri ölkəmizdə sayca ən böyük yəhudi icması sayılır. Onlar özlərini cuhur adlandırır və yəhudiliyin Şərq qoluna (sefardlar) aiddirlər.

XIX əsrədək əsasən Azərbaycanın Şimalında və Dağıstanın Cənubunda yaşamış dağ yəhudiləri, daha sonra ölkəmizin və Rusiyanın digər bölgələrinə köçüblər. Dünyada təqribən 110 minə yaxın dağ yəhudisi yaşayır. Respublikamızda isə təqribən on bir mindən artıq dağ yəhudisi var və onlardan təqribən altı mini Bakı şəhərində məskunlaşıb.

Dağ yəhudiləri tat dilində danışırlar. Həmçinin, ölkəmizdə yaşayan bu yəhudi icmasının nümayəndələri Azərbaycan və

rus dillərini gözəl bilirlər. Onlar qonşu xalqların, o cümlədən azərbaycanlıların adət-ənənəsini, musiqi və mətbəxini mənimsəyərək yerli xalqla qaynayıb-qarışıblar.

Dini əqidələrinə görə, dağ yəhudiləri rabbani sayılır. Onlar üçün Tövrat və Musa peyğəmbərin qanunları mübahisəsiz və şəksiz səciyyə daşıyır. Dağ yəhudiləri ibranicə dua edir və İudaizm dininin özünəməxsus şəklini formalaşdırıblar ki, bu xüsusiyyət Qafqaz həyatı ilə sıx bağlıdır. Onların özlərinə məxsus nusax adlı dua mərasimi var.

Dağ yəhudilərinin dini həyatlarından danışarkən, sovet hakimiyyətinin onlara vurduğu maddi-mənəvi zərbəyə toxunmamaq mümkün deyildir. Rəsmi ideologiyaları hərbi ateizm olan bolşeviklər dağ yəhudilərini dinlərindən uzaqlaşdırmaq məqsədilə XX əsrin əvvəllərində Bakının Torqovıy döngəsində və Sabunçuda tikilmiş sinaqoqları bağlayaraq, bəzi ravvinləri güllələyiblər. Həmçinin, bu məqsədlə ivrit dilini kiril əlifbasına çevirərək, 1921-ci ildə "Dağ yəhudiləri arasında təbliğat və mədəniyyət cəmiyyəti" adlı qurum yaradıblar. Bu qurumun təsis edilməsində məqsəd dağ yəhudilərini dinlərindən uzaqlaşdırmaq, onlar arasında ateizm ideologiyasını yaymaq olub ki, belə cəhdlər uğursuzluqla nəticələnib və insanlar öz etiqadlarına sadiq qalıblar.

Hazırda Azərbaycanda dağ yəhudilərinin dinlərinə uyğun yaşamaları və öz ibadətlərini yerinə yetirmələri üçün bütün lazımi şərait yaradılıb. Cəmiyyətimizin ayrılmaz parçası olan bu azsaylı xalqın nümayəndələri daim ölkə rəhbərliyi tərəfindən dəstək və qayğı ilə əhatə olunurlar.

Bakı şəhəri Dağ yəhudiləri dini icması sovetlər zamanından fəaliyyət göstərir. Həmin dövrdə dini icmaya sinaqoq üçün yer də ayrılıb. Lakin dini icmanın fəaliyyətinin ən uğurlu və çiçəklənən dövrü Azərbaycanın müstəqillik illərinə təsadüf edir. Son





25 ildə bu dini icma faktiki dini mərkəz kimi fəaliyyət göstərir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində ilk dəfə 2002-ci ildə qeydiyyatdan keçmiş "Bakı şəhəri Dağ yəhudiləri" dini icması "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edildikdən sonra 2009-cu ildə yenidən dövlət qeydiyyatına alınıb. Müstəqillik illərində dini icmaya uzun müddət Semyon Borisoviç İxiilov (1995-2012-ci illər) rəhbərlik edib. O, dini icmanın sədri kimi ölkəmizin ictimai həyatında mühüm rol oynayıb, Azərbaycan və yəhudi xalqları arasında dostluq münasibətlərinin daha da dərinləşməsi, respublikamızla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması və təbliğ olunmasına böyük səylə çalışıb.

Eyni zamanda, Azərbaycanda və müxtəlif xarici ölkələrdə keçirilən çoxsaylı beynəlxalq konfrans və görüşlərə qatılıb, dövlətimizin maraqlarına xidmət edən mövqedən çıxış edib, xüsusilə Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin ifşa olunması işində yaxından iştirak edib. Bunun nəticəsində Azərbaycanda yaşayan yəhudilərin, ölkə ictimaiyyətinin rəğbətini qazanıb və Ümummilli Liderimiz Heydər Əliyev onun fəaliyyətini yüksək qiymətləndirərək, "Şöhrət" ordeni ilə, Prezident İlham Əliyev isə "Prezidentin Fəxri Diplomu" ilə təltif edib.

2012-ci ildə dini icmaya Milix Yevdayev sədr seçilib. Onun sədrliyi dövründə Bakı şəhəri Dağ yəhudilərinə tikilmiş sinaqoqda dindarlar üçün qısa vaxtda yüksək səviyyəli şərait yaradılıb. Habelə, aztəminatlı yəhudi ailələri, yaşlı insanlar üçün sosial yönümlü işlər görülüb, dini icmanın beynəlxalq əlaqələri genişləndirilib.

Hazırda dini icma təkcə respublika deyil, hətta beynəlxalq səviyyəli dini və mədəni tədbirlərin təşkilatçısı kimi çıxış edir. Milix Yevdayev bu müddət ərzində xarici ölkələrdə Azərbaycan

həqiqətlərinin yayılmasına, xalqımızın tolerant və multikultural dəyərlərinin təbliğinə həsr olunmuş onlarla beynəlxalq konfransa qatılıb. Eyni zamanda, vətənpərvər, Azərbaycan xalqının mədəniyyətinə, xüsusilə ədəbiyyatına dərindən bələd olan və onu sevən səmimi insan kimi ictimaiyyətin rəğbətini qazanıb.

Yüksək təşkilatçılıq qabiliyyətinə malik olan Milix Yevdayevin dinlərarası dialoqun və tolerantlığın inkişafında xidmətləri nəzərə alınaraq, Prezident İlham Əliyev tərəfindən "Prezidentin Fəxri Diplomu" və "Şöhrət" ordeni ilə təltif olunub.





# AVROPA YƏHUDİLƏRİNİN BAKI DİNİ İCMASI

XIX əsrin son illərində aparılmış rəsmi statistikaya görə, Bakıda yaşamış yəhudilərin əksəriyyətini aşkenazilər (Avropa yəhudiləri) təşkil edib. Sonradan dağ yəhudilərinin sayı onları üstələyib. Bakıya köçmüş aşkenazilərin əksəriyyəti ziyalı təbəqəsinə mənsub olub. Onlar arasında həkim, memar, müəllim və vəkillər üstünlük təşkil edib. Avropa yəhudiləri ölkəmizdə tolerant mühitlə qarşılaşıb, bu isə onların sonrakı dövrlərdə cəmiyyətimizdə mühüm yer tutmalarına, elm, mədəniyyət və incəsənətimizə öz töhfələrini vermələrinə şərait yaradıb.

Hətta 1959-cu ildə əhalinin siyahıya alınmasına görə, Bakı şəhərində 30 minə yaxın yəhudi yaşayıb ki, onların əksəriyyətini aşkenazilər təşkil edib. Hazırda Bakıda yaşayan aşkenazilərin dəqiq sayı bilinmir. Bəzi məlumatlara görə, paytaxtda təqribən 3300 aşkenazi yaşayır. Digər mənbələrə əsasən isə aşkenazi icmasının sayı 1000 nəfəri keçmir.

Avropa yəhudilərinin Bakı dini icmasının yaranması tarixi 1945-46-cı illərə gedib çıxır. O dövrdə müsəlman, pravoslav, dağ yəhudiləri ilə yanaşı, Avropa və gürcü yəhudilərinin də dini icması bərpa edilib. Həmçinin, Avropa və gürcü yəhudilərinə birgə ibadət etmələri üçün bina ayrılıb. Şəhərin mərkəzində yerləşmiş həmin bina, əslində müharibə illərində hərbi sursat üçün anbar kimi istifadə olunmuş bərbad vəziyyətdə olan yarızirzəmi idi.

Sovet hakimiyyəti illərində belə çətin şəraitdə ibadət etməyə məcbur olan aşkenazilərin vəziyyəti Azərbaycan xalqının yenidən müstəqillik əldə etməsinədək davam edib, müstəqillik illəri

isə onların dini həyatı üçün dönüş nöqtəsi olub.

Avropa yəhudilərinin Bakı dini icması Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində ilk dəfə 2002-ci ildə qeydiyyatdan keçib, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə və dəyişikliklər edildikdən sonra 2009-cu ildə yenidən dövlət qeydiyyatına alınıb.

2003-cü il martın 9-da Bakıda Avropa və gürcü yəhudiləri üçün köhnə məbədin yerində yeni, üçmərtəbəli kitabxana, mətbəx və iki geniş dua otağı olan yeni sinaqoq tikilib. Ölkə rəhbərliyinin etnik azlıqlara və dini icmalara göstərdiyi qayğısı və müxtəlif xeyirxah şəxslərin, təşkilatların maliyyə dəstəyi nəticəsində həyata keçmiş bu layihə ölkəmizdə tarixən mövcud olmuş tolerantlığın göstəricisinə çevrilib.

1990-cı ildə Avropa yəhudilərinin Bakı dini icmasına ixtisasca hüquqşünas olan M. Xaykin rəhbərlik edib. Onun təşəbbüsü ilə ölkəmizdə yerli nüfuzlu alim və ictimai xadimlərin üzv olduğu "Azərbaycan-İsrail" Dostluq Cəmiyyəti fəaliyyətə başlayıb. 1992-ci ildə L.Ginzburq icmanın sədri seçilib. Onun aktiv fəaliyyəti nəticəsində Azərbaycan Yəhudi Qadın Təşkilatı yaradılıb. Sonrakı illərdə icmaya Mixail Bekker (1995-2001-ci illər) rəhbərlik edib. 2001-ci ildən dini icmanın sədri Gennadi Zelmanoviçdir.

Bakıdakı aşkenazi yəhudiləri dini icması əsasən İsrail, Rusiya və digər ölkələrdə yaşayan imkanlı soydaşlarının maliyyə yardımı hesabına fəaliyyət göstərir. Eyni zamanda, Azərbaycan dövləti də bu azsaylı ənənəvi icmaya daim diqqət və qayğı ilə yanaşır. Belə ki, 2011-ci ildən etibarən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə Nazirlər Kabinetinin qərarı əsasında dövlət qeydiyyatından keçmiş qeyri-müsəlman icmalara, o cümlədən Avropa Yəhudilərinin Bakı dini icmasına dövlət büdcəsindən maliyyə yardimi ayrılıb.





Eyni zamanda, 2016-cı ildə Prezident İlham Əliyevin Sərəncamı ilə Prezidentin Ehtiyat Fondundan Qafqaz Müsəlmanları İdarəsinə 1 milyon, Rus-Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasına 250 min, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 250 min, "Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturası" dini qurumuna 100 min, Azərbaycan Respublikası Alban-Udin xristian dini icmasına 100 min, o cümlədən Avropa yəhudilərinin Bakı dini icmasına 100 min manat vəsait ayrılıb.

Avropa Yəhudilərinin Bakı dini icmasının Azərbaycanda dinlərarası münasibətlərin inkişafında, tolerant və multikultural dəyərlərin təbliğində və təşviqində böyük xidmətləri olub. İcmanın rəhbərliyi din sahəsində, xüsusilə dinlərarası dialoq prosesilə bağlı respublika və beynəlxalq səviyyəli tədbirlərdə həmişə yaxından iştirak edib. Respublika rəhbərliyi və ölkə ictimaiyyəti isə bu xidmətləri hər zaman yüksək qiymətləndirib.

# İBADƏT EVLƏRİ

## MƏSCİDLƏR VƏ ZİYARƏTGAHLAR

2016-cı ilin statistikasına əsasən, Azərbaycanda 2166 məscid (işğal olunmuş rayonlar istisna olmaqla) mövcuddur. Onlardan 209-u Naxçıvan Muxtar Respublikasının, 135-i isə Bakı şəhərinin payına düşür. Respublika üzrə məscidlərdən təxminən 1400-nün fəaliyyəti daimi, qalanları isə mövsümi xarakter daşıyır. 306 məscid tarixi-dini abidə kimi dövlət tərəfindən qorunur. Qeyd edək ki, sovetlər dövründə respublikada cəmi 17 məscid fəaliyyət göstərib.

Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə, 1993-2003-cü illər ərzində 517 məscid inşa olunub, 200-ə yaxın məsciddə əsaslı təmir işləri aparılıb, onlarla məscid yenidən qurulub. Dövlət vəsaiti hesabına 1998-ci ildə Bibiheybət məscid-ziyarətgah kompleksinin yenidən qurulmasına başlanılıb, 1999-cu ildə rəsmi açılışı olub. Növbəti mərhələdə Prezident İlham Əliyevin təşəbbüsü ilə Bibiheybət məscid-ziyarətgah kompleksinin genişləndirilməsi və yenidən qurulması işi davam etdirilib. 2008-ci il iyul ayının 12-də əsaslı yenidənqurma və təmir işlərindən sonra məscid kompleksinin açılış mərasimi keçirilib.





Ümumiyyətlə, Prezident İlham Əliyevin dövründə ölkədə yüzlərlə məscid inşa olunub, 80-dən artıq məsciddə əsaslı təmir və yenidənqurma işləri aparılıb, o cümlədən dövlət vəsaiti hesabına onlarla məscid tikilib və ya əsaslı bərpa olunub.

Azərbaycanın memarlıq incilərindən olan Təzəpir məscidi dövlət vəsaiti hesabına bərpa edilib. Belə ki, ölkə Prezidentinin göstərişi əsasında 2005-ci ildə məscidin bərpası və ətraf ərazilərin yenidən qurulması layihəsi hazırlanıb və dövlət başçısının nəzarəti altında icra olunub. 6 iyul 2009-cu ildə yenidənqurma və tikinti işlərindən sonra məscidin təntənəli açılış mərasimi keçirilib.

Bakının mərkəzində məşhur memar Zivər bəy Əhmədbəyovun layihəsi əsasında tikilmiş Hacı Əjdərbəy məscidi də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə bərpa edilib və 22 dekabr 2011-ci ildə açılış mərasimi olub.

Bu sahədə Şamaxı Cümə məscidinin yenidən qurulması xüsusi qeyd edilməlidir. Belə ki, təkcə Azərbaycanın deyil, bütövlükdə Qafqazın ən qədim məscidlərindən olan Şamaxı Cümə məscidi 743-cü ildə inşa olunub. 1859-cu və 1902-ci illərdə baş vermiş zəlzələlər nəticəsində məscidə ciddi ziyan dəyib, XX əsrin əvvəllərində memar Zivər bəy Əhmədbəyov və polşalı mühəndis İosif Ploşkonun layihəsi əsasında yenidən bərpa edilib. Lakin 1918-ci ilin martında ermənilərin Şamaxıda törətdikləri soyqırım zamanı Cümə məscidi ora toplaşan insanlarla birlikdə yandırılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 dekabr 2009-cu ildə imzaladığı müvafiq sərəncama əsasən, Cümə məscidi Dövlət tarix-memarlıq abidəsinin bərpası üçün Prezidentin Ehtiyat Fondundan vəsait ayrılıb. Əslində, bu məscidin bərpası Azərbaycan xalqı üçün təkcə ibadət evinin yenidən qurulması deyil, həm tariximizin, həm milli irsimizin, həm də milli təfəkkürümüzün qorunması baxımından xüsusi əhəmiyyət daşıyırdı. Ona görə də, Prezident İlham Əliyev məsciddə aparılan

işləri nəzarətdə saxlamış, hətta bir neçə dəfə Şamaxıya gedərək bərpa prosesi ilə yerində tanış olmuşdu. Nəhayət, 17 may 2013-cü ildə Prezident İlham Əliyevin və Qafqazın bütün din xadimlərinin iştirakı ilə Şamaxı Cümə məscidinin möhtəşəm açılış mərasimi keçirilib.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə, ümumiyyətlə, Qafqazda inşa edilmiş ən möhtəşəm ibadət evi Ulu Öndərin adını daşıyan Heydər məscididir. Prezident İlham Əliyevin sərəncamı ilə inşa olunan bu məscid 12 min kvadratmetr sahədə salınıb. Məscidin fasadı Abşeron memarlıq üslubunda xüsusi daşlarla üzlənib, ornamentlərin zənginliyi fasadda xüsusi arxitektura harmoniyası yaradıb. Burada 95 metr hündürlüyündə 4 minarə inşa olunub.

Qeyd edək ki, dövlət başçısı məscidin tikintisini daim diqqət mərkəzində saxlayıb, burada həyata keçirilən inşaat işlərinin gedişi ilə yaxından maraqlanıb, mütəmadi olaraq buraya gələrək görülən işlərlə bağlı müvafiq tapşırıqlarını verib. Ümumi sahəsi 4200 kvadratmetr olan məscidin daxilində də xüsusi bəzək elementlərindən istifadə olunub, günbəzin kənarlarına Quran ayələri yazılıb. 55 metr hündürlüyündə olan baş günbəz, o cümlədən hündürlüyü 35 metr olan ikinci günbəz məscidin daxilinə xüsusi gözəllik verir.

2014-cü il dekabrın 26-da Heydər məscidinin açılışı mərasimi olub. Mərasimdə Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri iştirak ediblər.

Ölkə Prezidentinin sərəncamına əsasən yenidən qurulmuş tarixi-dini abidələrimizdən biri də Gəncədə İmamzadə ziyarətgah kompleksidir. 17 fevral 2016-cı ildə Prezident İlham Əliyevin iştirakı ilə açılış mərasimi keçirilmiş İmamzadə ziyarətgah kompleksi İslam dünyasının ən möhtəşəm abidələrindən birinə çevrilib.





Qeyd olunan ibadət evləri ilə yanaşı, ölkə başçısının müvafiq tapşırıq və təşəbbüsü ilə İçərişəhər Cümə, Həzrəti Məhəmməd, Salyan Cümə, Sumqayıt Cümə və digər məscidlərdə bərpa işləri aparılaraq dindarların istifadəsinə verilib.

Eyni zamanda, Heydər Əliyev Fondu tərəfindən 8 məscid və ziyarətgah – Daşkəsən şəhər Cümə məscidi, Gəncə şəhər Şah Abbas və Həzrət Zeynəb məscidləri, Xəzər rayonu Buzovna qəsəbəsi Cümə məscidi, Mərdəkan qəsəbəsi Pirhəsən ziyarətgahı, Şüvəlan qəsəbəsi Heydər məscidi, Binə qəsəbəsi Möhsün Səlim və İmam Rza məscidləri inşa və ya əsaslı təmir olunub.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xarici dövlətlər və onlara məxsus təşkilatlar tərəfindən 119 məscid tikilib və ya yenidən qurulub. Bu məscidləri əsasən ötən əsrin 90-cı illərində Türkiyə Respublikası, Küveyt Dövləti, Səudiyyə Ərəbistanı Krallığı, Qətər Dövləti və İran İslam Respublikası inşa edib.

Türkiyə Azərbaycanda 23 məscid tikib. Bunlardan 7-ni Türkiyə Diyanət İşləri Başqanlığı Bakı şəhərində, Qusar, Yevlax, Ağdaş rayonlarında, 12-ni Gəncliyə Yardım Fondu Oğuz, İsmayıllı, Yevlax, Zaqatala, Qəbələ, Göyçay, Ağsu, Şamaxı, Şəki, Kürdəmir rayonlarında, 4-nü türkiyəli iş adamları Sumqayıt şəhərində, Xaçmaz və digər rayonlarda inşa etdirib. Türkiyə tərəfindən inşa və əsaslı bərpa olunmuş məscidlərin hamısı fəaliyyət göstərir.

Azərbaycanda xarici ölkələr tərəfindən tikilmiş və bərpa olunmuş məscidlərin üçdə ikisi Küveytin payına düşür. Bu ölkə Azərbaycanda 73 məscid tikdirib və ya əsaslı bərpa edib. Bunlardan 56-sı "İslam İrsinin Dirçəlişi" Cəmiyyəti, 15-i Asiya Müsəlmanları Komitəsi, 1-i İslam İnkişaf Bankı, 1-i Küveyt vətəndaşı tərəfindən tikilib. Həmin məscidlər əsasən, Bakı şəhərində, Xaçmaz, Quba, Şabran, Qusar, İsmayıllı, Göyçay, Ağdaş, Ağsu, Qəbələ, Qobustan, Kürdəmir, Şamaxı, Oğuz, Ağstafa və Tovuz rayon-

larındadır. Təriqətçilik meyilləri nəzərə alınaraq, "İslam İrsinin Dirçəlişi" Cəmiyyəti tərəfindən tikilmiş məscidlərdən 14-ü hazırda fəaliyyət göstərmir.

Səudiyyə Ərəbistanı Krallığı Azərbaycanda 3 məscid tikdirib, bunlardan ikisini Beynəlxalq İslam Gənclər Assambleyası Şirvan şəhərində və Gədəbəy rayonunun mərkəzində, birini isə Səudiyyə Ərəbistanı hökuməti Astara rayonunun Vəznəş kəndində inşa etdirib. Bu məscidlərdə radikal dini cərəyan mənsubları yayıldığı üçün müxtəlif vaxtlarda onların fəaliyyətinə məhdudiyyətlər qoyulub.

Qətər Azərbaycanda 1 məscid tikdirib. "Qətər" Xeyriyyə Cəmiyyəti tərəfindən Qax şəhərində inşa edilmiş məscid hazırda fəaliyyət göstərir.

İran İslam Respublikası Bakı şəhərində 1 məscid (Hüseyniyyə) inşa etdirib. Yalnız İran vətəndaşlarının ibadət etmələri üçün nəzərdə tutulsa da, "Hüseyniyyə"yə gələnlərin böyük əksəriyyətini azərbaycanlılar təşkil edir. Məscid bu ölkənin Azərbaycandakı səfirliyinin Mədəniyyət Mərkəzinin birbaşa nəzarəti altında fəaliyyət göstərir.

**Ziyarətgahlar.**

Respublika ərazisində əhali tərəfindən müqəddəs məkan kimi ziyarət olunan yerlər – ziyarətgah və pirlərin ümumi sayı (Naxçıvan Muxtar Respublikası və işğal olunmuş ərazilər istisna olmaqla) 749-dur. Onlardan 25-i Bakı-Abşeron bölgəsinin payına düşür. Pir və ziyarətgahları yaranma səbəbinə görə 3 qrupa bölmək olar: tarixi-dini şəxsiyyətlərlə bağlı olanlar (Bibiheybət, Rəhimə xanım, Mirmövsüm ağa və s.), təbiət hadisələri ilə bağlı olanlar (Haça qaya, Duruca bulaq, Tək ağac və s.) və tibbi-şəfaverici xüsusiyyətləri olanlar (Göz piri, Göz narı, Yel piri və s.).





Fəallıq (əhalinin gediş-gəlişinə) səviyyəsinə görə ziyarətgahları 4 qrupa bölmək olar: aktiv fəal, fəal, mövsümi fəal və qeyri-fəal.

Fəal kimi xarakterizə olunanların sayı üstünlük təşkil edir. Belə ki, araşdırmalar nəticəsində ümumilikdə ziyarətgahların 45-nin aktiv fəal, 436-nın fəal, 31-nin mövsümi fəal, 237-nin isə qeyri-fəal olduğu müəyyən edilib. Ziyarətgahların fəallıq səviyyəsi əhalinin gediş-gəlişinin sıxlığı, nəticədə gəlirlərin həcminə görə müəyyənləşir. Həmçinin, ziyarətgahları onlara nəzarət olunması baxımından iki qrupa bölmək olar: varislərin (adı ilə bağlı olduğu şəxsin varisləri) və ya digər şəxslərin idarə etdiyi ziyarətgahlar, Qafqaz Müsəlmanları İdarəsinin təyin etdiyi şəxslərin idarə etdiyi ziyarətgahlar.

Ölkədəki ziyarətgahları əhəmiyyətliliyinə görə şərti olaraq 3 qrupa bölmək olar: ölkə əhəmiyyətli, bölgə əhəmiyyətli və yerli əhəmiyyətli ziyarətgahlar.

Ölkə əhəmiyyətli ziyarətgahlar ölkənin müxtəlif bölgələrindən gələn ziyarətçi izdihamı, maddi vəsaitlərin, ianələrin kütləvi axını ilə səciyyələnir və ümumilikdə ölkə miqyasında (Cərcis peyğəmbər, Bibiheybət, Rəhimə xanım, Gəncə İmamzadəsi, Əshabi-Kəhf, Beşbarmaq və s. kimi), bəzi hallarda ölkə hüdudlarından kənarda da (Mirmövsüm Ağa ziyarətgahı kimi) tanınır.

Bölgə əhəmiyyətli ziyarətgahlar bölgə miqyasında tanınır, əsasən yerləşdiyi bölgə əhalisinin ziyarət məqsədilə üz tutduğu və müqəddəs saydığı məkanlardır (Buzovna qəsəbəsi - Əli ayağı ziyarətgahı, Ağdam rayonu Seyid Lazım Ağa ziyarətgahı, Lənkəran rayonu Şeyx Zahid, Seyid Xəlifə ziyarətgahları və s.) Burada da ziyarətçilərin sıxlığı, maliyyə axınının çoxluğunu qeyd etmək olar.

Yerli əhəmiyyətli ziyarətgahlar yalnız yerləşdiyi yaşayış məntəqəsində tanınır, ziyarətçilərin sayı və maliyyə axınının kəmiyyətcə aşağı olması ilə səciyyələnir.

# KİLSƏLƏR VƏ DİGƏR İBADƏT EVLƏRİ

Azərbaycanda xeyli sayda tarixi kilsə var və onlar dövlət tərəfindən qorunur. Bu kilsələrin böyük əksəriyyəti Alban məbədləridir. İşğal olunmuş ərazilərimizdə və bu gün Ermənistan adlandırılan tarixi Azərbaycan torpaqlarında mövcud olan Alban məbədlərinin hamısı ya qriqoryanlaşdırılıb, ya da məhv edilib.

Hazırda respublikada 13 kilsə fəaliyyət göstərir. Bunlardan 5-i rus-pravoslav məbədidir. Bakıda 3, Gəncə və Xaçmazın hər birində 1 rus-pravoslav kilsəsi var. Eyni zamanda, Sumqayıt və Lənkəran şəhərində Rus-Pravoslav Kilsəsinə məxsus ibadət evi fəaliyyətdədir. Qeyd olunan 5 kilsə və 2 ibadət evi Rus-Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası tərəfindən idarə edilir. Bakı şəhərindəki "Jen Mironosets" baş kafedral kilsəsi, "Arxangel Mixail" kilsəsi, "Müqəddəs Məryəmin mövludu" kilsəsi və Gəncə şəhəri "Aleksandr Nevski" kilsəsi tarixi memarlıq abidəsidir.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra sovet dövründə təyinatı üzrə istifadə edilməyən "Jen Mironosets" mə-





bədi Rus Pravoslav Kilsəsinə qaytarılıb və məbəd əsaslı şəkildə təmir edilib. Həmçinin, Prezident İlham Əliyevin himayəsi altında "Jen Mironosets" baş kafedral kilsəsinin yanında Pravoslav Dini Mədəniyyət Mərkəzi inşa olunaraq rus pravoslav icmasının istifadəsinə verilib.

"Jen Mironosets" kilsəsini 1909-cu ildə Azərbaycanın məşhur xeyriyyəçisi, müsəlman Hacı Zeynalabdin Tağıyev inşa etdirib. Hazırda Qafqazın ən böyük rus-pravoslav kilsəsi olan "Jen-Mironosets" məbədi memarlıq xüsusiyyətlərinə və tarixi keçmişinə görə Pravoslav aləminin ən görkəmli kilsələrindən biri kimi qəbul olunur.

Hacı Zeynalabdin Tağıyev bu məbədi inşa etdirən zaman hansısa müsəlman tərəfindən qınanmayıb, əksinə, onun bu hərəkətini hamı rəğbətlə qarşılayıb. Çünki azərbaycanlılar məscid, kilsə, sinaqoq fərqi qoymadan, bütün dinlərin məbədlərinə Allah evi kimi yanaşır, onu tikdirəni isə xeyirxah, əməli-saleh adam kimi qəbul edirlər. Azərbaycan xalqı bu ənənəni indi də davam etdirir. Belə ki, bir əsr öncə - 1909-cu ildə Hacı Zeynalabdin Tağıyevin tikdirdiyi "Jen Mironosets" kilsəsi 2001-ci ildə yenə Azərbaycanın müsəlman bir xeyriyyəçisi – Aydın Qurbanov tərəfindən bərpa olunub.

Bakıda fəaliyyət göstərən böyük kilsələrdən biri də katolik məbədidir. 2002-ci ildə Roma Katolik kiləsinin mərhum başçısı Papa II İohann Pavelin Bakıya rəsmi səfəri zamanı Ümummilli Lider Heydər Əliyevin göstərişi əsasında şəhərin mərkəzində katolik kilsəsi üçün yer ayrılmış və 2008-ci il mart ayının 7-də "Müqəddəs Bakirə Məryəmin Məsum Hamiləliyi" katolik kilsəsinin rəsmi açılış mərasimi keçirilmişdir.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Bakıdakı lüteran kilsəsi də bazar günləri dindarların istifadəsinə verilir.

Prezident İlham Əliyevin sərəncamı ilə təmir olunmuş tarixi Lüteran kilsəsinin 30 dekabr 2010-cu ildə açılışı olmuşdur. Müslüm Maqomayev adına Azərbaycan Dövlət Flarmoniyasının kamera və orqan musiqisi zalı kimi fəaliyyət göstərən kilsədə bazar günləri Lüteran dini icmasının dini ibadət və mərasimlər keçirməsinə lazımi şərait yaradılmışdır.

Hazırda Qax rayonunda 4 gürcü-pravoslav kilsəsi fəaliyyət göstərir. Həmin məbədlərdə rayonun Qax İngiloy, Kötüklü, Əlibəyli və Meşəbaş kəndlərində yaşayan gürcü-pravoslavlar ibadət edir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bu məbədlər gürcü-pravoslav dini icmasının istifadəsinə verilib. Həmin məbədlərdə indiyədək dəfələrlə təmir-bərpa işləri aparılmışdır. Sonuncu dəfə 1 iyun 2011-ci ildə Əlibəyli kəndində gürcü-pravoslav məbədinin - "Müqəddəs Nino" kilsəsinin təmirdən sonra açılış mərasimi keçirilmişdir.

Azərbaycanda ən qədim tarixə malik kilsə Alban-udi kilsəsidir. Bu gün Qəbələ rayonunun Nic qəsəbəsində və Oğuz şəhərində Alban-udi dini icmaları var. Hər iki dini icma qədim Alban məbədində fəaliyyət göstərir. Son on ildə respublika üzrə xeyli sayda Alban məbədində təmir-bərpa işləri həyata keçirilib.

Nic qəsəbəsindəki Çotari məbədi yerli sakinlərin vəsaiti hesabına 1723-cü ildə inşa edilib. Kilsənin adı qəsəbədəki Çotari məhəlləsinin adından götürülüb. Sovet hakimiyyəti illərində fındıq anbarı kimi istifadə olunmuş kilsədə 2003-cü ildə əsaslı bərpa və yenidənqurma işlərinə başlanılıb, 2006-cı ildə dindarların istifadəsinə verilib.

Təyinatı üzrə fəaliyyət göstərməsə də, Alban məbədləri arasında ən qədimi olan Kiş kilsəsi yenidənqurma və bərpa işləri nəticəsində bu gün möhtəşəm abidəyə çevrilib. Eramızın birinci əsrində Müqəddəs Yelisey tərəfindən inşa olunduğu güman edilən Kiş məbədi yalnız Azərbaycan Albaniyası ərazisində deyil, ümumiyyətlə, Qafqazda tikilmiş ilk xristian kilsəsidir.





2000-ci ilin fevral ayında Kiş layihəsi üzrə işə başlanılıb. Layihə abidənin memarlıq, arxeoloji tədqiqi, bərpa və uyğunlaşdırılmasını, eləcə də gələcəkdə muzey kimi fəaliyyət göstərməsini nəzərdə tutub.

Layihə dörd mərhələdə həyata keçirilib. Birinci mərhələ (2000-ci il iyun-2001-ci il) abidənin memarlıq - arxeoloji cəhətdən öyrənilməsinə həsr olunub. Məbədin içərisində və həyətində bir sıra maraqlı tapıntılar, o cümlədən, abidənin əsrlər boyu mədəni mərkəz olduğunu göstərən çoxlu qəbirlər, keramika qalıqları, qızıl və tunc bəzək əşyaları üzə çıxarılıb. Məbədin qərb hissəsinin alt tərəfindən tapılmış qəbir sərdabəni ən maraqlı qazıntı hesab etmək olar. Qazıntılar və abidənin bünövrələrinin arxeoloji tədqiqi müasir kilsənin divarlarının tikilmə tarixini (V əsr) müəyyən etməyə imkan verib, həmçinin onların daha qədim, altında bizim eranın birinci əsrinə aid olan məbədin divar və bünövrələrinin qalıqları yerləşən çoxtəbəqəli bünövrənin üstündə tikilməsi haqqında gümanı təsdiq edib.

Layihənin ikinci mərhələsinə 2001-ci ilin iyun ayında başlanılıb. Azərbaycan Mədəniyyət Nazirliyinin Şəki Bərpa İdarəsi bərpa layihəsini həyata keçirib. Bu bərpa işi 2 il, 2002-ci ilin sonuna qədər davam edib. Məbədin simasını pozan XIX əsrə aid əlavələr ləğv olunub. Bundan əlavə, binanın bütün parametri üzrə bünövrələr möhkəmləndirilib, şimal divarında və digər üç divarda bəzi sahələrdə üzlük daşları alınıb və yenidən möhkəmləndirilib.

İcrasına 2003-cü ildə başlanılan layihənin dördüncü mərhələsi isə abidənin muzeyləşdirilməsinə həsr olunub. Məbəd hazırda muzey kimi fəaliyyət göstərir.

Ölkəmizdə qeyd olunan kilsələrlə yanaşı, xristian təriqətlərinə məxsus ibadət evləri də var. Bu ibadət evləri əsasən molokanlara məxsusdur. Hazırda Bakı və Sumqayıt şəhərininin hər birində 1, Şamaxı rayonunda 2, Gədəbəy rayonunda 2, İsmayıllı rayonu, İvanovka qəsəbəsində 1, Qobustan rayonu, Hilmilli kəndində 1 molokan ibadət evi var.

Eyni zamanda, Bakı və Gəncə şəhərlərində babtistlərə və "7-ci günün adventistləri"nə məxsus ibadət evləri fəaliyyətdədir. Bundan əlavə, Bakı şəhərində Yehovanın şahidləri, "Həyat Sözü", "Yeni Həyat", "Apostol kilsəsi" və "Şərqdə ulduz" dini icmalarının, Sumqayıt şəhərində babtistlərin, "Həyat Sözü 2" dini icmasının ibadət evləri var. Həmçinin, Azərbaycanda müstəqil dinlər kimi tanınan Bəhailiyə və Krişnaizmə mənsub dini icmaların ibadət evləri fəaliyyət göstərir. Həmin ibadət evləri qeyd edilən dini icmaların həm hüquqi ünvanları, həm də ibadət yerləridir. Onlardan 1 Bəhai, 1 Krişna icması Bakıda və 1 Bəhai icması Sumqayıt şəhərindədir.





## SİNAQOQLAR

Azərbaycanda yaşayan yəhudilər 7 sinaqoqda ibadət edirlər. Hazırda Bakı şəhərində iki sinaqoq fəaliyyət göstərir. Bu məbədlərdən biri Avropa (aşginazilər) və gürcü yəhudilərinə, digəri isə dağ yəhudilərinə məxsusdur.

Avropa və gürcü yəhudilərinin sinaqoqu 2003-cü il martın 9-da açılıb. Məbəd bakılı memar Aleksandr Qarberin layihəsi üzrə "Qüds memarlıq" tərzində inşa edilib. Sözügedən ibadət yeri son 60-80 ildə Yaxın Şərqdə tikilmiş birinci sinaqoq sayılır. Avropada ən böyük sinaqoqlardan biri hesab edilən bu tikili köhnə məbədin yerində ucaldılıb.

Məlumat üçün qeyd edək ki, II Dünya müharibəsi qurtardıqdan sonra sovet hakimiyyəti dini tələbatın ödənməsi üçün Avropa və gürcü yəhudilərinə əski hərbi anbar olan bir mərtəbəli binanı ayırıbmış. O vaxt kişilər ibadət etmək üçün həmin binanın soyuq və nəm zirzəmisinə düşürmüşlər, qadınlar isə yuxarıdakı otaqda dua edirmişlər. Binanın eyvanı da qadınların ixtiyarına verilibmiş. Ümummilli Lider Heydər Əliyevin dəstəyi və köməyi ilə sovet hakimiyyəti illərində Avropa və gürcü yəhudilərinin əvvəlki sinaqoqunda matsanın (yəhudilərin fətirxana bayramında yedikləri fətir) bişirilməsi üçün miskva açılıb.

Avropa və gürcü yəhudilərinin yeni sinaqoqunun açılış mərasimində Rusiyanın Baş ravvini Berl Lazar, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Bakı və Xəzəryanı Yeparxiyasının yepiskopu Aleksandr, yerli və xarici qonaqlar iştirak ediblər. Açılış mərasimində dualar oxunub, Ulu Yaradandan torpaqların işğaldan azad olunması üçün kömək dilənib.

Şəhərin mərkəzində yerləşən bu üç mərtəbəli, ağ daşdan tikilmiş yeni sinaqoqun inşasında müxtəlif dinlərdən və təbəqələrdən olan insanlar iştirak ediblər. Layihədə xüsusi əməyi keçən hər bir şəxsin və təşkilatın adı məbədin girişindəki lövhələrdə həkk olunub. Məbədin inşasına maddi kömək göstərənlər arasında "AST"-nin prezidenti Telman İsmayılovun, Dağ yəhudilərinin Ümumdünya Konqresinin prezidenti Zaur Gilalovun, Avrasiya Yəhudi Konqresinin prezidenti Aleksandr Maşkeviçin, "Soxnut" Agentliyinin, "Coynt" komitəsinin, "Beyt-Talxum" dağ yəhudiləri Moskva icmasının sədri Telman Qurşumovun, "Garadağ" sement zavodunun, "Trust" bankın adını qeyd etmək olar. Tikintinin maliyyələşdirilməsində təkcə xaricdə yaşayan yəhudi təşkilatları deyil, həmçinin Qafqaz Müsəlmanları İdarəsi və Rus Pravoslav Kilsəsinin Bakı və Xəzəryanı Yeparxiyası da yaxından iştirak edib.

Bakı şəhərində yerləşən Dağ yəhudilərinə məxsus köhnə sinaqoqun binası da 1945-ci ildən fəaliyyət göstərib. II Dünya müharibəsi zamanı sovet rejimi dinin cəmiyyət üçün əhəmiyyətini dərk edib, onun insanlara necə böyük ruh yüksəkliyi gətirdiyini anlayıb və bu səbəbdən, müxtəlif ənənəvi dinlər üçün qismən də olsa azadlıq tanınıb. Məhz bu siyasətin nəticəsində, müharibə bitdikdən sonra dağ yəhudilərinə şəhərin mərkəzində dini tələbatın ödənilməsindən ötrü əski bir bina ayrılıb.

Binanın şəraiti çox bərbad idi və buraya ibadətə gələnlər şəraitsizlikdən əziyyət çəkirdilər. Bu cür hal Azərbaycanın müstəqilliyinin bərpasına kimi davam edib. Müstəqillik dövründə isə məbəddə təmir-bərpa işlərinə başlanılıb, sinaqoqun ikinci mərtəbəsi tikilib, buraya ibadətə gələnlər üçün münasib şərait yaradılıb. Təmir-bərpa işləri yerli və xarici yəhudi diaspora nümayəndələrinin hesabına həyata keçirilib. Amma bir müddət sonra Bakı şəhərində həyata keçirilən geniş quruculuq və abadlıq işləri ilə əlaqədar Dağ yəhudilərinin sinaqoqu plana düşüb.





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və qayğısı ilə şəhərin mərkəzində Dağ yəhudiləri üçün yeni sinaqoq inşa olunub. 5 aprel 2011-ci ildə bu ibadət ocağının açılış mərasimi keçirilib. Memarlıq xüsusiyyətlərinə və ölçülərinə görə təkcə Azərbaycanda deyil, regionda digər yəhudi məbədlərindən fərqlənən sinaqoqun açılış mərasimində rəsmi şəxslər, Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri, yəhudi icmasının üzvləri, eləcə də İsrail, Rusiya və digər ölkələrdən qonaqlar iştirak ediblər.

Quba rayonundakı Qırmızı qəsəbə Qafqazda dağ yəhudilərinin kompakt halda yaşadıqları ən böyük yaşayış məntəqəsi hesab olunur. Əvvəllər qəsəbənin hər məhəlləsində sinaqoq var imiş. Təəssüf ki, onların bir çoxu günümüzə qədər gəlib çıxmayıb. Amma indi də burada öz memarlıq üslubu, özünəməxsus gözəlliyi ilə diqqəti cəlb edən 3 sinaqoq var. Qəsəbədəki İsaak Xanukov küçəsində yerləşən "Altı günbəzli" sinaqoq 1888-ci ildə inşa edilib, memarı Gilen ben Xaimdir. Altı günbəz (sinaqoq həm də 6 guşəlidir) qəsəbədəki Qilqat məhəlləsi sakinlərinin Qələduz kəndi ətrafından Quba xanı Hüseynəli xanın icazəsi ilə 6 gün ərzində bura köçüb gəlmələrinin rəmzidir. Məbədin 14 əsas pəncərəsi var.

Böyük ibadət zalı olan sinaqoq Şərq üslubunda tikilmiş qədim memarlıq abidəsidir. İçərisindəki ibadət divarına baxan hissə aron-kaduş adlanır. O, hündürlüyünə görə Avropada təkrarı olmayan və Yerusəlimə baxan qibləgahdır. Hündürlüyü 7 metrdir. Müqəddəs kitab həmin divarda yerləşən dolabda saxlanılır.

Pəncərələri altıguşəli ulduz şəklində palıd ağacından hazırlanıb. Sinaqoqun bərpasına 1995-ci ildə başlanılıb və 2000-ci ilin oktyabr ayında başa çatdırılıb. Hazırda dindarların istifadəsində olan məbədin zirzəmisində dini mərasimlərin keçirilməsi üçün 60 nəfərlik ibadət zalı və mətbəx də var.

Qəsəbədəki "Giləki" adlı sinaqoq Cənubi Azərbaycanın Gilan vilayətindən gəlmiş mühacirlər tərəfindən inşa edilib. Məbədin memarı Gilen ben Xaimdir. Onun adı sinaqoqun kərpic fasadında həkk olunub. Özül daşının üzərindəki yazıdan məlum olur ki, məbəd 1896-cı ildə ucaldılıb. Lakin giriş qapısının üzərində başqa bir lövhə də var. Burada isə başqa bir tarix, yəni 1857-ci il yazılıb. Ola bilər ki, bu lövhə gilanlı yəhudi mühacirlərin daha əski məbədindən gətirilib və sinaqoqun giriş qapısı üzərinə vurulub.

Dördsütunlu dam üzərində ucalan ensiz, altıguşəli günbəz "Giləki" məbədinə xüsusi gözəllik verir. Sinaqoqun binasında İsrail qolunun sayına uyğun olaraq 12 pəncərə var. Tarixi qaynaqlardan məlum olur ki, əvvəllər sinaqoqun yanında bulaq olub.

Ehtimal edilir ki, Qubada XIX əsrin birinci yarısında tikilmiş məscid Gilan məbədi üçün prototip seçilib, çünki altıguşəli günbəz bir vaxtlar şüşədən idi və dua otağını işıqlandırırdı. Analoji dam örtüyü isə Quba məscidində də mövcuddur.

Hazırda Oğuz şəhərində iki sinaqoq fəaliyyət göstərir. Yuxarı Məhəllə sinaqoqu adlanan məbəd 1897-ci ildə yerli yəhudi icması tərəfindən tikilib. Sovet dövründə digər ibadət ocaqları kimi bu sinaqoq da bağlanıb və anbar kimi istifadə olunub. 2004-cü ildən sinaqoq təmir edilib, 2006-cı ildə istifadəyə verilib.

Aşağı Məhəllə sinaqoqu isə 1849-cu ildə inşa olunub. Sovet dövründə tütün və mebel anbarı kimi istifadə olunmuş sinaqoq 1994-cü ildə yenidən dindarların istifadəsinə verilib. Sinaqoqda Oğuz şəhəri yəhudi dini icması fəaliyyət göstərir.

Qeyd olunan sinaqoqlardan əlavə hazırda Sumqayıt və Gəncə şəhər yəhudi dini icmalarının daimi fəaliyyət göstərdikləri ibadət evləri də var.



# DİNİ TƏHSİL OCAQLARI

## ALİ DİNİ TƏHSİL OCAQLARI

Cəmiyyət həyatının və idarəçiliyin təşkilində dinin əhəmiyyətli rol oynadığı qədim və orta əsrlər dövründən etibarən tipik Şərq ölkəsi kimi Azərbaycanda da dini təhsil ənənələri mövcud olub. Dini inancın hakim ideologiya olduğu orta əsr mühitində ölkənin əksər yerlərində fəaliyyət göstərən məscidlər həm də tədris mərkəzi funksiyasını yerinə yetirib. Daha yüksək səviyyəli dini təhsil almaq üçün Yaxın Şərqin bir sıra ölkələrinə üz tutan şəxslər isə dini biliklərlə yanaşı, dünyəvi elmlərə də dərindən yiyələniblər. Ümumilikdə müsəlman Şərqinin təhsil mərkəzlərində dini biliklərlə dünyəvi elmlərin paralel şəkildə tədris olunması ənənəsi mövcud olub.

Lakin müasir dövrdə dini dərslər ayrıca ixtisas kimi tədris olunur, teokratik üsul-idarəsinə malik ölkələrdə isə orta məktəb dövründə dinin tədrisi icbari xarakter daşıyır. Müsəlman dünya-

sında dini biliklərin tədris olunduğu təhsil kompleksləri əsasən aşağıdakı ölkələrdə mövcuddur. Səudiyyə Ərəbistanı, İraq, İran, Misir, Türkiyə və Malayziya.

Adlandırmalar fərqli (mədrəsə, hövzə, universitet) olsa da, həmin təhsil mərkəzləri eyni mahiyyət daşıyır. Bunlardan Səudiyyə Ərəbistanı (Mədinə İslam Universiteti), İraq (Nəcəf hövzəsi) və İranda (Qum hövzəsi) tədris zamanı bir məzhəb, hətta bir cərəyan əsas götürülsə də, Malayziya (Malayziya Beynəlxalq İslam Universiteti), Misir (Əl-Əzhər Universiteti) və Türkiyə kimi ölkələrdə dini təhsilə yanaşma daha elmi xarakter daşıması və bütün İslam məzhəblərinin tədris olunması ilə səciyyələnir.

XX əsrin əvvəllərinədək Azərbaycan coğrafiyasında da dini bilgilər ilkin ibtidai təhsilin əsasını təşkil edib, dini ehkamların tədrisi dünyəvi fənlərlə bərabər aparılıb və İslam dininin mütərəqqi prinsipləri elmi biliklərin inkişafını təşviq edib. Müxtəlif bölgələrdən olan və ilk dini təhsillərini öz vətənlərində alan çox sayda azərbaycanlı yüksək elmi dərəcələrə çatıb, dövrünün görkəmli din alimi kimi tanınıb. Bu ənənə çar Rusiyasının işğalından sonra qismən, sovet işğalından sonra isə tamamilə aradan qaldırılıb. Bu da öz növbəsində Azərbaycanda dini təhsildə tarixlə müasirlik arasında varislik əlaqəsinin kəsilməsinə səbəb olub, nəticədə günümüzdə rastlaşdığımız problemlərə zəmin yaranıb.





## BAKI İSLAM UNİVERSİTETİ

Bakı İslam Universiteti 1989-cu ildə ölkədə ilk rəsmi İslam tədris müəssisəsi kimi yaradılmış və iki il fəaliyyət göstərmiş Bakı İslam Mədrəsəsinin bazası əsasında formalaşıb. Bakı İslam Mədrəsəsi struktur baxımından Buxara mədrəsəsi nümunəsi əsasında qurulsa da, tədris proqramı mümkün qədər Azərbaycanın konfessional durumuna yaxınlaşdırılıb. Fəaliyyət göstərdiyi müddətdə mədrəsədə 86 tələbə təhsil alıb.

1991-ci ilin yanvarında Qafqaz Müsəlmanları İdarəsinin Qazilər Şurasının qərarı ilə Bakı İslam Mədrəsəsi "Bakı İslam İnstitutu"na çevrilib. İnstituta ilk dəfə qəbul imtahanları keçirilib və 20 nəfər qəbul edilib. Burada yalnız mədrəsəni bitirmiş gənclər oxumaq haqqı qazanıblar.

1992-ci ilin axırlarında Bakı İslam İnstitutu "Bakı İslam Universiteti" adını aldıqdan sonra tədris müəssisəsinə qəbul olanların sayında artım müşahidə edilib.

Bakı İslam Universiteti indiyədək 431 nəfəri xaricdə təhsil almağa göndərib. Təhsilini vaxtında başa vuranların 212 nəfəri Misirdə, 132 nəfəri Suriyada, 1 nəfəri Pakistanda, 24 nəfəri Liviyada, 15 nəfəri Türkiyədə, 13 nəfəri İraqda, 3 nəfəri Malayziyada, 1 nəfəri Səudiyyə Ərəbistanında təhsil alıb. Hazırda Universitetin xətti ilə xaricdə oxuyan tələbə yoxdur.

Vaxtı ilə Bakı İslam Universitetinin dörd yerli şöbəsi fəaliyyət göstərib. Mingəçevir, Sumqayıt və Lənkəran şöbələrinə tələbə qəbulu 2008-ci ildən dayandırılıb. Digər şöbələrindən fərqli olaraq Zaqatala şöbəsinə qəbul prosesi dayandırılmayıb. Şöbə "Gəncliyə Yardım Fondu"nun maddi dəstəyi ilə fəaliyyət göstərir və

tədris əsasən sünni (hənəfi) məzhəbi əsasında qurulub. 2015-16-cı tədris ilində buraya qəbul olan tələbələrin sayı 14 nəfərdir. Həmin tədris ilində sözügedən təhsil ocağında 55 tələbə təhsil alıb. İndiyədək məzun olmuş tələbələrin sayı 299 nəfərdir. Ştat cədvəli üzrə müəllim kontingenti 20 nəfər olsa da, müəllimlərin sayı 17 nəfərdir. Onlardan 2 nəfəri Türkiyə Respublikasının vətəndaşıdır. Tələbələrdən isə 51 nəfəri başqa ölkələrdə (47 nəfər - Türkiyə Respublikası, 3 nəfər – Misir, 1 nəfər Səudiyyə Ərəbistanı) dini təhsillərini davam etdirir.

Eyni zamanda, Bakı İslam Universitetinin Zaqatala şöbəsində müəllimlərdən 7 nəfəri xaricdə təhsil alıb. Buraya qəbul olunmuş tələbələrin topladığı ən yüksək bal 345, 2015-ci ildə isə 236 olub.

Bakı İslam Universitetinin müəllim heyətinin əksəriyyəti Universitetin öz məzunlarıdır. Hazırda Universitetin pedaqoji kollektivini 1 rektor, 1 prorektor, 1 dekan, 2 kaferda müdiri və müxtəlif ixtisas üzrə 38 müəllim olmaqla 43 nəfər təşkil edir. Onlardan 10-nun elmi dərəcəsi var. Elmi dərəcəsi olanlardan isə 3 nəfəri ilahiyyat, 3 nəfəri filologiya, 2 nəfəri fəlsəfə, 1 nəfəri tarix, 1 nəfəri hüquq üzrədir.

Ümumilikdə, Universitetdə 23 fənn tədris olunur. Dünyəvi fənlər arasında Azərbaycan, fars, ingilis, ərəb dillərini, Azərbaycan tarixi, klassik ədəbiyyat, pedaqogika, informatika, coğrafiya, psixologiya, bədən tərbiyəsi və mülki müdafiəni xüsusi göstərmək olar.

Universitetdə hazırda 351 tələbə təhsil alır. Onlardan 280 nəfər əyani, 71 nəfər isə qiyabi şöbədə oxuyur. Universitetə 2015-2016-cı tədris ilində qəbul olunmuş tələbələrin sayı 78 nəfərdir. Onların hamısı əyani şöbəyə daxil olublar. Həmin tədris ilində Universitetə daxil olan tələbələr maksimum 300 bal yığıblar. Sözügedən ali dini təhsil müəssisəsinin ümumi məzunlarının sayı isə təxminən 3500 nəfərdir.





Universitetin tədris proqramında həm dini fənlər (Qurani-Kərimin qiraəti, əqaid, hədis üsulu və tarix, kəlam, təfsir, İslam fəlsəfəsi, din fəlsəfəsi, İslam hüququna giriş (fiqh sünnə, fiqh şiə), müasir İslam hüququ məsələləri, fiqh üsulu və tarixi), həm də, dünyəvi fənlər (informatika, psixologiya, Azərbaycan və İslam tarixi, İslam ölkələri coğrafiyası, ərəb dili və müasir ərəb dili, fars dili, ingilis dili, Azərbaycan dili və nitq mədəniyyəti, Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları, ərəb danışıq dili) yer alıb.

Bakı İslam Universitetinin rektoru Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini, Heydər məscidi kompleksinin rəhbəri, tanınmış din xadimi Hacı Sabir Həsənlidir.

# BAKI DÖVLƏT UNİVERSİTETİNİN İLAHİYYAT FAKÜLTƏSİ

1992-ci ildən fəaliyyətə başlamış İlahiyyat fakültəsində təhsilin səviyyəsi yüksəkdir. İslam elmləri və Dillər kafedrasının fəaliyyət göstərdiyi fakültədə hazırda ilahiyyatçı, ərəb və fars dilləri üzrə tərcüməçi ixtisasları istiqamətində kadrlar hazırlanır.

Fakültə fəaliyyətə başladığı dövrdən burada dini fənnləri Türkiyə Cümhuriyyətinin Diyanət İşləri Vəqfi tərəfindən göndərilmiş ixtisaslı müəllimlər, xarici dil və digər humanitar fənləri isə yerli mütəxəssislər tədris ediblər. Lakin hazırda fakültənin dekan müavini (Türkiyə vətəndaşıdır) xaricində bütün fənlər yerli mütəxəssislər tərəfindən tədris olunur.

1992-1998-ci illər arasında fakültəyə qəbul olmuş tələbələr bir illik hazırlıq kursu keçmək üçün Türkiyə Cümhuriyyətindəki universitetlərin İlahiyyat fakültələrinə göndəriliblər. İndiyədək fakültəni 758 tələbə bitirib. Hazırda 200-dən çox tələbə təhsil alır. 2015-2016-cı tədris ilində dinşünaslıq ixtisası üzrə ödənişli əsaslarla keçid balı 302, ən yüksək bal 346, dövlət hesabına keçid balı 353, ən yüksək bal 493, ödənişli əsaslarla ərəb dilinin tərcüməsi ixtisası üzrə keçid balı 385, ən yüksək bal 581, ödənişli əsaslarla fars dilinin tərcüməsi üzrə keçid balı 325, ən yüksək bal 409 olub.

Məzunlardan bir neçəsi ilahiyyat, dinşünaslıq və mədəniyyətin fəlsəfəsi ixtisası üzrə namizədlik dissertasiyaları müdafiə etsə də, məzunların əksəriyyəti ixtisasları üzrə deyil, müxtəlif sahələrdə çalışmaq məcburiyyətində qalıblar. Belə ki, fakültənin məzunlarının din sahəsində ixtisaslı mütəxəssislər kimi fəaliyyət





göstərməsində müəyyən problemlər mövcuddur. Bunun ən başlıca səbəbi məzunların ixtisasları üzrə işlə təmin olunmamasıdır.

Fəaliyyətə başladığı dövrdən təhsilini magistratura və doktorantura pilləsində davam etdirmək üçün fakültənin 30 nəfərə yaxın məzunu Türkiyəyə göndərilib. Onlardan təxminən 10 nəfəri təhsilini başa vuraraq Azərbaycana qayıdıb və İlahiyyat fakültəsində müəllim kimi fəaliyyətə başlayıb. Hazırda fakültənin xətti ilə 15 ilahiyyatçı Türkiyədə təhsilini davam etdirir. Fakültənin pedaqoji kollektivində 1 akademik, 6 ilahiyyat, 5 filologiya üzrə fəlsəfə doktoru var.

İlahiyyat fakültəsində dini dərslər şəriət müstəvisində deyil, akademik şəkildə tədris olunur. Dini fənlərlə yanaşı, dünyəvi fənlər də öyrədilir: Azərbaycan tarixi, din sosiologiyası, din fəlsəfəsi, dinlər tarixi, din psixologiyası, məntiq, informatika, İslam ölkələri coğrafiyası, ümumi ərəb dilçiliyi, bədən tərbiyəsi, mülki müdafiə, ingilis, ərəb, fars və türk dilləri.

Fakültədə tədris edilən fənlərin ümumi sayı 25-dir.

İlahiyyat fakültəsinin dekanı görkəmli elm xadimi, akademik Vasim Məmmədəliyevdir.

# MƏDRƏSƏLƏR

Respublika ərazisində rəsmi üç orta ixtisas dini təhsil müəssisəsi - "Şəbnəm" Qızlar Mədrəsəsi, Şəki İslam Mədrəsəsi və Əliabad İslam Mədrəsəsi fəaliyyət göstərir. "Dini etiqad azadlığı haqqında" Qanuna əsasən, dini təhsil müəssisələri Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən verilən xüsusi razılıq (lisenziya) əsasında fəaliyyət göstərməlidirlər. Lakin Qafqaz Müsəlmanları İdarəsinin təsisçisi olduğu və əsasən Gəncliyə Yardım Fondunun himayəsi altında fəaliyyət göstərən bu mədrəsələr hələlik Təhsil Nazirliyindən (xüsusi razılıq) lisenziya almayıblar.

**Şəki İslam Mədrəsəsi.**

1993-cü ildə Türkiyənin "Əziz Mahmud Hüdayi" vəqfinin dəstəyi ilə təsis edilən mədrəsə ilk dəfə 1997-ci ildə Ədliyyə Nazirliyində qeydiyyata alınıb. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yarandıqdan sonra 23 aprel 2002-ci ildə dini qurum kimi yenidən qeydiyyatdan keçib. 2009-cu ildə "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa edilmiş əlavə və dəyişikliklərdən sonra Şəki İslam Mədrəsəsi hələlik dövlət qeydiyyatına alınmayıb.

Şəki İslam Mədrəsəsi Qafqaz Müsəlmanları İdarəsinin nəzarəti altında fəaliyyət göstərir. İdarə tərəfindən mədrəsəyə hər ay vəsait ayrılır, eləcə də xeyriyyəçilər tərəfindən yardım göstərilir. Mədrəsə rəhbərliyi vaxtaşırı İdarəyə fəaliyyətləri haqqında hesabat təqdim edir.

Mədrəsənin əsas fəaliyyət istiqaməti hafizlər (Qurani-Kərimi əzbər bilən) hazırlamaqdır. Fəaliyyətə başladığı vaxtdan bu





günədək 222 hafiz yetişdirib. Mədrəsədə hafizliklə yanaşı, dini biliklər, İslam tarixi, İslam əxlaqı, ərəb dili, kompyuter və informasiya texnologiyaları dərsləri tədris olunur. Burada təhsil alan şagirdlər orta məktəb təhsillərini Şəki şəhəri 10 saylı orta məktəbdə davam etdirirlər.

Hazırda Şəki İslam Mədrəsəsində 18 nəfər (1 müdir, 1 mühasib, 8 müəllim, 4 təmizləyici, 2 aşpaz, 1 kitabxanaçı, 1 ocaqçı) çalışır. Hər bir işçi qanunvericiliklə müəyyən olunmuş qaydada dövlət büdcəsinə vergi ödəməklə əməkhaqqı alır.

Mədrəsənin müdiri Rəhman Nadir oğlu Nuruyevdir. O, 1979-cu ildə Şəki rayonunun Vərəzət kəndində anadan olub. 1998-2002-ci illərdə İstanbul Universitetinin ərəb dili və ədəbiyyatı fakültəsində, 2002-2005-ci illərdə Mərmərə Universitetinin İlahiyyat fakültəsində magistr təhsil alıb. Rəhman Nuruyev Şəki İslam Mədrəsəsini bitirmiş ilk hafizdir.

Şəki İslam Mədrəsəsinə qəbul hər il may ayının son həftəsinin bazar günü imtahan yolu ilə həyata keçirilir. Qəbul imtahanı test və müsahibədən ibarət olmaqla 2 mərhələdən ibarətdir. Test imtahanına Azərbaycan dili, tarix, riyaziyyat, coğrafiya fənlərinin hər birindən 10 sual olmaqla 40 sual daxil edilir.

İmtahandan və müsahibədən uğurla keçən şagirdlər 25 günlük yay kurslarına cəlb olunurlar. Yay kurslarında şagirdlərə Qurani-Kərim (əlifba), dini biliklər, Məhəmməd (ə) peyğəmbərin həyatı, İslam əxlaqı, kompyuter dərsləri tədris edilir. Kursun sonunda şagirdlərdən imtahan götürülür və bir illik hafizliyə hazırlıq kursuna qəbul olunurlar. Hafizliyə hazırlıq kursunu bitirərək imtahandan uğurla keçən şagirdlər isə hafizlik kursuna qəbul edilir. Hafizlik kursu 2 ildir.

2015-2016-cı tədris ilində 8 nəfər Quran hafizi kimi Şəki İslam Mədrəsəsindən məzun olub. Bundan əlavə, hafizliyə hazırlıq kur-

sundan 46 nəfərə Qurani-Kərim və dini biliklərə yiyələnmələrinə dair şəhadətnamə təqdim edilib. Onlardan 14 nəfəri mədrəsədə təhsilin növbəti mərhələsinə - hafizlik kursuna keçiblər. Məzun olanlar 9-11-ci sinif şagirdləri olduğu üçün hazırda orta məktəb təhsillərini yaşadıqları şəhər və rayonlarda davam etdirirlər.

2016-cı ilin iyul və avqust aylarında təşkil olunmuş yay kurslarına ümumilikdə 140 nəfər cəlb olunub. Həmin şagirdlərdən 60 nəfəri 2016-2017-ci tədris ilində hafizliyə hazırlıq kursuna keçib. Hazırda mədrəsədə ölkənin müxtəlif bölgələrindən 92 şagird təhsil alır. Onlardan 60 nəfəri hafizliyə hazırlıq kursunda, 32 nəfəri hafizlik kursunda təhsilini davam etdirir. Mədərəsədə təhsil alan şagirdlər gündə 3 dəfə yeməklə və yataqxana ilə təmin edilirlər.

**Əliabad İslam Mədrəsəsi.**

Zaqatala rayonu Əliabad qəsəbəsində yerləşən İslam mədrəsəsinin ilk təsisçisi qəsəbədəki "Cümə" məscidi dini icması olub. Vaxtı ilə Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmış mədrəsə növbəti dəfə 19 aprel 2002-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində qeydiyyatdan keçib. Amma 2009-cu ildə "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa edilmiş əlavə və dəyişikliklərdən sonra mədrəsə dini qurum kimi hələlik dövlət qeydiyyatına alınmayıb.

Əliabad İslam Mədrəsəsinin indiyə kimi 130 nəfər məzunu olub. Hazırda mədrəsədə 84 nəfər təhsil alır. 2016-cı ildə mədrəsəni 20 nəfər bitirib. Onlardan 4-ü Bakı İslam Universitetinin Zaqatala şöbəsinə, 8-i digər ali məktəblərə daxil olub.

2016-cı ildə mədrəsəyə qəbul olunanların sayı 52 nəfərdir. Qəbul imtahanlarında 100 ballıq sistem üzrə keçid balı 50 bal olub. Ən yüksək nəticə göstərən abituriyent 84 balı toplayıb, ən aşağı keçid bal isə 20 bal təşkil edib.





Mədrəsədə 7 müəllim çalışır. Əvvəlki illərdən fərqli olaraq hazırda onların arasında əcnəbi vətəndaş yoxdur. Tələbələr arasında isə 1 nəfər Rusiya vətəndaşı olan dağıstanlı var. Əliabad İslam Mədrəsəsində Qurani-Kərim, təfsir, hədis, fiqh, islam əqaidi, islam tarixi, dinlər tarixi, ərəb dili tədris olunur. Eyni zamanda, mədrəsədə dünyəvi fənlərlər - informatika, pedaqogika, ingilis dili, Azərbaycan dili və Azərbaycan tarixi tədris edilir.

**"Şəbnəm" Qızlar Mədrəsəsi.**

Bakı şəhəri, Səbail rayonu, Badamdar qəsəbəsində yerləşən qızlar üçün "Şəbnəm" Mədrəsəsi 3 iyun 2003-cü ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dini təhsil müəssisəsi kimi dövlət qeydiyyatından keçib. Ancaq 2009-cu ildə "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa edilmiş əlavə və dəyişikliklərdən sonra dini qurum kimi dövlət qeydiyyatına alınmayıb. Hazırda mədrəsənin təsisçisi olan Qafqaz Müsəlmanları İdarəsi onun fəaliyyətinə, xüsusilə təhsilin keyfiyyətinə nəzarət edir.

"Şəbnəm" Qızlar Mədrəsəsinə respublikanın müxtəlif bölgələrindən fiziki qüsuru olan qızlar da cəlb edilir. Onlara dini fənlərlə yanaşı, Azərbaycan və ingilis dilləri, Azərbaycan tarixi, coğrafiya, informatika və digər dünyəvi elmlər tədris olunur, habelə, müxtəlif əmək vərdişləri, o cümlədən toxuculuq, dərzilik və s. öyrədilir.

Hazırda mədrəsədə 200-ə yaxın tələbə təhsil alır. Onların əksəriyyəti mədrəsənin yataqxanasında qalır və gündə üç dəfə yeməklə təmin edilir. İndiyədək mədrəsənin yüzlərlə məzunu olub və onların bir qismi bölgələrdəki qız Quran kurslarında dərs deyirlər.

# QURAN KURSLARI

"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinə əsasən, dini qurumlar tərəfindən gənclərin və yaşlıların müqəddəs kitabları öyrənmə kursları (qrupları) həmin dini qurumların nizamnamələrinə uyğun olaraq, tabe olduqları dini mərkəz və idarələrin razılığı ilə yaradılır. Bu isə o deməkdir ki, İslam dini icmaları Qurani-Kərimi öyrənmə kursları (Quran kursu) yaratmaq üçün Qafqaz Müsəlmanları İdarəsindən razılıq almalıdırlar.

Müqəddəs kitabları öyrənmə kurslarının yaradılmasına dini mərkəz və idarələr razılıq versə də, onların fəaliyyətinə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi nəzarət edir. Bununla bağlı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Əsasnaməsində müvafiq müddəa (7.13-cü bənd) var. Komitə bu müddəanı əsas tutaraq "Müqəddəs kitabları öyrənmə kurslarının fəaliyyətinə nəzarət qaydaları"nı hazırlayıb və həmin qaydalar Ədliyyə Nazirliyində qeydiyyata alınıb.

Qaydalara görə, dini qurumlar kursların yaradılması barədə Komitəyə məlumat verirlər. Məlumatda aşağıdakılar göstərilir: kursu yaradan dini qurumun adı; hüquqi ünvanı; dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin nömrəsi və verilmə tarixi; kursların dinləyicilərinin siyahısı və onların şəxsiyyətini təsdiq edən sənədlərin nömrəsi və verilmə tarixi (şəxsiyyət vəsiqəsinin surəti əlavə olunur); kurslarda tədrisi həyata keçirən müəllimlərin siyahısı; müəllimlərin dini təhsili haqqında sənədin nömrəsi və verilmə tarixi (sənədin surəti əlavə olunur); kursun yaradılmasına dair müvafiq dini mərkəzin (idarənin) razılıq məktubunun nömrəsi və tarixi.





İslam təmayüllü dini icmalar tərəfindən təşkil olunmuş kurslarda tədris Azərbaycan Respublikasında təhsil alan ali və ya orta dini təhsili olan Azərbaycan Respublikası vətəndaşı tərəfindən (Qurani-Kərimin öyrənilməsi kursları yalnız Azərbaycan dilində) aparılır.

Qeyri-islam təmayüllü dini icmalar tərəfindən təşkil olunmuş kurslarda tədris Azərbaycan Respublikasında və ya xaricdə təhsil almış ali və ya orta dini təhsili olan Azərbaycan Respublikası vətəndaşı tərəfindən aparılır. Kursların tədris proqramları barədə də Komitəyə məlumat verilir. Kurslarda yalnız müqəddəs kitablar (Qurani-Kərim, İncil, Tövrat və s.) öyrənilir və gün ərzində təlim müddəti 2 saatdan çox ola bilməz. Həmçinin, kursların müddəti bir ildən çox olmamalıdır. Vətəndaşların kurslara yazılması onların dünyəvi təhsil almasına mane olmamalı, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin kurslarda tədris prosesini həyata keçirməsinə icazə verilməməlidir.

Komitənin yayılmasına razılıq vermədiyi dini təyinatlı ədəbiyyatdan, əşyalardan və dini məzmunlu başqa məlumat materiallarından kurslarda əyani vəsait kimi istifadə edilə bilməz və kurslar onları yaradan dini qurumların nizamnamələrinə uyğun maliyyələşdirilməlidir.

Gənclərin və yaşlıların müqəddəs kitabları öyrənməsi üçün yaradılan kurslarda normativ hüquqi aktların tələblərinə riayət olunmaması aşkar olunduqda, onların aradan qaldırılması haqqında müddəti göstərilməklə (14 gün) kurslara yazılı xəbərdarlıq təqdim edilir. Əgər xəbərdarlıqda müəyyən edilmiş müddət ərzində pozuntular aradan qaldırılmazsa, həmin kursların fəaliyyəti dayandırılır.

Kursların fəaliyyətinin dayandırılması Komitə sədrinin müvafiq sərəncamı ilə təsdiq edilir. Həmin sərəncamın surəti kurs-

ların fəaliyyətinin dayandırılması əks olunmuş məktubla birlikdə kursu yaradan dini qurumun tabe olduğu dini mərkəzə (idarəyə) göndərilir.

Araşdırmalara görə, indiyədək Qafqaz Müsəlmanları İdarəsi hansısa İslam dini icmasına Quran kursu yaratmaqla bağlı rəsmi icazə verməyib. Lakin İdarənin nəzarətində olan məscidlərdə bu cür kursların yaradılması da qadağan edilməyib. Qafqaz Müsəlmanları İdarəsinin rəsmiləri bəyan ediblər ki, İdarə tərəfindən rəsmi din xadimi təyin olunmuş şəxslər təyinat aldıqları məscidlərdə qanunazidd olmamaq şərti ilə Qurani-Kərim öyrədə bilərlər.

Hazırda ölkə ərazisində xeyli Qurani-Kərim kursları var. Bu kursların mütləq əksəriyyəti Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatına alınmış dini icmaların nəzdində fəaliyyət göstərir.

Digər müsəlman ölkələri ilə müqayisədə Azərbaycanda bəzi bölgələr istisna olmaqla Quran kurslarına kütləvi maraq yoxdur. Fərdi qaydada Quran öyrənmək istəyənlər, bəlkə də, daha çoxdur. Həmçinin, din xadimlərinin bir qismi mütəmadi və düzənli formada Quran kursu təşkil etməkdə maraqlı deyil. Bu kurslarda dərs deyənlərin əksəriyyəti məscidlərdə fəaliyyət göstərən rəsmi din xadimləridir. Onların isə bu işlə ardıcıl məşğul olmaq üçün imkanları məhduddur.

İndiyədək bir sıra kurslarda Qurani-Kərimi oxunma qaydası və təcvid dərsləri ilə yanaşı, həm də İslam əxlaqı, təfsir, fiqh kimi dini elmlərin tədris olunması faktı aşkarlanıb. Əslində, Quran kurslarında bu dərslərin tədrisi yolverilməzdir və həmin dərslər mədrəsələrdə tədris oluna bilər. Bu cür Quran kurslarının, demək olar ki, hamısı artıq bağlanıb.

Hazırda ən çox Quran kursları Bakıda, Şimal-Qərb, Şimal və Şirvan bölgələrində fəaliyyət göstərir. Araşdırmalara əsasən,





Bakı şəhəri və ətraf kəndlərdə 40-dan çox, Zaqatalada 24, Şəkidə 20, Abşeron rayonunda 19, Sumqayıtda 5, Xaçmazda 2, Şabranda 2, Ağdaşda 15, Qobustanda 3, Ağsuda 3, Balakəndə 9, Şamaxıda 8, Qubada 5 Quran kursu var.

Cənub və Aran bölgəsinə daxil olan rayonların hamısında, demək olar ki, Quran kursları fəaliyyət göstərir. Saatlıda 7, İmişlidə 2, Beyləqanda 1, Şirvan şəhərində 2, Hacıqabulda 2, Neftçalada 2, Salyanda 2, Astarada 7, Yardımlıda 1, Masallıda 5, Lənkəranda 4, Cəlilabadda 3, Mingəçevirdə 3, Yevlaxda 1 kurs mövcuddur.

Ən az Quran kursunun fəaliyyət göstərdiyi bölgələr Qərb və Qarabağ zonasıdır. Bu bölgələrdə daimi fəaliyyət göstərən Quran kursu, demək olar ki, yoxdur. Qeyd edilən bölgələrdə Quranın öyrədilməsi məscidlərdə fərdi qaydada həyata keçirilir.

Müxtəlif vaxtlarda Bakı şəhəri və respublikanın digər bölgələrində mövcud olan bəzi hazırlıq kurslarında, eləcə də ictimai təşkilatlarda qanunsuz olaraq Qurani-Kərim, fiqh, əqaid dərslərinin, eləcə də dini təmayüllü fənlərin keçirilməsi faktı qeydə alınıb. Hazırda bu cür halların qarşısının alınması istiqamətində işlər davam etdirilir və zaman keçdikcə belə halların sayı azalır.

# QEYRİ-İSLAM TƏHSİL MÜƏSSİSƏLƏRİ

Azərbaycanda İslam təmayüllü dini tədris ocaqları ilə yanaşı, digər dinlərin əsaslarını öyrədən təhsil müəssisələri də fəaliyyət göstərir. Bunlar əsasən Xristianlıq və Yəhudiliklə bağlı dini kurslardır. Lakin Bəhai və Krişna şüuru dini icmasında da kiçik kurslar mövcuddur.

Əvvəlki dövrlərlə müqayisədə hazırda Xristianlığın əsaslarını öyrədən, Bibliyanı tədris edən kurslara və məktəblərə cəlb edilənlərin sayı məhduddur. Lakin son zamanlar bəzi yerli protestant icmalar ("Həyat Sözü", "Nehemiya" və s.) Xristianlıqla praktiki tanışlıq məqsədini güdən "Alfa" adlı kurslar təşkil edirlər. Bu cür kurslar 1970-ci illərin sonunda "Müqəddəs Üçlük" London kilsəsinin ruhanisi tərəfindən hazırlanıb və 14 tematik mövzudan ibarətdir.

Eyni zamanda, "Yeni Həyat" dini icmasında "Bibliya Kolleci", "Ruhani xidmət" və "Həmd məktəbləri", "Yeddinci günün adventistləri" dini icmasında "Şənbə günü" məktəbləri, digər protestant təriqətlərində "Bazar günləri" məktəbləri, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nəzdində katexizasiya məktəbləri, yəhudi icmalarında ivrit dilini, yəhudi dini və mədəniyyətini öyrətmə kursları fəaliyyət göstərir.

**"Bakı Bibliya Kolleci".**

Vaxtı ilə respublika ərazisində cəmi bir xristian ali dini təhsil müəssisəsi - "Həyatverici lütf" dini icmasının nəzdində "Bakı Bibliya İnstitutu" (digər adı "Bakı Bibliya Kolleci") fəaliyyət göstərirdi. 1992-ci ildən başlayaraq qeyri-rəsmi fəaliyyət göstərən bu "institut"da tələbələrə həm xristian teologiyasının əsasları, həm





missionerlik fəaliyyətinin incəlikləri, həm də ingilis, fin, qədim yunan dilləri tədris edilirdi. Üçillik təhsili başa vurduqdan sonra tələbələrə ali xristian teoloji təhsilini təsdiqləyən diplom verilirdi. 100 nəfərdən yuxarı tələbə bu institutun məzunu olub.

Hazırda "institut" məzmunu və fəaliyyət formasını dəyişib. Daha doğrusu, artıq ali dini təhsil ocağı kimi fəaliyyət göstərmir. "Bibliya kolleci" adlı kiçik Müqəddəs Kitabı öyrənmə kursuna çevrilib. Kursda təxminən 20 tələbə dərs alır. Dərslər sual-cavab şəklində qurulub.

**"Xabad-Or-Avner" Təhsil Mərkəzi.**

Bakıda yaşayan yəhudi uşaqları üçün "Xabad-Or-Avner" Təhsil Mərkəzi "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsi çərçivəsində Heydər Əliyev Fondu və "Or-Avner" Beynəlxalq Fondu tərəfindən inşa edilib. 2007-ci il mayın 31-də Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın iştirakı ilə mərkəzin təməlqoyma mərasimi keçirilib. Təhsil Mərkəzinin tikintisi 2010-cu ildə başa çatıb. 2010-cu il oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və MDB Yəhudi İcmaları Federasiyasının və "Or-Avner" Beynəlxalq Fondunun prezidenti Lev Levayev Təhsil Mərkəzinin açılışında iştirak ediblər.

Bakının Xətai rayonunda yerləşən üçmərtəbəli kompleks ən müasir tələblər səviyyəsində inşa olunub. Mərkəzdə müasir avadanlıq və lazımi dərs vəsaitləri ilə təchiz edilən 30 sinif otağı, 700 kvadratmetr sahədə süni örtüklü açıq stadion var.

450 yerlik mərkəzin digər təhsil müəssisələrindən fərqi burada yəhudi mədəniyyətinin əsaslarının tədris olunmasıdır. Hazırda burada uşaq bağçasında təlim keçən uşaqlar da nəzərə almaqla, 200 şagird təhsil alır və 40 müəllim çalışır.

Bununla yanaşı, yəhudilərin kompakt yaşadığı Quba rayonu, Qırmızı qəsəbədə Dağ yəhudiləri dini icmasının nəzdində dini kurs fəaliyyət göstərir. Həmin kursda yəhudi uşaqlar ilkin dini təhsil alır, həmçinin, dini ayin və mərasimləri idarə etmək üçün yəhudiliyin şəriət qaydalarını öyrənirlər.





# III FƏSİL

# TƏHDİDLƏR

# DİNLƏ TƏHDİD?!

**"Heç bir ölkəyə imkan vermirik ki, daxili işimizə qarışsın və imkan verməyəcəyik. Nə qədər bizə təzyiqlər və təhdidlər olsa belə, biz bu yoldan dönməyəcəyik".**

*İlham Əliyev,*

*Azərbaycan Respublikasının Prezidenti*

Çağdaş dövrümüzdə dinə yalnız mənəvi və hüquqi məsələ kimi baxıla bilməz. Çünki din çoxdan mənəviyyat və hüquq müstəvisinin sərhədlərini aşıb. Hətta mübaliğəli də olsa, belə deyənlər var: din həm də mənəviyyat və hüquq məsələsidir.

Başqa sözlə, bu gün dinə inanc sistemi, həyat tərzi, vicdan azadlığı, mənəvi dəyər, siyasət, bir az qəribə görünsə də, keçmişin qalığı kimi baxanlar ola bilər. Təbii ki, insanlar azaddır və dinə münasibətlərinə görə onları nədəsə günahlandırmaq olmaz.

Dövlət vətəndaşın seçiminə və fikrinə hörmətlə yanaşmağa məcburdur. Lazım gəldikdə dinə müxtəlif fikirli vətəndaşların





gözü və ya "gözlüyü" ilə baxmağı da bacarmalıdır. Yalnız bu halda vicdan azadlığını və fikir plüralizmini tam bərqərar etmək mümkündür. Amma dinə baxarkən dövlətin vətəndaşdan fərqli olaraq əlavə bir "gözlüyü" olmalıdır. Bu, dövlətin, həm də cəmiyyətin milli, ictimai və ideoloji cəhətdən "təhlükəsizlik gözlüyü"dür. Dövlətlər dinə, daha doğrusu, dini məsələyə həm də bu gözlükdən baxmalıdır.

Bütün dövrlərdə dinin siyasiləşdirilməsinə, dövlətlərin onu bir-birinə qarşı silah alətinə çevirməsinə cəhdlər göstərilib. Din müxtəlif vaxtlarda hansısa dövlətlərin və qüvvələrin dayaq nöqtəsi, uğurunun təminatçısı kimi çıxış edib. Lakin heç zaman dini məsələ indiki qədər siyasiləşib bəşəriyyətin "kabus"una çevrilməyib. Bu baxımdan dövlətlər indi dinə bütün dövrlərdən daha həssas və ehtiyatlı yanaşmalıdır. Əks təqdirdə, din onların təkcə zərif yox, həm də zəif yerinə çevrilə bilər.

XXI əsrdə qloballaşma sürətlə davam edir, dünya "kiçildikcə kiçilir", xalqlar bir-birinə yaxınlaşır, amma onların "barışması" heç də asan görünmür. Əksinə, insanlar və xalqlar arasındakı münasibətlər əksər hallarda bir az da mürəkkəbləşir. Etnik və dini kimlik fərqi nəinki insanların, hətta xalqların və dövlətlərin bir-birlərinə münasibətlərini formalaşdıran əsas meyar kimi hələ də qalır. Yüz minlərlə, milyonlarla insan milli və dini mənsubiyyətinə görə ayrı-seçkiliklə, zorakılıqla qarşılaşır, təcavüzün və işğalın qurbanına çevrilir. Bunun onlarla səbəbi ola bilər. Lakin başlıca səbəb və görünən tərəf budur: din və etnik məsələ dövlətlərin və siyasi dairələrin məqsəd və hədəflərinə çatmaları üçün "ən yaxşı vasitə", "ən təsirli silah" kimi qalmaqdadır.

Dövlətlərin və böyük güclərin mübarizəsində etnik və din amili effektiv silah kimi yalnız "iqtisadi təzyiq"lə müqayisə oluna bilər. İqtisadiyyat, eləcə də bu iki məsələ dövlətlərin və toplumların ən zəif yeridir. Son iki əsrdə dövlətlərarası mübarizədə "iqtisadi si-

lah"ın əhəmiyyətinin xeyli artmasına baxmayaraq, "etnik və dini silah" hələ də öz "potensialını" və "əvəzedilməzliyini" saxlayır. Bu gün dünyanın müxtəlif bölgələrində, o cümlədən keçmiş sovetlər məkanında, Yaxın və Orta Şərqdə, eləcə də Cənubi Amerikada və Afrikada gedən proseslər bu faktın əyani təsdiqidir.

Təəssüf ki, böyük dövlətlər və beynəlxalq korperasiyalar hədəf seçdikləri ölkələri iqtisadi təzyiqlərlə yola gətirə bilmədikdə və ya buna paralel şəkildə etnik və dini məsələdən yararlanmağa çalışırlar. Çünki bu sahədə toplumlara, xüsusilə zəif ölkələrə nüfuz etmək o qədər də çətin olmur. Belə məqamlarda hücumda olan dövlət dinə hüquq, demokratiya və mənəviyyat donu geyindirilmiş təzyiq aləti, hücuma məruz qalmış dövlət isə milli, ictimai, hətta ideoloji təhlükəsizlik məsələsi kimi yanaşır.

Son on ildə dünyada baş verən proseslər təsdiqləyir ki, etnik məsələ ilə müqayisədə dini amil təzyiq və təsir vasitəsi kimi daha çox önə çıxır. Əsas səbəb qloballaşma dövründə etnik kimliyin zəifləməsi fonunda dini kimlik anlayışının güclənməsidir. Hətta bunu sivilizasiyaların toqquşması kimi qəbul edənlər var. Hazırda dünyada bölücülük və təmərküzləşmə daha çox dini müstəvidədir. Ona görə də, böyük güclər təsir və təzyiq vasitəsi kimi dinə üstünlük verirlər.

Bəlkə də, bunun digər bir səbəbi din pərdəsi altında terrorizmi, silahlı münaqişələri daha böyük miqyasda və daha intensiv şəkildə yaratmağın asan olmasıdır. Əgər etnik münaqişələr bir və ya bir neçə xalqı əhatə edirsə, dini zəmində münaqişələr onlarla xalqı və dövləti, bütöv regionu əhatə edə bilər. Deməli, zaman keçdikcə din dövlətlər və xalqlar, eləcə də onların gələcəyi üçün həyati əhəmiyyət kəsb edən məsələyə çevrilir.

Son 20 ilin təcrübəsi göstərir ki, din digər toplumlar və dövlətlərlə müqayisədə müsəlman ölkələri üçün siyasi baxımdan daha ciddi və





təhlükəli sahədir. Eyni zamanda, din müstəqilliyini yeni əldə etmiş və ənənələri sarsıdılmış xalqlar üçün xüsusilə həssas məsələdir.

Sovetlər zamanı ateizmə əsaslanan kommunizmin cəmiyyətdə rəsmi və intensiv şəkildə təbliği dini ənənələrin zəifləməsinə və insanların dini biliklərdən uzaq formalaşmasına gətirib çıxarmışdı. Sovetlər dağıldıqdan sonra həm kommunizmdən, həm də ateizmdən imtina olunması, dinə cəmiyyətdə sərbəstlik verilməsi, milli-mənəvi dəyərlərə qayıdış öz-özlüyündə müsbət proses olsa da, təəssüf ki, müəyyən problemlərlə müşahidə olunur. Bu cür vəziyyət isə bəzi dövlətlərin və dairələrin öz maraqları naminə dindən sui-istifadə imkanlarını artırır, onlar üçün əlverişli şərait yaradır.

Şübhəsiz ki, yenidən müstəqilliyini bərpa etmiş gənc Azərbaycan dövləti bu proseslərdən kənarda olmadığı kimi, din pərdəsi altında təhdid və təhlükələrdən də sığortalanmayıb. Əksinə, digər MDB dövlətləri, hətta Orta Asiyanın müsəlman ölkələri ilə müqayisədə Azərbaycana din sahəsində təzyiq və təhdidlər daha çoxdur.

Əlbəttə, bu, bir çox amillərlə, o cümlədən Azərbaycanın yerləşdiyi coğrafi-siyasi mövqeyi, qarşısına qoyduğu strateji məqsəd və hədəfləri, hebelə, sahib olduğu enerji resursları ilə bağlıdır. Üstəlik, üzləşdiyimiz təhdidlər təkcə İslam dini istiqamətli deyil, zaman-zaman digər dinlərlə bağlı da təhdidlərlə qarşılaşmalı oluruq. Amma üzləşdiyimiz ən ciddi və təhlükəli təhdidlər əsasən İslam dini istiqamətlidir.

Bu təhdidlərin səbəbini və "müəllifləri"ni müəyyənləşdirmək tamam başqa mövzudur. Politoloqlar, konfiliktoloqlar, tarixçilər və siyasətşünaslar bu barədə daha yaxşı danışa bilərlər. Lakin dini təhdidlərin mahiyyətini və hədəflərini müəyyən etməyi və doğru analizini verməyi həm də ilahiyyatçıların işi kimi qəbul etmək olar.

# İSLAM DİNİ İSTİQAMƏTLİ TƏHDİDLƏR

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanda din sahəsində ciddi boşluqlar yaranmışdı. Əslində, ateizmə əsaslanan ictimai-siyasi quruluşdan demokratik dəyərlərə söykənən quruluşa keçid zamanı bu cür boşluğun yaranması başa düşülən idi. Təsəvvür edin ki, qısa müddətdə dövlət bütün dini inanclara və dindarlara sərbəstlik verir, onların fəaliyyətinə nəinki maneəçilik törədilmir, əksinə, bir çox hallarda dəstək verilir. Ölkədə "Dini etiqad azadlığı haqqında" Qanun qəbul olunur və bu sənəd vicdan azadlığı sahəsində dünyada ən demokratik qanunlardan biri kimi qarşılanır.

Eyni zamanda, 71 illik sovet rejimindən sonra cəmiyyətdə və insanlarda "dini aclıq" yaranmışdı. Bu aclığın aradan qaldırılması üçün müxtəlif səviyyələrdə çoxsaylı cəhdlər göstərilirdi. İnsanlarımız dinini öyrənmək istəyir, amma dini bilənlərin sayı kifayət etmirdi. Ümumiyyətlə, din xadimlərinin savadı qənaətbəxş deyildi. Əksər hallarda insanlara din adı ilə təqdim və təbliğ olunanlar daha çox xurafat mahiyyəti daşıyırdı.





Din pərdəsi altında mənfəətpərəst, fırıldaqçı insanlar peyda olur, yalançı peyğəmbərlərin, vergili insanların sayı günbəgün artırdı. Bir sözlə, xurafatla İslamı, dindarla dinbazı və din xadimi ilə din dəllalını ayırd edənlərin sayı çox az idi. Bu, elə bir dövrdə baş verirdi ki, Azərbaycan təcavüz və işğalla üz-üzə qalmışdı. O dövrdə ölkəmiz üçün əsas məsələ dini sahədəki problemlər yox, müstəqilliyini və ərazi bütövlüyünü qorumaq idi. Buna görə də, dövlət qurumlarının əsas diqqəti ölkənin ərazi bütövlüyünün qorunmasına, bir milyondan çox qaçqın və məcburi köçkünün yerləşdirilməsinə, onların sosial problemlərinin həllinə yönəlmişdi.

Bunlarla yanaşı, həmin dövrdə ölkədə mərkəzi hakimiyyət zəifləmiş, cəmiyyət vətəndaş müharibəsinin astanasına gəlib çıxmış, siyasi hərc-mərclik yaranmışdı.

Bir sözlə, ötən əsrin doxsanıncı illərində Azərbaycandakı ictimai-siyasi, dini-psixoloji vəziyyət gələcəkdə din sahəsində yarana biləcək problemləri qabaqcadan analiz etmək və buna adekvat tədbirlər görmək durumunda deyildi. Regionda, xüsusilə Azərbaycanda tarixən iqtisadi-siyasi maraqları olan, müstəqilliyimizi, daha doğrusu, xalqımızın müstəqil dövlət qurmasını özünə təhdid sayan və bunu həzm edə bilməyən, gələcəkdə Azərbaycanı hansısa regional və məhəlli münaqişələrə sürükləmək istəyən, nüfuz dairəsinə salmağa çalışan dövlətlər və dairələr belə bir vəziyyəti yaxşı fürsət kimi qiymətləndirirdilər. Azərbaycana qarşı din pərdəsi altında gələcək təhdidlərin əsasını məhz həmin dövrdən qoymağa başladılar.

Müxtəlif humanitar qurumlar, o cümlədən ərəb xeyriyyə təşkilatları qaçqın və məcburi köçkünlər, eləcə də aztəminatlı ailələrə kömək məqsədilə ölkədə nümayəndəliklərini açdılar. Həmin dövrdə ölkəmizdə Səudiyyə Ərəbistanı, Küveyt, İran,

Türkiyə, Qətər, hətta Yəməndən gəlmiş onlarla xeyriyyə təşkilatı fəaliyyət göstərirdi. Təbii ki, xeyriyyə təşkilatlarının hamısı bu dövlətlərə bağlı deyildi. Onların bir qismi özünü beynəlxalq və müstəqil xeyriyyə təşkilatı kimi təqdim edirdi.

Eyni zamanda, bu təşkilatların arasında səmimi şəkildə Azərbaycandakı müsəlman qardaşlarına kömək üçün gələnlər də vardı. Lakin bir çoxunun niyyəti Azərbaycanda hansısa dövlətin nüfuz dairəsini yaratmaq və genişləndirmək, radikallıq toxumu səpmək, gələcəkdə soydaşlarımızı ölkədən kənarda baş verən silahlı münaqişələrə cəlb etmək və s. idi.

Əlbəttə, ilk dövrlərdə dövlətin və cəmiyyətin bu cür məkirli niyyətləri dəqiq görməsi mümkün deyildi. Hətta insanların böyük əksəriyyəti müsəlman qardaşlarını xilaskar kimi görür, onların səmimiyyətinə zərrə qədər şübhə etmirdilər. Üstəlik, bu təşkilatların maddi yardımına Azərbaycanın, həqiqətən də, ehtiyacı var idi. Axı yüz minlərlə insan evsiz, paltarsız və çörəksiz qalmışdı!

Qısa bir müddətdə xeyriyyə təşkilatlarının saldığı və ya himayəyə götürdüyü çadır şəhərciklərində müxtəlif dil və din kursları açılır, uşaqlar və yeniyetmələr bu kurslara cəlb edilirdi. Həmçinin, müxtəlif xeyriyyə təşkilatları və ayrı-ayrı əcnəbi şəxslər tərəfindən respublikanın bölgələrində məscidlər tikilir, qapısı bağlanmış və ya sovetlər zamanı müxtəlif məqsədlər üçün istifadə edilmiş tarixi ibadət evləri bərpa olunur, yeniyetmələr və gənclər dini təhsil almaları üçün xaricə aparılırdılar.

O dövrdə bu təşkilatların fəaliyyəti yalnız qaçqın və məcburi köçkünlərə yardım etməklə məhdudlaşmırdı. Bəzi xeyriyyə cəmiyyətləri çadır şəhərciklərindəki insanlara kömək etmək əvəzinə respublikanın sərhəd bölgələrinə nüfuz etməyə çalışır, əhali arasında zərərli dini ədəbiyyat yayır, xaricdəki müqəddəs ocaqlara qruplar şəklində ziyarətlər təşkil olunurdu. Bu isə əksər hallarda məkirli məqsədlərə xidmət edirdi.





Hesablamalara görə, müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanda xarici ölkələr və xeyriyyə təşkilatları tərəfindən onlarla məscid inşa edilib. Eyni zamanda, xarici maliyyə hesabına yüzlərlə məsciddə təmir-bərpa işləri aparılıb və minlərlə gənc xaricdə dini təhsilə cəlb olunub. Bundan əlavə, xarici təşkilatların ölkədə açdıqları mədrəsə və Quran kurslarında minlərlə yeniyetmə oxuyub. Bütün bunlar Sovetlər Birliyinin dağılmasından sonra cəmiyyətdə və insanlarda yaranmış dini tələbatın ödənilməsində əhəmiyyətli rol oynasa da, əlavə ciddi problemlərə yol açıb. Ən əsası, sonrakı mərhələdə Azərbaycana qarşı təhdidlər üçün ilkin zəmin formalaşdırıb. Müəyyən müddətdən sonra qeyd olunan məscidlərdən, mədrəsə və Quran kurslarından, xaricdə təhsil alanların arasından radikal-ekstremist meyilli gənclərin çıxması, onların xaricdəki silahlı münaqişələrdə iştirakı, dünyəvi dövlət quruluşuna qarşı çıxışların edilməsi, hansısa ölkənin dövlət-din münasibətləri modelinin respublikamıza ixrac olunması cəhdləri bu fikrin əyani təsdiqidir.

Təbii ki, cəbhədə atəşkəsdən və siyasi hərc-mərcliyin aradan qaldırılmasından sonra dövlət qurumları məsələnin və problemin mahiyyətinə varmağa başladılar. Yaranmış və gələcəkdə yarana biləcək vəziyyət ətraflı təhlil və analiz edilirdi.

Eyni zamanda, Azərbaycanın iqtisadi vəziyyəti artıq əvvəlki kimi deyildi. Ölkədə sosial-iqtisadi durum sabitləşmiş, insanların rifah halının yaxşılaşması üçün zəmin yaranmışdı. Nəticədə qısa müddətdə xarici və beynəlxalq xeyriyyə təşkilatlarının böyük əksəriyyəti qapadıldı, məkirli niyyətlə açılmış dini təhsil ocaqları, mədrəsə və Quran kurslarının fəaliyyəti dayandırıldı, zərərli dini təbliğat aparılan məscid və digər ibadət evləri ilə bağlı tədbirlər görüldü.

Sonrakı dövrün, o cümlədən digər MDB dövlətlərinin acı təcrübəsi təsdiqlədi ki, əgər həmin xeyriyyə təşkilatları və onların din pərdəsi altında fəaliyyətləri dayandırılmasaydı, Azərbaycanda dini durumda ciddi, hətta həlli mümkün olmayan problemlər yaranacaqdı.

Həmin təşkilatların bağlanması və nümayəndələrinin ölkədən çıxarılması ilə dini durumdakı problemlərin xeyli hissəsi həll olundu, gələcəkdə yarana biləcək daha ağır problemlərin qarşısı müəyyən qədər alındı. Amma, təbii ki, həmin xeyriyyə təşkilatlarının neçə illər ərzində fəaliyyəti nəticəsində yaranmış problemlərin hamısını həll etmək mümkün deyildi. Əslində, bu gün dini durumdakı problemlərin əksəriyyəti onların əməyinin "bəhrəsidir". Güman ki, biz hələ bir müddət həmin problemlərlə məşğul olmaq məcburiyyətində qalacağıq.

Ancaq onu da qeyd etmək lazımdır ki, din sahəsindəki bütün problemlərin hamısını xarici faktorlarla əlaqələndirmək doğru deyil. Çünki elə məsələlər var ki, onlar həm də cəmiyyətin daxilində, hətta beynəlxalq aləmdə gedən proseslərdən asılıdır.

Həmçinin, nəzərə almaq lazımdır ki, 71 illik fasilədən sonra cəmiyyətdə dinin yayılması asan və problemsiz ola bilməzdi. Üstəlik, bu sahəni nəzarətdə saxlamaq və idarə etmək sahəsində təcrübəsi olmayan dövlətlərin ilk dövrlərdə çətinliklərlə qarşılaşması təbiidir.

Hazırda Azərbaycanda heç də zəif olmayan dindarlaşma prosesi gedir. Bu, ümumilikdə müsbət prosesdir. Çünki insanların milli-mənəvi dəyərlərə, onun tərkib hissəsi kimi dinə qayıdışı təqdirəlayiq haldır.

Cəmiyyətin və vətəndaşın dindarlaşmasında istənilən dövlət maraqlı olmalıdır. Ona görə ki, dövlətlə dinin kifayət qədər ortaq hədəf və məqsədləri var. Bunu müxtəlif variantlarda izah





etmək olar.

Məsələn, dinin hədəflərindən biri inanclı və ya imanlı insan yetişdirməkdir. Dövlətin hədəflərindən biri isə vicdanlı vətəndaş formalaşdırmaqdır. Bəs inanclı insan kimdir?! İnanclı insan Yaradana, Onun elçisinə inanır, ədalətli, əxlaqlı, işgüzar, xeyirxahdır, ailəsini, ətrafını, yaşadığı toplumu, vətəndaşı olduğu dövləti sevir, lazım gəldikdə bu dəyərlər uğrunda savaşır, başqasının malına, namusuna göz dikmir və ibadət edir.

Bəs vicdanlı vətəndaş kimdir?! Yəqin, vicdanlı vətəndaşın xüsusiyyətlərini və keyfiyyətlərini sadalamağa ehtiyac yoxdur. Çünki inanmaq və ibadət etmək xüsusiyyəti məcburi olmamaq şərti ilə imanlı insanın bütün keyfiyyətləri həm də vicdanlı vətəndaşa şamil edilə bilər.

Deməli, insana münasibətdə dövlətlə dinin baxışında ciddi fərq yoxdur. Elə isə dövlət-din münasibətlərində problemin qaynağı nədir?! Amma bu sualın cavabından öncə problemin mahiyyətini göstərmək lazımdır. Dini durumda, ümumiyyətlə, dinlə bağlı məsələlərdə bizi nələr narahat edir və ya nələr narahat etməlidir?

# DİNİ KİMLİYİMİZİN MİLLİ KİMLİYİMİZƏ QARŞI QOYULMASI CƏHDLƏRİ

İslam dini milli kimlik anlayışını inkar etmir. Qurani-Kərimin əl-Hucurat surəsinin 13-cü ayəsində buyurulur: *"Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizlə tanış olasınız (kimliyinizi biləsiniz) deyə, sizi (ayrı-ayrı) xalqlar və qəbilələr etdik..."*

İslam milli kimlik anlayışını qəbul etsə də, millətçiliyə haqq qazandırmır. İslam inancına əsasən, Allah dərgahında üstünlük yalnız təqvaya (Allahdan qorxmaq və Ona ixlasla ibadət etmək) görədir. Çünki qeyd olunan ayədə daha sonra buyurulur: *"Allah yanında ən hörmətliniz Allahdan ən çox qorxanınızdır"* (əl-Hucurat 13).

İslam peyğəmbəri həzrəti Məhəmmədin bir hədisində isə insanların və xalqların bərabər olduğu bəyan edilir: "Heç bir ərəb qeyri-ərəbə nisbətən hansısa üstünlüyə malik deyil. Eləcə də





qeyri-ərəb zənciyə nisbətən, zənci ağ adama nisbətən hansısa üstünlüyə malik deyil".

Tarixi qaynaqlar və həzrəti Məhəmmədin həyatı təsdiqləyir ki, İslam dini meydana çıxdığı ilk dövrlərdən xalqların milli adət-ənənələrinə və mədəniyyətinə qarşı mübarizə aparmayıb. Əksinə, müsəlmanlar fəth etdikləri ərazilərdə yaşayan xalqların İslama zidd olmayan adət-ənənələrinin qorunub-saxlanılmasına dəstək olublar.

Belə ki, həm Məhəmməd peyğəmbər, həm də ondan sonrakı xəlifələr müxtəlif bölgələrə valilər göndərərkən onlara yerli əhalinin adət-ənənələrinə hörmətlə yanaşmağı tövsiyə ediblər. Nəticədə İslamı qəbul etmiş xalqlar bu dinin mahiyyəti ilə ziddiyyət təşkil etməyən adət-ənənələrini, mədəni dəyərlərini müasir dövrümüzə qədər yaşadıblar. Lakin bu gün Azərbaycanda bəzi dini qruplar tərəfindən aparılan təbliğatda bunun tamam əksi müşahidə olunur. Həmin dini qruplar təbliğatlarını nəinki milli kimliyimizin, hətta milli mədəniyyətimizin, adət-ənənələrimizin inkarı üzərində qurublar.

Milli mənsubiyyətimiz və mədəniyyətimizlə bağlı hər şeyi inkar etmək və buna İslam prizmasından haqq qazandırmağa çalışmaq qəbuledilməzdir. Əslində bu, dini kimliyimizin milli kimliyimizə, Azərbaycançılıq məfkurəsinə qarşı qoyulması deməkdir. Halbuki, Azərbaycançılıq nəinki İslama zidd deyil, əksinə özündə İslamla bağlı elementləri ehtiva edir. İslam bizim milli ideologiyamız ola bilməz, amma milli ideologiyamızın – Azərbaycançılığın ayrılmaz hissəsidir. Bunu özündə ən gözəl, mükəmməl formada əks etdirən üç rəngli bayrağımızdır. Mavi milli, yaşıl dini mənsubiyyətimizi ifadə edir, qırmızı isə müasirliyimizin rəngi və simvoludur.

Təsəvvür edin ki, bayrağımızda mavi rəng yoxdur: yalnız qırmızı və yaşıldan ibarət olsa, onu bayrağımız kimi qəbul edə bilərikmi? Yaxud yaşıl rəng olmasa, təkcə mavi və qırmızı rəng olsa, necə? Təbii ki, yox! Çünki hər üç rəng birlikdə və mavi, qırmızı, yaşıl ardıcıllıqla sıralandıqda bayrağımıza çevrilir.

Milli məfkurəmiz, ideologiyamız da belədir. İslamı və ya milli mənsubiyyətimizi onun daxilindən çıxarsaq, bizim olmayan yarımçıq bir ideologiya olar. Bu baxımdan bizim milli kimliyimizlə dini kimliyimiz bir-biriləri ilə ziddiyyət yox, vəhdət təşkil edir. Onları qarşı-qarşıya qoymaq bilərəkdən və ya bilməyərəkdən düşmən dəyirmanına su tökmək qədər ağır suçdur.

Eyni zamanda, nəzərə alaq ki, İslam bizim üçün təkcə din deyil, həm də mədəniyyət, mənəviyyat, tarix və dəyərlər toplusu deməkdir. Əgər tariximizdən və mədəniyyətimizdən İslamı və onun izlərini silsək, çox kasıb və natamam görsənər.

Eyni şəkildə İslam mədəniyyətindən Azərbaycan izlərini silsək, o, çox şey itirər. Ona görə ki, İslam Azərbaycan mədəniyyətinin, Azərbaycan isə İslamı mədəniyyətinin tamamlayıcısıdır. Onları bir-birindən ayrı düşünmək qeyri-mümkündür.

Çox vaxt haqlı olaraq xalqımızın bütün mənəvi zənginliklərini, hətta dövlətçiliyimizin əsaslarını milli-mənəvi dəyərlərimizdə axtarırıq. Bəs milli-mənəvi dəyərlərimiz nələrin əsasında formalaşıb?

Milli-mənəvi dəyərlərimiz, əslində, milli və dini dəyərlərimizin kompleks ifadəsidir. Başqa sözlə, İslam milli-mənəvi dəyərlərimizin ayrılmaz tərkib hissəsidir. Amma onların sərhədlərini müəyyənləşdirmək mümkündürmü? Əlbəttə, yox! Çünki milli və dini dəyərlərimiz bir-birilə o qədər çuğlaşıb ki, onların sərhədləri çoxdan itib. Hansı dəyərlərimizin milli, hansıların dini olduğunu heç mütəxəssislər də müəyyənləşdirə bilməz.





İslamı milli kimliyimizə qarşı qoyanlar çox vaxt adət-ənənələrimizin təftişçisi kimi çıxış edirlər. Bəzən adamda elə qənaət formalaşdırmağa çalışırlar ki, guya bu xalqın bütün adət-ənənələri İslama ziddir. On üç əsrdən çoxdur ki, İslam qəbul edən bu xalq sanki, müsəlman olmayıb, atəşpərəst, büdpərəst kimi yaşayıb. Bu cür təftişçi və inkaredici yanaşma həm İslam dininə ziddir, həm də xalqın keçmişinə və adət-ənənələrinə ən azı hörmətsizlikdir.

Azərbaycan xalqı heç vaxt İslama səthi və inkaredici yanaşmayıb. Əksinə, bütün dövrlərdə İslamın daşıyıcı və müdafiəçisi kimi çıxış edib. Təbii ki, İslam Azərbaycan ərazilərində yayılarkən bu dinin prinsiplərinə uyğun gəlməyən müəyyən adət-ənənələrimiz olub. Zaman keçdikcə həmin adət-ənənələr ya aradan qalxıb ya da İslama uyğunlaşdırılıb. Bu, günkü din "təəssübkeşlərin"dən fərqli olaraq o dövrdə - Azərbaycan ərazilərində İslam yayılarkən müsəlmanlar yerli əhalinin adət-ənənələrinə hörmətlə yanaşmış, zorakılığa yol verməmiş, İslam prinsiplərinin qəbuluna tədricilik prinsipi ilə yanaşmışlar. Əslində, Azərbaycanın tarixi ərazilərində İslamın qısa vaxtda yayılmasının əsas səbəblərindən biri də bu olub: əhalinin adət-ənənələrinə hörmətlə yanaşılması, zorakılığa və qəsbkarlığa yol verilməməsi və İslam peyğəmbəri həzrəti Məhəmmədin tətbiq etdiyi "tədricilik prinsipi"nin tətbiq olunması.

Dini kimliyimizi milli kimliyimizə qarşı qoyanlara və adət-ənənələrimizi inkar edənlərə çox vaxt haqlı olaraq bir sual ünvanlanır: onlar yüzilliklər boyu İslamı yayan, yaşadan və adət-ənənələrini də qoruyub-saxlayan babalarımızdan daha səmimi və daha təqvalı müsəlmandırlarmı?! Bəlkə, onlar İslamı bizdən – XXI əsrin müsəlmanlarından pis bilirdilər?! Təbii ki, yox! Deməli, dini kimliyimizin milli kimliyimizə, adət-ənənələrimizə qarşı qoyulması İslamdan yox, "müsəlman"dan qaynaqlanan problemdir. Həmin "müsəlmanlar" Azərbaycanda yaşasalar da, azərbaycanlı müsəlman kimi düşünmür, şəriətlə mədəniyyətin fərqinə varmırlar.

Əslində, bu, təsadüfi deyil, Azərbaycana qarşı məqsədli həyata keçirilən siyasətin tərkib hissəsidir. Bunu anlamaq və sübut etmək üçün böyük arqumentlərə ehtiyac yoxdur, tarixə nəzər salmaq kifayətdir.

XIX əsrin ortalarından başlayan maarifçilik hərəkatı Azərbaycan Xalq Cümhuriyyətinin – İslam Şərqində ilk dünyəvi və demokratik dövlətin yaranması ilə nəticələndi. Amma Azərbaycan Xalq Cümhuriyyəti bu hərəkatın milli şüurun oyanması, milli özünüdərk mərhələlərindən sonra yekun nəticəsi idi. Milli oyanış, milli özünüdərk prosesi isə ümmət anlayışı ilə millət anlayışının fərqləndirilməsindən başlandı. Başqa ifadə ilə desək, əgər Azərbaycan maarifçiləri və milli düşüncə sahibləri ümmət və millət məfhumunun fərqini insanlara aşılamasaydılar və Azərbaycan xalqı dərk etməsəydi, bəlkə də, bu gün nə Azərbaycan adlı ərazi, nə də Azərbaycan adlı dövlət olacaqdı. Bu baxımdan milli dövlətçiliyimiz həm də milli kimliyimizin fərqinə varmağımızın son nəticəsidir.

Təbii ki, o dövrdə çar Rusiyası Azərbaycanda gedən özünüdərk prosesində nəinki maraqlı deyildi, hətta buna hər vəcdlə mane olmağa çalışırdı. Üstəlik, çarizmin bu prosesin qarşısının alınması üçün ümmət anlayışını, müsəlman kimliyinin xurafata əsaslanan formasını gücləndirməyə çalışırdı. O, müsəlman kimliyindən daha çox müsəlman azərbaycanlı kimliyindən qorxurdu.

Bir sözlə, azərbaycanlını milli kimliyindən uzaq yalnız "müsəlman kimi" görmək müstəqil dövlət qurmağımızı istəməyənlərin ortaq arzusudur. Bu arzuda olanlar bizi müsəlman kimi də yox, ancaq sünni və şiə kimi görmək istəyirlər. Çünki bizi mümkün qədər parçalamaq, dini, məzhəb, təriqət müstəvisində bölmək "tikə-tikə" udmaq niyyətindədirlər.

Əslində, XIX əsrdən bu qədər zaman keçsə də, nə düşmənlərimiz, nə onların niyyətləri, nə də əməlləri dəyişib. Bizi yenə





də ümumi müsəlman kimliyi, məzhəb təssübkeşliyi altında saxlamaq, xurafata, cəhalətə yuvarlamaq, həm də İslam kimliyinə əsaslanan milli kimliyimizin güclənməsinə mane olmaq düşmənlərimizin ortaq hədəfi olaraq qalır.

XIX əsrin sonu XX əsrin əvvəllərində ümmət və millət anlayışının fərqli məfhumlar olmasını insanlara çatdırmaqdan ötrü müxtəlif vasitələrdən istifadə edilirdi. Bu məsələdə ən böyük xidmət milli mətbuatımıza, xüsusilə "Kəşkül" qəzetinə məxsusdur. İlk dəfə məhz bu qəzetdə milli və ümmət anlayışları izahlı şəkildə verilib. Daha sonra demək olar ki, əksər ziyalılarımız bu məsələyə toxunub. Hətta böyük Azərbaycan mütəfəkkiri Üzeyir Hacıbəyovun bu mövzuda klassik felyetonu var. O dövrdə bu mövzunun ən dolğun ifadə formasını dialoq şəklində göstərirdilər. Həmin dialoq təxminən belədir: Millətin nədir? – deyə soruşulur. "Müsəlmanam" cavabı verilir. Bu sual bir daha təkrarlanır, lakin cavab dəyişmir: "Müsəlmanam!" Növbəti dəfə "millətin nədir" soruşulduğunda, "şiəyəm" – cavabı verilir.

XIX əsrin sonu XX əsrin əvvəllərində milli və dini kimlik anlayışlarını insanlara izah etmək üçün bundan daha yaxşı variant ola biləcəyinə inanmaq çətindir. O dövrdən uzun müddət keçib, amma millət və ümmət anlayışları, milli kimlik məsələsi yenidən aktuallaşıb. Azərbaycanda dindarlaşma prosesi sürətləndikcə məsələnin daha da aktuallıq kəsb edəcəyi şübhəsizdir. Təbii ki, bütün bunlardan sonra ilk ağıla gələn sual budur: bizi yenidən XIX əsrə qaytarmaq istəyirlər? Bunu kimlər və nə üçün istəyir?

*Düşünmək və nəticə çıxarmaq üçün hələ ki vaxtımız var...*

# DİNDAR KONTİNGENT DAXİLİNDƏ DÜNYƏVİLİYİN ZƏİFLƏDİLMƏSİ CƏHDLƏRİ

Şəriət qaydaları yoxsa, dünyəvi qanunlar?! Hansının daha yaxşı olması barədə müzakirə açmaq mümkündür, amma buna ehtiyac yoxdur. Çünki kimin nə düşünməsindən daha çox xalqın seçimi önəmlidir. Azərbaycan xalqı isə seçimini edib və qurduğu dövlətin dünyəvi qanunlarla idarə olunması prinsipini referendum yolu ilə qəbul olunmuş Konstitusiyasında təsbit edib. Lakin məsələ bu qədər sadə deyil.

İş ondadır ki, ölkədə dindarların sayı çoxaldıqca buna paralel olaraq dindar kontingent daxilində dünyəviliyin zəifləməsi prosesi sürətlənir. Ən pisi odur ki, bu, təbii yox, kənar qüvvələr və təsirlər vasitəsi ilə güclənən prosesdir.

Bəs kənar qüvvələrin məqsədi nədir, hədəfi kimdir? Tələsməyək, öncə dünyəvilik ideyasının Azərbaycanda formalaşması tarixinə nəzər yetirək.

Birincisi, dünyəvilik hansısa dövrdə və hansısa ölkədən hazır şəkildə Azərbaycana idxal edilməyib. Əksinə, türklərin, xüsusilə





Azərbaycan türklərinin fərqli və üstün cəhətlərindən biri dünyəvi yeniliyə açıq olmaları, elmə, təhsilə, mədəniyyətə, ədəbiyyata, incəsənətə və gender bərabərliyinə önəm vermələridir.

Tarixi keçmişləri təsdiqləyir ki, türk toplumlarında din əsas və həlledici meyar olmamış, yalnız dövlət və imperiyalar qurduqda din siyasiləşmişdir. Buna görə də cəmiyyətin və insanların həyatında dinin mədəni təsirləri daha böyük olmuşdur. Eyni zamanda, türklər heç vaxt dinlə elmi, mədəniyyəti qarşı-qarşıya qoymamış, əksinə, dinin mədəni, əxlaqi və elmi baxımdan əhəmiyyətli hissəsini daha çox qabartmışlar.

Din türk toplumlarında o vaxt xurafat və cəhalət "mənbəyi"nə çevrilmişdir ki, həmin dövrdə başqalarının əsarəti altında olmuşlar. Məsələn, çar Rusiyası Şimali Azərbaycanı, Orta Asiyanı, eləcə də Volqaboyunu və Krımı işğal etdikdən sonra dini xurafat və cəhalətin bu ərazilərdə yayılması böyük müstəmləkə siyasətinin tərkib hissəsinə çevrilmişdir.

İkincisi, Azərbaycan türkləri, o cümlədən Azərbaycan ruhaniliyi heç vaxt dünyəviliyə qarşı çıxmayıb. Bu, bizi müsəlman, hətta digər türk xalqlarından fərqləndirən cəhətdir. Dünyəviliyə bu cür münasibətin nəticəsi idi ki, Şərqdə ilk demokratik cümhuriyyəti məhz Azərbaycan xalqı qurmuşdur. Həmçinin, Şərqdə ilk peşəkar teatrın, operanın, baletin, qəzetin də əsası Azərbaycanda qoyulmuşdur.

Ən önəmlisi odur ki, Azərbaycanda həm maarifçi hərəkatın yaradıcılarının, həm də xalq cümhuriyyətinin qurucularının və ideoloqlarının böyük əksəriyyəti ruhani ailəsindən və dini təhsil ocağından, mollaxana və mədrəsədən çıxıb. Qafqaz Şeyxülislamının nəvəsi Əlibəy Hüseynzadə, Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadə bu fikrin bariz

təsdiqidirlər. Əgər Azərbaycan ruhaniliyi dünyəviliyə qarşı çıxsaydı, onların övladları Şərqdə ilk cümhuriyyəti quracaq qədər dünyəvilik tərəfdarı ola bilməzdilər.

Azərbaycanda dini durumda gedən proseslərin yaxından müşahidəsi və təhlili təsdiqləyir ki, xarici ölkələrdəki dini mərkəzlərin təsir dairəsində olan bəzi dini qruplar dünyəviliyi məqsədli şəkildə hədəf seçiblər. Siyasiləşən, daha doğrusu, siyasiləşdirilən həmin qruplar dünyəviliyə qarşı mübarizəni planlı və çoxməqsədli formada həyata keçirirlər.

Məsələn, cəmiyyətdəki sosial-iqtisadi, mənəvi və hüquqi problemlərin əsas səbəbi kimi dünyəvi quruluş göstərilir və iddia edilir ki, guya ədalətin bərqərar olması üçün şəriət qaydalarının tətbiqi yeganə çıxış yoludur.

Bu cür dini qrupların apardığı təbliğat xırda detallarına qədər planlaşdırılır və nəticədə onların təsir dairəsinə düşənlər dindar olmaqla yanaşı, həm də dünyəviliyə qarşı çıxan aktiv siyasi elektorata çevrilirlər. Geniş kütlə ilə ünsiyyət zamanı şəriət qaydaları ilə idarə olunan dövlətin dünyəvi dövlətdən üstünlüyünü əsaslandırmağa çalışan, dünyəvi quruluşun İslama zidd olduğunu iddia edən belə dini qruplar rəsmi münasibətlərdə, xüsusilə dövlət məmurları ilə müzakirələrdə bu niyyətlərini gizlətməyə səy göstərirlər. Elə təəssürat yaratmağa çalışırlar ki, guya onların fəaliyyəti nəinki ölkə Konstitusiyasından kənara çıxmır, hətta bu barədə düşünmək belə istəmirlər. Əslində, bu, diqqət yayındırmaq üçün köhnəlmiş fənddir və onların yetərincə sosial baza formalaşdırdıqdan sonra sərt siyasi iddialarla çıxış edəcəkləri zərrə qədər şübhə doğurmur.

Dünyəvi dövlət quruluşuna münasibətdə hansı ölkədən qaynaqlanmasından asılı olmayaraq bütün dini cərəyan və təriqətlərin mövqeyi, demək olar ki, üst-üstə düşür. Bu baxımdan dünyəvi dövləti bütün dini cərəyanların "ortaq düşmən"i kimi də xarakterizə etmək olar. Sadəcə, ziddiyyət ondadır ki, həmin dini cərəyanların şəriət qaydaları xeyli fərqli olduğu üçün onların şəriət dövləti qurmaq məsələsinə münasibətləri də fərqlidir. Başqa sözlə, onlar dünyəvi dövlətə münasibətdə eyni mövqedən çıxış etsələr də, "hansı formada şəriət dövləti qurulmalıdır" məsələsində bir-birlərindən çox fərqlənirlər.





Məsələn, İran İslam Respublikası kimi dövlətin üstünlüyünü təbliğ edənlərlə Səudiyyə Ərəbistanı modelini təbliğ edənlər arasındakı münasibətləri nəinki ziddiyyət, hətta düşmənçilik kimi qiymətləndirmək daha doğru olardı. Lakin faktiki olaraq hər iki qrupun dünyəviliyə qarşı olması sübuta ehtiyacı olmayan həqiqətdir.

Dünyəvi dövlət quruluşunu seçmiş Azərbaycanın gələcəyi üçün böyük təhlükə və təhdidə çevrilməkdə olan bu zərərli prosesin arxasında dindən daha çox siyasi amillərin dayandığını söyləmək və bunu sübut etmək tamam başqa məsələdir. Bu, daha çox siyasi tədqiqatçıların və politoloqların işidir.

Maraqlı məqamlardan biri odur ki, bir çox hallarda Türkiyə mərkəzli dini cərəyan və təriqətlərin fəaliyyətində də dünyəviliyə qarşı ciddi etiraz elementləri müşahidə edilir. Onlar tərəfindən birbaşa dünyəvi dövlət əleyhinə çağırışlar olmasa da, dolayı yollarla şəriət qaydalarına əsaslanan quruluşun üstünlükləri təbliğ olunur. Bu üstünlüklər, xüsusilə Osmanlı imperiyasının nümunəsində daha çox qabardılır. Amma digər müsəlman ölkələrindən fərqli olaraq Türkiyə mərkəzli dini cərəyan və təriqətlərin fəaliyyətində rəsmi siyasi dairələrin və dövlət qurumlarının izi və dəstəyi o qədər də sezilmir.

Əslində, onların dünyəvi Türkiyəyə münasibəti ilə dünyəvi Azərbaycana münasibətləri mahiyyət etibarı ilə çox da fərqlən-

mir. Çünki onlar alt qatda Azərbaycanda olduğu kimi, Türkiyədə də dünyəvi dövlət quruluşunu təqdir etmirlər. Bu baxımdan həmin dini qruplar hər iki ölkədə dünyəvi quruluşa münasibətdə müxalifətdə dayanırlar. Sadəcə digərlərindən fərqli olaraq, bunu hansısa dövlətin maliyyəsi və siyasi dəstəyi ilə həyata keçirmirlər. Elə buna görədir ki, Azərbaycanda Türkiyə mərkəzli dini cərəyan və təriqətlərin fəaliyyəti zaman keçdikcə zəifləyir.

Dindarlaşma prosesi sürətləndikcə cəmiyyətdaxili münasibətlərin dini qaydalar əsasında tənzimlənməsi meylləri də güclənir. Dindar qruplar münasibətlərində tənzimləyici meyar kimi şəriət qaydalarını əsas götürməklə cəmiyyətdə dünyəvi quruluşa inamsızlıq formalaşdırmağa çalışırlar. Bəzən bu münasibətlər radikal dini qruplar arasında özünü daha sərt şəkildə büruzə verir.

Məsələn, kiminsə şəriət qaydalarına uyğun cəzalandırılması halı artıq cəmiyyətimizdə bir neçə dəfə baş verib. Belə presedentin yaranması dünyəvi qanunlara və quruluşa qarşı etirazın aktiv fazaya keçməsinə zəmin formalaşdırır. Bu baxımdan cəmiyyətimizdə dindarlaşma faizi artdıqca dünyəvilik anlayışının və quruluşunun zəifləməməsi məqsədilə ardıcıl iş aparılması aktual məsələyə çevrilir.





# DİNİN SİYASİLƏŞDİRİLMƏSİ CƏHDLƏRİ

Beynəlxalq və dövlətlərarası münasibətlərdə din amilinin əhəmiyyətsiz olduğunu yalnız sadəlövh insanlar düşünə bilər. Amma dini beynəlxalq münasibətlərdə yeganə faktor kimi qəbul etmək də olmaz. Bəzən dini dairələr və qruplar bu amili həddindən artıq qabardır, İslam dünyasının geriliyini, inkişafdan qalmasını yalnız dini amillərlə izah etməyə çalışırlar. Guya müsəlmanların zəif inkişafının yeganə səbəbi dünyada gedən müsəlman, xristian, yəhudi mübarizəsidir.

Müasir dünyada inkişafdan qalan yalnız İslam aləmi deyil, xristian ölkələri arasında da zəif inkişaf etmişlər var. Eyni zamanda, inkişaf etmiş ölkələrin hamısı xristian deyil. Məsələn, Yaponiya dünyanın iqdisadi güc mərkəzlərindən biridir və İslami baxımdan yanaşsaq, bütpərəstlərin ölkəsidir. Yaxud müsəlman ölkəsi olan Malayziya inkişaf sürətinə görə Qərb dövlətlərindən heç də geri qalmır. Hətta bura Yaxın Şərqdəki bəzi müsəlman ölkələrini, xüsusilə İran körfəzi ətrafındakı ərəb dövlətlərini də daxil etmək olar.

Deməli, İslam dünyasında fərqli nümunələr var. Amma bəzi regionlarda müsəlman ölkələrinə münasibətdə İslam amilinin olduğu da inkaredilməzdir. Məsələn, Qarabağ münaqişəsi.

İslam dünyasının geriliyini müxtəlif səbəblərlə izah etmək olar. Ancaq bu, başqa mövzudur. Bir çoxları razılaşar ki, müsəlman aləminin inkişafına mane olan amillərdən və ciddi problemlərimizdən biri dinin siyasiləşdirilməsi cəhdidir. Bu, az-çox bütün müsəlman ölkələrinə xas problemdir. Qərbdə din dövlət işlərindən, siyasi məsələlərdən kifayət qədər uzaqlaşdırılıb. Qərb dövlətlərində belə bir məsələ, demək olar ki, aktual deyil. Lakin İslam dünyasında dünyəviliyi – dinin dövlətdən ayrı olmasını, hətta Konstitusiyasında təsbit etmiş ölkələrdə belə bu problem qalmaqdadır.

İstənilən İslam ölkəsində, o cümlədən MDB məkanındakı müsəlman respublikalarında dindarların sayı artdıqca dinin siyasiləşdirilməsi cəhdləri çoxalır. Artıq siyasi arenaya elə dini qruplar və qüvvələr çıxırlar ki, şəriət qaydalarını dünyəvi qanunlardan üstün tutmaqla yanaşı, onun mərhələ-mərhələ tətbiqinə də çalışırlar.

İslami qaydaların tətbiqini cəmiyyətin və dövlətin inkişafı baxımından yeganə çıxış yolu kimi görən və təbliğ edən siyasiləşmiş dindar qüvvələr də var. Məsələ həm də ondadır ki, İslami qaydalar dedikdə hamı eyni qaydaları nəzərdə tutmur. Hər bir qüvvə və ya qrup İslami qaydaları və şəriəti öz məzhəbi çərçivəsində qəbul edir. Məsələn, şəriət dövləti ilə bağlı sünnilərin təsəvvürü bir cür, şiələrinki başqa cürdür. Bu baxımdan hər iki məzhəbin mənsublarının yaşadığı ölkələrdə dinin siyasiləşdirilməsi cəhdlərinin qarşısının alınması daha çətin və mürəkkəb məsələdir.

Ən yeni tarix təsdiqləyir ki, dinin siyasiləşdirilməsi heç bir xalqa və ölkəyə xeyir gətirməyib, əksinə, gerilik, xurafat, qanlı münaqişələr və qardaş qırğını bəxş edib. Əfqanıstan, Şimali Qafqaz, Ərəb baharından sonra bəzi ərəb ölkələri, o cümlədən Suriya, İraq, Liviya bunun bariz sübutudur.





Ölkələrin və insanların şəriət qaydaları ilə idarə olunmasının mümkünsüzlüyü isbata ehtiyacı olmayan aksiomadır. Ancaq onu da etiraf etmək lazımdır ki, İslamın siyasiləşdirilməsində, bəzi müsəlman ölkələrində siyasi İslamın real gücə çevrilməsində Qərbin "xidmətləri" az deyil. Ərəb baharı, xüsusilə onun ilkin mərhələsi zamanı baş verən proseslər göstərdi ki, bəzi Qərb dövlətləri və siyasi dairələri siyasi İslamın önünü məqsədli şəkildə açır, hətta onun daxilində Qərbin ciddi dayaqları var. Bəzən siyasi İslam onlar üçün təzyiq və təhdid vasitəsinə də çevrilə bilir.

Azərbaycana gəldikdə, burada siyasi İslamın formalaşmasından danışmaq hələ tezdir. Lakin etiraf etməliyik ki, ölkədə dinin siyasiləşdirilməsi cəhdləri zaman-zaman hiss edilir. Təəssüf ki, ölkədə dindarlıq artdıqca İslamın siyasiləşdirilməsi cəhdləri də güclənir. Bu cür cəhdləri hələlik böyük qüvvələr yox, kiçik qruplar göstərirlər.

Azərbaycanda dövlət güclüdür və cəmiyyətin mütləq çoxluğu dünyəvilik tərəfdarıdır. Bu baxımdan dinin siyasiləşdirilməsi cəhdləri yaxın gələcəkdə ciddi problemə çevrilə bilməz. Ancaq iş ondadır ki, belə cəhdlərin, demək olar ki, hamısı xaric və xarici amillərlə bağlıdır. Üstəlik, cəmiyyətdə dindarlığın artması bu cəhdlərlə düz mütənasiblik təşkil edir.

Dini siyasiləşdirməyə çalışan qruplar, adətən, ilkin mahiyyətlərini gizlədirlər. Dünyəvi dövlətə qarşı olmadıqlarını, mövcud Konstitusiya quruluşunu dəstəklədiklərini, sadəcə, qanunvericiliklə təsbit olunmuş hüquqlarını tələb etdiklərini bildirirlər.

Təbii ki, kifayət qədər sosial baza formalaşdırana kimi belədir. Sonrakı mərhələdə artıq güc nümayiş etdirilməsi, konkret

siyasi tələblər irəli sürülməsi qaçılmazdır. Hətta indiki halda da xaricə bağlı bəzi dini qruplar tərəfindən bir sıra siyasi mahiyyətli tələblər səsləndirilir. İsraillə münasibətlərin kəsilməsi, bu ölkənin rəsmilərinin Azərbaycana səfərlərinə etiraz edilməsi, Amerika, ümumiyyətlə, Qərblə əməkdaşlığın qınanılması, cəmiyyətin həyatında sərt dini-şəri qaydalara əməl edilməsi kimi tələb və çağırışları buna nümunə göstərmək mümkündür. Bura hansısa müsəlman ölkəsinin və ya ölkələrinin dövlət-din münasibətləri modelinin üstünlüyünün təbliğ olunmasını da əlavə etmək olar.

Dindar qrupların təbliğ etdikləri dövlət-din münasibətləri sistemlərinin hamısı şəriət qaydaları ilə idarə olunan dövlətlərə məxsus deyil. Elə dünyəvi dövlətlər var ki, onların da dövlət-din münasibətləri modeli Azərbaycandakı bəzi dindar qruplar tərəfindən təbliğ olunur. Bu, kor-koranə, daha doğrusu, sifarişli təbliğatıdır. Məqsəd həmin ölkəyə xas həyat tərzini yaymaq, dindar kontingent daxilində özünə dayaqlar formalaşdırmaqdır. Bu cür dayaqlar möhkəmləndikcə dinin siyasiləşdirilməsi cəhdləri də güclənə bilər.





# ƏNƏNƏVİ İSLAMIN ZƏİFLƏDİLMƏSİ CƏHDLƏRİ

Milli İslam anlayışı qəbuledilməzdir. Çünki "ərəb İslamı", "türk İslamı", "fars İslamı" deyə bir şey yoxdur. Amma türkün İslam anlayışı ilə ərəbin, farsın İslam anlayışı eyni deyil. Xalqların dinə yanaşması və dini təfəkkürü fərqlidir. Bu, xalqların etnik xüsusiyyətlərindən, həyat tərzindən, milli adət-ənənələrindən, tarixindən və digər amillərdən qaynaqlanır.

Başqa sözlə, İslam şəriəti ərəb, fars, türk, azərbaycanlı üçün eyni qaydalar toplusu olsa da, onun real həyatda tətbiqinə münasibət bir qədər fərqlidir. Necə?! Məsələyə bir az uzaqdan yanaşaq.

İndiki müsəlman xalqlar İslamı qəbul etdikdən sonra onların milli adət-ənənələri İslamla çuğlaşıb. Dinə, şəriətə zidd olan adət-ənənələri aradan çıxıb, zidd olmayanları isə qoruyub-saxlayıblar. Bəzi adət-ənənələr isə İslamlaşıb. Beləliklə, hər bir müsəlman xalq İslamı özününkiləşdirərək qəbul edib. Əslində, İslamın tələbi də belədir. Xalqlara şəriətə zidd olmayan adət-ənənələrini qoruyub-saxlamağa icazə vermək dinimizin humanist prinsipidir. Hətta İslam Peyğəmbərinin sünnəsidir.

Digər tərəfdən, şəriət və mədəniyyətin tamamilə fərqli anlayışlar olduğu nəzərə alınmalıdır. Mədəniyyəti din və şəriətlə eyniləşdirmək qəbuledilməzdir. Təəssüf ki, bəzən ərəb mədəniyyəti İslam dini və ya müsəlmanın həyat tərzi kimi qəbul olunur. Halbuki, bu, müsəlmanların din adı altında ərəbləşməsidir. Belə bir dindarlaşmanı İslamla əsaslandırmaq məntiqsizlikdir.

Hər bir xalqın özünəməxsus həyat tərzi var. Bu, onilliklər, yüzilliklər ərzində formalaşır. Xalqların həyat tərzini formalaşdıran əsas amillərdən biri dindir. Amma din yeganə amil deyil. Dinlə yanaşı, həmin xalqın milli adət-ənənələri, ailə dəyərləri, təhsil sistemi, dünyagörüşü, keçdiyi tarixi yol, yaşadığı dövlətin qayda-qanunları onun həyat tərzini müəyyənləşdirir. Bu baxımdan eyni dini, şəriəti paylaşan xalqların fərqli həyat tərzlərinin olması normaldır.

Məsələn, bir azərbaycanlı düşünün ki, şiə məzhəbindəndir, Ayətullah Sistanini təqlid edir. Şiə məzhəbindən olan və Ayətullah Sistanini təqlid edən bir nəfər də iranlı düşünün. Hər iki şəxsin dini, məzhəbi, hətta müctəhidi eynidir. Şəriət məsələlərində aralarında heç bir fərq yoxdur. Amma onların həyat tərzi eynidirmi? Əlbəttə ki, yox! Çünki nəticədə azərbaycanlı şiə Azərbaycan xalqına, iranlı şiə fars xalqına xas həyat tərzi yaşayır.

Başqa bir nümunə. Sünni - hənəfi məzhəbindən olan bir azərbaycanlı və eyni məzhəbdən olan bir ərəbi müqayisə edin. Onların məzhəbi eyni olsa da, həyat tərzləri eyni deyil. Ərəblə azərbaycanlının həyat tərzi çox fərqlidir. Bu fərq daha çox mədəniyyətdən qaynaqlanır. Müsəlman xalqlar eyni dinə mənsub olsalar da, eyni şəriəti paylaşsalar da, eyni mədəniyyəti paylaşmır, fərqli həyat tərzi yaşayırlar. Amma ayrı-ayrı müsəlman xalqların mədəniyyəti birləşərək daha böyük bir mədəniyyəti – İslam mədəniyyətini formalaşdırır. Deməli, İslama yalnız bir xalqın – ərəbin, farsın və ya türkün mədəniyyəti və həyat tərzi kimi baxmaq olmaz.





Təbii ki, İslam Peyğəmbəri ərəb idi və bu din ilk dəfə ərəblərin arasında yayılıb. Bu baxımdan İslam mədəniyyətində ərəb mədəniyyətinin izi daha çox, qabarıq görsənir. Ancaq İslamın yayılması onu qəbul etmiş xalqların ərəbləşməsi kimi qəbul edilməməlidir. Məşhur bir deyimdə olduğu kimi, bütün ərəblər müsəlman, bütün müsəlmanlar da ərəb deyil.

Beləliklə, milli İslam əvəzinə xalqların mədəniyyəti ilə çuğlaşmış ənənəvi İslam termini daha doğru və məntiqlidir. Yəni, ənənəvi İslam dedikdə şəriətlə, dinlə yanaşı, həm də yerli xalqın mədəniyyəti nəzərdə tutulur. Məsələn, Azərbaycanda ənənəvi İslam dedikdə xalqımızın formalaşdırdığı mədəniyyətlə İslamın vəhdəti başa düşülür. Bu elə bir vəhdətdir ki, onun dəqiq sərhədlərini müəyyənləşdirmək qeyri-mümkündür. Çünki mədəniyyətimizin formalaşmasında İslam özü önəmli faktorlardan biri kimi çıxış edib.

Hər bir xalqa məxsus ənənəvi İslamın başqalarından fərqli və üstün cəhətləri ola bilər. Məsələn, Azərbaycanda ənənəvi İslamın xarakterik cəhətlərindən biri yüksək tolerantlıq keyfiyyətidir. İslamın tolerant din olmasına, bütün müsəlman xalqlarının bu keyfiyyəti qəbul və təqdir etməsinə baxmayaraq, bu sahədə heç bir xalq azərbaycanlılar qədər tolerant da ola bilməz. Ümumiyyətlə, elmə, təhsilə, müasirliyə, dünyəviliyə, qadına, ailəyə yüksək dəyər verilməsi, məzhəbçilikdən uzaq olması Azərbaycanda ənənəvi İslamın xarakterik xüsusiyyətləridir. Bunlar həm də bizi başqalarından fərqləndirən keyfiyyətlərdir.

Təbii ki, ənənəvi İslam məsələsində fərqli düşünənlər var. Bəziləri deyir ki, İslam ənənəvi və qeyri-ənənəvi yanaşmanı qəbul etmir, məsələyə konkret yanaşır: istənilən məsələyə hansısa xalqın münasibəti İslama ya uyğun ya da zidd ola bilər, amma fərqli yanaşma ola bilməz. Təbii ki, belə deyil.

Məsələn, İslam bir kişiyə eyni vaxtda dörd xanımla ailəli olmağa icazə verir. Çoxarvadlılıq ərəb adət-ənənəsi, ərəb kültürüdür, təkarvadlılıq isə Azərbaycan mədəniyyətidir. Bizim mədəniyyətimizdə çoxarvadlılığa yaxşı baxılmır. Amma əslində bu məsələdə hər iki hal İslama zidd deyil. Sadəcə, ənənəvi İslam təkarvadlılığı təqdir edir. Deməli, əgər dindarlıq artdıqca çoxarvadlılığa meyil yaranırsa, bu, İslamın güclənməsinin yox, ənənəvi İslamın zəifləməsinin nəticəsidir.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra müsəlman ölkələrindən müxtəlif dini cərəyan və təriqətlərə mənsub təşkilatlar və şəxslər bura gələrək dini təbliğat aparmağa başladılar. Onların hansı niyyətlə gəlməsini bir kənara qoyaq və məsələyə yalnız ənənəvi İslam nəzərindən yanaşaq. Təbii ki, onlar gələnə, yəni sovetlər dağılana qədər ölkədə din və dindarlıq zəif idi, amma İslam yerli əhali tərəfindən ənənəvi mahiyyətdə qavranılırdı.

Bir sözlə, İslam və müsəlman dedikdə insanların ağlına daha çox sovetlərdən öncəki Azərbaycan cəmiyyəti və Azərbaycan ruhanisi gəlirdi. Heç kim dindarı ərəb, fars, hətta türk qiyafəsində təsəvvür etmirdi. Əsl mömin yaddaşlarda dindar bir azərbaycanlının timsalında canlandırılırdı. Məsələn, Hacı Zeynalabdin Tağıyevin simasında.

Eyni zamanda sovet dövründə dindarların sayı az idi, amma bu azlıq zəif də olsa, özündə Azərbaycana xas ənənəvi İslamın elementlərini daşıyırdı. Əslində, bizim üçün ən doğru variant milli-mənəvi dəyərlərə, onun tərkib hissəsi kimi İslama qayıdış prosesi kimi ənənəvi İslamı bərpa etmək olmalıdır. Lakin məlum səbəblərdən ənənəvi İslam "xaricdən gələn İslam"a ciddi müqavimət göstərə bilmədi. Dindarlıq daha çox gəlmə, qeyri-ənənəvi İslamın hesabına artdı. Bu, həm də ənənəvi İslama qarşı məqsədli planın tərkib hissəsi idi. Çünki xaricdəki dini və siyasi dairələr





Azərbaycanda maraqlarını təmin etmək üçün ilk növbədə "öz İslamları"nı burada yayırdılar. Beləliklə, qeyri-ənənəvi İslamın təbliği nəticəsində ənənəvi İslam sıxışdırılır, dindar kontingentin azərbaycanlıya xas həyat tərzi özgələşirdi.

Bu necə baş verir?! Məsələn, fərz edək ki, bir ərəb Azərbaycana gəlir, sənə dini öyrədir və dindar olursan. Dini ərəbdən öyrəndiyin üçün və əsl dindar kimi həmin ərəbi gördüyün üçün sən də ona bənzəyirsən, başqa sözlə, dindarlaşdıqda ərəbləşirsən. Eyni qayda da dini farsdan və ya Anadolu türkündən öyrəndiyin təqdirdə "farsa", "Anadolu türkünə" çevrilirsən. Bu, fars, ərəb, türk İslamının – Azərbaycanda ərəbə, farsa, türkə xas həyat tərzinin yayılması, ənənəvi İslamın – azərbaycanlıya xas həyat tərzinin isə zəifləməsidir. Başqa ifadə ilə desək, bu, ölkədə dindarların sayının artması, amma azərbaycanlıların sayının azalması deməkdir. Çünki bu şəraitdə azərbaycanlı dindarlaşdığı təqdirdə ərəbə, farsa çevrilir, yadlaşır.

Əlbəttə, hazırda Azərbaycanda xarici ölkə vətəndaşları dini təbliğat aparmırlar. Lakin iş ondadır ki, "yad İslam"ının təbliği nəticəsində formalaşmış dindar kontingent var. Bu gün həmin kontingentin təbliğatı nəticəsində dindarlaşan insanlar yenə də ərəbə, iranlıya çevrilirlər.

Ənənəvi İslamın tarixən güclü olduğu bir sıra bölgələrimizdə (Şimal, Şimal-Qərb, Şirvan) bu baxımdan indi ciddi problemlər yaşanmaqdadır. Hətta bəzi rayonlarımızda, ənənəvi İslam, demək olar ki, məhv olmaq ərəfəsindədir. Həmin rayonlarda dindarlıq əsasən qeyri-ənənəvi İslamın hesabına artır.

Din bəzi bölgələrimizdə (Aran, Qarabağ, xüsusilə Qərb regionu) sovet zamanı daha çox zəifləmişdi. İslam sadəcə ayin və mərasimlərdə yaşadılırdı. Bu bölgələrdə ənənəvi İslam, demək olar ki, ziyarətgahlardan və seyid ocaqlarından ibarət idi. İndi

də həmin bölgələrdə dindarların sayındakı artım zəifdir. Amma bu zəif artım qeyri-ənənəvi İslamın hesabınadır ki, bu da kifayət qədər ciddi təhdiddir. Bir sözlə, qeyd olunan bölgələrdə qeyri-ənənəvi İslama, demək olar ki, alternativ yoxdur. Bu isə dini duruma daha həssas və hərtərəfli yanaşma tələb edir.





# DİNİ RADİKALİZMİN GÜCLƏNDİRİLMƏSİ CƏHDLƏRİ

İslam Azərbaycanda yayılmağa başladığı dövrdən indiyədək bu dinin radikal, humanizmdən kənar prinsiplərə əsaslanan hansısa təlimi ölkəmizdə təbliğat apara bilməyib. Bunun əsas səbəbi Azərbaycan xalqının etnik xüsusiyyətləri, yüksək mənəviyyatı və mədəniyyəti ilə bağlıdır.

Azərbaycan xalqının nüvəsini və mütləq əksəriyyətini təşkil edən türklərin din anlayışı digər xalqlardan, hətta qonşu toplumlardan xeyli fərqlidir. Türklər tarixən xurafatçı və şəriətçi deyillər. Onlarda dini toplum şəklində yox, fərdi qaydada yaşamaq ənənəsi daha güclüdür. Bu ənənə İslamdan çox-çox əvvəl formalaşıb və əski şamanizmdən bugünədək özünü qoruyub saxlayıb. Bu etnik xüsusiyyətin nəticəsidir ki, türklər din yaymaq adı altında qanlı savaşlar aparmayıblar. Onların din yaymaq anlayışında "güc" məfhumu olmayıb, yalnız təbliğə və irfana əsaslanan cihada üstünlük veriblər. Buna görə də, fərdin kamilləşməsinə, öz nəfsi üzərində aparılan cihada və Yaradana xatir yaradılana qarşı sevgiyə əsaslanan irfan mədəniyyətinin beşiyi Türk dünyası, xüsusilə Azərbaycan olub.

Qədim dastan və əfsanələrdən də göründüyü kimi, türklər üçün dinin şəriət tərəfi yox, vahid Tanrı-Allah inancı önəmlidir. Onlar üçün əsas məsələ vahid Tanrıya inanıb-inanmamaqdır, yerdə qalan hissə təfərrüatdır. Ancaq İslamı qəbul etdikdən sonra önəmli hissəyə Qurani-Kərim və Məhəmməd peyğəmbər də əlavə olunub.

Beləliklə, türklər üçün din anlayışının əsasında tək Allaha, Kitaba və Peyğəmbərə inam dayanıb. Türklərin digər müsəlman xalqlarından fərqli olaraq, məzhəbçilik və bölücülükdən uzaq olmasının bir səbəbi də məhz budur. Onlar Allahı, Quranı və Peyğəmbəri qəbul edən müsəlmanın şəriətə mövqeyi və məzhəbi nə olursa-olsun, onu kafir saymazlar.

Təbii ki, etnik xüsusiyyətdən irəli gələrək türklərin şəriətlə bağlı təfərrüatlara varmamaları son nəticədə onların digər dinlərin və məzhəblərin nümayəndələrinə qarşı daha tolerant olmalarına zəmin yaradır. Çünki bütün dinlərin dözümsüzlük "gücü" şəriətdən qaynaqlanır. Hansı dinə mənsubluğundan asılı olmayaraq, dindarlar şəriətlə bağlı təfərrüatlara vardıqca, dözümlülük immunitetləri zəifləyir.

Türklərdə din mədəniyyətinin formalaşmasında önəmli amillərdən biri də onların əxlaq anlayışı ilə bağlıdır. İgidlik, qoçaqlıq, mərdlik və comərdlik kimi əxlaqi xüsusiyyətlərə böyük önəm verən türklər xəyanəti, yalançılığı bağışlamaz, dürüst, xeyirxah və mərhəmətli insanı yüksək qiymətləndirərdilər. Onlara görə, bu əxlaqi keyfiyyətlərə malik insan hansı dinə mənsub olmasına baxmayaraq, hörmət və ehtirama layiqdir. Başqa sözlə, türklər insanlara münasibətlərini inanclarına yox, əxlaqi keyfiyyətlərinə görə müəyyənləşdiriblər.

Qəribədir ki, türklər "kafir" anlayışını daha çox inanc deyil, əxlaq müstəvisində işlədiblər. Məsələn, qədim dastanlardan





da göründüyü kimi, öz dinlərinə mənsub olan, amma xəyanətkar, qəddar kimi tanınanları da "kafir", "gavur" adlandırıblar. Deməli, türklər üçün "kafir" daha çox dini yox, əxlaqi anlayışdır.

Xalqımızın tarixən dini radikalizmdən uzaq olmasına baxmayaraq, təəssüf ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dini durumda üzləşdiyimiz məsələlərdən biri də radikalizmdir. Əslində, dini radikalizmə dini məsələdən daha çox xarici ölkələrin və dairələrin Azərbaycana yönəlik təxribat-pozuculuq fəaliyyəti və din pərdəsi altında kənar qüvvələrdən qaynaqlanan təhdid kimi yanaşmaq lazımdır. Təbii ki, ənənəvi İslamın zəifləməsi, amma "dindarlığın" güclənməsi fonunda bu təhdid ciddiləşə bilər.

Müstəqilliyimizi bərpa etdikdən sonra dindar kontingent daxilində radikallıq meyillərinin yaranması, başqa sözlə, ölkədə "radikal İslam"ın özəyinin formalaşdırılması cəhdlərinin təxminən 25 illik tarixi var. Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkədə yaranmış ağır vəziyyət və əhalinin dini biliklərinin aşağı olması bəzi xarici dini dairələrin və ölkələrin Azərbaycanda pozuculuq fəaliyyəti üçün əlverişli şərait formalaşdırmışdı. Onlar bu şəraitdən istifadə edərək gələcəkdə pozuculuq fəaliyyəti üçün ölkədə dini radikalizmin özəklərini formalaşdırmaq istiqamətində çalışıblar. Həmin illərdə ölkədə qaçqınlara və aztəminatlı ailələrə kömək adı altında onlarla humanitar təşkilat fəaliyyətə başlayıb.

Əslində bu cür təşkilatların əksəriyyəti din pərdəsi altında qaçqınlar arasında, respublikanın bütün bölgələrində Azərbaycan üçün ənənəvi sayılmayan dini cərəyanların və radikal dini qrupların özəyinin yaradılması ilə məşğul olublar. Hətta həmin təşkilatların bəzilərinin dini-ekstremist təşkilatların himayəsi altında fəaliyyət göstərmələri ilə bağlı ciddi şübhələr yaranıb. Azərbaycanda ilk radikal dindarların məhz müsəlman təşkilat-

larının fəaliyyət göstərdikləri qaçqın düşərgələrindən çıxması bu cür şübhələrə haqq qazandırır.

Humanitar yardım adı altında çadır şəhərciklərində dini kursların açılması, ölkədə onlarla məscidin inşası, yüzlərlə gəncin ilkin dini təhsildən sonra xaricdəki dini məktəblərə göndərilməsi, qayıtdıqdan sonra özlərinin zərərli təbliğatlarına cəlb edilməsi bu prosesin ilkin mərhələsi idi. Əgər ilkin mərhələdə radikal dini təbliğatı əcnəbi "din xadimləri" həyata keçirirdisə, ikinci mərhələdə artıq buna ehtiyac qalmırdı. Çünki onların açdıqları mədrəsə və kurslarda təhsil almış, eləcə də xaricdə dini təhsilini bitirib qayıtmış yerli "mütəxəssislər" həmin humanitar təşkilatların inşa etdirdikləri məscidlərdə "işə başlayır", hətta dini icmalar formalaşdırırdılar.

Humanitar yardım üçün ayrılmış maliyyənin böyük hissəsinin zərərli dini təbliğata sərf olunması, məscid, mədrəsə, Quran kurslarının açılması, ölkəyə külli miqdarda zərərli dini ədəbiyyatın gətirilməsi və paylanması, gənclərin xaricdə dini təhsilə cəlb olunması öz "nəticəsini" verdi. Lakin onu da qeyd etmək lazımdır ki, ötən əsrin 90-cı illərinin sonlarından başlayaraq humanitar təşkilatların bu cür fəaliyyətinin qarşısı alındı. Zaman göstərdi ki, əgər həmin humanitar təşkilatların (İslam İrsinin Dirçəlişi Cəmiyyəti, Beynəlxalq İslam Nicat Təşkilatı, Qətər Xeyriyyə Cəmiyyəti, Əl-Həramyen və s.) Azərbaycanda fəaliyyəti dayandırılmasaydı, ölkədə dini durumda kifayət qədər ciddi problemlər yaranacaq, dini radikalizm təhlükəsi artacaqdı.

Beləliklə, Azərbaycanın iqtisadi inkişafı, iqtisadi-siyasi sabitliyin bərqərar edilməsi, hüquq-mühafizə orqanlarının uğurlu fəaliyyəti, humanitar təşkilatların bağlanması, onların "xidmətləri" nəticəsində ölkəmizə nüfuz etməyə çalışan bir neçə terrorçu qruplaşmanın ("Ceyşullah", "Hizbut Təhrir", "Əl-Qa-





idə-Qafqaz", "Camaat Əl-Muvahhidun", "Meşə Qardaşları", "Kamran Əsədovun dəstəsi") ləğv edilməsi respublikamızda dini radikalizm və ekstremizm təhlükəsinin qarşısını aldı. Lakin bütün bunlara baxmayaraq, radikallıq meyilləri dini durumda ciddi təhdidlərdən biri kimi qalmaqdadır. "Ərəb baharı", xüsusilə Yaxın Şərqdə baş verən proseslər göstərdi ki, heç bir ölkə dini radikalizm və terror təhlükəsindən sığortalanmayıb.

Yaxın Şərqdə dini zəmində müşayiət olunan qarşıdurmalarda təşəbbüskarlıq və ən aktiv rol radikal dini cərəyanlara aiddir. Azərbaycanın Yaxın Şərqin qonşuluğunda yerləşməsi səbəbindən sözügedən bölgədəki gərgin vəziyyət Azərbaycana da təsirsiz qalmır. Yaxın Şərqdəki münaqişələr ölkədə "islamçı" tendensiyanın getdikcə güclənməsi fonunda bir sıra təhlükələrə yol açır və radikal dini kontingent (əsasən vəhhabilik və ifrat şiəlik) mövcud siyasi sistemə qarşı alternativ güc kimi formalaşmağa çalışır. Müsəlman Şərqində "siyasi İslam"ın sosial bazasını təşkil edən güclü təşkilatlanma, effektli maliyyələşmə və təsirli təbliğat mexanizmlərinin Azərbaycanda da tətbiq olunmasına cəhdlər göstərilir.

Həmçinin, Suriya və İraqda ekstremizm və radikallığın güclənməsi Azərbaycanda da bu əqidə daşıyıcılarının həmin istiqamətlərə meyillənməsinə səbəb olur. Ölkədə fərqli məzhəbə barışmaz mövqe nümayiş etdirən sosial təbəqənin yaranmasına səy göstərilir.

Müqayisəli təhlillərə əsasən demək olar ki, Yaxın Şərqdə məzhəbçiliyin alovlandırdığı münaqişələrdən yaranan vəziyyətin ideoloji zəmində Azərbaycana da proyeksiyasına cəhdlər mövcuddur. Bu özünü ölkədə vəhhabilik, radikal şiəlik və digər qeyri-ənənəvi cərəyanların mövcudluğu şəraitində məzhəb təəssübkeşliyində, dini sahədə aqressiv dindarlıqla səciyyələnən

qütbləşmədə qabarıq göstərir. Qeyd olunan istiqamətlərdə dindarların sayında sürətli artım olmasa da, mövcud kontingentin bir-birinə barışmaz əks mövqelərdə cəbhələşməsi milli birlik və sabitliyin qorunması baxımından potensial təhdid mənbəyinə çevrilir.

Yaxın Şərqdə ənənəvi dindarlığın zəifləməsi, radikal təmayüllü cərəyanların inkişafı və yayılması təcrübəsi göstərir ki, kəmiyyətdən asılı olmayaraq zaman keçdikcə bu cərəyan mənsubları ilə ünsiyyət və birgəyaşayış daha da çətinləşir. Analoji halı Azərbaycan üçün də xarakterik saymaq olar.

Qeyri-ənənəvi və radikal təmayüllü dindarların yalnız kəmiyyət artımı deyil, həm də zaman keçdikcə bu kontingentdə nəsil dəyişməsi həlli çətin problemlərə gətirib çıxara bilər. Belə ki, günümüzdə vəhhabi və radikal şiə dindarların dünyəvi keçmişinin olması, bu cərəyanların qeyri-ənənəvi sayılması həmin cərəyan mənsubları ilə bu və ya digər formada ünsiyyət qurmağa şərait yaradır. Lakin qeyri-ənənəvi sayılan cərəyanların "yeni nəsil"i hər hansı dünyəvi keçmişə malik olmayacağı təqdirdə həmin nəsillə ünsiyyət imkansız görünür.

Bütün bunlar çoxmillətli, çoxkonfessiyalı və multikulturalizmin xas olduğu Azərbaycan cəmiyyətində ictimai-siyasi vəziyyətin arzuolunmaz məcraya yönəlməsinə, eləcə də milli dövlət maraqlarımıza xələl gəlməsinə zəmin yarada bilər.

Ümumiyyətlə, ənənəvi dindar kontingentdə "qocalma" prosesinin sürətlənməsi qeyri-ənənəvi dindarlığın alternativsizliyi ilə nəticələnə bilər ki, bunu da Yaxın Şərqdəki proseslərin Azərbaycana proyeksiyasını asanlaşdıran əsas daxili faktorlardan biri kimi qəbul etmək mümkündür.





# DİNİ ZƏMİNDƏ XARİCİ TƏSİRLƏRİN GÜCLƏNDİRİLMƏSİ CƏHDLƏRİ

Sovetlər dövründə ənənəvi İslamın zəifləditməsi nəticəsində cəmiyyətin din anlayışı kifayət qədər dəyişikliyə məruz qalmışdı. O dövrdə insanların böyük əksəriyyətinin İslamla bağlı bilikləri çox səthi idi. Üstəlik, bu biliklər çox vaxt ateist təbliğat nəticəsində formalaşırdı. Bir sözlə, din cəmiyyətin həyatında formal mahiyyət daşıyır, yalnız ayin və mərasimlər zamanı yada düşürdü.

Azərbaycanın belə bir vəziyyətdə müstəqilliyini bərpa etməsi din sahəsində ciddi boşluqların yaranması ilə nəticələndi. Ateizmə əsaslanan kommunizm quruluşundan sonra milli-mənəvi dəyərlərin tərkib hissəsi kimi dinə hörmətlə yanaşan cəmiyyətə keçid asan baş verə bilməzdi.

Eyni zamanda, Azərbaycan həmin illərdə Ermənistanın təcavüzünə məruz qalmış, bir milyon vətəndaşı məcburi köçkün

vəziyyətinə düşmüş, ölkədə sosial-iqtisadi böhran yaranmışdı. Bu cür vəziyyət Azərbaycanda müəyyən maraqları olan xarici ölkələr, siyasi və dini dirələr üçün olduqca əlverişli idi. Çünki ölkədə mərkəzi hakimiyyətin zəif olması, siyasi-hərbi hərc-mərclik həmin xarici qüvvələrə Azərbaycana nüfuz etmək imkanı yaradırdı. Onlar üçün bu məsələdə əlverişli üsul din pərdəsi altında fəaliyyət göstərmək idi.

Xarici siyasi və dini dairələr dini zəmində gələcəkdə Azərbaycana təsir etmək üçün aşağıdakı istiqamətlərdə iş aparıblar:

- *Məscidlərin inşası;*

- *Mədrəsə və Quran kurslarının açılması və gənclərin dini təhsil almaq üçün xaricə aparılması;*

- *Zərərli dini ədəbiyyatın idxalı, xaricdəki müqəddəs məkanlara məqsədli kütləvi ziyarət səfərlərinin təşkil olunması.*

**Məscidlərin inşası.**

Hesablamalara əsasən, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkədə xarici dövlətlər, o cümlədən əcnəbi təşkilatlar və vətəndaşlar tərəfindən 119 məscid tikilib və ya yenidən qurulub. Müxtəlif xeyriyyə təşkilatlarının inşa etdirdiyi bu məscidlər, demək olar ki, respublikanın bütün bölgələrini əhatə edirlər.

Çox vaxt yerli əhalinin rəyi, məzhəb və say tərkibi, memarlıq xüsusiyyətləri nəzərə alınmadan tikilmiş bu məscidlər kiçik ölçülərdə inşa edilsə də, "böyük məqsədlərə" xidmət edirdi. Belə ki, bu cür məscidlər tikildikdən sonra ora əcnəbi "din xadimləri" cəlb edilir, gənclərin və yeniyetmələrin təlim-tərbiyəsi üçün kurslar təşkil olunurdu. Nəticədə həmin məscid hansısa ölkənin dəstəklədiyi qeyri-ənənəvi dini cərəyanın təbliğat yuvasına çevrilirdi.

Araşdırmalara görə, Azərbaycanda fəaliyyət göstərən qeyri-ənənəvi dini cərəyanlar ilk dəfə məhz bu məscidlərdən yayılmağa başlayıb, daha sonra digər məscidlərə və bölgələrə sıçrayıb. Bu baxımdan respublikanın Cənub qapısı Astaradan Şimal qapısı Xaçmaza, Bakıdan Qərb qapısı Qazaxa qədər bütün bölgələrimizdə əcnəbilər tərəfindən məscidlərin inşası təsadüfi deyildi. Zaman göstərdi ki, əslində bu cür məscidlər xarici dövlətlərin ölkəmizə qarşı təsir vasitələridir.





2000-ci ildən etibarən bu qəbildən olan ibadət evlərinin fəaliyyəti barədə tədbirlər həyata keçirildi. Hətta onların bir qisminin bağlanması zərurəti yarandı. Təbii ki, o məscidlər bağlanmalarına baxmayaraq, "rolları"nın bir hissəsini artıq oynamışdılar.

Mövcud dini durumun təhlili təsdiqləyir ki, hazırda ölkədə aktivliyi ilə seçilən, qeyri-ənənəvi dini cərəyanlara mənsub şəxslərin üstünlük təşkil etdikləri ibadət evləri əsasən xaricilər tərəfindən tikilmiş və ya xarici din xadimi cəlb olunmuş məscidlərdir.

Xarici təşkilatların və əcnəbi vətəndaşların tikdirdiyi 119 məsciddən əlavə respublikanın əsasən şiələr yaşayan bölgələrindəki mindən artıq məscid və mədrəsəyə xaricdən şiə məzhəbinə mənsub "din xadimləri" və "müəllimlər" cəlb olunub. Onlar ölkədə fəaliyyət göstərdikləri müddətdə Azərbaycana yad həyat tərzini, xarici ölkəyə xas dövlət-din münasibətləri modelini təbliğ ediblər.

**Mədrəsə və Quran kurslarının açılması və gənclərin dini təhsil almaq üçün xaricə aparılması.**

Xarici ölkələrə məxsus təşkilatlar məscidlərin inşasına paralel olaraq gələcəkdə dini ekstremizm və fanatizmin sosial bazasını təşkil edəcək kontingenti formalaşdırmaq məqsədilə dini dəyərlərin dirçəldilməsi adı altında, həm də yeni tikilmiş məscidlərdə fəaliyyət göstərmək üçün gəncləri özlərinin açdıqları mədrəsə və Quran kurslarına cəlb etməyə çalışırdılar. Humanitar yardım adı ilə ayrılan vəsaitin çox hissəsi bu cür fəaliyyətlərə sərf olunurdu. Məqsəd lazımi sosial baza formalaşdırmaqla yanaşı, həm

də gələcəkdə həyata keçiriləcək pozuculuq fəaliyyətinə rəhbərlik edəcək şəxsləri seçmək idi.

Mədrəsə və Quran kurslarına cəlb olunan kontingentin arasından seçilən "bacarıqlı və imanı güclü" gənclər sonradan məlum müsəlman ölkələrinin ayrı-ayrı dini tədris mərkəzlərinə göndərilir, "İslam naminə", "Allah yolunda" onların bütün maliyyə xərcləri ödənilirdi. Azərbaycanda fəaliyyət göstərmiş ərəb humanitar təşkilatları tərəfindən hələ ötən əsrin 90-cı illərinin ortalarında 200-dən artıq azərbaycanlı xarici ölkələrdəki dini tədris müəssisələrinə göndərilib.

Təhsilini bitirib qayıdan gənclər mənimsədikləri radikal dini cərəyanları Azərbaycanda təbliğ edir, tərəfdarlar toplayır və xaricə təhsil almaq üçün yeni gənclər seçirdilər. Bu məqsədlə Azərbaycana qayıdan həmin gənclər əcnəbi humanitar təşkilatların açdıqları məscid və mədrəsələrdə işlə təmin olunur, onlara maliyyə yardımı ayrılır, ilkin dövrdə əcnəbilərin həyata keçirdikləri fəaliyyətin Azərbaycan vətəndaşları kimi onlar tərəfindən davam etdirilməsi üçün bütün imkanlar yaradılırdı. Çünki Azərbaycanda mövcud qanunvericiliyə əsasən, əcnəbilərin dini təbliğatla məşğul olması qadağan idi.

Hesablamalara görə, indiyədək Səudiyyə Ərəbistanı, Suriya, Liviya, Malayziya, Misir, Pakistan, Rusiya Federasiyası (Dağıstan) və İranda 3 minə yaxın azərbaycanlı dini təhsil alıb. Xarici ölkələrin Azərbaycandakı mədrəsə və Quran kurslarında təhsil almış tələbələrin sayı isə mindən çoxdur.

Təbii ki, qeyd edilən kontingentə daxil olan bütün şəxsləri radikal və ifrat "kadrlar" kimi xarakterizə etmək doğru deyil. Onların arasında doğru dini bilgiləri, səmimi dindarlığı və sağlam vətəndaş mövqeyi ilə seçilənlər də var. Lakin ümumilikdə bu kontingentin böyük hissəsi sonradan xarici ölkələrin dini missionerlik fəaliyyətinə cəlb olunub.





## Zərərli dini ədəbiyyatın idxalı, xaricdəki müqəddəs məkanlara məqsədli kütləvi ziyarət səfərlərinin təşkil olunması.

Müstəqilliyimizi bərpa etdikdən sonrakı dövrdə təxribat-pozuculuq üçün ölkədə zəmin yaratmağa çalışan xarici dairələr bu fəaliyyətin tərkib hissəsi kimi zərərli dini cərəyan və təriqətləri, eləcə də dini dözümsüzlüyü təbliğ edən dini ədəbiyyatın Azərbaycana gətirilməsi istiqamətində də çalışıblar. Onlar həmin dini ədəbiyyatı əsasən inşa etdikləri məscidlərdə və açdıqları mədrəsələrdə yayır, prosesə daha çox insanın cəlb olunmasına cəhd göstərirdilər.

Dini ədəbiyyat əsasən İran, Türkiyə, Rusiya Federasiyası və Səudiyyə Ərəbistanından hazır şəkildə və ya elektron daşıyıcılarda Azərbaycana gətirilir, çoxaldılaraq satış şəbəkələri vasitəsilə yayılırdı. Bu ölkələrdən ucuz qiymətə, bəzən pulsuz əldə olunan dini ədəbiyyat respublikaya müxtəlif yollarla, o cümlədən xeyriyyə təşkilatlarının, xarici ölkələrin və onların mədəniyyət mərkəzlərinin xətti ilə gətirilirdi.

Həmçinin, azərbaycanlı zəvvarların "Həcc", "Ümrə", "Məşhəd" və "Kərbəla" ziyarətləri zamanı onlarla birgə ölkəyə külli miqdarda dini ədəbiyyat göndərilirdi. Bunlarla yanaşı, ayrı-ayrı dindarlara, xaricdə dini təhsil alıb qayıtmış şəxslərə zərərli dini ədəbiyyatın yazılması, internetdən əldə edilərək müxtəlif yollarla nəşr olunması və yayılması üçün hərtərəfli yardım göstərilirdi. Bölgələrdə zərərli dini ədəbiyyatlar yayılmaqla yanaşı, onların satışından əldə olunan gəlir radikal dini cərəyanların maliyyələşdirilməsinə yönəldilirdi.

Eyni zamanda xüsusi seçilmiş şəxslər tərəfindən müqəddəs məkanlara, o cümlədən Məşhəd və Kərbəlaya qruplar şəklində ucuz ziyarət səfərləri təşkil olunur, səfər müddətində hə-

min qruplar ciddi dini-ideoloji təsirlərə məruz qalırdılar. Zəvvar qruplarının rəhbərlərinə isə ziyarətə getdikləri ölkələrdə məqsədli şəkildə əlverişli şərait yaradılır və onlar maddi gəlir əldə edirdilər. Nəticədə qrup rəhbərlərində hər dəfə zəvvar səfərlərinə daha çox adam cəlb etməyə maddi maraq yaranırdı.

Xarici təsirlərə əlverişli zəmin yaradan qeyd olunan amillərin aradan qaldırılması üçün qısa vaxtda xeyli tədbirlər həyata keçirildi. Lakin xarici dini və siyasi dairələrin illər boyu ölkədə apardıqları fəaliyyətin nəticələrini tam şəkildə aradan qaldırmaq mümkün deyildi. Artıq ölkədə xarici təsirlərə məruz qalmış və xaricdən idarə edilən dini kontingent formalaşmış, onun təşkilatlanması və idarə olunması məqsədilə mexanizmlər işlənmişdi. Bunun nəticəsidir ki, hazırda Azərbaycanda xaricdəki dini mərkəzlərə bağlı dini cərəyan və təriqətlər və onların on minlərlə tərəfdarı var. Üstəlik, zaman keçdikcə onların sayı azalmır, əksinə, zəif də olsa, artır.

Həmçinin, ölkənin şiə məzhəb əhalisinin təqlid etdiyi bütün müctəhidlər xaricdə yaşayır. Yaxın gələcəkdə Azərbaycanın özünün müctəhidlərinin olması ehtimalı belə yoxdur. Bu cür vəziyyətdə ölkədəki dindar kontingentin dini-ideoloji cəhətdən xaricdən asılı olmaması qeyri-mümkündür. Bu isə Azərbaycanın dini zəmində xarici təsirlərə məruz qalmasına əlverişli zəmin yaradır və dini-ideoloji cəhətdən xaricə bağlı dindarların sayı artdıqca belə təsirlərin güclənməsi ehtimalı ciddiləşir.





# MƏZHƏB AYRI-SEÇKİLİYİNƏ CƏHDLƏR

Azərbaycanda rəsmi dini statistika aparılmır. Amma təxmini hesablamalara görə, ölkə əhalisinin 96 faizini müsəlmanlar təşkil edir. Müsəlmanların isə təxminən 60-65 faizi şiə, 35-40 faizi sünni məzhəbinə mənsubdur. Müsəlman ölkələri arasında məzhəb bölgüsü baxımından Azərbaycan yalnız İraqla müqayisə oluna bilər. Azərbaycan və İraq istisna olmaqla, demək olar ki, bütün müsəlman ölkələrində ya sünni, ya da şiə məzhəbi mütləq üstünlüyə malikdir.

Əhalinin məzhəb baxımından tərkibinin bu şəkildə olması dini zəmində təhdidləri daha da aktuallaşdırır. Məzhəb zəminində gərginliyin hökm sürdüyü ölkələrdə - İraq, Livan, Yəməndə sabitliyin pozulması bu məsələnin nə qədər həssas olduğunu və həyati əhəmiyyət kəsb etdiyini təsdiqləyir.

Şiə və sünni məzhəbinə mənsub müsəlmanların tarixən və müasir dövrümüzdə birlikdə, qardaşcasına yaşadığı, bəlkə də, yeganə ölkə Azərbaycandır. Dinlər və məzhəblərarası münasibətlər baxımından Azərbaycan bütün dövrlərdə nümunə olub.

Hətta xarici dairələr məqsədli şəkildə çalışsalar da, məzhəb zəminində ciddi qarşıdurma yaratmağı bacarmayıblar. Çünki Azərbaycan xalqı dünyagörüşü etibarı ilə məzhəbçi deyil.

Hələ üç əsr öncə rus çarı I Pyotr vəsiyyətində Rusiyanın Qafqazda möhkəmlənməsi üçün ermənilərdən, sünni və şiə ziddiyyətindən istifadə olunmasını tövsiyə edirdi. Çar Rusiyası iki əsrə qədər bu cür siyasət yürütməsinə və məzhəbçilik toxumları səpməsinə baxmayaraq, Azərbaycanda şiə-sünni məsələsi məişət müstəvisindən kənara çıxmayıb.

Bütün tarixi dövrlərdə Azərbaycan maarifçiləri məzhəb ayrı-seçkiliyini tənqid edib, onunla mübarizə aparıb, amma heç vaxt kimin haqlı, kimin haqsız olduğunu söyləməyiblər.

Təəssüf ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xaricə bağlı dini qruplar məzhəb amilini qabardır, nəticədə məzhəb ayrı-seçkiliyinə rəvac verirlər. İslamı məzhəb müstəvisində təbliğ etmək, hansısa məzhəbi İslam kimi təqdim etmək, əslində, bu böyük dini məzhəb səviyyəsinə endirmək deməkdir.

Bu cür təbliğat - hansısa məzhəb və ya təriqəti doğru İslam, ona mənsub şəxsləri isə həqiqi müsəlman kimi təbliğ etdikdə İslam faktiki bölücü faktora çevrilir, cəmiyyət sünniyə, şiəyə bölünür. Bu baxımdan İslam təbliğatı məzhəblər, təriqətlər üstü aparılmadıqda cəmiyyətdə məzhəbçilik güclənməyə başlayır. Məzhəb ayrı-seçkiliyinin gücləndiyi ölkələrdə ictimai-siyasi sabitliyin pozulması, vətəndaş sülhünə xələl gəlməsi, inkişafın qarşısının alınması qaçılmazdır. İraq, Suriya, Yəmən, Livan nümunələri bunun ən bariz sübutudur.

İslam dini təşəkkül tapdığı ilk dövrdə - Məhəmməd peyğəmbər həyatda olduğu zaman bu din daxilində hər hansı əqidə və hüquqi ziddiyyətlərin baş vermədiyi məlumdur. Bunun başlıca səbəbi son səmavi dinin təbliğçisi olan Məhəmməd peyğəmbərin





insanlar arasında İslam dininin müraciət mənbəyi kimi yeni dini qəbul etmiş cəmiyyətdə bütün əqidə, hüquq, sosial, siyasi, iqtisadi, eləcə də məişət mövzusunda sualları cavablandırması idi.

Peyğəmbərin vəfatından sonra həm dini, həm də siyasi hakimiyyətə fərqli şəxslər yiyələndi. İslam dinində məzhəblərin meydana gəlməsi də məhz həmin dövrə təsadüf edir. Eyni din daxilində fərqli məzhəblərin və fikir cərəyanlarının yaranması ümumi qanunauyğunluqdan qaynaqlanır. Bu qanunauyğunluq da sosial mənafelərin və siyasi maraqların toqquşması, həmçinin, fərdi psixoloji amillərlə əlaqədardır.

Digər tərəfdən, yeni dini qəbul etmiş xalqların min illər boyu kök salmış ənənələrindən birdən-birə imtina edə bilməmələri həmin ənənələrin və ondan qaynaqlanan həyat tərzinin yeni dinlə qaynayıb-qarışmasına səbəb oldu. Bütün bunlar da özlüyündə məzhəblərin, fikir cərəyanlarının yaranması və ideoloji istiqamətində müstəsna rol oynadı.

İslam dininin hər iki məzhəbi – şiəlik və sünnilik təşəkkül tapdığı ilkin dövrdən bir neçə qolları ilə ölkəmizdə təmsil olunur. Buraya şiəliyin cəfəri, sünniliyin isə hənəfi və şafii qolları aiddir. Cərəyanlardan isə hər iki məzhəbə istinad etmək imkanları ilə səciyyələnən sufilik Azərbaycanda yayıla bilib. Tarix boyu Azərbaycanda təşəkkül tapmış və qismən yayılmış İslam dini cərəyanları qeyd olunan məzhəblərin əsasında formalaşıb.

Məlumdur ki, istənilən toplum spesifik düşüncə tərzi və xarakterə malikdir. Milli xarakter cəmiyyətin hadisələrə yanaşmasını, eləcə də ideoloji baxışlara, dinə münasibətini şərtləndirən mühüm amillərdəndir. Sözügedən mənzərə İslam dininin timsalında da qabarıq müşahidə olunmaqdadır. Bu da məhz yerli meyarlara uyğun, ənənəvi sayılan məzhəb və cərəyanların ölkədə yayılmasına imkan verib. Xalqın təfəkkürünə yad və qey-

ri-ənənəvi sayılan dini cərəyanlar isə Azərbaycanda özünə yer tapa bilməyib. Bu da Azərbaycanın tarixən məzhəblərarası münasibətlərin konstruktiv əsaslar üzərində möhkəm qərar tutmasını səciyyələndirib.

XX əsrin sonlarından etibarən dini inancdan öz geosiyasi maraqlarını həyata keçirmək vasitəsi kimi yararlanmağa çalışan güclərin təsiri və dəstəyi ilə qeyri-ənənəvi dini cərəyanlar ölkəmizə ayaq açıb. Sələfilik (vəhhabilik), radikal şiəlik, nurçuluq, süleymançılıq, təbliğ və dəvət kimi tanınan qeyri-ənənəvi cərəyanların yayılması kənar müdaxilə və təsirlərin altında baş verib. Ümumiyyətlə, tarixə nəzər saldıqda qeyd olunan cərəyanların yaranması və yayılmasının mənəvi ehtiyacdan deyil, siyasi və sosial amillərlə bağlı olduğunu görmək mümkündür. Bu amil Azərbaycandakı məzhəblərarası münasibətlərə də təsirsiz ötüşmür.

Sələfilik, radikal şiəlik kimi cərəyanların təbliği zamanı əxlaqi-mənəvi məsələlər arxa plana keçirilir, əvəzində cəmiyyətə əqidə məsələləri aşılanır. Halbuki, Azərbaycanda tarixən mövcud olan məzhəblər arasında fərqlilik daha çox hüquqi müstəvidə təzahür edib, əqidə məsələlərində təfriqə yaradan məqamlara geniş yer verilməyib.

Həmçinin, yerli əhalinin məzhəb və cərəyanlara milli xarakter, düşüncə tərzi və davranışlarına uyğun yanaşması regiondakı məzhəb və cərəyanların qismən də olsa, yerli mühit və tələblərə uyğunlaşmasını qaçılmaz edib. Azərbaycan və azərbaycanlıların coğrafiyasında məzhəblərarası münasibətlərin konstruktiv tənzimlənməsində milli xarakter amilinin əhəmiyyətini başqa bir faktla da əsaslandırmaq olar. Əsrlər boyu fərqli xalqların bu ərazilərdə dinc-yanaşı yaşaması və etnik azlıqlara göstərilən xoş münasibət milli xarakter faktorunun önəmini bir daha təsdiqləyir.





Bütün bunlar Azərbaycanda məzhəblərarası münasibətlərdə yarana biləcək gərginliyin tarixi köklərinin olmamasını və mümkün təhdidlərin kənar təhrikedici faktorlardan qaynaqlandığını düşünməyə əsas verir.

Diqqəti cəlb edən və narahatlıq doğuran məqam ondan ibarətdir ki, son onilliklər ərzində Azərbaycanda yayılan sələfi və radikal şiəlik ifrat və bir-biri ilə ziddiyyət təşkil edən baxışları ilə seçilirlər.

Həm etiqadi, həm də fiqhi (hüquqi) cəhətdən Azərbaycan coğrafiyasında hər hansı dini ideoloji təmələ malik olmayan sələfi cərəyanı əqidəcə sələfi, məzhəb etibarilə hənbəliliyə aiddir. Fiqh məktəbləri arasında ən mühafizəkar və ifrat baxışları ilə seçilən Hənbəli məzhəbi və fundamentalist sələfi əqidəsi üzərində qurulmuş bu cərəyan həm orta əsrlərdə (XIII əsr), həm də yeni dövrdə (XVIII əsr) ictimai-siyasi vəziyyətin dəyişməsi fonunda meydana çıxıb və aktuallıq qazanıb. Din pərdəsi altında təbliğ olunan cərəyanın qabartdığı məsələlərə nəzər saldıqda burada gerçək hədəfin din deyil, siyasi məqsəd daşıdığı aydın olur.

Sələfi cərəyanı təbliğçilərinin yaydıqları fikirlər üzərində aparılan müşahidə və təhlillərə əsasən, burada siyasi ambisiyanın güclü olması, cəmiyyətdə nüfuz dairəsinin genişləndirilməsi və siyasi hakimiyyətin son hədəf kimi müəyyənləşdirilməsi ilə yanaşı, digər məzhəblərə qarşı dözümsüzlük, güzəştsizlik və aşağılayıcı düşüncə ilə yanaşma ciddi problem kimi qiymətləndirilməlidir. Özündən başqasını doğru müsəlman saymayan sələfilər cərəyan daxilində fərqli qruplara bölünüb. Həmin qrupların təbliğatları üzərində aparılan müşahidələrin müqayisəli təhlilinə əsasən demək olar ki, sələfi cərəyanında dini ekstremizmin həm ideoloji, həm də əməli formasının təzahürlərini görmək mümkündür.

Təbliğat zamanı psixoloji təlqinetmə, sosial həmrəylik metodları ilə yanaşı, sələfi cərəyanı ideoloqlarının bölgələri hərtərəfli

öyrənmələri və əhalinin etiqadi baxışları, milli-etnik mənsubiyyətlərini nəzərə almaları müşahidə edilir. Belə ki, fərqli məzhəbin (şiəliyin) daşıyıcıları arasında yayılma imkanı və qarşı tərəfi assimilyasiya etmə potensialının məhdud olması reallığı ilə hesablaşan sələfi təbliğatçıları daha çox sünni əhalinin, etnik azlıqların və hansısa dini baxışa malik olmayanların üstünlük təşkil etdikləri ərazilərdə təbliğat aparır. Nəticədə sünni məzhəbli əhali sələfilik (vəhhabilik) istiqamətində konsolidasiyaya (tam olmayan assimilyasiya) məruz qalır. Assimilyasiyadan fərqli olaraq konsolidasiyanın daha sürətli proses olduğunu nəzərə alsaq, sələfi (vəhhabi) cərəyanının ölkənin Şimal sərhədləri boyunca etnik azlıqların və sünni – şafii məzhəbli əhalinin yaşadığı ərazilərdə genişlənməsi ciddi təhdid kimi dəyərləndirilə bilər.

Cəfəri məzhəbinə uyğun təbliğat apardığını iddia edən radikal şiə təbliğatçıları, əslində, həqiqi cəfəriliyin mahiyyətindən uzaqlaşaraq mənəvi-əxlaqi məsələlərdən daha çox siyasi məqsədlər güdürlər. XVII-XVIII əsrlərdə (təqribən vəhhabiliklə eyni vaxtda) hazırda şiəlik adı ilə təbliğ olunan cərəyanın daxilində ciddi iyerarxik sistemin formalaşması, eləcə də ruhanilərin cəmiyyətdə geniş imtiyazlar qazanaraq üstün mövqelər tutması prosesi başlanıb. Bu prosesin kulminasiya nöqtəsi şəriətə əsaslanan dövlətin qurulması olub.

Son onilliklər ərzində şiəlik adı altında Azərbaycanda yayılan ideoloji təlimdə də ənənəvi şiə məzhəbli əhalinin konsolidasiyası prosesi getməkdədir. Bu prosesdə diqqəti cəlb edən məqam təbliğat zamanı sünni və şiə məzhəbli əhalinin kompakt və iç-içə yaşadığı ərazilərə (Quba, Göyçay, Yevlax, Zərdab və s.) diqqətin yönəldilməsidir.

Radikal şiəliyin səciyyəvi cəhətlərindən biri də antisemitizm, digər məzhəbi qəbul etməməsi, hətta fərqli məzhəbdə ehtiramla





yanaşılan şəxslərə həqarətli münasibətin olmasıdır. Bu təbliğatın əsasında teosentrik (din mərkəzçiliyi) prinsipinə söykənən ekspansiya siyasəti dayanır.

Nurçuluq, süleymançılıq, təbliğ və dəvət, nəqşibəndiliyin yeni axını, qadirilik və digər camaatlar ayrı-ayrılıqda cərəyan görüntüsü yaratmağa çalışsalar da, fiqhi baxımdan hənəfi məzhəbinə mənsubdurlar.

Nurçuluğun son hədəfi dinc və mədəni yolla hakimiyyətə gəlməkdir. Yayılmasında əsas metod intellektual dairələri hədəfə almasıdır. Bu cərəyanın Sunqurçu qanadı mühafizəkarlığı ilə seçilsə də, Fətullahçı qanadı dialoq və fərqliliyi qəbul etmə tərəfdarı kimi çıxış edir. Fətullahçılığın bu cəhəti ona həm cəmiyyətdə fərqli dairələrdə özünü qəbuletdirmə, həm də geniş manevr imkanları qazandırır. Radikallıqdan uzaq cərəyan kimi təqdim olunan fətullahçılığın əsas fərqli cəhəti yayılmada hədəf kimi həm üfüqi, həm də şaquli istiqaməti paralel olaraq diqqətdə saxlamasıdır.

Belə ki, cəmiyyətdə güclü şəbəkələşib üfüqi istiqamətdə yayılmaqla yanaşı, təhsil sferası vasitəsi ilə intellektual dairələrə nəzarət imkanlarına səy göstərməsi fətullahçılığın dolayı yolla şaquli istiqamətdə (dövlət idarəçiliyinin ələ keçirilməsinin qısa yolu kimi) yayılmaq planından xəbər verir. Loyal yanaşma tərzi fətullahçılara fərqli məzhəb daşıyıcılarını öz ətrafında toplamaq imkanı yaradır.

Qeyd olunan faktlar, eləcə də Yaxın Şərqdə baş verən proseslər, xüsusilə Suriya və İraqda məzhəb zəminində gedən mübarizənin Azərbaycana proyeksiyasına cəhdlər məzhəb ayrı-seçkiliyinin ideoloji, milli və ictimai təhlükəsizlik baxımından dövlətimiz üçün ciddi təhdid kimi qiymətləndirilməsinə əsas verir.

# DİNİ ZƏMİNDƏ CƏMİYYƏTDƏ SOSİAL QÜTBLƏŞMƏNİN YARADILMASI CƏHDLƏRİ

Dini cərəyan, təriqət və camaatlıqlara xas xüsusiyyətlərdən biri öz tərəfdarlarını cəmiyyətdən təcrid etməyə çalışmalarıdır. Bu bütün dövrlərdə belə olub. Çünki insanları hansısa dini ideya ətrafında möhkəm birləşdirmək üçün onları mənəvi, ictimai, əxlaqi tellərlə yanaşı, həm də sosial-iqtisadi cəhətdən bir-birilərinə bağlamaq lazımdır. Başqa sözlə, eyni dini cərəyanın və ya təriqətin üzvlərini həm də maddi maraqlar birləşdirməlidir. Belə olan təqdirdə dini cərəyan və təriqətlər daha monalit olur, cəmiyyətdə yarımüstəqil sosial zümrə kimi formalaşır və ətraflarına daha çox insan cəlb edə bilirlər.

Yarımüstəqil sosial qrupların yaranması bütün cəmiyyətlər, xüsusilə dini biliklərin zəif olduğu ölkələr, o cümlədən kiçik dövlətlər üçün daha təhlükəlidir. Ona görə ki, dini zəmində sosial zümrələr formalaşdıqdan və müəyyən kəmiyyət göstəricisinə





nail olduqdan sonra onlar cəmiyyətdə artıq güc mərkəzi kimi çıxış edir və dövlət strukturları ilə diktə dili ilə danışmağa başlayırlar. Ən sonda isə ya siyasi hakimiyyət iddiası ilə çıxış edir ya da əlavə imtiyaz tələb edirlər.

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanda da buna bənzər proseslər gedir. Ötən əsrin 90-cı illərində ölkədə sosial baza formalaşdırmağa çalışan bəzi dini cərəyanlar, xüsusilə vəhhabilik, nurçuluq və radikal şiəlik bu istiqamətdə səylə çalışır. Bu üç dini cərəyanın cəmiyyətdə yarımüstəqil sosial qrup kimi formalaşmaq cəhdləri və bunun əlamətləri açıq-aydın hiss edilir.

Məsələn, vəhhabi dini cərəyanına mənsub şəxs əgər öz əqidədaşının mağazasından alış-veriş edə, öz əqidədaşı olan həkimə gedə, övladını öz əqidədaşının açdığı kursa apara, öz əqidədaşının təklif etdiyi iaşə xidmətlərindən istifadə edə bilirsə, deməli, bu dini cərəyanın yarımüstəqil zümrə kimi formalaşmaq potensialı kifayət qədər ciddidir. Bu cür vəziyyətin vəhhabiliklə yanaşı, nurçuluq və radikal şiəliklə bağlı yarandığını da söyləmək olar.

Digər ölkələrin təcrübəsi göstərir ki, dini cərəyan və təriqətlər müstəqil sosial qrup olmaqdan əlavə cəmiyyətdə hansısa istehsal və ya biznes sahəsini inhisara almağa çalışırlar. Buna nail olduqları halda onlarla mübarizə çətinləşir, həmçinin, onların təbliğat imkanları və ölkənin bütün bölgələrinə yayılmaq fürsəti yaranır.

Məsələn, deyək ki, hansısa məhsulun istehsalı vəhhabilərin əlində cəmləşsə, həmin məhsulun bütün bölgələrdə satışı həyata keçirilsə və bu işə yalnız öz əqidədaşlarını cəlb etsələr, deməli, Bakıdan Qazaxa, Astaradan Xaçmaza və Balakənə qədər bütün bölgələrdə vəhhabiliyin yayılması üçün şərait yaranmış olacaq.

Yaxın Şərq ölkələrinin bu sahədə kifayət qədər "zəngin" təcrübəsi var. Onların təcrübəsi təsdiqləyir ki, bu cür dini cərəyanlar öncə təbliğatlarını aparır, sonra sosial baza formalaşdırır, daha

sonra cəmiyyət daxilində müstəqil sosial zümrəyə çevrilirlər. Axırda isə siyasi hakimiyyət uğrunda mübarizəyə qoşulurlar. Buna bariz nümunə Türkiyədəki Fətullah Gülən camaatıdır. Dini təbliğatdan başlayan Fətullah Gülən öncə camaatlıq yaratdı, sonra cəmiyyət daxilində müstəqil - paralel cəmiyyət formalaşdırdı. Ölkənin bütün bölgələrinə və təbəqələrinə nüfuz etmiş Fətullah Gülən, nəhayət 15 iyul 2016-cı ildə dövlət çevrilişinə cəhd göstərdi. Türkiyə böyük və güclü dövlətdir. Ona görə də bu prosesin qarşısını ala bildi. Amma kiçik və gənc dövlətlərin belə proseslərdən uğurla çıxma ehtimalı azdır, bəlkə də, heç yoxdur.

Dini cərəyan və təriqətlərin cəmiyyətdə sosial qütbləşmə və yarımüstəqil sosial qruplaşmalar yaratması həm də dindarlaşmanın anormal prosesə çevrilməsinə zəmin formalaşdırır. Çünki belə vəziyyətlərdə dini təriqət mənsublarının iqtisadi gəlirləri artır, əhalinin digər təbəqələri ilə müqayisədə onların rifah halı yüksəlir.

Məsələn, təsəvvür edin ki, ölkədəki orta statistik vəhhabinin maddi vəziyyəti digər təbəqələrdən olan orta statistik vətəndaşın maddi vəziyyətindən daha yaxşıdır. Belə olan halda vəhhabi olmaq iqtisadi cəhətdən cəlbedici və səfərəli bir işə çevrilə bilər. Nəticədə, bu cərəyan özündə təkcə eyni dini əqidəni daşıyanları yox, həm də ortaq iqtisadi maraqları olan geniş kütlələri birləşdirər. Bu isə çox da uzaq olmayan gələcəkdə həmin dini cərəyanın siyasi iddialarla çıxış etməsi ehtimalını ciddiləşdirər. Dünyəvi dövlət üçün bu kifayət qədər ciddi təhdiddir.

Ümumiyyətlə, qeyri-ənənəvi, radikal dini cərəyan və təriqətlərin iqtisadi – maddi imkanlara əsaslanan dini təbliğat aparmaları yolverilməzdir. Lakin araşdırmalar göstərir ki, qeyri-ənənəvi dini cərəyanların əksəriyyəti bu cür metodlardan istifadə etməyə çalışırlar. Onların həm maddi nöqteyi-nəzərdən xaricdən





dəstəklənməsi, həm də ölkə daxilində özlərinə iqtisadi dayaqlar formalaşdırmağa çalışmaları və bir-birilərinə maddi dəstək verməkləri barədə kifayət qədər məlumatlar var. Belə dini cərəyanlara mənsub şəxslərin əldə etdikləri maddi gəlirin bir hissəsini dini təbliğata və yeni tərəfdarların cəlb edilməsinə yönləndirməsi aksiomadır.

Müşahidələrə əsasən demək olar ki, qeyri-ənənəvi, radikal dini cərəyanlar öz tərəfdarlarına maddi dəstək vermək məqsədilə müxtəlif variantlardan istifadə edirlər. Məsələn, maddi problemləri olan tərəfdarları üçün vəsait toplayır, ticarətə başlamaq imkanı məhdud olanlara əmtəə formasında təmənnasız kömək göstərir, öz tərəfdarlarına ödənişsiz və ya güzəştli məişət, iaşə xidməti təklif edir, eləcə də işləmələrinə şərait yaradırlar. Dini zəmində cəmiyyətdə sosial qütbləşmənin yaranmasına xidmət edən bu cür faktlara sistemli fəaliyyətin tərkib hissəsi kimi yanaşdıqda dövlət üçün təhdidlərin yarana biləcəyi ehtimalı ciddiləşir.

# TOLERANTLIĞIN ZƏİFLƏDİLMƏSİ CƏHDLƏRİ

Azərbaycan coğrafi baxımdan təkcə qitələrin – Avropa ilə Asiyanın deyil, həm də mədəniyyətlərin sərhədində yerləşir. Ölkəmiz İslam dünyasının və mədəniyyətinin Şimal qurtaracağı, Avropanın – Qərb mədəniyyətinin isə başlanğıcıdır. Başqa sözlə, Azərbaycan Avropadan baxdıqda Şərqin, Şərqdən baxdıqda isə Avropanın başı və ya başlanğıc nöqtəsidir. Belə bir coğrafi mövqedə, mədəniyyətlərin qovşağında yerləşməsi ölkəmizdə tarixən formalaşmış tolerantlıq mədəniyyətini şərtləndirən əsas amillərdən biridir.

Tarixi və sosioloji tədqiqatlarla sübut edilib ki, İslam dünyasının mərkəzində yerləşən və yalnız müsəlman toplumlarla sərhəd olan xalqlarla müqayisədə müsəlman aləminin ucqarlarında başqa mədəniyyətə malik toplumlarla qonşu olan xalqlar daha tolerantdırlar.

Eyni zamanda, bu da təsdiqlənib ki, "sərhəddə" yaşayan xalqlar milli və dini baxımdan daha təəssübkeş olsalar da, bu, onların tolerantlığına ciddi maneçilik törətmir, sadəcə, özünü, fərqliliyini qorumaq instinktini gücləndirir. Bu, təkcə İslam dünyasına deyil, digər mədəniyyətlərə də aiddir. Məsələn, tolerantlığa münasibətdə Avropanın mərkəzi ilə ucqarları bir qədər fərqlənir.





Azərbaycanın tarixi ərazilərində və qonşu ölkələrdə fərqli dinlərin, əsasən də Xristianlığın və Yəhudiliyin mənsubları yaşadığı üçün əhali arasında başqa inanca malik insanlarla birgəyaşayış qaydaları və ənənələri formalaşıb. Zaman keçdikcə həmin qayda və ənənələr birgəyaşayış mədəniyyətinə çevrilərək onun bazisini təşkil edib.

Azərbaycanın yerləşdiyi Qafqaz regionu etnik baxımdan dünyanın ən zəngin bölgəsidir. Bu regionda etnik qrupların sərhədi bəzən kəndlərlə müəyyən edilir. Bir-birinə 4-5 km məsafədə yerləşən kəndlərdə ayrı-ayrı etnik qruplar yaşayır və fərqli dillərdə danışırlar. Məsələn, 160 min nəfərlik əhalisi olan Quba rayonunda kompakt halda 10-a yaxın etnik qrup (tatlar, ceklər, yəhudilər, qırızlar, xınalıqlılar və s.) yaşayır. Bu cür müqayisəni yalnız Şimali Qafqazla bağlı aparmaq mümkündür. Məsələn, qonşu Dağıstanda rəsmi qaydada 40-dan çox yerli dildən istifadə olunur. Başqa sözlə, regiondakı, o cümlədən Azərbaycandakı etnik müxtəliflik (əslində zənginlik) tolerant və multikultural mühitin formalaşmasında əhəmiyyətli rol oynayıb. Çünki müxtəlifliyin mövcudluğu üçün tolerantlığın olması şərtdir.

Sosial-iqtisadi zəmin olmadan hansısa mədəni və mənəvi intibahın baş verməsi qeyri-mümkündür. Bu baxımdan Azərbaycanın tarixi İpək yolunun üzərində yerləşməsi xüsusi qeyd olunmalıdır. Uzaq Çindən başlayan və Avropanın qurtaracağında bitən İpək yoluna təkcə ticarət yolu və iqtisadi məsələ kimi baxmaq olmaz. Bu yolla həm ipək və müxtəlif məhsullar daşınıb, həm də insanlar, fərqli dinlər, mədəniyyətlər səyahət edib. Nəticədə Azərbaycan xalqı müxtəlif mədəniyyətlərlə, dini, fəlsəfi cərəyanlarla tanış olub, hətta bəzən onların nümayəndələrinə sığınacaq belə verib.

Tarixi qaynaqlar təsdiqləyir ki, həm Avropadan, həm Yaxın, həm də Uzaq Şərqdən gəlmiş tacirlər Azərbaycanda sərbəst ticarətlə məşğul olublar. Onları ölkəmizə cəlb edən yalnız vergi güzəştləri deyil, eyni zamanda, mədəni və mənəvi mühit idi. Müxtəlif etnik və dini qruplara mənsub olan tacirlər heç bir ayrı-seçkiliyə məruz qalmır, rahat və təhlükəsiz şəraitdə öz inanclarına uyğun yaşayırdılar. Başqa sözlə, tacirlər sərbəst ticarətlə məşğul olur, etiqadlarını yaşayır, yerli əhali isə onlara iqtisadi və mənəvi cəhətdən əlverişli mühit yaradaraq sosial rifah halını yaxşılaşdırırdı. Təbii ki, hər iki tərəfin iqtisadi baxımdan maraqlı olduğu belə bir mühitdə tolerantlığın, qarşılıqlı hörmətə əsaslanan dözümlülük ənənələrinin formalaşması labüd idi.

Mütəxəssislər tolerant cəmiyyətin sirrini daha çox din amilində axtarırlar. Bunu hətta standart və qəti fikirlə belə ifadə edirlər: dini tolerant olmayan xalqın özü tolerant ola bilməz. Bəlkə də, bu fikrin təsdiqinin ən gözəl nümunəsi Azərbaycan xalqı və İslam dinidir. On dörd əsrdir ki, İslam Azərbaycan ərazilərində yayılıb və bu coğrafiyada aparıcı dinə çevrilib.

Şübhəsiz ki, İslam tolerant din olmasaydı, onun mənsublarının yaşadığı Azərbaycanda indiki səviyyədə dözümlülük mədəniyyəti formalaşa bilməzdi. Bu baxımdan Azərbaycan xalqının tolerantlığının əsas səbəblərindən biri də din amili – İslamla bağlıdır.

İslamdakı tolerantlığın səbəbini bu dinin iki əsas qaynağında – Qurani-Kərim və Məhəmməd peyğəmbərin sünnəsində axtarmaq lazımdır. Hər iki qaynaqdan az-çox xəbəri olanlar bilirlər ki, İslam seçim azadlığına, bərabərliyə, insan ləyaqətinə, din azadlığına, etnik fərqliliklərlə hesablaşmağa xüsusi önəm verir. Dinimizə görə, bütün insanlar və millətlər bərabərdir, ali irq, ali millət anlayışı yoxdur. Qurani-Kərim buyurur: *"Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq..."* (Hucurat, 13).





Peyğəmbərimizin hədisi-şərifində bu fikir daha da konkretləşdirilir: "Heç bir ərəb qeyri-ərəbə nisbətən hansısa üstünlüyə malik deyil. Eləcə də qeyri-ərəb zənciyə nisbətən, zənci ağ adama nisbətən hansısa üstünlüyə malik deyil".

Qurani-Kərimdə insanlara bəyan edilir: *"Dində məcburiyyət (zorakılıq) yoxdur..."* (2:256); *"...İnsanları iman gətirməyə sənmi məcbur edəcəksən?!"* (10:99).

Göründüyü kimi, İslam prinsipial şəkildə insanların vicdan və seçim azadlığına müdaxilə edilməsinə icazə vermir. Hətta Peyğəmbər belə olsa, o, insanları inanmağa məcbur edə bilməz. İnsanlar inanıb-inanmamaqda sərbəstdirlər. Peyğəmbər yalnız təbliğ edən və düz yolu göstərəndir. *"Və de: "Haqq Rəbbinizdəndir. Kim istəyir inansın, kim də istəyir inanmasın (kafir olsun)..."* (18:29).

İslama görə, əsl müsəlman əlindən, dilindən başqasına ziyan dəyməyən insandır. Qurani-Kərimin "əl-Bəqərə" surəsinin 177-ci ayəsində buyurulur: "Yaxşı əməl heç də (ibadət vaxtı) üzünü günçıxana və günbatana tərəf çevirməkdən ibarət deyildir. Yaxşı əməl sahibi əslində Allaha, axirət gününə, mələklərə, kitaba (Allahın nazil etdiyi bütün ilahi kitablara) və peyğəmbərlərə inanan, (Allaha) məhəbbəti yolunda (və ya mal-dövlətini çox sevməsinə baxmayaraq) malını (kasıb) qohum-əqrəbaya, yetimlərə, yoxsullara, (pulu qurtarıb yolda qalan) müsafirə (yolçulara), dilənçilərə və qulların azad olunmasına sərf edən, namaz qılıb zəkat verən kimsələr, eləcə də əhd edəndə əhdinə sadiq olanlar, dar ayaqda, çətinlikdə (ehtiyac, yaxud xəstəlik üz verdikdə) və cihad zamanı (məşəqqətlərə) səbr edənlərdir. (İmanlarında, sözlərində və əməllərində) doğru olanlardır. Müttəqi olanlar da onlardır!"

Bütün bunlardan sonra İslamın dözümsüz din olduğunu söyləmək ən azı ədalətsizlik olar, hətta böhtan mahiyyəti daşıyar. Tarixdə müsəlmanlarla digər dinlərin mənsublarının birgə fəaliyyətinə, əməkdaşlığına və eyni şəhərdə, kənddə qarşılıqlı hörmət şəraitində yaşamalarına dair minlərlə fakt mövcuddur. Müsəlmanlar başqa dindən olanlara nəinki tolerant yanaşıb, yeri gəldikdə onları himayə və müdafiə ediblər. İslam dini sürətlə yayılarkən xristian, yəhudi məbədlərinə toxunulmayıb, həmin dinlərin mənsublarının öz inanclarına uyğun yaşamalarına şərait yaradılıb.

İslamdan gələn bu cür dözümlülük Azərbaycan xalqının etnik xüsusiyyətlərindən qaynaqlanan tolerantlıqla çuğlaşaraq daha rəngarəng və mükəmməl bir forma alıb və zəngin mədəni sərvətə çevrilib. İslam Azərbaycan xalqının ondan öncəki dinlər və müxtəlif inanclar vasitəsilə əldə etdiyi mədəni və mənəvi sərvəti məhv etməyib, əksinə, onu daha da zənginləşdirib. Bunun nəticəsidir ki, İslam Azərbaycanda yayıldıqdan sonra Qafqazda tikilmiş ilk kilsə olan Şəkidəki Kiş məbədinin ətrafında bir nəfər də olsun xristian yaşamayıb, amma Azərbaycan xalqı onu qoruyaraq bu günədək gətirib çıxarıb. Yaxud İslamın Azərbaycanda ən güclü olduğu dövrdə, XVIII əsrdə Bakıda atəşpərəstlər tərəfindən məşhur atəşgah məbədi tikilib.

Lakin iş ondadır ki, müasir dövrümüzdə dindar kontingent daxilində xarici təsirlərin artması, radikal meyillərin güclənməsi, İslamın məzhəb müstəvisində təbliğ edilməsi, cəmiyyətin dindar və dünyəvi kəsimi arasında qütbləşmənin yaranması nəticəsində tolerantlığın zəifləməsi qaçılmaz proses ola bilər.

Bu sahədə Azərbaycanın uğurları, beynəlxalq aləmdə nümunəsi tolerantlıq modeli kimi qəbul edilməsi xarici dini və siyasi dairələrin, eləcə də radikal qrupların ürəyincə deyil. Onlar





Azərbaycanda inkişafın və sabitliyin təminatçısı olan yüksək tolerantlıq mədəniyyətini və multikulturalizm siyasətini hədəf kimi müəyyənləşdirərək ona qarşı təbliğat aparmaqdan çəkinmirlər. Radikal dini qruplar arasında dözümsüz, dini və məzhəb ayrı-seçkiliyinə rəvac verən fikirlərin səslənməsi, buna yönəlik çağırışlar edilməsi, digər dinlərə və məzhəblərə münasibətdə şəriət qaydalarının qabardılması buna sübut sayıla bilər.

Tolerantlıq Azərbaycan üçün mənəviyyat və mədəniyyət məsələsi olmaqla yanaşı, həm də ölkəmizin ideoloji, milli və ictimai təhlükəsizliyinə zəmin yaradan qarşılıqlı münasibətlər sistemidir. Dindarlığın artması və güclənməsi fonunda bu münasibətlərin sarsıdılmasına yönəlik cəhdlərin də arta biləcəyini indidən proqnozlaşdırmaq mümkündür.

# XURAFATIN VƏ DÜNYƏVİ TƏHSİLƏ QARŞI ÇAĞIRIŞLARIN ARTIRILMASI CƏHDLƏRİ

Sovetlər dövründə cəmiyyətdə xurafat elementləri mövcud idi. Səbəb kimi din göstərilir və ədalət naminə etiraf edək ki, o dövrdə xurafatla ciddi mübarizə aparılırdı. Əslində, din xurafat deyil, amma din qadağan ediləndə xurafat "dinə" çevrilir.

Sovet dövründən fərqli olaraq indi dövlət də, cəmiyyət də dini qəbul edir. Amma cəmiyyətdə yenə də xurafat var. Üstəlik, dindarlıq artdıqca bəzi məqamlarda xurafat elementləri çoxalır. Səbəb yalnız dinlə bağlıdırmı?! Təbii ki, xeyir. Cəmiyyətdə xurafatın güclənməsinin yeganə səbəbi din ola bilməz. Bu, dindən daha çox təhsillə, sosial problemlərlə bağlı məsələdir. Əgər hansısa cəmiyyətdə təhsil və dini biliklər paralel şəkildə və yüksək səviyyədə insanlara çatdırılmayacaqsa, xurafatın yayılması qaçılmaz olacaq.

Konkret Azərbaycana gəlincə, cəmiyyətimizdə xurafat elementlərinin yayılmasında birbaşa din olmasa da, amma dinlə





bağlı amillər rol oynayır. Dindarlığın artması ilə xurafatın yayılması arasındakı mütənasiblik buna sübutdur. Əgər dindarlığın artması normal və sağlam təbliğat nəticəsində baş verməyəcəksə, deməli, bu dindarlığın nəticəsi də normal və sağlam olmayacaq.

Başqa ifadə ilə desək, xurafat qüsurlu və ya anormal dini təbliğatın nəticəsidir. Əslində, xurafat son yox, ilkin nəticədir. Yekun nəticə daha ağır, hətta faciəli ola bilər. Məsələn, dünyəvi təhsilə qarşı çıxışlar, oğlan və qız uşaqlarının ayrıca təhsil alması barədə çağırışlar, erkən nikah, uşaqların təhsildən uzaqlaşdırılması, falçılıq və s. kimi məsələlərin cəmiyyət üçün ciddi problemə çevrilmək ehtimalı həmişə var.

Sovetlər və ondan əvvəlki dövrlərdə xurafatla mübarizədə ziyalılar, ədəbiyyat və sənət adamları öndə gəlirdilər. XIX əsrin ikinci yarısı və XX əsrin əvvəlləri xurafatla mübarizənin ən şiddətli və uğurlu dövrüdür. Azərbaycanın maarifpərvər ziyalıları Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov və onlarla qələm adamı bu prosesin ardıcılları olublar və onlar dinlə yox, din pərdəsi altında yayılan xurafatla mübarizə aparıblar.

Təəssüf ki, bu gün xurafatla mübarizədə Azərbaycan ziyalısının böyük bir hissəsi aktiv iştirakçıdan daha çox passiv tamaşaçıya bənzəyir. Ölkədə, xüsusilə bölgələrdə xurafat elementləri ziyalı sayılan bəzi insanların evinə və ailəsinə qədər gəlib çıxa bilir. Bəzən ziyalılarımızın çalışdığı müxtəlif qurumlarda belə xurafat elementlərinin daşıyıcılarına rast gəlinir. Müxtəlif bəhanələrlə qız uşaqlarının təhsildən uzaqlaşdırılmasına, erkən nikah hallarına bir sıra məqamlarda göz yumulur, ziyalı sayılan insanlar buna laqeyd yanaşır.

İstənilən cəmiyyətdə, hətta ən modern ölkələrdə məişət səviyyəsində kifayət qədər xurafat elementləri tapmaq mümkündür.

Amma təəssüf ki, bu gün bizim cəmiyyətdə xurafat elementləri gündəlik həyatımızdan tutmuş yas mərasimlərinə, toy adətlərinə qədər yayılıb. Bəzən bu elementlər dinlə əlaqələndirilsə də, əslində, dinə heç bir aidiyyəti yoxdur.

Məişət müstəvisində olan xurafat ciddi ictimai təhlükə kəsb etmir. Amma onunla mübarizə daha çətindir. Çünki məişət müstəvisindəki bəzi xurafat elementləri artıq "ənənəyə" çevrilib, "ənənəni" isə qısa vaxta aradan qaldırmaq çətin məsələdir.

Bu gün məişət müstəvisində olan xurafatla müqayisədə ictimai mahiyyət daşıyan xurafat daha təhlükəli və ciddi problemdir. Belə ki, bizi falçılıq, cadugərlik kimi xurafat elementlərindən daha çox dünyəvi təhsilə qarşı təhdidlər, kütləvi savadsızlığa rəvac verə biləcək amillər, qız övladlarına münasibət narahat etməlidir. Əgər məktəb yaşlı qızlar "dini zəmində" təhsildən uzaqlaşdırılıb ərə verilirsə və ya Yerin kürə formasında olmadığı və fırlanmadığı barədə müzakirələr açılırsa, bu müzakirələrə haqq qazandıranlar tapılırsa, deməli, vəziyyət ciddidir. Belə halların baş verdiyi cəmiyyətdə məişət səviyyəsində xurafatın artacağı şübhəsizdir.

Deməli, məişət xurafatının qarşısının alınması üçün öncə ictimai əhəmiyyət kəsb edən xurafatla mübarizə aparmaq lazımdır. Əgər gənc nəsil dünyəvi təhsildən uzaqlaşdırılaraq dinə cəlb ediləcəksə və ya yeniyetmələr dünyəvi təhsillə dini təhsil arasında seçim etmək məcburiyyətində qalacaqsa və ikincini seçənlər olacaqsa, təbii ki, xurafat güclənəcək.

Təsəvvür edin ki, müəllim Lomonosovdan, Nyutondan, yaxud Mark Tvendən, Turgenevdən danışır, şagird isə "onlar kafirdir, bilməsək də olar, müəllim" reaksiyasını verir. Bəlkə, buna inanmayanlar, gülüşlə yanaşanlar var, amma təəccüblü və inanılmaz olsa da, həqiqətdir.

Hər şeydən öncə xurafatla bağlı bu cür həqiqətləri məhv etməliyik. Bizi yenidən XIX əsrə qaytarmağa çalışan, Cəlil Məmmədquluzadənin, Mirzə Ələkbər Sabirin personajlarına çevirmək istəyən nadanların və nadanlığın qarşısını almalıyıq.





İstər Qərbdə, istər müsəlman Şərqində qadının təhsil almasına qarşı çıxan əsas qüvvə ruhani sinfi olub. Amma Azərbaycanda tarixən qadının təhsil almasına çalışanlar da məhz ruhanilərdir. Böyük Azərbaycan xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyev Bakıda qızlar məktəbi açanda onun ən böyük dəstəkçisi və müdafiəçisi Bakı ruhanisi Mirzə Əbu Turab Axundzadə idi.

İslamda elm öyrənmək, təhsil almaq kişi və qadın fərqi qoyulmadan bütün müsəlmanlara vacib buyrulub. İstər oğlan, istər qız olsun övladına təhsil vermək müsəlmanın borcudur. Ümumiyyətlə, elmə, təhsilə İslam qədər yüksək dəyər verən ikinci din yoxdur. İnancına görə, müsəlman iki yoldan birini seçməlidir: ya elm öyrənməli, ya da elm öyrənənlərə kömək göstərməlidir.

İslam Peyğəmbərinin buyruğuna əsasən, müsəlman elm uzaq Çində də olsa, onun arxasınca getməli, beşikdən qəbrə qədər öyrənməlidir. İlk vəhyin "Oxu" kəlməsi - əmri olduğunu, "bilənlə bilməyənin eyni olmadığını" unutmamalı, ona yazıb-oxumağı öyrədənə lazım gəlsə, qul olmağı bacarmalıdır.

Bütün bunlardan sonra dünyəvi təhsilə qarşı çıxmaq, övladını dünyəvi məktəbdən uzaqlaşdırmaq, "hicaba icazə verilmir" bəhanəsi ilə qız uşaqlarını məktəbə buraxmamaq xurafatın, dünyəvi təhsilə qarşı çıxmağın ilkin formasıdır.

İnkişaf təhsilin, xurafat cahalətin meyvəsidir. Elm-təhsil olmayanda din xurafata çevrilir. Xurafat bulaşmış cəmiyyətin sabahı isə zülmət – qaranlıqdır. Təhsil, elm, din – bunlar paralel addımlamalı, bir-birilərinə qarşı qoyulmamalıdır.

Tarazlıq dinin "xeyrinə" pozulacağı təqdirdə, o, xurafatı və dünyəvi təhsilə qarşı çıxışları özü ilə bərabər gətirəcək və gec-tez ciddi təhdidə çevrilməsi qaçılmaz olacaq.

# DİNİ ZƏMİNDƏ QADIN HÜQUQLARINA VƏ ƏNƏNƏVİ AİLƏ İNSTİTUTUNA QARŞI TƏHDİDLƏR

İslama qədər Ərəbistan yarımadasında qadına münasibətin hansı səviyyədə olması ilə bağlı bəzən ifrata varılır. Qadınların hüquqsuz olduğu, alınıb-satıldığı, qız uşaqlarının diri-diri basdırıldığı, ailədə söz sahibi olmadığı bildirilir.

Təbii ki, bu cür fikirlərdə haqlı məqamlar var. Ancaq bir məqam yaddan çıxarılır: axı İslama qədər Ərəbistan yarımadasında həzrəti Xədicə kimi qadınlar da az deyildi. Var-dövlət sahibi olan bu qadınlar ticarətlə məşğul olur, sərbəst həyatlarını yaşayır və cəmiyyətdə nüfuz sahibi insanlar kimi tanınırdılar. Və hər kəs qəbul edir ki, İslamdan öncə - cahiliyyə dövründə mal-mülk sahibi olan həzrəti Xədicə İslam Peyğəmbərinin və İslamın himayədarlarından biri idi.

Bu da etiraf edilməlidir ki, müsəlman qadınla cahiliyyə qadınının hüquqları müqayisəyə gəlməz səviyyədədir. Cahiliyyə





dövründə yalnız bir qrup qadının – cəmiyyətin yüksək təbəqəsinə mənsub olanların hüquqları vardı, digər qadınların isə yalnız vəzifəsi, borcu ola bilərdi. Amma İslam qadınlar arasındakı bu bölgünü aradan qaldırdı: hansı sosial qrupa aid olmasına baxmayaraq, bütün qadınlara eyni hüquqları verdi. Bəzi məsələlərdə qadınla kişinin hüquqları bərabər, hətta bir qədər də yuxarı səviyyəyə çatdırıldı. Məsələn, ailədə, uşaqlara münasibətdə ana kimi qadına verilən dəyər ata kimi kişiyə verilən dəyərdən qat-qat böyükdür.

Bütün bunlara rəğmən, XXI əsrin inkaredilməz həqiqəti var: müasir, dünyəvi dövlətlərdə qadına verilən hüquq, istənilən dinin, o cümlədən İslamın qadına verdiyi hüquqdan daha çoxdur, kişi ilə eynidir. Bu baxımdan istənilən dinin şəriət qaydalarının təbliği və tətbiqinə cəhd göstərilməsi müasir dövrdə qadın hüquqlarına qarşı təhdid kimi başa düşülə bilər. Məsələn, İslam şəriəti eyni vaxtda dörd qadınla evli olmağa, istisna hallarda qadına əl qaldırmağa, cariyyə saxlamağa icazə verir. Dünyəvi qanunlar isə bunu qadağan edir, hətta cinayət sayır.

Əlbəttə, bu cür şəriət qaydalarına müxtəlif izahlar vermək, hansısa zərurətlə əlaqələndirmək, qadın hüquqlarına qarşı yönəlmədiyini iddia etmək olar. Ancaq həqiqət yenə dəyişməz qalır. Üstəlik, İslamın meydana çıxdığı dövrlə müqayisədə bu gün təkcə sosial münasibətlər deyil, həm də şəriət qaydaları, onların izahı və tətbiqi xeyli dəyişikliklərə məruz qalıb. Qəribə səslənsə də, Peyğəmbərin dövründəki şəriətlə bu gün təbliğ olunan şəriətin fərqlənməsi inkarolunmaz həqiqətdir.

Təbii ki, Peyğəmbərin zamanında qadına münasibətlə bu gün müsəlmanların qadına göstərdiyi münasibəti də fərqlidir. Məsələn, Peyğəmbər nə vaxtsa qadına əl qaldırıbmı?! Nə vaxtsa bir qadını qul bazarına çıxarıbmı?! Amma bu gün qadına əl qaldıran və ya onu "satan", istismar edən nə qədər "müsəlman" var.

Tarixdə qadın-kişi bərabərliyinə, kişi ilə yanaşı qadının da təhsil almasına Azərbaycan türkləri qədər əhəmiyyət verən ikinci bir toplum tapmaq çətindir. Əski türklərdə qadın kişinin kölgəsində deyil, onunla bərabər statusdadır, at sürür, döyüşür, müxtəlif işlərdə çalışır, hətta bəzi məqamlarda ana kimi mövqeyi ailədə kişidən daha güclüdür.

Təəssüf ki, sürətli dindarlaşmanın gətirdiyi problemlərdən biri də qadına və ənənəvi ailə institutuna qarşı təhdid yaradan, İslam şəriəti kimi təbliğ olunan, əslində isə dindən daha çox başqa xalqların mədəniyyətindən qaynaqlanan yad dəyərlərdir. Din, şəriət adı altında Azərbaycan qadınını ərəb və fars həyat tərzinə uyğun formalaşdırmaq, ənənəvi Azərbaycan ailəsini ərəb və fars ailəsinə "çevirmək" xalqa, onun formalaşdırdığı ailə dəyərlərinə və yaratdığı milli dövlətçiliyə qarşı təhdiddir. Çünki dövlətin nüvəsini ailə təşkil edir.

Hər bir xalqın - ərəbin, farsın, Azərbaycan türkünün yüz illiklər ərzində formalaşmış ailə dəyərləri var və heç kim başqa bir xalqın dəyərlərini aşağılaya bilməz. Bu baxımdan müzakirə mövzusu hansısa xalqın ailə dəyərlərinin aşağılanması, pis və ya yaxşı olması deyil, xalqımızın ailə dəyərlərinin din adı altında yad təsirlərə məruz qalmasıdır. Müasirlik adı ilə Azərbaycan xalqının ailə dəyərlərinə qarşı "hücumlar" nə qədər təhlükəlidirsə, şəriət pərdəsi altında təhdidlər də bir o qədər təhlükəlidir.

Azərbaycan xalqının ailə dəyərlərinin tərkibində həm İslamdan, həm milli adət-ənənələrimizdən, həm də müasir dövrümüzün tələblərindən qaynaqlanan yüksək keyfiyyətlər var. Bu baxımdan Azərbaycan ailəsi və Azərbaycan qadını özündə Şərqlə Qərbin yüksək dəyərlərini cəmləşdirir.

Çağdaş dünyanın mədəni və daha çox inkişaf etmiş hissəsi sayılan Avropada zərifliyin simvolu hesab edilən qadınlar ən azı





hüquq müstəvisində kişilərdən heç nə ilə fərqləndirilmir. Təbii ki, bu, Qərbin qadınlara verdiyi dəyərin göstəricisi və zəriflərin öz hüquqlarını əldə etmək uğrunda uzun illər apardıqları mübarizənin nəticəsi kimi qiymətləndirilə bilər.

Qərbə nisbətən sosial-iqtisadi cəhətdən zəif inkişaf etmiş, amma daha müdrik sayılan Şərqdə, xüsusilə İslam dünyasında ailənin nüvəsi və tərbiyəçisi hesab edilən qadın reallıq, hətta bəzən hüquq baxımından cəmiyyətdə layiq olduğu mövqeyi hələ tam tuta bilməyib.

Müqayisədə qərbli qadının şərqli həmcinsindən bir addım öndə görünməsi mümkündür. Lakin bu gün qərbli qadın heç də ideal qadın sayıla bilməz. Çünki kimin necə qəbul etməsindən asılı olmayaraq, bu həqiqətdir ki, Qərbdə qadının bütün müstəvilərdə kişi ilə eyniləşdirilməsinə və bərabər tutulmasına paralel olaraq ailə institutu zəifləyib. Deməli, hüquqlarını təmin etmiş qərbli qadın ən azı ailə məsələsində şərqli qadına həsəd aparır.

Təəssüf ki, bu gün bir çoxları əksər Şərq cəmiyyətlərində problemin həllini müsəlman qadınının həyat tərzinin Qərb standartlarına uyğunlaşdırılmasında görür. Halbuki, bu cür fəaliyyət cəmiyyətdə yaranmış problemləri həll etmək əvəzinə daha da mürəkkəbləşdirir, hətta mədəniyyətlərarası ziddiyyətlərə yol açır.

Təbii ki, məsələnin mənəvi tərəfi də var. XIX əsrin əvvəllərində sənayenin inkişafı ilə işgüzar həyata daxil olmaq nəticəsində öz haqlarını əldə edən Qərb qadınını bu prosesləri keçməyən Şərq qadınına nümunə göstərmək və buna görə onun özünü günahkar kimi qələmə vermək ən azı ədalətsizlikdir.

Nəzərə alınmalıdır ki, müsəlman Şərqində yetişən qadının öz dəyərləri, prinsipləri, dininə, adət-ənənəsinə uyğun meyarları var. Ailədə heç bir məcburi öhdəlik daşımayan, əmlaka, miras hüququna malik olan Şərq qadını ilk növbədə ailəsində söz sahi-

bidir. Şərqdə sarsılmaz, müqəddəs ailə quruluşu onun təməlini təşkil edən güclü, qayğıkeş və fədakar qadın sayəsində formalaşır. Tarixən uğur əldə etmiş böyük kişilərin arxasında həmişə ya fədakar ana ya da qayğıkeş qadın dayanıb. Bəlkə də, elə buna görədir ki, şərqli ailəsində ana - qadın müqəddəslik səviyyəsinə qədər yüksəldilir.

Əslində, bütün bu müqayisələr onu göstərir ki, ideal qadın Şərqin ailəcanlı qadın obrazı ilə Qərbin işgüzar qadın obrazının vəhdətindən yarana bilər. Bu, həm də xoşbəxt ailə və sağlam cəmiyyətin düsturudur. Bu düstura real həyatda ən yaxın nümunə Azərbaycan ailəsi və Azərbaycan qadını sayıla bilər.

Bu gün qadın azadlığı ilə bağlı bütün cəmiyyətlərdə, xüsusilə Şərq ölkələrində müəyyən problemlərin olması danılmaz faktdır. Lakin demokratiyanın, insan hüquq və azadlıqlarının təmin olunduğu cəmiyyətlərdə qadın azadlığının da təmin olunması labüddür. Bu mənada dini zəmində qadın hüquqlarına və ənənəvi ailə institutuna qarşı təhdidlərə həm də demokratiyaya qarşı təhdidlərin tərkib hissəsi kimi baxıla bilər.





# DİASPORUMUZA DİNİ ZƏMİNDƏ YÖNƏLMİŞ TƏHDİDLƏR

Bəzi İslam ölkələrinin dini-siyasi dairələri diasporumuza, xüsusilə Gürcüstan, Rusiya Federasiyası, Ukrayna, hətta Türkiyədə yaşayan azərbaycanlılara yönəlik dini zəmində ardıcıl fəaliyyət göstərir. Belə ki, həmin dairələr din faktorundan istifadə edərək xaricdə yaşayan soydaşlarımız arasında milli təəssübkeşlik hissini zəiflətmək, Azərbaycan dövlətinə etimadı sarsıtmaq, onlar arasında məzhəb təəssübkeşliyinə əsaslanan dini həyat tərzini təbliğ etmək istiqamətində geniş iş aparmağa çalışırlar.

Nəticədə xaricdəki azərbaycanlılar arasından radikal qruplara, xüsusilə vəhhabiliyə və ifrat şiəliyə qoşulanların sayı artır, məzhəbçilik hissi güclənir, dini zəmində bölünərək qarşı-qarşıya qoyulur, onların məzhəb, təriqət müstəvisində təşkilatlanması məqsədilə üçüncü ölkədən məxsusi emissarlar göndərilir, soydaşlarımızın təsir dairəsinə salınaraq idarə olunmasına ciddi cəhdlər göstərilir.

Təbii ki, bu cür fəaliyyətin təşkilində həmin – üçüncü ölkələrin xüsusi xidmət orqanlarının da iştirakı sezilir. Onların nəzarəti altında yaradılmış dini-mədəni təşkilatlar var ki, MDB məkanında kifayət qədər aktiv fəaliyyət göstərirlər.

Təəssüf ki, belə qurumlar indiyədək öz ətraflarında müəyyən sayda azərbaycanlını birləşdirə biliblər. 2009-2010-cu illərdə respublikamızda guya azanın qadağan olunması və məscidlərin sökülməsi ilə bağlı üçüncü dövlətin dəstəyi ilə qeyd edilən ölkələrdə, o cümlədən Azərbaycanın xaricdəki səfirlikləri və konsulluqları qarşısında aksiyaların keçirilməsində sözügedən qurumların böyük rolu olub.

Qeyd edilən ərəfədə Rusiya, Ukrayna ilə yanaşı, Azərbaycanın böyük nüfuza malik olduğu Gürcüstan və Türkiyədə də respublikamıza qarşı aksiyaların təşkil olunması üçüncü dövlətin həmin ölkələrdəki soydaşlarımıza nə dərəcədə təsir imkanlarına malik olduğunu göstərir.

Rusiya Federasiyası, Ukrayna və Gürcüstanın şəhərlərində üçüncü ölkənin xüsusi xidmət orqanlarına və dini dairələrinə bağlılığı şübhə doğurmayan dini emissarlar fəaliyyət göstərir. Bəzən həmin şəxslər yerli vətəndaşla ailə qurur, iş adamı, həkim və digər peşə sahələrində çalışsalar da, faktiki dini rəhbər funksiyasını yerinə yetirirlər. Soydaşlarımız dini məsələlərdə həmin şəxsin rəyini və mövqeyini qəbul edir, onun mənəvi idarəçiliyi altına düşürlər.

Bəzi hallarda, xüsusilə Məhərrəmlik və Ramazan ayında yüksək rütbəli din xadimləri (Höccətül-İslam, Müctəhidin səlahiyyətli nümayəndəsi və s.) dəvət olunur və həmin şəxslər azərbaycanlılara müəyyən müddət ərzində moizələr oxuyurlar. Xaricdə yaşayan azərbaycanlılar, hətta xüms və zəkatlarını qeyd edilən şəxslər vasitəsilə üçüncü ölkəyə göndərirlər. Məlumatlara görə,





il ərzində MDB məkanında yaşayan soydaşlarımızın verdikləri xüms-zəkatın miqdarı milyon manatlarla ölçülür.

Xarici dini dairələr əksər hallarda soydaşlarımız arasında məzhəb ayrı-seçkiliyini qızışdırmağa, nəticədə onlar arasında vəhdəti və milli həmrəyliyi zəiflətməyə çalışırlar. Onlar MDB məkanında yaşayan azərbaycanlılar arasında etnik separatizm meyillərinin gücləndirilməsində də maraqlı tərəf kimi çıxış edirlər.

İndiyədək Gürcüstan və Dağıstanda yaşayan azərbaycanlılar arasından mindən artıq gənc soydaşımız müxtəlif müsəlman ölkələrinin dini təhsil müəssisələrinə cəlb olunub. Hazırda həmin gənclərin əksəriyyəti öz ölkələrinə qayıdaraq soydaşlarımız arasında təhsil aldıqları dövlətin yerli əhalisinə xas həyat tərzinin və dini dünyagörüşünün təbliği ilə məşğuldurlar.

Son illər bəzi müsəlman ölkələrinin dini-siyasi dairələri MDB məkanında yaşayan azərbaycanlılarla yanaşı, Türkiyədəki soydaşlarımıza yönəlik də fəaliyyət qurmağa çalışır. Ümumiyyətlə, Türkiyədə yaşayan dindar azərbaycanlıların böyük qisminin dini həyatı daha çox üçüncü ölkə ilə bağlıdır. Bunun əsas səbəbi Türkiyədəki soydaşlarımızın böyük əksəriyyətinin şiə məzhəbinə mənsub olması, onlara məxsus ibadət evlərinin və dini fəaliyyətin Türkiyə Diyanət İşləri Başqanlığı tərəfindən idarə edilməməsidir.

Türkiyədəki azərbaycanlılar yüksək dini təhsil almaq üçün əksər hallarda İraq və İrandakı dini təhsil müəssisələrini seçirlər. Halbuki, onların dini təhsil almaları üçün Azərbaycana üz tutmalarına şərait yaradılması daha doğru olardı.

Əsasən sünni məzhəb müsəlman ölkələrindəki müxtəlif dini təriqət və camaatlar da xaricdə yaşayan azərbaycanlıların dini həyatını öz maraqlarına uyğun formalaşdırmaq istiqamətində

fəaliyyət göstərirlər. Rusiya Federasiyasında, xüsusilə Dağıstan və Şimali Qafqazda, eləcə də Gürcüstanda yaşayan və sünni məzhəbinə mənsub olan azərbaycanlılar arasında Türkiyədəki dini dairələrdən və bir sıra ərəb ölkələrindən qaynaqlanan dini təbliğat aparılmaqdadır. Ümumiyyətlə, xaricdə yaşayan soydaşlarımızın həm şiə, həm də sünni hissəsinə müxtəlif dini mənbələrdən bölücü təsirlər var.

Sevindirici haldır ki, indiyədək Qafqaz Müsəlmanları İdarəsinin Rusiya Federasiyasında (Dağıstan və Moskvada), eləcə də Gürcüstan və Türkiyədə (İstanbulda) nümayəndəlikləri yaradılıb, lakin hələlik onların fəaliyyəti soydaşlarımızın dini tələbatını ödəyəcək və mənəvi cəhətdən idarə edəcək səviyyədə deyil. Bu baxımdan xaricdə yaşayan azərbaycanlıların dini baxımdan üçüncü ölkənin təsiri altına düşməsinin qarşısının alınması, onlar arasında dini zəmində bölücülüyə imkan verilməməsi, milli təəssübkeşlik və dövlətçilik hissinin gücləndirilməsi məqsədilə həyata keçirilən tədbirlərin daha da intensivləşdirilməsi zərurəti həmişə var.





# RADİKAL VƏ QEYRİ-ƏNƏNƏVİ DİNİ CƏRƏYANLAR

## VƏHHABİLİK

Azərbaycanda vəhhabilik ötən əsrin 90-cı illərinin əvvəllərindən yayılmağa başlayıb. Bu təlimin yayılmasında bir vaxtlar Səudiyyə Ərəbistanı Krallığı, Küveyt və digər ərəb ölkələrindən, eyni zamanda Dağıstan və Çeçenistandan gəlmiş emissarlar xüsusi fəallıq göstəriblər. İlk dövrlərdə Şimali Qafqaz respublikaları ilə müqayisədə Azərbaycanda vəhhabiliyin yayılması üçün kifayət qədər şərait yox idi. Respublika əhalisinin böyük qisminin şiə məzhəbinə mənsub olması bu cərəyanın yayılmasına əngəl yaradırdı. Məhz bu səbəbdən ilk vaxtlar vəhhabilik əsasən sünnilərin yaşadığı ərazilərdə, xüsusilə Şimalda, sərhəd bölgələrdə yaşayan əhali arasında yayılıb.

Həmin dövrdə vəhhabi təliminin ardıcılları az idi və onlar öz fəaliyyətlərini respublikanın nisbətən ucqar rayonlarında aparmağa və paytaxtda görünməməyə çalışırdılar. Bütün fəaliyyətlərini dini təyinatlı ədəbiyyatın yayılmasına, mədrəsə və məscidlərdə təbliğata sərf edirdilər. Lakin tədricən fəaliyyət coğrafiyasını genişləndirərək tezliklə Bakıda göründülər.

1994-cü ildən etibarən Küveytin İslam İrsinin Dirçəlişi Cəmiyyəti ilə yanaşı, digər İslam təşkilatları və xeyriyyə fondları Azərbaycanda fəaliyyətə başladı. Həmçinin, 1994-cı ildən başlayaraq Çeçenistandakı münaqişə nəticəsində Azərbaycana çeçen qaçqınları axın etdi. Bu dövrü Azərbaycanda vəhhabiliyin yayılmasının növbəti mərhələsinin başlanğıcı da saymaq olar. Həmin dövrdə ərəb xeyriyyə təşkilatları Bakıda və bir sıra rayonlarda məscidlər tikdilər və oradan öz təlimlərini yaymaq üçün istifadə etdilər. Növbəti illərdə İçərişəhər "Aşur" ("Ləzgi") məscidi ilə yanşı, "Əbu Bəkr" məscidi kimi tanınan Nərimanov rayon "Cümə" məscidi də istifadəyə verildi. Beləliklə, ölkə üzrə onlarla məsciddə vəhhabi təliminin təbliği üçün şərait yarandı. Lakin 2000-ci illərin əvvəllərindən etibarən bu məscidlərin bir qisminin fəaliyyəti dayandırıldı, bir qisminin idarəçiləri dəyişdirildi, bir neçəsi isə fəaliyyətini legitimləşdirə bildi. Son illər dini radikalizmə, o cümlədən vəhhabiliyə qarşı həyata keçirilmiş kompleks tədbirlər nəticəsində hazırda bu təlimin ardıcıllarının idarəçiliyində olan məscid, demək olar ki, qalmayıb.

Vəhhabilik əsasən Bakı və Sumqayıt şəhərlərində, respublikanın Şimal bölgəsində - Quba, Xaçmaz, Qusar, Siyəzən və Şabran rayonlarında, eləcə də Şimal-Qərb bölgəsində – Şəki şəhərində, Balakən, Zaqatala, Qax, Oğuz, Qəbələ və İsmayıllı rayonlarında yayılıb. Lakin ümumilikdə əksər şəhər və rayonlarda az da olsa, bu dini cərəyanın mənsublarına rast gəlmək mümkündür.





Vəhhabilərin indiki mərhələdə qarşılarına qoyduqları əsas hədəflərindən biri müxtəlif vasitə və metodlarla təbliğatlarını gücləndirmək, öz sıralarına dövlət idarə və müəssisələrində işləyən, eləcə də maddi imkanları geniş olan şəxsləri cəlb etməkdir.

**Vəhhabi qruplaşmaları.**

Vəhhabi əqidəsinin ardıcıllarını fikir və davranışlarındakı fərqlərə görə şərti olaraq üç qola bölmək olar: mötədil (sələfi), təkfirçi (radikallığa meyilli) və xəvaric (radikal).

İdeoloji baxımdan hər üç qolun mahiyyəti eynidir, onlar üçün ümumi xarakterik xüsusiyyət ekstremizmdir, əsas fərq isə bu xüsusiyyətin təzahür formalarındadır. Belə ki, mötədil qanada ideoloji ekstremizm, təkfirçi qanada isə onun daha ifrat forması xas olduğu halda, radikal qanadda ekstremizm əməli formada (o cümlədən bütün vasitələrə əl atmaqla) təzahür edir.

**Mötədil qanad.**

Bu qanadın təbliğatı yalnız "dəvət"lə məşğul olaraq əqidəni yaymaq, nəticədə cəmiyyətə əsaslı təsir edə biləcək güclü sosial baza yaratmaqdır. Onlar vəhhabi əqidəsinə xas "cihad" və "təkfir" məsələsini qabartmır, cihadın elmi yolla aparılmasını önə çəkir, hətta ibadət əhli olmayanları da müsəlman sayırlar. Odur ki, bu mövqeni qəbul etməyən digər qanadın tərəfdarları mötədil vəhhabiləri (sələfiləri) "murciə", yəni "geriyə çəkən" adlandırırlar.

Mötədillər mövcud vəziyyəti, sosial bazalarını nəzərə alaraq, şəraitə uyğun fəaliyyət göstərməyi üstün tutur, öz addımlarında radikallıq nümayiş etdirməyi məqbul saymırlar. Məqsəd isə ətraflarına tərəfdar toplayıb, güc əldə edənədək səbirlə əqidələrini yayıb böyük şəbəkə yaratmaq, son nəticədə siyasi idarəçiliyi ələ keçirməkdir. Onların bu addımını düşünülmüş taktika və uzunmüddətli perspektivə hesablanmış davranış kimi dəyərləndirmək olar.

Təbliğatın əsas öncülləri əsasən Mədinə İslam Universitetinin məzunlarıdır. "Elmli qardaşlar" adlandırılan bu məzunların fəaliyyətini təhlil edərkən onlar arasında iş bölgüsünün olması təsəvvürü yaranır. Onların təbliğat auditoriyasına məscidlər, ayrı-ayrı bölgələrdə vəhhabi əqidəli şəxslərin toy mərasimləri, təşkil olunan dini dərslər, kurslar və internet saytları daxildir.

Mötədillər öz tərəfdarlarına son aqibət kimi "əl-ummətun-naciyə"ni ("xilas olacaq ümmət" - sələfi əqidəsində sabit olub onu yayanların cəhənnəm odundan xilas olacağını ifadə edir) vəd edirlər.

**Təkfirçi qanad.**

Bu qanad mötədillikdən radikallığa keçiddə körpü rolunu oynayır. Belə ki, əksər hallarda təkfirçilik və radikallıq dindarlar tərəfindən birbaşa və birmənalı qəbul olunmur. Odur ki, əvvəlcə mötədil sələfiliyi qəbul edən şəxsə vəhhabi cərəyanının ideya qaynağı olan Məhəmməd ibn Əbdülvahhabın ekstremist dini dünya görüşünü təlqin edən "Kitabut-Tauhid" ("Tövhid kitabı") əsərindəki əqidə əsasları orijinala uyğun çatdırılır və müəllifin İslam dininə baxışı mötədillərə aşılanaraq bu prinsipləri qəbul etməyənin "kafir" olduğu bildirilir.

Burada, xüsusilə, vəhhabi interpretasiyasında tövhid ideyası (tək Allaha ibadət və tabeçilik) əsas kriteriya kimi götürülür. Əgər mötədillər "Tövhid"i dildə təsdiq edəni müsəlman sayırlarsa, təkfirçilər bununla kifayətlənmir, ibadət etməyənin "müsəlman olmadığı"nı qətiyyətlə bildirirlər. Fikirlərini sübut etmək üçün həmin kitabda tövhid anlayışına verilən izahlar önə çəkilir. Onlar kitabdakı "Tauhidur-Rububiyyə" (Allahı tanımaq tövhidi), və "Tauhidul-Uluhiyyə" (Allaha ibadət tövhidi) anlayışlarını xüsusi qabardaraq ikincini əsas götürüb bütün peyğəmbərlərin "Allahı tanıtdırmağ"a deyil, məhz "ibadətə çağırış" üçün gəlmələrini xüsusi vurğulayırlar.





Təkfirçilər "Tauhidul-Uluhiyyə"ni (Allaha ibadət tövhidi) müsəlmanları kafir və müşriklərdən fərqləndirən əsas əlamət kimi göstərirlər. Öz ideyalarının uğurlu təbliği naminə Səudiyyə Ərəbistanındakı vəhhabi cərəyanına mənsub alimlərin fikirlərindən, hətta Qurani-Kərimdən mövzuya uyğun, lakin konteksdən çıxarılmış ayələrindən iqtibaslar gətirirlər.

Təkfirçilər Azərbaycanı "Darul-kufr" (küfr diyarı, yaxud kafirlər ölkəsi) adlandırır və "dəvət" zamanı mötədilləri öz təsir dairələrinə salmağa çalışırlar. Təkfirçiliyin təbliğinin xəvaric qanad üçün etiqadi zəmin yaratması şübhə doğurmur.

**Xəvaric qanad.**

Təkfirçilərə xas olan bütün keyfiyyətləri özündə cəmləşdirən bu qanad daha da irəli gedərək ən kəskin yol tutmuş vəhhabiləri ətrafında cəmləşdirir. İfratçı və radikal baxışlarına və öz ideyalarını dəqiq yerinə yetirmək istiqamətindəki cəhdlərinə görə digər iki qanaddan fərqlənir. Onlar "İslam cihadla ayaqda qalar" prinsipinə söykənərək mübarizə forması kimi radikal və aqressiv addımları üstün tutur və təbliğ edirlər. "Darul-Kufr"dakı məscidləri, "Məscidud-dırar" (zərərli məscidlər) kimi səciyyələndirən radikallar ölkədəki məscidlərə getmir, Əfqanıstan və hazırda döyüşlərin getdiyi Suriya və İraqdakı "cihad"da iştirak etməyi vacib sayırlar.

Azərbaycanda ideyalarını gerçəkləşdirmək üçün "münbit" şəraitin olmaması onları aşkar fəaliyyətdən çəkindirir, beləliklə, daha çox gizli fəaliyyəti üstün tutur, bir "əmirlik"də toplaşmağın ələ keçməyi asanlaşdıracağını əsas gətirərək, böyük camaat halında yığışmamağı, əksinə, 5-6 nəfərlik qruplar şəklində fəaliyyət göstərməyin vacibliyini təbliğ edirlər.

"Tövhid və şəriətin bərqərar olmadığı torpağ"ı vətən saymayan xəvariclər "kafirlər"i (vəhhabi olmayanları) qorxu içində

saxlamaq üçün terroru "İslamın bir hissəsi", "Allahın əmri" və "cihad" kimi xarakterizə edirlər. Onlar cihadı hətta, İslam dininin əsas rüknlərindən olan həcc əməlindən də üstün sayırlar.

Azərbaycan ordusunda xidməti, işğal olunmuş ərazilərin azad olunması uğrunda vuruşmağı qətiyyətlə rədd edir, bu mövqeni ölkəni "İslam hökumətinin" deyil, "Tağutun idarə etməsi" ilə əsaslandırırlar. Bundan əlavə, gizli və kiçik camaatlarla yanaşı, xəyal etdikləri "İslam dövlətinin təməlinin təşkili" kimi gizli təşkilatlar qurmaqla, kiçik camaatlar arasında koordinasiyanı təmin etməyin zəruriliyi barədə də təbliğat aparırlar.

Məscidlərə getmək radikalların əqidəsinə zidd olsa da, cümə günləri əsasən fərdi əsasda yeni şəxsləri öz sıralarına cəlb etmək məqsədilə sələfilərin ibadət etdikləri məscidlərə qrup halında nümayəndələr göndərirlər. Həmçinin, sosial şəbəkələrdə təbliğat zamanı təkfirçi və radikallar mötədil sələfilərin qrup və səhifələrinə davamlı olaraq öz mülahizə və şərhlərini yerləşdirməklə onların düşüncələrinə nüfuz etməyə səy göstərirlər.

Təkfirçi və radikallar əsasən internetdə yerləşdirilmiş ərəb və türk dilində olan əqidə kitabları vasitəsi ilə dəvət aparır və vəhhabilik barədə Azərbaycan dilinə tərcümə edilmiş materialları qəbul etmir, hətta onları tərcümə edən Mədinə tələbələrini də "kafir" adlandırmaqdan çəkinmirlər. Onlar bu addımı Azərbaycanda tərcümə olunan kitabların "senzura"dan (Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dinşünaslıq ekspertizasından) keçməsi, orada "ibadətin əsas şərtlərindən olan tağutu inkar etmək və cihad" anlayışlarının təhrif, ya da ixtisar olunması ilə əsaslandırırlar. Radikalların öz tərəfdarlarına son aqibət kimi "ət-taifətul-mansura" ("Qalib gələcək toplum" - Allah yolunda cihad edənlərin nəticədə qalib gələcəklərini ifadə edir) vəd edirlər.





**Təbliğat metodları.**

Vəhhabiliyin təbliği zamanı yalnız sadə dəvət üsulundan deyil, müxtəlif təsir mexanizmlərindən istifadə olunur. Bu mexanizmlər əsasən psixoloji (təlqinetmə), sosial (tez-tez toplaşmaq və görüşmək) və maddi (bir-birilərinə maddi dəstək) amillərlə həyata keçirilir.

**Psixoloji amil.**

Təbliğata məruz qalan şəxsə ilk öncə dünyada baş verən təbii fəlakətlər, ölkəmizin erməni işğalı nəticəsində üzləşdiyi faciələr və qırğınlar, ümumilikdə sosial çətinliklər xatırladılaraq bunların səbəbi kimi insanların İslam dinindən uzaq düşməsi göstərilir. Əksər hallarda insanların bu inanca cəlb edilməsi prosesi mərhələli şəkildə aparılır:

1. Bütün problemlərin "Tövhid əqidəsindən uzaq düşmək"-dən qaynaqlanması barədə insanların təhtəlşüuruna fikirlər yeridilir.

2. Həmin şəxsin düşüncəsində ənənəvi inancla bağlı tərəddüd yaradılaraq ona "gerçək İslam" adı ilə vəhhabi əqidəsi aşılanır.

3. "Tövhid" inancında "möhkəmləndir"dikdən sonra artıq İslama gəlmiş yeni şəxsi fəal təbliğatçı kimi aktiv hala gətirmək istiqamətində iş aparılır.

4. Vəhhabi təbliğatı adi dini dəvətdən daha çox psixoloji təlqinetməni xatırladır. Qurani-Kərimdən ayələr və Məhəmməd peyğəmbərin hədislərindən nümunələr gətirilməklə əqidənin prinsipləri "yeni müsəlmanın" təfəkküründə sabit və dəyişməz fikir formasına keçir.

Bənzətməli və müqayisəli formada Qurani-Kərim ayələrini kontekstdən çıxarmaq, yaxud subyektiv yozmaq yolu ilə vəhhabi əqidəsinin təbliği "dəvətçi"lərin inandırma qabiliyyətini gücləndirən əsas amildir.

**Sosial amil.**

Buraya eyni əqidə daşıyıcılarının tez-tez görüşməsi, cümə namazlarına mütəşəkkil qaydada qatılması, birlikdə işləməsi, dini və əqidə söhbətlərinin təşkili, internet saytları vasitəsilə təbliğatın aparılması, sosial şəbəkələrdə səhifə və qrupların yaradılması daxildir. Məhz belə çoxtərəfli xüsusiyyətlərə malik sosial amil vəhhabi təbliğatının effektiv vasitələrindəndir.

İnternet saytları arasında 20-yə yaxın dini sayt daha çox fəallıq göstərir. Bu saytlar vasitəsilə mötədil vəhhabi dindarları ən adi məsələdə belə "elmli qardaşlar"a suallar ünvanlayır, saytlardakı audio və video linklər vasitəsilə dərsləri dinləyir, elektron kitabları yükləyir, bir sözlə, vəhhabi əqidəsi barədə dolğun məlumatlar əldə edirlər. Bundan əlavə, "facebook" sosial şəbəkəsində vəhhabilərə məxsus qrup və səhifələrdə də intensiv təbliğat aparılmaqdadır.

**Maddi amil.**

Yad təlimlərin cəmiyyətdə özünə yer tapması ideoloji faktorla yanaşı, maddi amillərlə də bağlıdır. Bu mənada ölkədə vəhhabi təbliğatının aparılmasında maddi stimulların rolu danılmazdır.

Vəhhabilərin fəaliyyətlərinin maliyyələşdirilməsi əsasən tərəfdarlarının sahibkarlıqla məşğul olmalarına şərait yaratmaq və əldə olunmuş gəlirin bir hissəsinin öz təbliğatlarına yönəldilməsinə nəzarət etməklə həyata keçirilir. Araşdırmalar göstərir ki, vəhhabilər sosial çətinliklərdən və psixoloji amillərdən istifadə edərək, səthi məlumata malik gənclərə məhz bu əqidəni qəbul etdikdən sonra özlərinə asan yolla iş tapacaqlarını, gerçək "qardaş" qayğısı ilə əhatə olunacaqlarını təbliğ etməklə onları sıralarına cəlb edirlər. Məsələn, vəhhabi əqidəsində olan ehtiyaclı insanlar üçün maddi yardımların toplanması və lazımi vəsaitin onlara çatdırılmasını effektiv və qısamüddətli etmək üçün qeyri-rəsmi yardım "fondu" təşkil edilir. Fondun fəaliyyətində hər bir vəhhabi öz maddi və peşə imkanlarına, bilik və bacarıqlarına uyğun olaraq, aşağıdakı formalarda iştirak edə bilər:





1. Təlimatlara əsasən, ehtiyacı olan ailələrin ziyarətində, yoxlanılmasında iştirak etməklə;

2. Nümayəndə olmaqla - yaşadığı, işlədiyi ərazidə və ya sadəcə, öz dostları arasında nümayəndə olmaqla, bir qrup dindardan çatacaq sədəqələri qəbul edib moderatora bu məbləği ötürməklə;

3. Əgər həkim, usta, hüquqşünas və s. peşə sahibi kimi təcrübəsi varsa, vaxtaşırı təmənnasız olaraq öz xidmətlərini ehtiyaclı bir ailəyə çatdırmaqla;

4. İşə ehtiyacı olanları işlə təmin etməklə;

5. Qan donoru olmaqla;

6. Maddi yardım etməklə (az və ya çox fərq etməz).

Vəhhabilər son zamanlar cəmiyyətdə yarımüstəqil sosial-dini təbəqə kimi formalaşmaq istiqamətində ciddi səylə çalışır və bunun üçün lazimi şərtlərin, xüsusilə iqtisadi müstəqilliyin təmin olunmasına cəhd göstərirlər.

Bu o deməkdir ki, vəhhabilər gündəlik tələbat mallarını bu cərəyana mənsub şəxslərə məxsus ticarət mərkəzlərindən alır, həmin əqidəyə mənsub həkimə və repititor-müəllimə müraciət edir və özlərinin iaşə obyektlərinin xidmətlərindən yararlanırlar. Deməli, onların cəmiyyətin digər təbəqələri ilə müqayisədə artıq yarımüstəqil sosial "zümrə"yə (dini camaat) çevrilmək cəhdləri ciddidir. Bu da öz növbəsində dini zəmində problemlərə böyük zəmin yaradır.

**Vəhhabiliyin təhlükəsi.**

Vəhhabi kontingentinin kəmiyyət baxımından böyüməsi ölkədə milli və ictimai təhlükəsizlik risklərini artıra bilər. Belə

ki, xarici siyasi dairələrin vəhhabilərdən istifadə imkanlarının olması milli təhlükəsizliyimizə, ölkədəki fərqli məzhəb və dindarlar arasında qarşıdurma yaratmaq potensialları və silahlı mübarizəyə üstünlük vermələri isə ictimai təhlükəsizliyimizə ciddi təhdiddir. Bütün hallarda radikalların sayının çoxalması son nəticədə ölkədə radikallığın güclənməsi və ekstermizmə daha münbit zəminin yaranması deməkdir .

Eyni zamanda, nəzərə alınmalıdır ki, kəmiyyət çoxluğunun nəticə etibarı ilə siyasi iddiaların yaranmasına gətirib çıxarması ehtimalı böyükdür. Həmçinin, vəhhabilər dini sosial zümrə kimi formalaşdıqdan sonra bu zümrəni ləğv etmək nəinki çətin, hətta mümkünsüz ola bilər. Bu baxımdan sələfiliyin Azərbaycanın dindar kontingenti arasında məqsədyönlü təşkilatlanma, effektiv maliyyələşmə və təsirli təbliğat mexanizmlərini qurmaq nöqteyi-nəzərindən müəyyən şərtlər çərçivəsində "siyasi İslam"ın bazasını formalaşdırmaq ehtimalı var. Önləyici tədbirlər effektli olmayacağı təqdirdə, milli və dini bütünlüyümüzə xələl gətirə biləcək vəhhabiliyin Azərbaycan dövlətçiliyi və konstitusiya quruluşu üçün təhlükə törədəcəyi, yaxud mümkün təhdidlərə zəmin yaradacağı istisna deyil.





# NURÇULUQ

Nurçuluq dini cərəyanının (və ya camaatlıq) əsasını Səid Nursinin qoymasına baxmayaraq, bu günədək dini cərəyanın mahiyyətində və fəaliyyət istiqamətlərində ciddi dəyişikliklər baş verib. Azərbaycanda fəaliyyət göstərən nurçuları çox vaxt Fətullah Gülənin və Mustafa Sunqurun tərəfdarlarına bölürlər. Mustafa Sunqurun tərəfdarları klassik nurçular kimi də tanınır. Bu baxımdan hazırda nurçu kontingentini Azərbaycanda şərti olaraq iki qrupa bölmək olar: klassik nurçular və fətullahçılar.

Fətullah Gülən klassik nurçuların içində yetişməsinə baxmayaraq, özünü nurçu adlandırmır və bu addan da narahatlığını gizlətmir. Eyni zamanda, onun camaatı özünü "Xidmət hərakatı" kimi təqdim edir, Səid Nursinin əsərlərindən daha çox "Xoca əfəndi" adlandırdıqları Fətullah Gülənin kitablarını oxuyurlar. Əgər Səid Nursi "Nur mədrəsələri", "Nur şagirdləri", "Nur müridləri" ifadələrini tez-tez işlədirdisə, Fətullah Gülənin əsərlərində "İşıq evləri", "İşıq süvariləri", "Altun nəsil" kimi ifadələr xüsusi məna daşıyır.

Fəaliyyət forması, camaatın quruluşu və hədəfləri baxımından da fətullahçılarla klassik nurçular fərqlənir. Məsələn, klassik

nurçuluqda iyerarxiya yoxdur, lakin onlardan fərqli olaraq fətullahçılar ordu kimi nizam-intizamlı, təşkilatlanmış şəkildə fəaliyyət göstərirlər. Klassik nurçuluq siyasətdən uzaq hərəkatdır. Fətullahçılar isə siyasi məsələlərə müdaxilə etməkdən çəkinmir, dövlət qurumlarına nüfuz etmək, öz adamlarını strateji strukturlarda yerləşdirmək istiqamətində ciddi səylə çalışırlar.

Klassik nurçuluqda hədəf dinin təbliğidir, fətullahçıların ilkin hədəfi isə "demokratik yol"la dövlət idarəetməsini ələ keçirməkdir. Bu baxımdan klassik nurçuların təbliğatları əsasən müsəlmanlar yaşayan ölkələrdə dərsxanalar yaratmaq və həmin dərsxanalarda yalnız Səid Nursinin "Risaleyi-Nur" külliyyatının tədrisini həyata keçirməklə məhdudlaşır. Lakin fətullahçılar müsəlman olub-olmamasına baxmayaraq, dünyanın əksər ölkəsində universitet, litsey və hazırlıq kursları açır, KİV-in və internetin imkanlarından istifadə edir, eləcə də Fətullah Gülənin kitablarını yayırlar.

Mustafa Sunqurun ardıcıllarının siyasi sahədə fəal iştirakı müşahidə olunmasa da, bu camaatın ayrı-ayrı vaxtlarda siyasətdə iştirak, eləcə də siyasi partiyalarla bağlı mövqeyi açıqlanıb. Mustafa Sunqur "Nur" hərəkatının Səid Nursidən sonrakı mərhələsində siyasətdə iştirak etmək tərəfdarı olan "Məşvərətçilər" qolunun bu mövqeyinə qarşı çıxıb. Eyni zamanda, sonrakı mərhələlərdə digər klassik "Nur tələbələri" ilə bərabər siyasi gündəmdə dini amillərdən yararlanan qüvvələrə, o cümlədən hakim Ədalət və Kalkınma Partiyasına (AKP) dəstəklərini ifadə ediblər. Belə ki, 2011-ci il parlament seçkiləri ərəfəsində Mustafa Sunqur tərəfdarları Səid Nursinin digər tələbələri ilə birlikdə AKP-ni dəstəklədiklərini bildiriblər. Hətta hazırda "Nur camaatı"ndan olan və AKP-dən Türkiyə Böyük Millət Məclisinə üzv seçilən millət vəkili var.





Səid Nursinin "Risaleyi-Nur" külliyyatının dəyişdirilmədən saxlanılması və təbliğinin tərəfdarı olan bu camaat uzun müddət "Oxuyucular" qanadında təmsil olunub, Mustafa Sunqur Səid Nursinin əsərlərinin dilinin "sadələşdirilməsinin" ona qarşı "xəyanət" və "təcavüz" kimi xarakterizə edib.

Klassik nurçular Azərbaycanda dini təbliğata müstəqilliyimizin ilk illərindən başlayıb, Bakı və Sumqayıt da daxil olmaqla respublikanın müxtəlif bölgələrində dərsxanalar yaratmaqla yerlərdə özək təşkil edən kontingent formalaşdıra biliblər. Hazırda klassik nurçuların Bakı, Sumqayıt, Mingəçevir, Gəncə, Şəki, Yevlax və Şirvan şəhərlərində, eləcə də Quba, Xaçmaz, Göyçay, Qəbələ, Ağdaş, Ucar, Ağsu, Şamaxı, İsmayıllı, Zaqatala, hətta dindarlığın nisbətən zəif olduğu Qazax və Gədəbəy rayonlarında ardıcılları var.

Mustafa Sunqur 2006-cı ilədək dəfələrlə Azərbaycana səfər edib, bölgələrdə olub, ən aktiv tərəfdarları ilə görüşüb, eyni zamanda, dəfərlərlə onların Türkiyəyə səfərləri təşkil olunub. Bununla yanaşı, Azərbaycandan seçilmiş gənclər Türkiyədə dini təhsilə cəlb edilib, onlar ölkəmizə, eləcə də İrana və MDB dövlətlərinə klassik nurçuluğun təbliğatçısı kimi göndəriliblər.

Klassik nurçular təbliğat aparmaq üçün dərsxanalar təşkil etməklə yanaşı, tələbələr üçün mənzillər kirayələnməsinə də üstünlük verirlər. Bakı və digər şəhərlərdə kirayələnmiş (və ya satın alınmış) onlarla mənzildə güzəştli şərtlərlə qalmaq imkanı verən klassik nurçular bura tələbələri cəlb edərək onları təbliğatlarına qoşurlar. "Nur evləri" adlanan bu mənzillərdə mütəmadi olaraq həftənin bir günü "Risaləyi-Nur" oxumaq üçün toplantılar təşkil edilir. Burada "Nur külliyyatı"ndan seçmə kitablar növbə ilə hər kəsə oxudulur, digərləri isə dinləyirlər. "Risaleyi-Nur"dan başqa dini ədəbiyyat mütaliə etmək məqsədəuyğun sayılmır. "Nur evləri"nə gələnlərə özləri ilə yeni gənclər gətirmək tövsiyə olunur.

**"Risaleyi-Nur"külliyyatı.**

Səid Nursi "nurlu kitablar" və ya "nur kitabları" mənasını verən "Risaleyi-Nur" kitablar seriyasını 1925-ci ildən qələmə almağa başlayıb. Bu külliyyat müxtəlif mövzuları əhatə edən və 14 əsərdə birləşdirilən kitablardan ibarətdir və 24 ilə qələmə alınıb. Külliyyat surə və ayərlərin sistemsiz təfsiri olsa da, burada tarixi, siyasi və əxlaqi məsələlərdən də bəhs olunur.

"Risaleyi-Nur" Osmanlı əlifbası ilə qələmə alınıb və "əski Osmanlıca" adlandırılan dil üslubuna malikdir. Bu baxımdan günümüzdə külliyyatı mütaliə edənlər onu çətinliklə anlayırlar. Risalələrin qələmə alınıb çoxaldılmasında Səid Nursinin tələbələri yaxından iştirak ediblər. 1957-ci ildə külliyyata daxil olan bütün kitablar latın qrafikası ilə çap olunub.

"Risaleyi-Nur"a aşağıdakı kitablar daxildir:

1. **"Sözlər"** - iman, ibadət, əxlaqla bağlı məsələləri hekayə və təmsillərlə izah edir, 33 bölümdən ibarətdir;

2. **"Məktubat"** - Səid Nursiyə ünvanlanan suallar və məktubların onlara verdiyi cavabların bir arada toplandığı əsərdir. Kitabda ixtilaflı məsələlərlə bağlı müəllifin fikirləri də əks olunub;

3. **"Ləmalar"** - otuz üç başlıqdan ibarət olan əsər peyğəmbərlər, sünnət, bidət, duaların hikməti, qənaət, ixlas, materializmin rəddi, xəstəlik, qocalıq kimi mövzuları əhatə edir;

4. **"Şualar"** - əsərdə Quranın ecazkarlığı və hikməti, Allahın varlığı, Əsmaul-hüsnanın (Allahın gözəl adlarının) təcəllili kimi mövzularla yanaşı, bəzi hadisələrlə bağlı əbcəd və cifr hesablamaları, "Risaleyi- Nur"un özəllikləri və bu əsərlə bağlı məhkəmələrdəki müdafiələrinin mətnləri də yer alır;

5. **"Barla lahikası"**, 6. **"Kastamonu lahikası"**, 7. **"Emirdağ lahikası**" - bu əsərlər Səid Nursinin sürgün edildiyi yerlərdə ev dustağı kimi saxlanıldığı dövrlərdə qələmə alınıb. Tələbələrini bəzi məsələlərlə bağlı məlumatlandırmaq üçün yazdığı məktublardan ibarətdir;





8. **"İşaratül-İcaz"** - Bəqərə surəsinin ilk 33 ayəsinin ərəb dilindəki təfsirinin Osmanlı türkcəsinə tərcüməsidir.

9. **"Məsnəviyi-nuriyyə"** - burada tövhid və isbatı-vacib (Allahın varlığının isbatı) dəlillər ayələrlə açıqlanır. Kitab ərəbcə qələmə alınıb, sonra Osmanlı türkcəsinə tərcümə edilib.

10. **"Sikkəyi-tasdiqi-ğaybi"** - Səid Nursinin və bəzi tələbələrinin Həzrət Əli, Əbdülqadir Geylani və "Risaleyi-Nur"un özü ilə bağlı kəramətləri barədə qələmə aldığı əsəridir.

11. **"Asayi-Musa"** - iki hissədən ibarət olan əsərin birinci hissəsi "Meyvə" risaləsi adlanır. Burada dünya və axirət həyatı müqayisə edilir, ölümün mahiyyəti açıqlanır. Ölümün möminlərin nəzərində Cənnət saraylarının qapısı, kafirlərin nəzərində isə dar ağacı olduğu bildirilir. Kitabın "Hüccətlər" adlanan ikinci hissəsində İslamın iman əsaslarına etiqad edilməsinin vacibliyindən bəhs edilir.

12. **"Tarihçeyi-hayat"** - kitab Səid Nursinin həyatından bəhs edir və onun tələbələri tərəfindən qələmə alınıb.

13. **"İman və küfr müvazinələri"** - kitabda iman və küfr məfhumlarının mahiyyətindən bəhs edilir. İlk öncə "Risaleyi-Nur"un filosoflar və digər şəxslər tərəfindən tənqid və təqiblərə məruz qalmasına baxmayaraq, öz aktuallığını qorumasının səbəbləri açıqlanır. Onun Qurani-Kərim həqiqətlərini açıqlayan kitab olduğu qeyd edilir.

14. **"Muhakemat"** - kitabda tövhid, nübuvvət və ədalət məfhumlarının mahiyyəti açıqlanır.

Bu əsərlərdə Qurandan başqa heç bir kitaba müraciət edilmədiyi deyilsə də, bəzi yerlərdə Şeyx Əbdülqadir Gilani, Şeyx Cə-

maləddin Rumi və Şeyx Bəhaəddin Nəqşibənddən təsirləndiyi açıq şəkildə görünür. Külliyyatda əsasən iman mövzusu ilə bağlı 300-ə yaxın ayənin təfsiri verilib. Yazar ayələri özünəməxsus şəkildə yorumlayıb, dini əmr və qadağaların necə tətbiq olunmasını deyil, onlara riayət olunmasının səbəblərini fəlsəfi yöndən açıqlamağa çalışıb. "Namaz nə üçün qılınır?", "İnsan niyə yaradıldı?", "Bu dunyada nə işimiz var?", "Allahın varlığının dəlliləri nələrdir?" kimi suallara cavab verilir. "Risaleyi-Nur"a bu nöqteyi-nəzərdən yanaşdığımız zaman onun fiqhdən daha çox kəlam elmi ilə bağlı olduğunu görmək mümkündür.

İstər mətbuatda, istərsə də məhkəmə müstəvisində bu əsərlər çox müzakirə edilib. Dəfələrlə bu və ya digər yazısına və yaxud ümumi görüşlərinə görə mühakimə olunan Səid Nursi bir neçə dəfə məhbəs həyatı yaşayıb.

Səid Nursinin görüşləri bir çox tənqidlərə məruz qalıb. Məsələn, "Risaleyi-Nur"da həddən artıq mifologiyanın olduğunu iddia edənlər var. Bu cür düşünənlərə görə, məsələn, "Məktubat" əsərinin 19-cu məktubunda 150 səhifəyə yaxın Peyğəmbərin möcüzələrindən bəhs edilir ki, bunlar da heç birinin əsası olmayan uydurmalardır.

"Risaleyi-Nur" külliyyatına daxil olan kitablar son illər Türkiyə Diyanət İşləri Başqanlığı tərəfindən dövlət vəsaiti hesabına çap olunub. Hətta Türkiyədəki dini dairələr və bəzi rəsmi şəxslər "Risaleyi-Nur" killiyyatına daxil olan kitabların Azərbaycanda kütləvi nəşrinə və idxalına razılıq verilməməsindən müxtəlif vaxtlarda qeyri-rəsmi formada narazılıqlarını ifadə ediblər. Çünki "Risaleyi-Nur" külliyyatına daxil olan və bənzəri dini ədəbiyyatların Azərbaycanda idxalına, yayılmasına və nəşrinə 2009-cu ilə qədər hər hansı bir məhdudiyyət tətbiq olunmayıb. Lakin həmin dini ədəbiyyatlarda dini ekstremizmi təbliğ edən, məzhəblərarası





ədavətə səbəb ola biləcək, eləcə də milli-irqi, dini ayrı-seçkilik salan məlumatlara rast gəlinməsə də, sonrakı illərdə ölkədəki mövcud dini durum və qanunvericilikdə edilmiş dəyişikliklər nəzərə alınaraq, əsasən təriqətçiliyin (camaatlığın) yayılmasında istifadə edildiyindən 2009-cu ildən bu kitabların kütləvi şəkildə ölkəyə idxalı, yayılması və nəşri ekspertlər tərəfindən məqsədəuyğun hesab edilməyib. Yalnız hər birindən bir ədəd olmaqla şəxsi istifadə üçün ölkəyə gətirilməsinə razılıq verilib.

**Mustafa Sunqur və "klassik" nurçular.**

Səid Nursinin yaxın tələbələrindən biri olan Mustafa Sunqur 1929-cu ildə Türkiyənin Karabük əyalətinin Eflani bölgəsində anadan olub. İlk təhsilini burada alandan sonra Kastamonu Gölköydə yerləşən Köy İnstitutuna (bu müəyyən sahələr üzrə ixtisaslaşmış institut demək deyil) daxil olub. İnstitutu bitirdikdən sonra təhsilini davam etdirərək müfəttiş olmaq istəsə də, atası buna razılıq verməyib. Onun istəyi ilə kəndlərində müəllimlik edib.

Çalışlar kəndində müəllim işləyərkən Səid Nursi ilə görüşüb. Səid Nursi Mustafa Sunquru hər zaman tərifləyib və barəsində "O mənim mənəvi övladımdır" ifadəsini işlədib. Mustafa Sunqur Türkiyənin bütün bölgələrində "Risaleyi-Nur"u təbliğ etməklə məşğul olub, 1 dekabr 2012-ci ildə 83 yaşında vəfat edib və İstanbulda Eyyub Sultan məzarlığında dəfn edilib.

O, "Risaleyi-Nur" kitablarının olduğu kimi qalmasının qatı tərəfdarlarından olub. Hətta "Risaleyi-Nur"u sadələşdirənləri lənətləyib. Mustafa Sunqur sadələşdirmə ideyasını ortaya atanların əslində öz fikirlərini və sözlərini bu kitablara əlavə etmək istədiklərini iddia edib.

Azərbaycanda bəziləri fətullahçılarla klassik nurçuları eyniləşdirir. Halbuki, mahiyyət etibarı ilə onlar, demək olar ki,

bir-birilərinə zidd hərəkatdırlar. Bəziləri isə klassik nurçuların heç bir zərərli tərəfinin olmadığını iddia edirlər. Təbii ki, zərərləri baxımında fətullahçılarla klassik nurçuları eyniləşdirmək doğru olmaz. Amma klassik nurçuların da Azərbaycan üçün məqbul sayılmayan tərəfləri var. Məsələn, dünyəviliyə mənfi münasibətləri, camaatlıq təfəkkürü (cəmiyyət, xüsusilə dindar kontingent daxilində "sərt" bölünmə yaratmaq), təbliğatlarındakı xurafat elementləri və xaricdən idarə olunmaları klassik nurçuların Azərbaycanda fəaliyyətinə həssas yanaşılması üçün yetərli faktlardır.

**Fətullah Gülən və "Hizmət" hərəkatı (FETÖ).**

1938-ci ildə Ərzurumun Alvar kəndində anadan olub. İlk təhsilini mədrəsədə alıb. 18 yaşında Ankarada vaiz olmaq üçün imtahandan keçdikdən sonra Ədirnədəki "Üç Şərəfəli" camidə fəaliyyətə başlayıb. Daha sonralar Kırklareli və İzmirdə fəaliyyətini davam etdirib.

1991-2000-ci illər onun siyasi proseslərə daxil olduğu dönəm kimi xarakterizə olunur. Məhz həmin illərdə siyasi liderlərlə dəfələrlə görüşən Fətullah Gülən xaricdə Türkiyənin nüfuzunun gücləndirilməsi istiqamətində fəaliyyət göstərdiklərini isbatlamağa çalışaraq dövlətdən müəyyən dəstək ala bilib.

Türkiyədə baş verən hərbi çevrilişlərdən sonra bir neçə dəfə mühakimə olunan Fətullah Gülən sonda bəraət alıb. Amma 1999-cu ilin mart ayında Amerika Birləşmiş Ştatlarına köçərək Pensilvaniya Ştatının Saylosburq qəsəbəsində məskunlaşıb.

Ümumi olaraq Gülənçilərin dünyanın yüzdən artıq ölkəsində qurduğu şəbəkəyə "Hizmet hərəkatı" (Xidmət hərəkatı) deyilir. Məhz bu ad altında dünya ölkələrində təhsil, biznes, ictimai və media sektorlarına yatırımlar həyata keçirilir.

Gülən hərəkatının üzvlərinin Türkiyənin və mövcud olduğu dövlətlərin idarəçilik qurumlarına sızaraq yerləşməsi və böyük





gücə çevrilməsi haqqında onlarla kitab qələmə alınıb. Kitabların hər biri Gülən hərəkatının təşkilatlanmasından, gizli fəaliyyətindən, güc strukturları, Türkiyədə mövcud olan xüsusi statuslu məhkəmələrdə camaat mənsublarının yerləşdirilməsi və ələ alınmasından bəhs edir.

Eyni zamanda, Fətullah Gülənin keçmişindən bu gününə kimi həyatının müxtəlif qaranlıq məqamlarına işıq tutulur. Mətbuatdan tutmuş, təhsil, səhiyyə, ticarət, hətta ordu sisteminə qədər yerləşməyi bacarmış bu hərəkatın dini mahiyyətdən daha çox siyasi məqsəd daşıdığı iddia olunur.

Gülənçilərin əsas xüsusiyyətlərindən biri də Fətullah Güləni ucaldaraq əlçatmaz bir insan kimi təqdim etmələridir. Onların gözündə Fətullah Gülən heç bir sərvətə sahib olmayan təvazökar bir insan, hətta Allahdan ilham alan "yanılmaz" bir şəxsdir. Məhz bu səbəbdən "Hoca əfəndi bir söz demiş və ya bir hərəkət etmişsə, bunda mütləq ilahi bir hikmət vardır", - deyərək onun sözlərini düşünmədən qəbul edirlər.

İddialara görə, Fətullah Gülənin əsas məqsədi maliyyə və media ilə yanaşı, dövlətin bütün sistemlərində hərəkatın üzvlərini yerləşdirməklə tədricən idarəçiliyi defakto ələ keçirməkdir. Bunun üçün isə uzun illər ərzində tədris ocaqlarında, "işıq evləri"ndə yetişdirdikləri "Altın nəsil" adlandırılan insanların potensialından bəhrələnib.

Maraqlı odur ki, bu təhsil müəssisələrində oxuyan şagird və tələbələr əslində cəmiyyətin "qaymaqlarıdır". Çünki tədris müəssisələrinə qəbul imtahanlar vasitəsilə aparılır. Ən savadlı şagird və tələbələr seçilir. Eyni zamanda, camaata mənsub olan təhsil müəssisələrində təhsil haqqı da həddən artıq yüksəkdir. Bu da o deməkdir ki, camaata məxsus bu müəssisələrin fəaliyyət göstərdikləri ölkələrdə ən imkanlı adamların, məmurların, biznesmen-

lərin övladları burada təhsil alır. Hansı ki, bir neçə ildən sonra istənilən halda onlar cəmiyyətin istər siyasi, istərsə də iqtisadi elitasını təmsil edəcəklər. Çox sadə bir mexanizmlə də bu insanlar camaatın istəklərini yerinə yetirəcəklər. Yetişdirilən bu nəslə də "Altın nəsil" (Qızıl nəsil) adı verilir. Lakin başqa bir iddiaya görə, əslində Fətullah Gülən və onun hərəkatının əsas hədəfləri müsəlmanları "amerikansayağı İslam"a sövq etmək, bu istiqamətdə liberal dəyərlərə üstünlük verən yeni model yaratmaqdır.

Camaat Türkiyədən kənardakı fəaliyyətlərinə xüsusi əhəmiyyət verir. Xüsusilə, Türk dövlətlərində, eləcə də müsəlman olmayan ölkələrdə bir sıra təhsil müəssisələri yaradılmasının əsas hədəfi kadrların yetişdirilməsindən və tədricən dövlət strukturlarına, ölkəni ayaqda saxlayan maliyyə korporasiyalarına yerləşdirilməsindən ibarətdir. Bu yolla dövlət strukturlarına "sızıb", buradakı strateji postları ələ keçirməklə idarəçiliyə sahiblənmək məqsədi güdülür.

İlk baxışda sadəlik və təvazökarlıq təəssüratını yaradan camaat mənsubları əslində çox sistemli iyerarxik quruluşa sahibdirlər. İddialara görə, başda Fətullah Gülən olmaqla camaatın natiqlər, şəhər imamları, dinləyici kütləsini formalaşdırmağa cavabdeh olan imamlar, bölgələrə görə məsuliyyət daşıyan imamlar və ev şəraiti vəzifəsində çalışan imamlar (abilər və ya ablalar) təşkilatlanma şəcərəsinin əsasını təşkil edir. Başqa bir iddiaya görə, camaat Fətullah Gülənin rəhbərlik etdiyi yeddi və ya səkkiz nəfərdən ibarət Şura tərəfindən idarə olunur.

Fətullah Gülən qrupu Türkiyə daxilində 100-ə yaxın vəqf, onlarla dərnək, 400-dən artıq özəl məktəb, dərsxana və internat tipli məktəb, yüzlərlə şirkət, müxtəlif xarici dillərdə mətbuat orqanları, yüz minlərlə tirajlı qəzet, teleşirkət, beynəlxalq səviyyədə yayımlanan radiostansiyalar, faizsiz maliyyə təşkilatı və bir sığorta





şirkətinə sahib olub. Lakin "Hizmət" hərəkatının, daha doğrusu, Fətullahçı Terror Örgütünün (FETÖ) 15 iyul 2016-cı ildə dövlət çevrilişinə cəhdindən sonra bu quruluşların, demək olar ki, hamısı bağlanıb. Həmçinin, FETÖ ilə bağlılığı olan on minlərlə şəxs həbs edilib. Onların içərisində yüksək çinli hərbçilər, məmurlar, müəllimlər, media nümayəndələri, ictimai təşkilatların təmsilçiləri də var.

Azərbaycandakı fəaliyyətlərinə gəlincə, ölkəmizdə fətullahçılara məxsus təhsil ocaqlarının və digər qurumların uzun müddət fəaliyyət göstərməsi onlara özlərinə dayaqlar formalaşdırmaq imkanı qazandırıb. Araşdırmalar təsdiqləyir ki, vəhhabilər və ifrat şiələrlə müqayisədə fətullahçılar radikallıq nümayiş etdirmədikləri, əsasən cəmiyyətin savadlı təbəqəsinə yönəlik təbliğat apardıqları, geniş maliyyə imkanlarına malik olduqları, dünyəvi təhsilə və elmə üstünlük verdikləri üçün Türkiyədə 15 iyul dövlət çevrilişinə cəhdə qədər fətullahçılar barədə ölkəmizdə birmənalı mənfi fikir formalaşdırmaq mümkün olmayıb. Yalnız bu hadisədən sonra cəmiyyətdə fətullahçılara qarşı kəskin mənfi rəy formalaşıb.

Yaddan çıxarmaq olmaz: onların ən güclü silahı özününküləşdirilmiş "super zəkalar"dır (altın nəsil). Həm də investisiyaların insan kapitalına qoyulduğu bir dövrdə istila üçün silaha nə ehtiyac var ki?! İndi informasiya müharibəsi, insan resurslarının səmərəli istifadə edilməsi dövrüdür. Bu baxımdan "beyinləri yuyulmuş" "intellektlər"lə mübarizə radikallarla mübarizədən heç də asan deyil.

# RADİKAL "ŞİƏLİK"

Hesablamalara əsasən, ölkə müsəlmanlarının təxminən 60-65 faizi şiə məzhəbinə mənsubdur. Şiəlik Azərbaycanda tarixən mövcud olmuş iki ənənəvi İslam məzhəbindən biridir.

Azərbaycan müstəqilliyini bərpa edənə qədər ölkədə radikal şiəlik adlı bir problem olmayıb. Hətta bu gün də belə bir problemin olduğunu inkar edənlər var. Bu cür düşünənlər iddia edirlər ki, ümumiyyətlə, "radikal şiəlik" ifadəsi doğru deyil. Bəlkə də, "radikal şiəlik" ifadəsini problemin mahiyyətini açan uğurlu ifadə kimi qəbul etməmək olar. Amma dini durumda belə bir problemin olmadığı fikri ilə razılaşmaq qeyri-mümkündür. Çünki "radikal şiə" adlandırdığımız kontingentlə ənənəvi şiə kontingenti arasında şəriət məsələlərindən tutmuş dünyəvi məsələlərə qədər kəskin fərqlər mövcuddur. Buna görə də, həmin kontingentin "mahiyyəti" çox vaxt "qeyri-ənənəvi şiəlik", "siyasiləşmiş şiəlik", "ifrat şiəlik" və ya "radikal şiəlik" kimi xarakterizə olunur. Lakin o biri ifadələrlə müqayisədə "radikal şiəlik" ifadəsindən daha çox istifadə edilir.

Radikal şiəliyin tarixən Azərbaycanda mövcud olmuş ənənəvi şiəlikdən əsas fərqi siyasi hakimiyyətə və dövlət idarəetməsinə iddialı olması, dünyəvi dövlət quruluşuna və dünyəvi təhsilə qarşı çıxması, digər dinlərə və məzhəblərə münasibətdə dözümsüzlük nümayiş etdirməsi, habelə, milli kimliyimizi (Azərbaycan-türk kimliyi) məzhəb kimliyi (şiə kimliyi) daxilində mümkün olduğu qədər "əritmək", bu məzhəbə mənsub yerli əhalini xaricdəki şiə mərkəzli dini-siyasi dairələrdən asılı vəziyyətə salmaqdır.





Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xaricdəki şiə mərkəzli bəzi dini və siyasi dairələr bölgədə strateji məqsədlərinə çatmaq, eləcə də nüfuz və təsir dairələrini genişləndirmək üçün ölkəmizdə radikal şiəliyi gücləndirmək, şiəliyə əsaslanan dövlət-din münasibətləri modelini nümunə kimi yaymaq və təbliğ etmək istiqamətində fəaliyyət göstəriblər. Bu məqsədlə bütün mümkün vasitələrdən istifadə edən həmin dairələr əsas diqqətlərini radikal şiəliyə xas dini təbliğatın aparılmasına, radikal şiə kontingentinin gücləndirilməsinə, dini və etnik separatizm meyillərinin yaranmasına, şiə təəssübkeşliyinə əsaslanan siyasi müxalifətin formalaşdırılmasına və təxribat-pozuculuq fəaliyyətinin genişləndirilməsinə yönəldiblər.

**Təbliğatın təşkilati metodları.**

Ötən əsrin 90-cı illərinin əvvəllərindən başlayaraq ölkəmizdə yaranmış ictimai-siyasi vəziyyətdən istifadə edən şiə mərkəzli siyasi-dini dairələr Azərbaycanda radikal şiə kontingentinin formalaşdırılması istiqamətində ciddi iş aparıblar. Bu məqsədlə xaricə bağlı müxtəlif qurumlar və ayrı-ayrı şəxslər tərəfindən dindar gənclər arasından xüsusi şəxslər seçilərək dini təhsil almaq üçün qeyri-qanuni yollarla ölkələrin dini təhsil ocaqlarına göndəriliblər. Eyni zamanda, Azərbaycanın əsasən şiələr yaşayan şəhər və rayonlarında mədrəsələr, Quran kursları və digər dini təyinatlı təsisatlar yaradılıb, yeniyetmələr və gənclər həmin təhsil müəssisələrinə cəlb olunublar.

Ümumilikdə respublikanın şiələr yaşayan bölgələrindəki mindən artıq məscid və mədrəsəyə xaricdən dindarlar, müəllimlər cəlb edilib, külli miqdarda zərərli dini ədəbiyyat gətirilib, radikal şiəliyə əsaslanan həyat tərzinin üstünlükləri təbliğ olunub, şiəlik üçün müqəddəs sayılan məkanlara məqsədli şəkildə ziyarətlər təşkil edilib, dindar müəllim və tələbələrə qeyri-rəsmi formada maddi yardımlar göstərilib. Bu istiqamətdə bütün tədbirlərə radikal şiə yönümlü xarici humanitar təşkilatlar öz fəaliyyəti ilə əlverişli şərait yaradıblar. Görülən işlərin məntiqi nəticəsi kimi Azərbaycanda müəyyən qədər radikal şiə kontingentinin formalaşması reallaşıb.

Hazırda həmin xarici siyasi və dini dairələr Azərbaycanla bağlı qarşılarına qoyduqları məqsədin ikinci mərhələsini həyata keçirməyə çalışırlar. Bu mərhələdə əsas hədəf formalaşmış kontingenti daha da gücləndirmək və real qüvvə kimi təqdim etməkdir. Bu məqsədlə təkcə xaricdə dini təhsil almış şəxslərdən deyil, həm də onların təsis etdikləri legitim olmayan qeyri-hökumət təşkilatlarının, dövlət qeydiyyatı olmayan siyasi və humanitar qurumların, internetin, eləcə də kütləvi informasiya vasitələrinin imkanlarından yararlanmağa çalışırlar.

Əgər radikal şiəliyin maraqlarına uyğun dini təbliğat istiqamətində əvvəllər xarici emissarlar fəaliyyət göstərirdilərsə, son illər bunu xaricdə dini təhsil almış bəzi yerli "kadr"lar həyata keçirirlər. İndiki mərhələdə belə "kadrlar"ın fəaliyyətinin gücləndirilməsi, səmərəli təşkili və onlar arasında koordinasiyanın möhkəmləndirilməsi istiqamətində işlərin intensivləşdirilməsinə cəhdlər göstərilir.

**Təbliğatın mahiyyəti və vasitələri.**

Hazırda ölkədə formalaşmış radikal şiə kontingentinin imkanlarından istifadə edilərək din pərdəsi altında dövlət orqanlarına





itaətsizliyin, dünyəvi, demokratik dəyərlərə zidd əhval-ruhiyyənin yaradılması, milli azlıqlar arasında separatçılıq meyillərinin gücləndirilməsi, radikal dindar təbəqənin, o cümlədən qadınların, eləcə də gənclərin müxtəlif vasitələrlə şiə mərkəzli xarici dini təhsil müəssisələrinə göndərilməsi istiqamətində ciddi səylər müşahidə olunur.

Eyni zamanda, Azərbaycanın internet məkanında məzhəb üstünlüyü mövqeyindən çıxış etmək, milli maraqlarımıza və dövlətçilik prinsiplərinə zərbə vurmağa çalışmaq baxımından radikal şiələrə məxsus dini saytlar xüsusilə seçilir. Həmin saytların böyük əksəriyyəti xarici siyasi-dini dairələrin və onlara meyilli qüvvələrin tam nəzarəti altındadır.

Əsasən xaricdə dini təhsil almış radikal şəxslərdən və onların ətrafında olan kontingentdən ibarət bir neçə qeyri-legitim ictimai təşkilat da yaradılıb. Həmin təşkilatların, hətta onların "nüfuzlu" üzvlərinin dini saytları var. Azərbaycana yönəlik fəaliyyət göstərən, lakin xaricdən idarə edilən radikal şiəlik təbliğatı aparan dini saytlar da mövcuddur. Onları əsasən xaricdə dini təhsil alan azərbaycanlı tələbələr yaradıblar.

Radikal şiəliyin maliyyələşdirilməsi ənənəvi olaraq xaricdən yardım alınması ilə yanaşı, tərəfdarlarının sahibkarlıq fəaliyyətinə şərait yaradılması yolu ilə həyata keçirilir. Sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirin bir hissəsi xüms, zəkat adı altında dini fəaliyyət üçün ayrılır.

Azərbaycanda yayıldığı dövrdən indiyədək minə yaxın radikal şiə təəssübkeşi xaricdə dini təhsil alaraq ölkəyə qayıdıb. Bununla yanaşı, Azərbaycanda vaxtı ilə fəaliyyət göstərən radikal şiəliyə məxsus mədrəsə və Quran kurslarında yüzlərlə şəxs təhsil alıb. Həmin şəxslərin böyük əksəriyyətini müxtəlif səviyyələrdə və yerlədə dini təbliğata cəlb etməyə çalışırlar.

Zaman keçdikcə yaranmış şəraitə uyğun olaraq Azərbaycanda radikal şiəlik təbliğatında bir sıra dəyişikliklər müşahidə edilir. Məsələn, son illər bu dəyişikliklər radikal şiə dairələrin ictimai sektorda fəaliyyətinin getdikcə genişlənməsinə cəhdlərdə, mobil təbliğatçı qrupların (heyətlər) sayının artırılmasında və fəaliyyətlərinin intensivləşdirilməsində, mübarizə forması kimi aqressiv etiraz üsullarına diqqətin azaldılmasında, təbliğatda şaxələndirmə üsulunun tətbiqində ("vilayətçi" və "ziddi-vilayətçi" olmaqla), məscidlərdən kənarda dini mərasimlərin təşkilinə diqqətin artırılmasında və belə mərasimlərin intensiv xarakter almasında, soydaşlarımızın kompakt yaşadığı ölkələrdə (Gürcüstan, Dağıstan), o cümlədən Rusiya, Ukrayna, Türkiyədə yaşayan azərbaycanlılar arasında radikal şiəlik maraqlarına uyğun dini təbliğata diqqətin artırılmasında özünü göstərir.

Radikal şiəliyə uyğun, Azərbaycan cəmiyyəti üçün qeyri-ənənəvi sayılan dini təbliğat işində fərqli adlarla müxtəlif bölgələrdə fəaliyyət göstərən "heyət"lərin aktivliyi qısa fasilələrlə xüsusilə nəzərə çarpır. Bu təbliğatçı qruplara məqsədli şəkildə "Əhli-Beyt"ə uyğun adlar ("Xanım Zəhra", "Cəfəri", "Livauz-Zeynəb", "İmam Hüseyn", "İmam Zaman", "Xanım Zeynəb", "İmam Əli", "Heyəti-Əbəlfəzl-Abbas", "Hüseyn Divanələri" və s) verilir. Bu qəbildən olan mobil qruplar vasitəsilə təkcə dini təbliğat aparılmır, həm də Azərbaycanda xarici ölkələrə xas əhval-ruhiyyə və mərasim ənənələrinin yayılmasına cəhd göstərilir.

Radikal şiəlikdə təqlid düşüncəsinin təbliğinəməqsədli fomada xüsusi önəmin verilməsi ideoloji faktorla yanaşı, sosial amillə də əlaqədardır. Şiəlikdə yaradılmış iyerarxik sistemin əsas sosial dayağı olan "xüms" vergisinin toplanması radikal dindarların əlində cəmləşdirilir. Radikal şiəliyə bağlılığı və bu yöndə dini təbliğat işində aktivliyi ilə seçilən "din xadimlərinə" "xüms"ün yığılması səlahiyyəti verilir və yığılan məbləğin üçdə biri həmin





"din xadimlərinə" çatır. Hətta, bəzi bölgələrdə "xüms" vergisi xaricə orada dini təhsil alan azərbaycanlılar vasitəsilə göndərilir.

Mübarizə forması kimi aqressiv etiraz üsullarına diqqətin nisbətən azaldılması isə radikal şiə təbliğatında taktiki dəyişikliklərdən biridir. Bunu cəmiyyətdə təsir imkanlarını genişləndirmək üçün təbliğat-təşviqat işinə daha çox önəm verilməsi ilə əlaqələndirmək olar. Son dövrlər radikal şiə təbliğatında əsas diqqətin "dini maarifləndirmə" adlandırılan genişmiqyaslı ideoloji fəaliyyətə yönəldilməsi müşahidə edilir. Dayanıqlı üsul kimi uzaq perspektivi hədəfləyən, yayılmada üfüqi istiqaməti (birbaşa idarəçiliyi – hakimiyyəti deyil, cəmiyyəti hədəfə alan) əsas götürən, eyni zamanda, dinc olması ilə səciyyələnən bu fəaliyyət növünə qarşı mövcud müqavimətin zəifliyini nəzərə alan radikal şiəlik həm dini, həm də mədəni sahədə aktivliyini artırmağa çalışır.

Radikal şiəlik təbliğatında diqqəti çəkən məqamlardan biri də məscidlərdən kənarda dini mərasimlərin təşkilinə əhəmiyyət verilməsi və belə mərasimləri intensivləşdirməyə çalışmalarıdır. Kütləviliyi və genişmiqyaslı olması ilə nəzərə çarpan belə tədbirlər məscidlərdən kənarda təşkil olunur. Məscid binalarında sadə formatda təşkil olunan mərasimlərə əsasən gündəlik ibadətləri müntəzəm icra edən dindarlar toplaşırsa, məscidlərin ətrafında, mərasim yerlərində və çadırlarda keçirilən belə məclislərə dindar olmayan əhalinin də cəlb olunması halları baş verir. Bu da radikal şiəlik maraqlarına uyğunlaşdırılmış dini təbliğatın ölkədə genişlənməsinə səbəb olur. Xüsusilə, gənclərin bu təbliğatın təsiri altında dindarlaşması Azərbaycanın milli maraqları üçün təhdid yaradan əsas məqamlardandır.

Region ölkələrində, xüsusilə azərbaycanlıların kompakt yaşadığı ərazilərdə dini təbliğatın radikal şiəlik maraqlarına uyğun qurulması da açıq-aydın müşahidə edilir. Bu, Rusiya Federasi-

yası, Gürcüstan, Türkiyə və Ukraynada daha çox nəzərə çarpır. Rusiya Federasiyasında yaşayan azərbaycanlılar arasında dini təbliğat işinin təşkilinə xüsusi maraq göstərilir. Xarici emissarlarla yanaşı, şiə mərkəzli tədris ocaqlarında təhsil almış azərbaycanlılar da bu təbliğata cəlb olunurlar. Burada diqqəti cəlb edən məqamlardan biri də antiazərbaycan xarakterli dini təbliğatla yanaşı, Azərbaycandan köçərək qonşu ölkədə yaşayan etnik azlıqların təşkilatlanması və onların ölkəmiz əleyhinə fəaliyyətinə dəstək verilməsidir.

Gürcüstan azərbaycanlıları arasında aparılan dini təbliğatın radikal şiəlik maraqlarına uyğun qurulması prosesi daha sürətlə həyata keçirilib. Bu bir sıra amillə əlaqədardır. Bura yerli əhali arasında təhsilin aşağı səviyyədə olması, sosial problemlərin artması, bölgədə dindarlığın və dini bilgilərin zəif olması, eləcə də yerli azərbaycanlı əhali arasında milli kimlik və Azərbaycana bağlılıq hisslərini zəiflətmək məqsədilə Azərbaycanın maraqlarına uyğun olmayan dini təbliğata əlverişli şəraitin yaradılmasını göstərmək olar.

Gürcüstan azərbaycanlıları arasında dini təbliğat daha çox şiəliyin "Vilayəti-fəqih"çilik (Dini rəhbərin hakimiyyəti) yönündə aparılıb. Bölgədə mövlud tədbirləri və şiəlikdə əlamətdar sayılan digər günlər daha intensiv formada qeyd olunur, həmçinin, aqressiv dindarlığı, siyasi İslamı təbliğ edən şəxslər "inqilabi təqva sahibi" kimi təqdim edilir. Bu təbliğatın təşkilində xaricə bağlı mədəniyyət mərkəzləri xüsusi rol oynayır. Bütün bunlar Gürcüstanda yaşayan soydaşlarımızın milli maraqlarımıza zidd formada dindarlaşıb azərbaycanlı milli kimliyindən uzaqlaşmasına və nəticə etibarilə oradakı soydaşlarımızla ölkəmiz arasında milli-mənəvi bağların zəifləməsinə gətirib çıxara bilər.

Şiəlik adı ilə təbliğ olunan radikal şiəlik çox vaxt milli dövlətimiz olan Səfəvilərin mənəvi irsi kimi təqdim olunsa da, əslində,





tədricən bizə yad xarakterə köklənib. Çünki Səfəvi dövrü şiəliyində irfana söykənən təriqət prinsipləri əsas götürülürdü, amma sonrakı dövrdə şəriət, fiqh, əqidə məsələlərinə üstünlük verildi və zaman keçdikcə ənənəvi şiə təbliğatı bu formaya salındı. Xarici maraqlara uyğun aparılan bu cür şiə təbliğatı milli kimliyimiz, Azərbaycançılıq məfkurəsinə qarşı skeptik əhval-ruhiyyəni yayması, eləcə də cəmiyyətin identifikasiyasını yalnız şiəlikdə görməsi ilə səciyyələnir. Bu təbliğat Azərbaycan üçün bir sıra potensial təhdidlərə yol açır. Belə ki,

- siyasi xarakterli "Vilayəti-fəqih" (dini rəhbərin hakimiyyəti) yönümlü "şiə" təbliğatı xarici siyasi sistemə rəğbət hissi oyadır və həmin idarəçilik forması ölkədəki hüquqi, dünyəvi sistemə sanki alternativ kimi təqdim edilir;

- "Ziddi-vilayət" yönümlü "şiə" təbliğatında isə bəzən məzhəb təəssübkeşliyi qabardılır, bu da çoxkonfessiyalı, multikultural ölkə üçün qəbulolunmazdır;

- "Üsuli" məktəbə qatı bağlılığı ilə seçilən hər iki yönümlü şiə təbliğatının məqsədli şəkildə belə yayılması vətəndaşları "milli kimlik"dən uzaqlaşdırmaqla onların ümmətçilik ideyası ətrafında birləşməsi, milli hisslərin arxa plana keçirilməsi, nəticədə cəmiyyətdə identifikasiyanın milli deyil, dini, daha doğrusu, məzhəb zəminində müəyyən edilməsinə səbəb olur;

- milli azlıqlarda dövlətə qarşı neqativ mövqe formalaşdırılır, dini və mədəni zəmində Azərbaycançılıq məfkurəsinə zidd ruhda aparılan təbliğatla onlarda şüuraltı separatçılıq meyilləri yaradılır;

- adət-ənənələr milli xarakterdən çıxarılaraq "yadlaşdırılır";

- cəmiyyətdə milli xarakterimizə yad, kütlə psixologiyasına süstləşdirici təsir göstərən, bir qədər də tərkidünyalıq təlqin

edən məzlumiyyət əhval-ruhiyyəsi yayılır ki, bu da dindar kütlələrin düşüncəsinə təlqin olunan rəqib (düşmən) obrazına qarşı qisasçılıq hissi formalaşdırır.

Bundan əlavə, müxtəlif məqsədlərlə (dini təhsil, ziyarət, müalicə, ticarət və turizm) xaricə gedən vətəndaşlarımızın sayının getdikcə artması radikal şiəlik təbliğatını gücləndirən səbəblərdəndir. Azərbaycanda dini sahədə səriştəli, dindarlığa meyilli kütlələri ələ ala biləcək xarizmatik ruhanilərin çatışmazlığı şəraitində xaricdəki müxtəlif dini təhsil müəssisələri vasitəsilə "kadr ixracı" da şiə dindar kontingenti arasında bu təbliğata əlverişli zəmin yarada bilir. Çünki xaricdə dini təhsil alan azərbaycanlılara tək dini biliklər verilmir, həmçinin, Azərbaycanın tarixi, mədəniyyəti, tarixi coğrafiyası, Azərbaycan xalqının etnogenezi barədə xarici dairələrin maraqlarına uyğun təhrif olunmuş məlumatlar aşılanmaqla onlar ideoloji assimilyasiyaya məruz qalırlar. Xaricdəki dini təhsildə şəriət fənlərilə yanaşı, məntiq, üsul, fəlsəfə və psixologiya kimi fənlərin tədrisinə də ciddi əhəmiyyət verilir. Bu fənlər məzunların radikal şiəlik maraqlarına uyğun peşəkar təbliğatçı kadrlar kimi yetişməsinə xidmət edir.





# DİGƏR DİNLƏR İSTİQAMƏTİNDƏ TƏHDİDLƏR

## XRİSTİAN MİSSİONERLİYİ

Xristianlıq eramızın III əsrinə qədər müxtəlif dindaxili söz-söhbətlərə baxmayaraq, əsasən, bir dini istiqamət kimi fəaliyyət göstərib. Lakin bu hal çox çəkməyib, kilsələrarası ziddiyyətlər və çəkişmələr Xristianlığı Şərqi və Qərbi kilsələr birliyi adı altında iki coğrafi ərazi mühitinə ayırıb. Zaman keçdikcə bu soyuq münasibətlər daha da dərinləşib. Ermənilərin Qriqoryanlıq adı ilə Xristianlığı qəbul etməsi bu dində ilkin separatçılığın əsasını qoyub və bəzi mənbələrdə onların bu hərəkətləri bir çox aparıcı kilsələr tərəfindən tənqid edilməklə yanaşı, həm də lənətlənib.

Beləliklə, kilsələrarası müqəddəs ittifaqın zəifləməsi və bir-birinə nifrət hissi Xristianlığı rəsmən 1054-cü ildən pravoslavlığa və katolikliyə ayırıb. Bununla Xristianlıq təlimində də əsaslı

dəyişikliklər meydana gəlib və katoliklikdə ciddi mərkəzləşmə yaranıb. Bu mərkəzin "Vatikan" adlandırılaraq Roma şəhərində yerləşdirilməsinə qərar verilib. Nəhayət, katolik mərkəzinin yeganə başçısı İsa Məsihin yer üzündə xələfi sayılan Roma papası olub. Katoliklik təliminin əsasını Bibliyanın tələbləri ilə yanaşı, hədislər, eləcə də Papanın fikir və mülahizələri, həmçinin kilsə yığıncağının qərarları təşkil edir. Dini moizə və xütbələr latın və ana dilində aparılır. Keşiş evlənmir. Qeyd olunanlarla yanaşı, vaxtı ilə katoliklikdə xüsusi dəbdəbəyə malik saray davranış mühiti də hökm sürməyə başlayıb. Beləliklə, Vatikan üsul-idarəsi kiçik dövlət şəklinə gətirilib.

Katolikliyə paralel olaraq pravoslavlıq ilk öncə, əsasən, Bizans, İskəndəriyyə, Antioxiya və Qüds patriarxlığına ayrılaraq həmin mərkəzlər tərəfindən idarə olunurdu. Sonralar pravoslav dini konfessiyası nəzərəçarpan dəyişikliklərə məruz qalıb və XVI əsrdə adıçəkilən patriarxlıqlarla yanaşı, Moskva və Ümumrusiya Patriarxlığı da yaranıb. Bununla da Xristianlıqda gedən proseslər protestantlığın yaranmasının əsasını qoyub.

**Protestantlıq** – Xristianlığın 3 əsas istiqamətindən biri kimi formalaşıb. Mərkəzə tabeçilik və çoxpilləli iyerarxiya üzərində qurulmuş katolik və pravoslav məzhəblərindən fərqli olaraq, bu dini cərəyan bir-biri ilə əlaqəsi tamamilə zəif olan və ya heç olmayan missionerlik vasitəsi ilə sərbəst şəkildə yaradılmış təriqətlərdən ibarətdir.

Əslində, protestantlıq Xristianlığın yeni şaxəsi kimi ənənəvi cərəyanlara qarşı müxalif mövqedə duran din adamlarının mübariz hərəkatı nəticəsində yaranıb. Əsas məqsəd isə Xristianlıqda islahat aparmaq ideyası olub. Köhnə strukturun əleyhinə narazılıqlar və əks çıxışlar genişlənirdi. Yeni dəyişiklik labüd idi və bu, 1517-ci ildə monax, ilahiyyatşünaslıq doktoru Martin Lüterin





katolik kilsəsində müxtəlif dini dəyərlərin alverinə və mənfi halların yayılmasına qarşı çıxması ilə başlayıb.

Bir sözlə, katolik və pravoslav dini konfessiyasında uzun sürən proseslər protestantlığın yaranması ilə nəticələnib. Onun da təməli Martin Lüterin adını daşıyan lüteranlıqla qoyulub. Katolik kilsəsinin keşişi olmuş Martin Lüter dində islahat tələbi ilə "95 tezis"dən ibarət katolik rejiminə qarşı etirazını əks etdirən yazısını 1517-ci ildə Almaniyanın Vittenberq kilsəsinin divarlarına yapışdırmaqla protestantlığın əsasını qoyub.

Eyni zamanda, Martin Lüter dünyəvi dövlətlə dini təşkilatların qarşılıqlı münasibətlərinə aydınlıq gətirib. Cəmiyyətin dünyəvi dövlət vasitəsi ilə idarə olunması məsələsini müəyyənləşdirib. O, dini yolla idarəetmə üsulundan əl çəkməyi təklif edib, bu işdə xeyirxah əməllərin bəd əməllərdən çox olduğunu söyləyib, ölkənin idarəçiliyinin dövlət gücü ilə tənzimlənməsini daha düzgün yol sayıb, dünyəvi dövlətin əleyhinə çıxmağı günah hesab edib və hərbi qulluqda olmağı, ölkəni müdafiə etməyi vətəndaşların borcu kimi qiymətləndirib.

Lüteranlıq təlimini qəbul edən hər bir dindar dövlət hakimiyyətini də qəbul etməli, hərbi xidmətdə olmalı, öz vətəninin müdafiəsinə qalxmalı, mənsub olduğu təriqəti təbliğ etməlidir. Sonralar lüteranlığın əsasında yaranmış bir çox başqa protestant təriqətlər bu prinsiplərin tam əksinə gedərək, onlara zidd mövqe tutublar. Məsələn, XIX əsrin ikinci yarısında "Yehovanın şahidləri"nin yaradıcısı C.Rassel cəhənnəmin ləğv ediləcəyi, cənnətin qapılarının isə yalnız "Yehovanın şahidləri" təriqətinin təəssübkeşlərinin üzünə açılacağı ilə bağlı icmanın təliminə daxil etdiyi bu və digər fikirlərinə görə dəfələrlə məhkəməyə cəlb olunub.

"Adventist" icmasının yaradıcısı Uilyam Müller isə İsa Məsihin zühuru ilə bağlı dəfələrlə konkret tarix söyləyib, amma bu

proqnozlar özünü doğrultmayıb. Buna baxmayaraq, adıçəkilən təriqətlərin təəssübkeşləri hələ də deyilən fikirlər əsasında fəaliyyət göstərirlər. Buna oxşar hallara digər icmaların təlimlərində də rast gəlmək mümkündür.

Xristianlıqda islahatlar nəticəsində katolik cərəyanından Almaniyada lüteranlıq, İsveçrədə kalvenis məzhəb, İngiltərədə isə Anqlikan kilsəsi yarandı. Anqlikan məzhəbi arvadını boşayaraq yenidən evlənməsinə etiraz edən Roma Papasının tələbini qəbul etməyən kral VIII Henrixin katolikliyin bu və bir sıra başqa təlimlərinin əksinə təşkil etdiyi narazılıqların nəticəsi olaraq yaranıb. Əslində isə bu proses Xristianlıqda mövcud olan sərt təlim və tələblərin dəyişdirilməsi naminə həyata keçirilib.

Eyni zamanda, katolikliyə qarşı mübarizə protestantlığın özündə də bir çox yeni təriqət adlarının, müstəqil icmaların yaranmasına səbəb olub. Parçalanmalar nəticəsində yeni dini xidmət sahələri yaranıb. Bunlar "Baptizm", "Adventizm" icmaları, "Metodistlər", "50-cilər", "Həyat sözü", "Həyatverici lütf" və sairdir. Maraqlıdır ki, müxtəlif dini təlimlərdən istifadə olunaraq təşkil edilmiş təlim əsasında fəaliyyət göstərən təriqətlər bu gün də yaranmaqda davam edir.

Protestant təlimində 3 prinsip əsas tutulur: şəxsi inamını qorumaq, bütün dindarların müqəddəsliyini mühafizə etmək (vasitəçinin vacib sayılmaması şərti ilə) və Bibliyanın əsas ali məqam kimi qəbul olunması. Onlar müqəddəs doqma və ehkamları qəbul etmirlər. Təriqətçilikdə şəxsi inam əsas sayılır. Allaha ibadət isə çox sadə formadadır.

Protestantlar tarixən Xristianlıqda ənənə halına gəlmiş ierarxiyanı pozaraq 7 məxfilikdən 5-ni bütpərəstliklə bağlılığı olduğuna görə rədd edib, ancaq 2-ni qəbul edirlər. Bunlar xaç suyuna çəkilmə (kreşeniye) və paklaşmadır (priçaşeniye).





Din xadimləri sadələşdirilmiş seçki yolu ilə icmaya rəhbərlik edirlər. Bu cərəyanın ən böyük gücü planlaşdırılmış maraq çərçivəsində həyata keçirilən missionerlikdədir. Bu işdə məqbul sayılan və sayılmayan bütün vasitələrdən istifadə olunur. Yeni yaranan təriqətlər isə insanları icmaya cəlb etmək işində, hətta anormal sayıla biləcək halları da məqbul hesab edirlər. Qəribədir ki, onlar bir çox hallarda bu növ hərəkətlərin də İsa Məsih xatirinə edildiyini bildirirlər.

**Azərbaycanda missionerliklə bağlı mövcud vəziyyət.**

Protestantlığın Azərbaycana gəlməsinin maraqlı tarixi var. Onun ölkəmizə gəlməsi çar Rusiyası hakimiyyətinin alman koloniyalarını və pravoslavlığa zidd təriqətlərin mənsublarını 1819-1830-cu illərdən başlayaraq mərkəzi Rusiyadan əyalətlərə, o cümlədən Qafqaza, əsasən də Azərbaycan ərazi-lərinə dayaq sayılacaq forpostların yaradılması məqsədilə yerləşdirmək ideyasından qaynaqlanıb. Onlar bu yerlərdə məskunlaşmaqla bərabər, öz dini dəyərlərini bərpa edib və imkan daxilində onu yayıblar. Azərbaycanın bir neçə bölgəsində kilsə tikərək ibadət ediblər. Həmçinin, Azərbaycanda neft sənayesinin inkişafı ilə əlaqədar xristian əsilli bir çox insan Bakıya gəlib və bir sıra müxtəlif təriqətlərə məxsus icmalar yaradıb, ibadət evləri tikdirərək mənsub olduqları məzhəbin tələblərini həyata keçiriblər.

Sovetlər dövründə digər dini icmalar kimi, protestant icmaları da repressiyadan kənar qalmayıblar. Lakin Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra, demək olar ki, bütün protestant dini cərəyanlar ölkəmizdə özəklər yaratmağa çalışıblar.

Ötən əsrin 90-cı illəri Azərbaycanda missionerlik fəaliyyətinin ən güclü olduğu dövr hesab edilir. Həmin illərdə bir sıra xristian sektaları Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində ölkədə yaranmış ictimai-siyasi və sosial-iqtisadi böhrandan

istifadə edərək təbliğatlarını qura biliblər. Qaçqın və məcburi köçkünlərə, eləcə də az təminatlı ailələrə humanitar yardım adı altında fəaliyyətlərini qurmağa çalışan bu sektaların Azərbaycanda yayılması üçün milyonlarla dollar vəsait xərclənib. O dövrdə Qərbdəki xristian dairələr Azərbaycanda sektantlığın yayılması üçün xüsusi planlar hazırlayıblar. 2000-ci ilədək ölkə əhalisinin 25 faizinin xristianlaşdırılması üzərində geniş iş aparılıb. Müxtəlif vaxtlarda bu planın icrasına bəzi ölkələrin xüsusi xidmət orqanları və siyasi dairələri cəlb edilib. Lakin Bakıda və bölgələrdə xristian sektalarının özəklər yaratmasına baxmayaraq, "Azərbaycanın xristianlaşdırılması planı" faktiki iflasa uğrayıb və 2003-cü ildən ölkədə xristian missionerliyin təbliğatı zəifləməyə başlayıb.

Aparılan müşahidələrə əsasən, ölkədə son on ildə bir-iki dini sekta istisna olmaqla missioner icmaların üzvlərinin sayında azalma baş verib. Ümumiyyətlə, təxmini hesablamalara görə, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bu cür sektalara qoşulanların sayı 6 min nəfərdən çox deyil. Bu isə ölkə əhalisi ilə müqayisədə çox kiçik rəqəmdir.

Hazırda Azərbaycanda mövcud olan protestant təriqətlərini 2 əsas qrupa ayırmaq daha düzgün sayıla bilər. Birinci qrupa XX əsrin əvvəllərinədək Azərbaycanda yayılmış, yerli mühitə müəyyən qədər uyğunlaşmış, ekstremizmdən əsasən uzaq olan baptist, adventist, "50-ci gün" təriqətləri və pravoslav-lıqdan törəmiş molokan icmaları aiddir. İkinci qrupa isə ölkənin müstəqillik illərində yaranmış "Həyatverici lütf" (Qreyter Qreys), "Həyat sözü", "Yehovanın şahidləri", "Nehemiya", "Yeni həyat", "Yeni Apostol", "Şərqdə ulduz" və s. dini icmalar və sektalar daxildir.

İndiyədək fəaliyyətində və dini "xidmətlərində" bir sıra qanun pozuntusuna yol verdiyinə, eyni zamanda pasport rejimini





pozduğuna və icmanın daxili işlərinə qarışdığına görə onlarla xristian missioner ölkədən xaric olunub. Bu cür mənfi hallar bir çox protestant təriqətlərin fəaliyyətinə xas olan xüsusiyyətdir. Onlar, əsasən, missionerlik fəaliyyətinə geniş üstünlük verir, müxtəlif vasitələrlə adamları icmalara cəlb etməyə çalışırlar. Elə bu cür fəaliyyət göstərdiyinə görə bir neçə dini icmanın məhkəmə yolu ilə fəaliyyəti də dayandırılıb.

**Missionerlik müstəvisində təhdidlər.**

Hazırda xristian missonerliyi müstəvisində Azərbaycana yönəlik təhdidlər, demək olar ki, aktuallığını itirmək üzrədir. Lakin bir neçə dini sekta və icma var ki, onların fəaliyyəti Azərbaycan üçün ölkə daxilində və xaricdə bir sıra problemlərin yaranmasına zəmin formalaşdıra bilir. Dini zəmində, yəni sektalara qoşulma nəticəsində ailə-məişət problemlərinin yaranması, o cümlədən ailələrin dağılması, "ənənəvi ailə modeli"nə zərbə vurulması, guya Azərbaycanda qeyri-ənənəvi sektaların sıxışdırılması barədə beynəlxalq aləmdə və xarici ölkələrdə təzyiq vasitəsi kimi ölkəmiz əleyhinə mənfi imic formalaşdırılması cəhdləri və s. məsələlər hələ də aktuallığını qoruyur.

Aparılan müşahidələrin nəticələrinə görə, dini sektalara aid icmaların rəhbərliyi icma üzvlərinin şəxsi işlərinə, hətta ailə münasibətlərinə də müdaxilə edir. Onlar üçün önəmli olan ailə yox, icma üzvləri arasındakı münasibətlərdir. Buna görə də icma üzvləri ilə onların ailələri arasında müəyyən problemlər yaranır. Belə icmaların xarakterik xüsusiyyətlərindən biri də odur ki, icma rəhbərliyi maddi qazanc əldə etmək üçün qalmaqallı məsələlərə müdaxilə edir. Bu isə müxtəlif səviyyələrdə icmanın adının hallandırılmasına səbəb olur. Belə icmalar həm də İslam dininə qarşı xoşagəlməz münasibəti ilə seçilir.

Diqqət çəkən məqamlardan biri də budur ki, bəzi sektalar məqsədli şəkildə milliyyətcə azərbaycanlı olan insanlar arasında Xristianlığı yayırlar. Çünki onların təlimatına görə ilk növbədə yerli müsəlman əhali xristianlaşdırılmalıdır. Bəzi icmaların üzvləri arasında hətta İran, Əfqanıstan və Pakistan vətəndaşları da var.

Qeyd etdiyimiz icmaların rəhbərliyi bəzi hallarda dini üstünlük mövqeyindən yazılmış ədəbiyyatdan istifadə edir, eləcə də öz çıxış və moizələrini mənəvi cəhətdən bağlı olduqları xarici mərkəzlərin maraqlarına uyğun qururlar.

Azərbaycanda mövcud xristianyönümlü sektalar arasında kəmiyyət üstünlüyü baptistlər və "Yehovanın şahidləri"nə aiddir. Araşdırmalar göstərir ki, yalnız bu iki sekta mənsublarının sayı birlikdə bütün xristianyönümlü sekta ardıcıllarının ümumi sayının təqribən 60 faizə qədərini təşkil edir.

Yayılma coğrafiyası əsasən Bakı, Sumqayıt və Gəncə şəhərləri ilə yanaşı, Qərb, Şimal (Quba, Qusar, Xaçmaz) və Şimal-Qərb (Zaqatala, Qax, Balakən) regionlarını əhatə edir. Həmin bölgələrdə ümumilikdə qeyri-İslam dini cərəyan mənsublarının təqribən 80 faizi yaşayır. Bundan əlavə məhdud sayda İsmayıllı, Şamaxı və Lənkəran rayonlarında qeyri-ənənəvi xristianyönümlü sekta ardıcılları mövcuddurlar.

Ölkədəki bütün xristianyönümlü sektaların əsas fəaliyyətində missionerlik əhəmiyyətli yer tutur. Belə ki, həmin sektalar əsasən ədəbiyyat paylanması və ya birbaşa ünsiyyət şəraitində əqidələrini yaymağa cəhd göstərirlər. Ötən illərin müqayisəli təhlillərinə əsasən demək mümkündür ki, bütün qeyri-İslam, eləcə də xristian dini cərəyan ardıcıllarında kəmiyyət baxımından azalma sürətlənməkdədir. Bunun əsas səbəbi aidiyyəti dövlət qurumlarının apardığı məqsədyönlü siyasət nəticəsində sektalara cəlbetmə prosesinin kəskin zəifləməsi, yeni qoşulma hallarının getdikcə azalması və yaşlı sekta mənsublarının vəfat etməsi, yaxud əcnəbi ölkələrə köçməsidir.





Nisbi aktivliyə malik "Yehovanın şahidləri" dini cərəyanına mənsub şəxslər ev-ev gəzərək müxtəlif ədəbiyyatlar paylayır və insanları öz icmalarına dəvət edirlər. Bu icmada missionerlik işləri mərkəzləşdirilmiş qaydada həyata keçirilir. Hər bir sektant üçün ona ayrılmış "ərazidəki" bütün mənzillərə baş çəkmək və orada yaşayan insanlarla ünsiyyətdə olmaq mənəvi missiya sayılır. Təbliğat məqsədilə söhbətə cəlb olunan şəxslər barədə qeydlər aparılır, ünvanlar və digər zəruri məlumatlar bu dini sektanın mərkəz ofisinə ötürülərək orada sistemləşdirilir.

Son illərin məlumatlarına görə "Yehovanın şahidləri" cərəyanı 1 ildə təxminən 60 nəfərə yaxın artım tempinə malikdir. Digər diqqəti cəlb edən məqam "Yehovanın şahidləri" icmasının müntəzəm qaydada məhkəmə iddiaları qaldırmaq, hüquqi müstəvidə çəkişmələrlə diqqət mərkəzində qalmaq taktikasıdır. Belə ki, onlar müxtəlif dövlət qurumları, eləcə də hüquq-mühafizə orqanlarını məhkəməyə verir və bu zaman icmanın ABŞ-dakı mərkəzi ofisindən gələn əcnəbi hüquqşünasların xidmətindən yararlanırlar.

Digər nisbi aktivliyə malik xristianyönümlü cərəyan olan baptistlərin sayında azalma müşahidə edilir. Bunun da səbəbi "Yehovanın şahidləri" cərəyanındakı analoji vəziyyətlə eynilik təşkil edir. Baptist cərəyanını dövlət orqanlarına münasibətinə görə loyal və qeyri-loyal olmaq üzrə iki qrupa bölmək olar. Qeyri-loyal baptistlərin missionerlik fəaliyyəti əsasən bölgələrdə Bibliya paylamaqdan ibarətdir.

Diqqət çəkən sektalar içərisində xarizmatlarda ("Nehemiya", "Həyatverici lütf") və "Həyat sözü" icmasında da ciddi kəmiyyət artımı müşahidə edilmir və mövcud situasiya daxilində yaxın gələcəkdə də artacağına dair əlamətlər mövcud deyil.

Xristian sektaların üzvlərinin milli mənsubiyyəti ilə bağlı diqqəti çəkən məqamlar var. "Yehovanın şahidləri" və xarizmatlar istisna olmaqla digər icmaların üzvləri arasında azərbaycanlılar azlıq təşkil edir.

Belə ki, qalan icmalarda üzvlərin ancaq 20-40 faizi azərbaycanlılardır. Qeyri-loyal baptistlərin demək olar ki, hamısı ruslardır. Digərlərinin isə mühüm əksəriyyətində rus, rusdilli və ya qarışıq nikahdan olanlar (fərqli millətlərə məxsus valideynlərin övladları) üstünlük təşkil edir. Yalnız "Yehovanın şahidləri"ndə azərbaycanlılar əksəriyyət (60-65 faizi) təşkil edir. Xristianyönümlü sektalara qoşulanlarda milli azlıqların say üstünlüyü nəzərə çarpır. Bütün qeyri-İslam təmayüllü, eləcə də xristianyönümlü icmalarda milli azlıqların ardıcıllarına rast gəlmək mümkündür.

Baptist və "Yehovanın şahidləri" sektalarının təbliğ etdiyi təlimlər ailədaxili və cəmiyyətdaxili münasibətlərdə daha çox neqativ təsirlər yaradır. Araşdırmalar göstərir ki, milli-mənəvi dəyərlərimizə zidd bu dini təlimlərin cəmiyyətdə yayılması, yaxud ailəyə nüfuzetmə halları sekta ardıcıllarının ənənəvi inanc və dəyərlərə qarşı inkarçı mövqe tutması səbəbilə bölücülük yaradır ki, bu da sosial-mənəvi həmrəylik, eləcə də ideoloji birliyə pozucu təsir göstərir.

Baptistliyi qəbul edənlər arasında kişilər, "Yehovanın şahidləri"ndə isə əsasən tənha qadınlar üstünlük təşkil edir. Digər sektalarda gənclərə daha çox üstünlük verilir. Bu sektaların ailəyə nüfuz etməsi ardıcıl və mərhələli xarakter daşıyır. Belə ki, ailədə bir nəfər yeni dini qəbul etdikdən sonra, qalan ailə üzvlərini də bu əqidəyə cəlb edir. Bu proses şəraitdən asılı olaraq qısa, yaxud uzunmüddətli ola bilər.

Təhlillər əsasən mövcud situasiyada (ictimai-siyasi sabitlik, sosial vəziyyət) yaxın on-iyirmi il ərzində Azərbaycandakı qeyri-İslam sektaları ardıcıllarında ciddi kəmiyyət artımı gözlənilmir. Mövcud dinamikanı nəzərə alsaq, ən aktiv artım tempinə malik "Yehovanın şahidləri"nin sayının 2020-ci ildə təqribən 3000 nəfərə çatması ehtimal edilir. Analoji meyarlara uyğun olaraq baptistlərin sayının azalaraq 2020-ci ildə 2400 nəfərə düşəcəyini proqnozlaşdırmaq olar. Digər icmaların ümumi sayında da nəzərəçarpacaq artımın baş verməsi gözlənilmir.





Bəzi missioner dini icmaları təbliğat şəbəkələrini təkcə respublika daxilində deyil, həm də xaricdə qurmaq istiqamətində işlər görürlər. Son zamanlar bəzi dini icmalarının üzvlərinin qonşu ölkələrdə və Orta Asiya respublikalarında missionerlik fəaliyyəti ilə məşğul olmalarına dair dəqiq məlumatlar daxil olmuşdur. Qeyri-ənənəvi xristian sektalarının Azərbaycan vətəndaşları tərəfindən müsəlman ölkələrində yayılması respublikamıza qarşı müəyyən siyasi iddiaların irəli sürülməsi üçün "əsas" ola bilər.

# "YEHOVANIN ŞAHİDLƏRİ"

"Yehovanın şahidləri" xristian-sinkretist hərəkatdır. Hərəkatın əsası 1896-cı ildə Çarlz Teyz Rassel (Charles Taze Russell 1852-1916) tərəfindən qoyulub. Rassel "Yehovanın şahidləri"nin kitablarında "Min illik krallığın peyğəmbəri" kimi qəbul edilir.

Dini sekta indiki adını 1931-ci ildə keçirilən konqresdə alıb. Bu da İncildə keçən - "Siz mənim şahidlərimsiniz – deyir Yehova" (Müqəddəs Kitab-Əhdi-Ətiq, İşaya 43:10) ifadəsindən götürülüb. Cərəyan öncə "Rasselistlər" (və ya Rassel davamçıları), "Ciddi Müqəddəs Kitab Araşdırmaçıları", "Beynəlxalq Müqəddəs Kitabı Öyrənmə Cəmiyyəti" kimi adlardan istifadə edib.

1877-ci ildə Amerika Birləşmiş Ştatlarında yaşamış xristian missioner Çarlz Teyz Rassel "Tanrımızın qayıdış məqsədi və üsulu" kitabçasını buraxmaqla məşhur yeni dini cərəyanın əsasını qoyub. Müəllifə görə, dünyanın sonu yaxınlaşaraq yeni minillik başlayıb, İsa Məsihin yenidən qayıtmasına və hökmranlıq etməsinə az qalıb. Rassel 1879-cu ildə "Sion Keşikçi qülləsi və İsa Məsihin müjdəçisi" adlı jurnal (hazırda "Keşikçi Qülləsi" kimi məşhurdur) buraxmağa başlayıb, "Pensilvaniyanın Keşikçi Qülləsi, İncillər və Traktatlar Cəmiyyəti" adlı qurum yaradıb, onun ilk prezidenti seçilib. Cəmiyyət üzvləri Bibliyanı tədqiq etdiklərindən "Müqəddəs Kitab araşdırmaçıları" kimi məşhur olublar.





Rasselin ardıcıllarına görə, dünyanın sonu 1799-cu ildə Napoleonun Roma Papasını dünyəvi hakimiyyətdən məhrum etdiyi andan başlayır, İsa Məsih isə 1878-ci ildən etibarən göylərdə padşahlıq edir.

Bir çox xristian tədqiqatçıları "Yehovanın şahidləri"nin İncilin özləri tərəfindən tərcümə olunan mətninə 200-dən çox "Yehova" adını əlavə etdiyini bildirirlər. "Yehova" ivritcə Tanrının adıdır. Təsadüfi deyil ki, bəzi xristian tədqiqatçıları İncilin mətninə 200-dən çox "Yehova" adını əlavə etməklə yəhudilərin xristianları parçalamaq məqsədi daşıyan məzhəb yaratdıqlarını qeyd edirlər.

"Yehova şahidləri" "İsanın ikinci gəlişi"nin reallaşacağına və bunun 1914-cü ildə göydə "Tanrının Krallığı"nın yaranacağı qismində baş verəcəyinə inanırlar. Hərəkatın yaradıcısı olan Çarlz öz təbəələrinə 1914-cü ildə dünyanın sonunun yetişəcəyini, bəşəriyyətin Bibliyaya əməl etməyən böyük bir hissəsinin məhv olacağını, Allahın heç kəsə - "Yalançı xristianlara" da yer üzündə fəsad törətməyə imkan verməyəcəyini öyrətmişdir. Yalnız həqiqi dinin ardıcılları nicat tapacaq, yer üzündəki cənnətdə öz ölmüş əzizlərinə qovuşacaqlar. Yer cənnətində aclıq, xəstəlik, ölüm, ağrı-acı olmayacaqdır. "Yehovanın şahidləri"nin inancına görə, 1914-cü ildə həyatda olan insan nəsli İsa Məsihin 144 000 Yehova şahidi ilə birlikdə yer üzünə enərək, bütün siyasi quruluşları, dövlətləri, millətləri, qısası, "şeytanın güclərini" yox edəcəklərinin şahidi olacaqdır. Beləliklə də, yer üzündə Tanrının Krallığı qurulacaq, dünyaya hakim olmuş şeytanın ayağı yer üzündən kəsiləcəkdir. Bütün bunlar isə "Armagedon savaşı" nəticəsində baş verəcəkdir.

Çarlz Teyz Rasselin "İndi yaşayan milyonlarla insan heç bir zaman ölümü görməyəcəkdir" kimi böyük iddialarına baxmayaraq, özü 1916-cı ildə vəfat etib. Ölümündən sonra onun yerinə vəkil J.F. Rutherford (1869-1942) keçib. O, ətrafına topladığı insanlara özünün Yehovanın vəkili olduğuna inandıra bilib və Rasselin ölməzliyi və başqa vədlərinin baş tutmadığına görə, şəxsiyyətinin alçaldığı qənaətinə gəldiyini bəhanə edərək 1931-ci ildə keçirilən konqresdə "Rasselistlər" adını "Yehova şahidləri" ilə əvəz edib. Yalnız o da vəd etdiyi hadisələri görmədən dünyadan köçüb. Ölümündən sonra onun yerinə N.H.Knorr (1977-ci ilə qədər) keçib. Knorrun vaxtında hərəkat inkişaf edib, Gileadda Müqəddəs Kitab Məktəbi yaradılıb və 15 minə yaxın Krallıq məktəbi missioneri yetişdirməyə nail olub. Knorr 1977-ci ildə vəfat edib. Knorrdan sonra bu hərəkat bir heyət tərəfindən idarə edilib. Qurduqları təşkilatın adı "Yeni Dünya Dərnəyi"dir.

"Yehovanın şahidləri" xristianların müqəddəs kitablarını özləri üçün düstur kimi qəbul edir və öz yozumlarında kitabların mənalarını veriblər. Bu hərəkat yarandığı gündən dünyanın hər yerində öz missiyalarını həyata keçirməyi qarşısına məqsəd qoyub. Hərəkat üzvləri müxtəlif zamanlarda, müxtəlif dövlətlərdə təqib və təzyiqlərə məruz qalıb, əksər hallarda isə müxtəlif vasitələrlə məhv ediliblər.

**Psixoloji üsullar və təsir metodları.**

Bütün ideoloji cərəyanların təsir vasitəsi kimi bir çox psixoloji metodları var. "Yehovanın şahidləri" də bu psixoloji metodlardan istifadə edirlər. Lakin digərlərindən fərqli olaraq, bu hərəkata mənsub olanların bir sıra özünəməxsus metodları da var ki, bunlar aşağıdakı kimi səciyyələndirilir:

a) insanları dünya və gələcək haqqında ümidsizliyə düçar etmək, müharibə, zəlzələ, sel, qıtlıq, xəstəlik, hətta hava çirklənmə-





si kimi problemlərin üzərində dayanaraq, bu problemlərin Allah tərəfindən göndərildiyi və bunlardan qurtulmağın qeyri-mümkün olduğunu təbliğ etmək;

b) qorxu içində saxlamaq. Yaxında dünyanın sonunun olacağı, "Yehovanın şahidləri" olmayanlar üçün qiyamət və fəlakət gələcəyinə inandırmaq;

c) yeganə çıxış yolunun yalnız onlarda olduğuna dair iddialar;

d) təsir gücü altına saldıqları insanları kütlə psixologiyasından faydalanaraq kütləvi tədbirlərə, toplantılara sövq etmək;

e) xristianların müqəddəs kitablarını öz məntiqlərinə görə təhlil və mühakimə etmələri, çox vaxt mətnləri səhv yozmaq və digər dinləri qərəzli şəkildə təftiş etmək;

f) davamlı şəkildə qiraət. Bu inancla bağlı olan ədəbiyyatın ardı-arası kəsilmədən yeni nəşrlərini vermək. Beləliklə, həm şifahi söz, həm də qiraət vasitəsilə təsir altına salmaq;

g) dünya miqyasında bir qüvvəyə və təşkilata arxalanmaq, özünə güvənmək, mənsubiyyətlə qürur duymaq, özünə həddən ziyadə önəm vermək, hansı dinə mənsub olmasına baxmayaraq, aralarına aldıqları insanlara "Yehovanın şahidi" adını vermə kimi metodlar;

h) iş və mənfəət qazanmaq üçün şərait yaratmaq, aylıq əmək haqqı vermək və digər maddi vasitələrlə insanları cəlb etmək.

**"Yehovanın şahidləri" Azərbaycanda.**

"Yehovanın şahidləri" bu gün dünyanın 229 ölkəsində özəklərini yaradaraq fəaliyyət göstərirlər. Müstəqilliyimizi bərpa etdikdən sonra Azərbaycana gələrək dini ideyalarını yaymaq istəyən qeyri-ənənəvi təriqətlərdən təşkilatlanma baxımından ən güclüsü, demək olar ki, "Yehovanın şahidləri"dir. Dini boşluq-

dan, eyni zamanda mənəvi sıxıntıdan məharətlə istifadə edən missionerlər məhz həmin dönəmdə aktiv fəaliyyət göstəriblər və ölkəmizin, əsasən, müsəlman əhalisi arasında öz əqidələrini yaymağa çalışıblar. Əhalinin aztəminatlı təbəqələrinə, o cümlədən – qaçqın və məcburi köçkünlərə müxtəlif xarakterli yardımlar göstəriblər. İlk dönəmlərdə rus dilində dini ədəbiyyat yaymaqla məşğul olsalar da, sonrakı illərdə Azərbaycan dilində nəşr olunan jurnal və broşürlərini geniş yaymağa çalışıblar.

Qapı-qapı gəzib, dini ədəbiyyat paylayan zaman gülərüzlü iki qadından istifadə olunur. Əllərində "Gözətçi qülləsi" və "Oyanın" adlı jurnallar olan həmin insanlar ev sahibinə "Sizə Tanrının müjdəsini gətirmişik və jurnallarımızı hədiyyə etmək istəyirik", - deyərək ev sahiblərində rəğbət oyatmağa çalışırlar.

Vaxtaşırı bölgələrdə fəaliyyət göstərməyə can atırlar, mühafizəkarlığı ilə seçilən rayonlarda rəğbət qazana bilməmələrinə baxmayaraq, böyük şəhərlərdə, əsasən də Bakıda ətraflarına müəyyən sayda insan toplaya biliblər. Mütəmadi olaraq "Padşahlıq Zalları" adlandırdıqları ibadət evlərində məclislər təşkil edilir.

"Yehovanın şahidləri" icmasında həftədə üç görüş keçirilir. Öyrənilən əsas mənbə Müqəddəs Kitabdır. Görüşlər dua ilə başlanır və dua ilə başa çatır. Görüşlərin çoxunda ilahilər oxunur.

Hər bir yığıncaqda ağsaqqallar, yəni nəzarətçilər var. Onlar yığıncağın təlim işinə rəhbərlik edirlər. Onlara xidmətçilər kömək edir. Bu xidmətçilər yığıncaqdakı başqa adamlardan üstün deyillər. Onların xüsusi titulları yoxdur. Onlar geyimləri ilə başqalarından fərqlənmirlər. Gördükləri işə görə onlara məvacib verilmir. Ağsaqqallar yığıncağın ruhani tələbatlarına könüllü surətdə qayğı göstərirlər. Çətinlik yaranan zaman onlar təsəlli və məsləhət verə bilərlər.

Bundan əlavə, "Yehovanın şahidləri"nin hər il kütləvi görüşləri — konqresləri keçirilir. Bu görüşlər zamanı bir çox yığıncaqlar birlikdə Müqəddəs Kitaba əsaslanan təlimlərdən ibarət xüsusi proqrama qulaq asırlar. Bir qayda olaraq keçirilən hər konqres zamanı yeni şagirdlər vəftiz olunur.





**Potensial təhdid.**

İlk baxışda mülayim, əxlaqlı insan təsiri bağışlayan bu əqidə daşıyıcılarının əsas xüsusiyyətləri onların dünyəvi dövlət sistemini qəbul etməmələridir. Dolayısıyla, onlar dövlətin heç bir qanunu ilə razılaşmır, istədikləri kimi yaşamaq niyyətlərini gizlətmirlər. Dövlətə hər hansı formada qulluq etməkdən, o cümlədən hərbi qulluq keçməkdən imtina edirlər. "Yehovanın şahidləri" pasifist düşüncəli və ya həqiqi hərbi xidməti "günah" saymaq fikrində olan gənclərin ideoloji həmrəylik prinsipindən istifadə etməklə onları təriqət mənsubuna çevirməyə cəhd göstərirlər. Torpaqlarımızın 20 faizini işğal etmiş, on minlərlə insanımızın qanını tökmüş ermənilərə qarşı silahlı mübarizəni haram saymalarını xəyanət kimi qəbul edənlər kifayət qədərdir.

"Yehovanın şahidliyi"ni qəbul etmiş hər şəxs öz ailəsini və yaxın qohumlarını da bu ideologiyaya dəvət etməli, onları "batil inanclar"a xidmət etməkdən çəkindirməlidir. Bəzi iddialara görə, "Yehovanın şahidləri" dini zəmində qarışıqlıq salmaq, dini sabitliyi pozmaq kimi təxribat xarakterli addımlar atmaqla yanaşı, beynəlxalq zəmində ölkəmizin nüfuzuna zərbə vurmağa da cəhd göstərir, onları himayə edən beynəlxalq təşkilatlara ünvanladıqları hesabatlarında Azərbaycanda sıxışdırıldıqlarını bildirirlər.

# ƏNƏNƏVİ OLMAYAN DİNLƏR

## BƏHAİLİK

Bəhai dini XIX əsrin ikinci yarısında İranda yaranıb. XIX əsrin birinci yarısında İranda ictimai-siyasi, iqtisadi vəziyyət çox ağır və mürəkkəb idi. Xalq ehtiyac və səfalət içərisində yaşayırdı. Əhalinin böyük qismi İslam dininin şiə məzhəbinə aid olsa da, burada sünnilər, zərdüştilər, yəhudilər və bəzi xristian təriqətləri də mövcud idi.

Şiə aləminin inancına görə, on ikinci imam Mehdi Sahib əz-Zaman qeybə çəkilmiş və nə vaxtsa zühur edib, yer üzərində haqq-ədaləti bərqərar etməlidir. Həmin dövrdə şiələr imamın gəlişini səbirsizliklə gözləyirdilər. Belə bir zamanda Şirazdan Seyid Əli Məhəmməd adlı bir nəfər meydana çıxıb və on ikinci imamın babı (qapı), yəni nümayəndəsi olduğunu iddia edib. Bundan əvvəl molla Hüseyn adlı bir şəxs qeybə çəkilən imamı tapmaq üçün İranın şəhər və kəndlərini dolaşıb. Səfər vaxtı o, bir gəncin qonağı olub və ona öz məqsədini deyib. Həmin gənc onu dinlədikdən sonra bildirib ki, imamın əlamətləri onda var, amma o, imamın babıdır. Molla Hüseyn buna inanıb. Beləliklə,





həmin gecə Seyid Əli Məhəmməd öz missiyasını Mollaya elan edib və Bab adını götürüb.

Bu hadisə 22 may 1844-cü ildə baş vermib. Bu tarixi bəhailər bəşəriyyət tarixində yeni eranın başlanğıcı kimi qəbul edib. Sonralar Seyid Əli Məhəmməd daha da irəli gedərək özünün Mehdi olduğunu iddia edib. Bab yazdığı "Bəyan" kitabında öz düşüncələrini bildirib. Həzrət Bab adı ilə məşhurlaşan Seyid Əli Məhəmməd özünə müəyyən qədər tərəfdar toplaya bilsə də, hakimiyyət tərəfindən kəskin münasibətlə üzləşib.

1848-1852-ci illərdə Babilərin üsyanı yatırılıb və İran hakimiyyəti Seyid Əli Məhəmmədin edamına qərar verib. Babın tərəfdarlarından bəziləri sağ qalıb. Bunlardan biri – 1817-ci il noyabrın 12-də Tehranda varlı bir ailədə dünyaya gələn və Bəhaullah adı ilə məşhurlaşan Mirzə Hüseyn Əli fəaliyyətini davam etdirib və bəhai dini təlimini formalaşdırıb. Şahın əmri ilə həbsxanaya atılan Bəhaullah orada özünün Babın öncədən xəbər verdiyi "Allahın aşkarlayacağı Kəs" olduğunu izah edən möcüzəli hadisənin şahidi olduğunu iddia edib. Bir müddət sonra o, həbsxanadan çıxsa da, sürgündən canını qurtara bilməyib.

Həyatının böyük hissəsini sürgündə keçirən Bəhaullah 1892-ci ildə dünyasını dəyişib. Onun yolunu oğlu Əbdülbəha davam etdirib.

Bəhaullahın İsraildəki Hayfa şəhərinə xüsusi bağlılığı olub. Həyatının son illərində o, dörd dəfə Hayfa şəhərində olub və Kərmil dağının ətəklərində öz çadırını qurub. O, oğlu Əbdülbəhaya Babın məzarını yerləşdirməkdən ötrü qayalı yamacda yer göstərib. Bu gün həmin yamacda Babın dəfn olunduğu ağ mərmərdən tikilən məqbərə yerləşir.

Bəhailər öz dini təlimlərində bir neçə prinsipi əsas götürürlər ki, bunlar da aşağıdakılardır:

***Allahın vahidliyi:*** Allah – mütləq başlanğıc və mütləq ilkin səbəbdir, əzəli varlıq, insan şüuruna sığışmayan, kainatın Öz-özünə var olan və Özü-özünə kifayət olan Yaradanı, bu dünyanın məkan və zaman çərçivələrindən azad olan bir varlıqdır. Allah məkan və səbəb-nəticə münasibətləri baxımından bizim dünyadan fərqlənən və dünyamızı öz ölçülərində sonu olan bir şey kimi əhatə edən "Allahın Ruhani aləmlərində" dövr edir. Allahı dərk etmək insan şüurunun imkanı xaricindədir. İnsan Allahı dərk edə bilməsə də, ilahi reallığın mövcudluğuna inana bilər. Allah kainatın qurucusudur, bununla belə O, hər bir adamın, vaxtilə yaşamış, yaşayan və nə vaxtsa yaşayacaq hər kəsin ayrılıqda qayğıkeş Atasıdır. Allahda bu iki cəhətin birləşməsi insanın dərketmə qabiliyyəti çərçivəsindən kənara çıxır.

***Dinlərin birliyi:*** bu dünyanı yaradarkən Allah insan nəzərində tam açıqlana bilməyən bir məqsəd qoyub. Lakin Öz məqsədlərini həyata keçirmək üçün Allah vaxtaşırı elçiləri - peyğəmbərləri – zühurları vasitəsi ilə bəşəriyyətə Öz idarəedici prinsiplərini – vəhyini çatdırır ki, mədəni-tarixi xüsusiyyətlərlə məhdudlaşan insan qavrama qabiliyyəti dairəsində Allahın məqsədinin pərdələrini azacıq aça bilsin. Əslində bütün İlahi-Vəhyi dinlər eyni İlahi Həqiqəti gətiriblər, onlar arasındakı fərq isə bəşəriyyətin müxtəlif səviyyə hazırlığından və mədəniyyət ənənələrinin müxtəlifliyindən irəli gəlir.

***Bəşəriyyətin birliyi:*** öncə göstərilən imkanları əldə etmək üçün bəşəriyyətin indiki inkişaf mərhələsində onu vahid, harmonik fəaliyyət göstərən orqanizm kimi birləşdirmək vaxtıdır. Bu məqsədin həyata keçirilmə proqramı bəşəriyyətə guya Bəhaullahın vəhyi vasitəsilə gətirilib. Bəhaullahın əli ilə yazılan, sonralar yazıların yeganə səlahiyyətli şərhçisi olan Əbdülbəhanın şərh etdiyi bəhai dininin müqəddəs yazılarında bu ilahi planın bir çox təfsilatları və idarəedici prinsipləri göstərilib.





***İbadətləri:*** Bəhai dinində üç namaz mövcuddur, mömin üç namazdan birini seçir və onu qılır. Bəhai qibləsi İsraildəki Əkka şəhərində yerləşir. Bəhai orucu mart ayının 2-dən 20-dək 19 gün müddətində tutulur. İslam orucunda olduğu kimi, bəhai orucunda da səhər gün çıxandan axşam gün batanadək yemək və içmək tam qadağandır. Oruclıq ayı Badi təqvimində son aydır. Orucluq yeni ilin başlanğıcı Novruz bayramı ilə (21 mart) tamamlanır.

***İnzibati qayda:*** Bəhai dininin ali inzibati orqanı və mərkəzi olan Ümumdünya Ədalət Evinə müqəddəs yazılarda birbaşa qeyd olunmayan məsələlər barədə qərarlar qəbul etmək, həmçinin, zamanın ehtiyaclarına uyğun olaraq qərarları təkrarən müzakirə etmək və ya ləğv etmək səlahiyyəti verilib. Digər dini icmalardan fərqli olaraq, bəhailərdə idarəçilik kollegial formada həyata keçirilir. Bəhaullahın yazılarına əsasən, onun dininin ruhani və inzibati mərkəzi müqəddəs torpaqda, Əkka şəhərinin yaxınlığında və Hayfa şəhərində yerləşir.

**Azərbaycanda Bəhai dini icması:**

Bəhailərin dini icması qanunvericiliyə uyğun olaraq dövlət qeydiyyatına alınıb. Bəhailərin Azərbaycanda müəyyən tarixçəsi var. Onlar ötən əsrin əvvəllərində Bakıda və digər bölgələrdə qismən yayılıblar. Hazırda isə tərəfdarları, əsasən, Bakı və Sumqayıt şəhərlərindədir.

Tərəfdarları bəhailiyi dünya səviyyəli müstəqil və ilahi mahiyyətli din kimi təqdim etməyə çalışsalar da, bu dinə qarşı münasibət birmənalı deyildir. Bəziləri İslamdakı Cənnət, Cəhənnəm, Qiyamət və s. məfhumlara bəhailərin fərqli baxışlarına görə bəhailiyi İslama zidd hərəkat, bəziləri qloballaşan dünyanın tələblərindən doğan təlim, bəziləri də müxtəlif dinlərin sintezindən əmələ gələn dünyagörüşü kimi qiymətləndirirlər. Bəhailərin ölkə üzrə saylarında ciddi artım müşahidə edilmir.

# KRİŞNAÇILIQ

"Beynəlxalq Krişna şüuru cəmiyyəti" (Hare Krişna) hinduizm ənənələrinə uyğun Şərq kultudur. Cəmiyyət "İlahi A. Ç. Bxak-tivedanta Svami Prabxupada" (əsl adı Abxai Şaran De) tərəfindən yaradılıb. Bu hərəkat dünyanın bir çox ölkəsində, eləcə də Amerika və Qərbi Avropada geniş yayılıb.

Keçmiş SSRİ ölkələrinə krişnaçılar 1971-ci ildə Bxaktivedantanın səfərindən sonra ayaq açıblar. Amerikada isə Krişnaizm bir qədər tez, 1965-ci ildə Hindistandan ABŞ-a gələn "Krişnanın tərəfdarları"ndan biri Abxau Şran De Bxaktivedant Svami Prabxupadla birlikdə qədəm qoyub. Abxai Şaran De özünü 32-ci "Quru" elan edib və bu hərəkatın 1977-ci ildən ömrünün sonunadək başçısı olub. İndi bu hərəkata iki qrup rəhbərlik edir: on bir nəfərdən ibarət birinci qrup mənəvi, ikinci qrup olan direktorlar şurası isə inzibati məsələlərlə məşğuldur. Qərbdə yayılmasına baxmayaraq, hərəkat Hindistanda demək olar ki, tanınmır.

Krişnaçıların doktrinası Vişna haqqında qədim nəzəriyyədən qaynaqlanır. Krişnaçılar inanırlar ki, hər bir insan "nirvanaya" çatmaq üçün başının üstündə olan karmadan, həyat və ölüm məntiqsizliyindən qurtulmalı və bu istiqamətdə bir neçə ardıcıl həyat (reinkarnasiya-yenidən bədənləmə) keçməlidir.

Krişnaizm kütləyə hinduizm fəlsəfəsini yeritmək üçün yaradılıb. Hinduizmə görə, Krişna Tanrının simalarından biridir. Krişnaçılar isə inanırlar ki, Krişna tanrının özüdür.

Krişnaizm 5 min il bundan əvvəl Bhaqavad-Qita tərəfindən yazılan "Müqəddəs Əhdi-Ətiqə" əsaslanır. Bu "Əhdi-Ətiq" krişnaçılar üçün İncil kimidir. "Bhaqavad-Qita olduğu kimi" tərəfdarlarına Krişnanın sözlərilə insanlar nə üçün yoxsulluq və əziyyət içində yaşadıqlarını izah edir. Onların dediklərinə görə, bu nəzəriyyənin məqsədi gələcək həyat üçün mənəvi mükəmməlliyə nail olmaqdır.





Cəmiyyətin 38 ölkədə 120-yə qədər mərkəzi var. Bəzən, hətta adi vegeterian restoran da bu mərkəzlərdən biri hesab olunur.

Statistik məlumatlara görə, Krişna tərəfdarlarının 30 faizi ən azı bir il ali məktəbdə oxumuş, 70 faizi isə ənənəvi dini konfessiya üzvləridir. Krişnaçıların 50 faizi deyir ki, onlar Tanrıları ilə şəxsi əlaqədədirlər. Onlar müqəddəs yazıları dərindən öyrənir, həyatlarını Tanrıyla mistik qovuşmaya həsr edir. Krişnanı yerdə təmsil edən "Quru" şagirdlərinə öz istədiyini təlqin edir, onları sekta uğrunda pulsuz işlədir. Şagirdlər məbədyanı otaqlarda yaşayırlar. Onların həyatı sərt rejimdə keçir. Hər gecə saat üçdə durub "məbəd bütləri oyanana qədər" soyuq duş qəbul edirlər. Sonra "tanrıları" yedirmək və geyindirmək mərasimi başlayır. Bundan sonra əllərində 108 muncuqdan ibarət təsbehlər vasitəsilə ən azı gündə 16 dəfə Hare Krişnanın mantrlarının oxunmasına başlayırlar. Oxuya-oxuya küçələrə çıxıb Krişnanı tərifləyir, ianələr yığırlar. Axşamlar isə yenidən mantrlar oxuyub bütlərə qulluq edirlər. Hare Krişnanın mantrlarını onlar hindu tanrılarının ruhlarını cəlb etmək üçün ifa edirlər.

Krişnaçılar inanırlar ki, Krişna məbəddəki metal bütlərdə yaşayır. Onlar bütlərə gündə altı dəfə yemək təklif edirlər. Sonra yeməkləri şagirdlər və tərəfdarlar yeyirlər. Bütləri yuduqları suyu toplayıb tərəfdarlara içizdirirlər. Hər məbəddə "Tulasi Devi" adlandırılan bitki olur. Bu bitki də sitayiş obyektidir.

Krişna tərəfdarlarının həyat tərzi çox sərtdir. Onlar ət, balıq yeyə bilməz, Krişnaya aid olmayan söhbətlər apara bilməzlər. Qəzet və jurnal oxumaq, televizora baxmaq isə qadağandır. Qo-

humlarla, dost tanışlarla əlaqələr çox nadir hallarda baş verir. Krişnaçının şəxsi mülkü ola bilməz. Şagirdlər məbəd təklif edən yeməkdən və yaşayışdan tam asılıdırlar. Krişnaçılar Hindistandan gətirilmiş palçıqdan bədənlərinə hər gün 13 işarə vurur. Bu ayinə altı aydan çox qulluq edənlər yeni sanskrit adı alırlar.

Kişilər peysərində bir dəstə tük saxlayaraq başlarını qırxmalıdırlar. Prabxupadaya görə, qırxılmış başlar insani şöhrətpərəstliyin və mənasızlığın yoxluğunu göstərir. Qadınlar kişilərdən adətən bir neçə pillə aşağıda yer tuturlar. Onların yalnız kişilərə qulluq etmək üçün mövcud olduğu iddia edilir. Krişnaçıların əsas amillərindən biri bütün istəklərdən imtina etməkdir. Bədən ruhun düşmənidir. Buna görə, onlar daim "Mən bu bədən deyiləm" sözlərini təkrar edirlər.

Şagirdlərin şəxsi həyatına qarışaraq onların evlilik məsələsini də özləri həll edir, hətta ailədə ər-arvad arasında olan cinsi əlaqəyə yalnız nəslin davamı üçün icazə verirlər. Məbəd başçılarının razılığı ilə anadan olmuş uşaqları valideynlərin əlindən alıb, xüsusi məktəblərə yerləşdirirlər. İbtidai məktəb çox vacibdir, çünki uşaqların xarici dünya ilə əlaqəsi kəsilir və beləliklə, uşaq tamamilə bu sektanın təsiri altında böyüyür.

Sektanın üzvləri çox vaxt icmada yaşayır və düşünmək üçün boş vaxtları da olmur. Bütün bunlar sektanın üzvlərini tam ram etmək üçündür. "Beynəlxalq Krişna şüuru cəmiyyəti"ndə ailə haqqında belə deyirlər: "Ömrünün axırınadək ailəyə bağlılıq – insani düşkünlüyün ən son səviyyəsidir". "Krişnanı anlamaq, ona qulluq etmək üçün insan hər şeyindən imtina etməlidir. Necə ki, bunu Arcuna etdi. Arcuna öz ailəsinin üzvlərini öldürmək istəmirdi. Amma başa düşəndə ki, Krişnanı anlaması yolunda ailəsi ona maneə törədir, Arcuna onun göstərişilə ailə üzvlərini öldürdü". "Hər bir insan Krişnaya qulluq edərkən, kimisə öldürərsə belə, o, qətl törətmiş sayılmır" ("Bhaqavad-Qita olduğu kimi").





ABŞ-da və Almaniyada bu hərəkatın üzvləri narkotik maddələrin və silahın satışına görə cinayət məsuliyyətinə cəlb olunub və bununla əlaqədar Almaniyada sektanın fəaliyyətinə qadağa qoyulub.

Krişnaçıların Azərbaycana gəlmələri müstəqillik dövrünün ilk illərinə təsadüf edir. Artıq 90-cı illərin əvvəllərində "Beynəlxalq Krişna şüuru cəmiyyəti"nin (Hare Krişna) ardıcılları respublikamıza gələrək, icma evlərini açıb, dini inanclarını təbliğ etmək üçün kitablarını dilimizə tərcümə edib.

Krişnaçılar özlərinə tərəfdar qazanmaq üçün müxtəlif yollara və üsullara baş vururlar. Onların təbliğat hədəfi əhalinin müxtəlif təbəqələrindən olan insanlardır. Krişna ardıcılları əsasən aşağıdakı təbliğat metodlarından istifadə edirlər:

**1.** Küçə, metrostansiya və dayanacaqlarda, habelə şəhər mərkəzi, insanların sıx olduğu yerlərdə dini kitab, disk və digər təbliğat materiallarını ucuz qiymətə satmaq yolu ilə vətəndaşlar arasında inanclarını yaymağa çalışırlar. Bu zaman onlar ətrafdakılarla dini polemikaya girir, guya digər dinləri qəbul etdiklərini söyləyir və beləliklə, onlara maraq göstərənləri aldatmağa çalışırlar;

**2.** Krişnaçılar çoxsaylı bayramlarına dost-tanış və qonşularını dəvət edərək onlarla hazırladıqları yeməkləri bölüşür və bu minvalla saylarını artırmağa cəhd göstərirlər. Hər həftə krişnaçıların dua evlərində müxtəlif şənliklər keçirilir, rəqs və oyunlar təşkil edilir, ətrafda yaşayan və onların məbədlərinə yenicə gəlmiş şəxslərdə maraq oyadılmağa səy göstərilir;

**3.** Krişna ardıcılları son texnoloji nailiyyətlərdən geniş istifadə edir, öz dini lider və digər nüfuzlu krişnaçıların çıxış və mü-

hazirələrini CD-yə köçürür, ona yüksək tərtibat verərək, əhali arasında pulsuz paylayırlar;

4. Krişna davamçıları qonaq gedərkən, yaxud hər hansı yerə baş çəkərkən, mütləq hədiyyə kimi bişirdikləri şirniyyatlardan pay verir, bu yolla özlərinə qarşı rəğbət hissi oyatmağa çalışırlar;

5. Dini icmaya məxsus insanlar üçün müxtəlif humanitar və xeyriyyəçi təşkilatlar adından xaricdəki dini mərkəzlərə ödənişsiz ziyarətlər təşkil edilir.

Azərbaycanda müxtəlif din, məzhəb və yeni dini cərəyanların rahat fəaliyyət göstərməsi üçün şəraitin, zəruri hüquqi bazanın yaradılmasına və ən əsası mentalitetimizdən qaynaqlanan tolerantlığa baxmayaraq, krişnazim kimi etiqad ölkəmizdə uğur qazana bilməyib.

Ölkəmizdə olan krişnaçılar, əsasən, Bakıda fəaliyyət göstərməyə üstünlük verirlər. 2009-cu ildə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində qeydiyyatdan keçən "Bakı Krişna Şüuru" dini icmasının fəaliyyətində zaman keçdikcə zəifləmə və saylarında azalma müşahidə olunur.





# İBRAHİMİLİK

İbrahimiliyin təməli XIX əsrin əvvəllərində Hindistanda yaşamış Əhməd Qədyan adlı şəxs tərəfindən qoyulub. Onlar özlərini İbrahim peyğəmbərin (ə) davamçıları adlandırıb, Məhəmməd peyğəmbərin hədislərini qəbul etməyib, Qurani-Kərimə İslamda qəbul olunduğundan fərqli təfsir veriblər. Sonralar bu cərəyanlar Hindistanda və Pakistanda qadiyanilik kimi tanınıb. Ehtimallara görə, cərəyanın yaranmasında İngiltərə xüsusi xidmət orqanlarının müstəsna "xidmətləri" olub.

İbrahimilərin Azərbaycanda ilk özəyini ixtisasca riyaziyyat müəllimi olan Ələsgər Musayev yaradıb. Ə.Musayev hələ sovet dövründə şiə kimi dini fəaliyyətə başlayıb, sonralar vəhhabiliyə meyillənib, 1995-ci ildən dini baxışlarında kəskin dəyişiklik edərək İbrahimilər adlı qeyri-islam cərəyanı yaradıb.

İbrahimilər guya Qurana əsaslanaraq ibadətlərini Azərbaycan dilində icra edir, dinlərini İbrahim peyğəmbərin dini adlandırır, milliyyətcə azərbaycanlı deyil, İbrahim millətindən olduqlarını söyləyirlər.

Ə.Musayev 1996-cı ildə Suraxanı rayonunun Əmircan qəsəbəsində "Şeyx Nizaməddin əmir hacc" məscidinin dini icmasını yaradıb və qeydiyyatdan keçirib, lakin iki ildən sonra "Dini etiqad azadlığı haqqında" Qanunun müddəalarını pozduğu üçün icmanın qeydiyyatı rəsmi şəkildə ləğv edilib.

Daha sonra Ə.Musayev özünü peyğəmbər elan edib, ətrafına topladığı həmfikirlərini isə ümmət adlandırıb. Həmçinin, icmanın digər üzvləri bunu əsas götürərək özlərini "rəsul" hesab edib, ərazi prinsipi üzrə öz "ümmətlərini" yaradıblar.

İbrahimilər qiblə kimi Məkkəni deyil, Əmircan qəsəbəsində yerləşən "Şeyx Nizaməddin" məscidini seçiblər. Oranı "Bəkkə" (İslama görə yer üzündə inşa edilən ilk tikili) adlandıran ibrahimilər, həmçinin Həcc ziyarətini inkar edir, "həcc" sözünün ərəb dilində mənasının bayram olduğunu bəhanə gətirərək dini bayramların istənilən yerdə keçirilməsinin mümkünlüyünü bildirirlər.

Onların əsas dini kitabı Ə.Musayevin öz bildiyi kimi Azərbaycan dilinə tərcümə etdiyi Qurandır. İcma üzvləri öz qazanclarının beşdə biri qədər zəkat verir ki, bu da icmanın büdcəsini formalaşdırır.

İbrahimilərin şeytana münasibətləri də fərqlidir. Onlar şeytanı mələk adlandırır, ona lənət etməyi günah sayırlar. Onlar şeytanı özlərinə dost sayaraq sonuncunun əməllərini düzgün hesab edir və bunun Allah əmri ilə olduğunu söyləyirlər.

Onlar çoxarvadlılığı məqbul sayır, 9-10 yaşlı qızlarla ailə qurulmasını təqdir edirlər. Onlar ilin istənilən günündə cəm halında yığışaraq "qədr gecələri" keçirirlər. Bu zaman icma üzvü olan qadınlar və azyaşlı qızlar kollektiv şəkildə özlərini icma rəhbəri və ya digər icma üzvlərinə "hədiyyə" edərək, intim əlaqəyə girmə ayinini həyata keçirirlər.

Ə.Musayevin fəaliyyəti yerli dindarların hiddətinə səbəb olub, 1998-ci ildə icma üzvləri döyülərək Əmircan qəsəbəsindən qovulublar. Bundan sonra Ə.Musayev həyat yoldaşının Mərdəkan qəsəbəsindəki bağ evinə köçərək fəaliyyətini orada davam etdirib.

Dini ayinlərin icrası adı altında vətəndaşların hüquqlarını pozmasına və yetkinlik yaşına çatmayan qızlarla cinsi əlaqəyə girməsinə görə Ə.Musayev bir müddət həbsdə olub, azadlığa çıxdıqdan sonra fəaliyyətini bərpa edib.

Hazırda onların əsas özəyi Bakıda fəaliyyət göstərir, lakin bölgələrdə, xüsusilə Bərdə, Xaçmaz, Salyan və Qubada da qanunsuz təbliğat aparmağa çalışırlar.





# IV FƏSİL

# HƏDƏFLƏR

# İSLAM DİNİ İSTİQAMƏTİNDƏ

## DİNİ-İDEOLOJİ BAXIMDAN HƏDƏFLƏR

Dinə hüquq, vicdan azadlığı, milli-mənəvi dəyər prizması ilə yanaşı, həm də dövlətin və cəmiyyətin dini-ideoloji, milli, ictimai təhlükəsizliyi baxımından yanaşmaq lazımdır. Əks təqdirdə din sahəsindən dövlətə və cəmiyyətə qarşı ciddi təhdidlərin yaranması realdır. Hər bir dövlət kimi Azərbaycan da dini-ideoloji baxımdan hədəflərini müəyyənləşdirməlidir. Bu hədəflərə din sahəsində dövlətin bütövlüyünə, cəmiyyətin monolitliyinə və milli məsələlərdə vətəndaş həmrəyliyinə xidmət edən strateji plan kimi də yanaşmaq olar.

Dini-ideoloji baxımdan dövlətin bütövlüyünə xidmət dedikdə din sahəsində fəaliyyətin həm də bu məqsədə yönəldilməsi nəzərdə tutulur. Təəssüf ki, mövcud vəziyyətdə din sahəsindəki bütün fəaliyyətlər dövlətin bütövlüyünə xidmət etmir. Əksinə, bir sıra hallarda dövlətə qarşı yönəlir. Yeni formalaşan dindar kontingentin bir qisminin dini dünyagörüşünə və mənimsədiyi həyat tərzinə görə milli dövlətçilik şüurundan uzaqlaşması, əvə-





zində şəriətə əsaslanan müxtəlif idarəçilik formalarını müdafiə etmələri bunun bariz nümunəsidir.

Beləliklə, din sahəsində dini-ideoloji baxımdan ilk və əsas hədəf formalaşan dindar kontingentin hesabına milli dövlətçiliyimizi daha da möhkəmləndirməkdir. Başqa sözlə, dindar kontingentin dövlətin və onun bütövlüyünün təminatçısı kimi çıxış etməsinə nail olmaqdır. Bu mənada insanlara dini biliklərin verilməsinə paralel şəkildə və ya bunu çuğlaşdırmaqla onlara milli dövlətçilik şüuru və milli-vətəndaş təəssübkeşliyi aşılanmalıdır. Eyni zamanda, inanclı kəsimin dünyəvi dövlət və vətəndaş cəmiyyətinə inteqrasiyası və ölkədə dini həyatın müsbət tendensiyalara dayanan harmonik inkişafı üçün əlverişli şəraitin olması zəruridir.

Əslində, həm dövlətin, həm də cəmiyyətin milli və ictimai təhlükəsizliyinin təməli dini-ideoloji təhlükəsizlikdən başlayır. Belə ki, cəmiyyətin dini-ideoloji təhlükəsizliyi pozulduqdan sonra növbəti mərhələdə milli və ictimai təhlükəsizliyinin pozulması qaçılmazdır. Bu baxımdan dini kimliyin milli kimliyə qarşı qoyulmasının, dindar kontingent daxilində dünyəviliyin və ənənəvi İslamın zəifləməsinin, dini zəmində cəmiyyətdə qütbləşmə və sosial təbəqələşmənin yaranmasının, qadın hüquqlarının məhdudlaşdırılmasının, xurafatın güclənməsinin qarşısının alınması xüsusilə vacibdir. Qeyd edilən istiqamətlərdəki təhdidlərin qarşısının alınmayacağı təqdirdə birinci mərhələdə cəmiyyətin dini-ideoloji, növbəti mərhələdə isə milli və ictimai təhlükəsizliyinin pozulması labüddir.

Dini-ideoloji hədəf baxımından dövlətin bütövlüyü ilə yanaşı, cəmiyyətin monolitliyi də prinsipial əhəmiyyət daşıyır. Dindarlığın kəmiyyət və keyfiyyət cəhətdən güclənməsi fonunda cəmiyyətin monolitliyinə zərbə dəyməsi yolverilməzdir. Əgər dindarlıq artdıqca cəmiyyət dindar və dünyəvi olmaqla, həmçinin, məzhəb müstəvisində bölünəcəksə, bu, yaxın gələcəkdə ideoloji və təhlükəsizlik zəminində ciddi təhdidə çevriləcəkdir.

Proseslərin bu cür inkişafının qarşısının alınması, dini baxımdan cəmiyyətin monolitliyinin qorunması üçün dinin daha çox ənənəvi İslam müstəvisindən təbliğinə nail olmaq lazımdır. Başqa sözlə, din sahəsində yad dini-ideoloji təsirlərin qarşısının alınması məqsədilə inzibati tədbirlərə paralel olaraq ənənəvi İslamın dirçəldilməsi əsas hədəflərdən biri olmalıdır.

Dinin ənənəvi İslam kontekstindən təbliği cəmiyyətin məzhəb zəminində bölünməsinin, eyni zamanda dini və dünyəvi cəhətdən iki hissəyə parçalanmasının, habelə, dindar kontingentin siyasiləşməsinin qarşısının alınması baxımından zəruridir. Çünki ənənəvi İslam dinin siyasiləşməsinə, məzhəbçiliyin qabardılmasına, insanlara yalnız inanclarına görə qiymət verilməsinə haqq qazandırmır. Əksinə, İslamın mədəni, əxlaqi, humanist, sosial tərəflərini qabardır, şəriət müstəvisində "bölücülüyü" şərti sayır.

Mövcud vəziyyətdə ənənəvi İslamın bərpasına, bəlkə də, ehtiyacdan doğan zərurət kimi yanaşmaq lazımdır. Ona görə ki, ənənəvi İslamın dirçəldilməsi bizim üçün məqsəddən daha çox zərərli proseslərlə mübarizə vasitəsidir. Qısacası, "cəmiyyətimizdə din olacaqsa, bu, ənənəvi İslam olmalıdır". Əks təqdirdə, cəmiyyətimizdə "yad İslam" güclənəcəksə, ciddi müşküllərimizin yaranacağı şübhəsizdir.

Dini zəmində ixtilaflara görə milli məsələlərdə vətəndaş həmrəyliyinə xələl gəlməməsi də dini-ideoloji baxımdan əsas hədəflərimizdən biri sayılmalıdır. Din cəmiyyətdə, xüsusilə, dindar kəsimdə yeganə meyar kimi qəbul ediləcəyi təqdirdə milli məsələlərimizdə vətəndaş həmrəyliyinin pozulması qaçılmazdır. Ona görə də, dinin təbliğatı zamanı milli məsələlər ön planda tutulmalıdır.

Məsələn, Qarabağ münaqişəsinin, ərazi bütövlüyümüzün, müstəqilliyimizin, dilimizin, silahlı qüvvələrimizin, bizi birləşdirən əlamətdar günlərin və böyük tarixi şəxsiyyətlərimizin





dini baxımdan müzakirə predmetinə çevrilməsinə imkan verilməməlidir. Dini dünyagörüşündən, sosial statusundan, məzhəb və təriqətindən asılı olmayaraq bu məsələlərdə bütün dindarların dünyəvi vətəndaşlarımızla həmrəy olması zəruridir. Dini zəmində bu cür məsələlərə münasibətdə ixtilafın yaranması dini-ideoloji təhlükəsizliyimizə ciddi təhdiddir.

Təəssüf ki, fərqli dini cərəyan və təriqətlərin təbliğatı nəticəsində milli məsələlərə münasibətdə indidən ziddiyyətlər ortaya çıxır. Məlum radikal dini qrupların "şəriət"ə görə Qarabağda həlak olan soydaşlarımızı şəhid saymamaları və ya bəzilərinin Qarabağın azadlığına məzhəb prizmasından yanaşması, eləcə də ermənilərə münasibəti din-məzhəb zəminində formalaşdırmaq cəhdləri buna bariz nümunədir. Əgər İslamı qəbul etmiş erməninin din qardaşımız sayılıb-sayılmayacağı və ya zühur etdikdə İmamın ordusunda erməninin olub-olmayacağı bu gün müzakirə edilirsə, deməli, məsələ kifayət qədər ciddidir.

Yaxud İrəvandakı tarixi Azərbaycan məscidində bir qrup "müsəlman" Aşura mərasimi keçirirsə, bunu bəzi müsəlman "azərbaycanlılar" doğru və normal qəbul edirsə, onda həmin "azərbaycanlılar"ın din anlayışı İmam Hüseyn məktəbinə yox, hansısa dövlətin siyasi maraqlarına əsaslanır. Çünki İrəvanda Aşura keçirmək Yezidlə birləşib İmam Hüseynə ağlamaq, yas saxlamaq kimi bir şeydir.

Son 25 ildə ölkəmizdə baş verən proseslərin təhlili göstərir ki, milli məsələlərdə vətəndaş həmrəyliyinə ən böyük təhdid din sahəsindən ola bilər. Bu baxımdan dini-ideoloji təhlükəsizliyimiz ölkədə aparılan dini təbliğatın milli maraqlarımız və məsələlərimizlə uzlaşdırılmasından asılıdır. Bunun üçün dini təbliğ edən insanlarımızın dini təəssübkeşliyi ilə yanaşı, milli təəssübkeşliyinin də olması əsas şərtdir.

# DİN SAHƏSİNDƏ MİLLİ VƏ İCTİMAİ TƏHLÜKƏSİZLİK BAXIMINDAN HƏDƏFLƏR

İctimai-siyasi sabitlik inkişafın ilkin şərtidir. Onun pozulmasına yönəlmiş bütün cəhdlər həm də milli və ictimai təhlükəsizliyə qarşı təhdiddir. İstəsək də, istəməsək də, din sahəsinə ictimai-siyasi sabitlik, milli, ictimai təhlükəsizlik baxımından yanaşmaq məcburiyyətindəyik.

Əgər dini durumda hansısa arzuolunmaz proses nəticəsində ictimai-siyasi sabitliyimizin pozulması ehtimalı azacıq da olsa varsa, deməli, bu sahədə milli və ictimai təhlükəsizliyimiz baxımından hədəflərimizi müəyyənləşdirməyimiz başa düşüləndir. Bu hədəflərə nail olmaq yalnız dövlətin deyil, həm də şüurlu və vicdanlı vətəndaşın ali məqsədlərindən biri olmalıdır. Dindar və ya qeyri-dindar olsun, hər bir vətəndaş başa düşməli və qəbul etməlidir ki, bu hədəflərə qarşı çıxmaqla dövlətinin milli və ictimai təhlükəsizliyi ilə yanaşı, öz həyatına da təhdid yaradır. Çünki milli və ictimai təhlükəsizliyimizi təmin etmədən fərdi təhlükəsizliyimizi təmin etməyimiz mümkün deyil.

Qəribə görünsə də, fərdi, milli və ictimai təhlükəsizliyimiz həm də vətəndaş məsuliyyətimizi nə dərəcədə və hansı səviyyədə dərk etməyimizdən asılıdır. Vətəndaş məsuliyyəti olmayan cəmiyyətin ictimai və milli təhlükəsizliyi ciddi təhdid altındadır.

Din sahəsində milli və ictimai təhlükəsizliyimiz baxımından əsas hədəflərimiz xarici təsirlərin güclənməsinin, dinin siyasiləşməsinin, din və məzhəb zəminində tolerantlığın zəifləməsinin, eləcə də radikallığın artmasının qarşısını almaqdır. Bunlara nail





olmadan din sahəsində milli və ictimai təhlükəsizliyimizi tam təmin etməyimiz mümkün deyil.

Dinin siyasiləşməsi prosesinin məntiqi nəticəsi kimi ictimai-siyasi sabitliyin pozulması və ölkənin xaosa sürüklənməsi qaçılmazdır. Son illər Yaxın Şərqdə dini zəmində baş verən qanlı hadisələr təsdiqlədi ki, dindar kontingent siyasiləşdikdən sonra ölkədəki proseslərin demokratik məcrada davam etməsi ehtimalı çox azdır. Çünki kəmiyyət keyfiyyəti üstələdikdən sonra demokratik və dünyəvi prinsiplərə nəinki etinasız yanaşılır, hətta onlar dini qaydalarla əvəz olunur. Ona görə də, milli və ictimai təhlükəsizlik baxımından ilkin prinsiplərdən biri dindar kontingentin siyasiləşməsi üçün əlverişli şərait yaranmasına imkan verməməkdir. Dindar kontingentin siyasi iddialarla çıxış etməsinə şərait yaranacağı təqdirdə, hansısa qüvvə mütləq bu fürsətdən istifadə edəcəkdir.

Din sahəsində ən böyük problemlərdən biri dindar kəsimin müəyyən hissəsinin xaricdən idarə olunmasıdır. Vətəndaşın dini, ideoloji, iqtisadi, mədəni baxımdan xarici təsirə məruz qalması istənilən dövlət üçün ciddi təhdid deməkdir. Xüsusilə dini-ideoloji cəhətdən xaricə bağlılığı maksimum şəkildə azaltmaq milli, ictimai təhlükəsizliyimiz baxımından həyati əhəmiyyət kəsb edir. Milli dövlətçiliyimizin qorunması və inkişafı üçün əsas hədəflərdən biri bu olmalıdır. Buna nail olmaq üçün zaman itkisinə qətiyyən yol vermək olmaz. Əks təqdirdə həlli mümkün olmayan vəziyyətlə qarşılaşa bilərik.

Din və məzhəb zəminində yüksək tolerantlıq mədəniyyəti ən qiymətli mənəvi sərvətlərimizdən biridir. Tolerantlıq həm də bizim dini-ideoloji, milli və ictimai təhlükəsizliyimizi qorumaq instinktimizdir. Eyni zamanda, Azərbaycan xalqının tolerantlıq keyfiyyətinə cəmiyyətimizi dini ekstremizm, radikalizm və fanatizmdən müdafiə etmək üçün "təbii immunitet" kimi yanaşmaq

lazımdır. Cəmiyyətimizdə bu immunitet zəifləyəcəyi təqdirdə milli və ictimai təhlükəsizliyimizlə bağlı problemlərinin artacağı şübhəsizdir.

Əslində, Azərbaycanda tarixən formalaşmış yüksək tolerantlıq mədəniyyəti cəmiyyətin monolitliyi, təhlükəsizliyi üçün böyük potensialdır. Bu potensialdan xarici təsirlərə qarşı geniş istifadə etmək imkanları mövcuddur.

Dini radikalizm və ekstremizmlə mübarizə də milli və ictimai təhlükəsizlik baxımından əsas hədəflərimizdən biridir. Hər iki zərərli fəaliyyət təhlükəsizliyimizə birbaşa təhdid yaradır. Lakin nəzərə almaq lazımdır ki, din sahəsində ekstremizm və radikalizmlə mübarizə yalnız inzibati müstəvidə aparıla bilməz. Bu mübarizənin inzibati tərəfi ilə yanaşı, iqtisadi və ideoloji tərəfləri də var.

Başqa sözlə, dini radikalizm və ekstremizmlə mübarizə həm inzibati, həm də iqtisadi və dini maarifçilik müstəvisində aparılmalıdır. Radikal dini qrupların iqtisadi dayaqları və qaynaqları məhv edilməli, bu məqam həmişə diqqətdə saxlanılmalı, həmçinin, dini maarifçilik işi onlara qarşı yönəlməli, sonuncu tədbir kimi isə inzibati yollara əl atılmalıdır. Dini radikalizmlə yalnız bu şəkildə uğurlu mübarizə aparıla bilər.

Ümumiyyətlə, din sahəsində dini-ideoloji və milli, ictimai təhlükəsizlik baxımından hədəflərə ayrı-ayrılıqda yanaşmaq olmaz. Bu hədəflər kompleks yanaşma tələb edir. Belə ki, din sahəsində yarana biləcək təhdidlərin səbəbləri bir-birilə əlaqəli və bağlı olduğu kimi, onlarla mübarizə və hədəflər də bir-birilərindən asılıdır. Bütün hədəflərin reallaşması kompleks yanaşma tələb edir. Kompleks yanaşmanın elementlərindən biri İslamın humanistlik, xüsusilə sosial tərəfinin qabardılması ola bilər.

İslam qardaşlıq, sülh və əmin-amanlıq dini olmaqla yanaşı, həm də xeyirxahlığı, qarşılıqlı yardımlaşmanı, kasıba əl tutmağı,





imkansıza kömək etməyi, ətrafdakılarla yaxşı davranmağı təşviq edir. "Qonşusu ac ikən tox yatmağı" haram sayan bu dinin nümayəndələri qonşusunun əqidəsi ilə yox, ac olub-olmaması ilə maraqlanmalıdır. Belə bir əxlaq anlayışını qəbul etmiş müsəlmanın xeyirxah, humanist, yardımsevər olmaması mümkün deyil. Bu baxımdan İslamın, ümumiyyətlə, bütün dinlərin təbliği zamanı onların mədəni, əxlaqi, mənəvi, sosial tərəflərinin önə çıxarılması zəruridir. Bu meyarlar bütün dinlərdə eyni olduğu üçün birləşdirici mahiyyət daşıyır. Ona görə də, həm dini-ideoloji, həm də milli, ictimai təhlükəsizliyimiz dinin cəmiyyətdə hansı formada təbliğindən asılıdır. Dövlət dinin təbliğatını aparmır, amma təbliğatın forma və meyarını müəyyənləşdirə bilir.

# PRİORİTET İSTİQAMƏTLƏR

## DİN SAHƏSİNDƏ MİLLİ KADRLARIN HAZIRLANMASI

Dövlət-din münasibətlərinin daha effektiv şəkildə tənzimlənməsi, dövlətin din siyasətinin uğurla həyata keçirilməsi, xarici dövlətlərin dini duruma təsirinin qarşısının alınması, dindarlar arasında və cəmiyyətdə müasir dünyagörüşünün təlqin edilməsi, eləcə də dünyəvi dövlətin əsaslarının düzgün təbliğ olunması üçün ixtisaslı dini kadrların hazırlanması ən vacib məsələlərdən biridir. Bu baxımdan dini təhsilin keyfiyyətcə yeni mərhələyə qaldırılması ölkəmizin həm daxilə, həm də xaricə yönəlik məqsədlərinin reallaşdırılması üçün prioritet milli hədəf kimi qiymətləndirilə bilər.

Müstəqilliyimizi bərpa etdikdən sonra Azərbaycan cəmiyyətinə ideoloji baxımdan nüfuz etmək məqsədi güdən bir sıra xarici dairələr bu məsələdə dini təhsil amilindən də yararlanmağa çalışıblar. Belə ki, gənclərin həm xaricdə dini təhsilə cəlb edilməsi, həm də ölkə daxilində xarici dini emissarlar vasitəsilə dinin tədris olunması bu sahəyə xaricdən olan marağın göstəricisi sayıla bilər.





Son 25 ildə yüzlərlə şəxsin Səudiyyə Ərəbistanında, minlərlə gəncin İranda, bundan əlavə çoxlu sayda vətəndaşımızın Suriya, Misir, Liviya, Pakistan, Malayziya, Rusiya (Dağıstan) və Türkiyədə dini təhsil alması və xaricdə təhsil alanların ölkədə təhsil alanların sayından xeyli çox olması dini təhsil sahəsində mövcud və potensial problemlərin miqyasından xəbər verir.

Qeyd edilən müsəlman ölkələrində dini təhsilin ödənişsiz olması, üstəlik, təhsil müddətində tələbənin zəruri xərclərinin həmin təhsil müəssisələri tərəfindən qarşılanması, ölkədə dini dəyərləri tədris edə biləcək yüksək biliyə malik xarizmatik din alimlərinin az olması, eləcə də cəmiyyətdə dini bilgilərin yetərsizliyi gənclərin xarici dini mərkəzlərə üz tutmasına səbəb olub.

O biri səmavi dinlərdən (Xristianlıq və İudaizm) fərqli olaraq İslam dinində milli təmsilçilik ənənələrinin olmaması, digər tərəfdən bəzi xarici dini dairələrin İslam dinini öz maraqları kontekstində təbliğ etmələri dini təhsil adı ilə xaricə üz tutmuş vətəndaşlarımızın yad ideoloji təsirlərə məruz qalması ilə nəticələnir. Bu problem əsasən Qum və Mədinə şəhərlərində təhsil almış şəxslərin baxışlarında daha aydın hiss olunur. Hər iki təhsil mərkəzində İslam dini daha çox məzhəb təəssübkeşliyi zəminində, bir-birinə zidd və dövlətlərin maraqları kontekstində təbliğ edilir.

Qayıdan məzunların təhsil aldıqları ölkələri dini mərkəz kimi görmələri, eləcə də bunu birbaşa və dolayı yolla təbliğ etmələri narahatlıq doğuran məqam kimi qiymətləndirilə bilər. Həmin dini mərkəzlərdə Azərbaycanda tarixən mövcud olan dini təhsil ənənələrindən fərqli olaraq mənəviyyat, elm, əxlaq, bəşərilik arxa plana keçirilir, əvəzində tələbələrə din adı ilə daha çox regional və qlobal müstəvidə geosiyasi maraqlara uyğun, həmin ölkələrin nüfuz dairəsinin genişlənməsinə xidmət edən, nəticə

etibarilə dövlətçilik və milli maraqlarımıza zidd fikirlərin aşılandığı məlumdur.

Qum dini-elmi hövzəsi adlanan kompleksdə təhsil alan vətəndaşlarımızın əksəriyyəti əl-Məhdi və Əl-Mustafa Beynəlxalq İslam Universitetindən məzun olurlar. Burada İslam dininin şiə məzhəbinin "isna aşariyyə" ("on iki imam") etiqadı zəminində İslam İnqilabının ideya qaynağı sayılan "vilayəti-fəqih" (dini rəhbərin hakimiyyəti) konsepsiyasına uyğun tədris həyata keçirilir.

Həmçinin, dini təhsil almış vətəndaşlarımıza təkcə dini biliklər verilmir, Azərbaycanın tarixi, mədəniyyəti, tarixi coğrafiyası, Azərbaycan xalqının etnogenezi barədə xarici maraqlara uyğun təhrif olunmuş məlumatlar da aşılanır, beləliklə, həmin şəxslər ideoloji assimilyasiyaya məruz qalırlar. Tədris zamanı təqaüdlər (şəhriyyə - aylıq məvacib) alan tələbələr, Azərbaycana qayıtdıqdan sonra da fəallıqlarından asılı olaraq məvacib almaqda davam edirlər. Burada onların yerli mühitə adaptasiya oluna bilməmələri, işlə təmin olunmamaları, nəticədə həmin məzunların xaricdən ideoloji asılılıqla bərabər, həm də maddi cəhətdən asılı vəziyyətə düşmələri ilə nəticələnir.

Qumda dini təhsil almış şəxslərin dini təbliğatları üzərində aparılan müşahidələrin təhlilinə əsasən demək mümkündür ki, tələbələrə İslami dəyərlərin və əqidə prinsiplərinin məzhəb maraqları çərçivəsində təlqin olunması ilə yanaşı, həm də məntiq, üsul, fəlsəfə və psixologiya kimi fənlərin tədrisinə ciddi əhəmiyyət verilir. Məqsəd məzunların əxlaqı, mənəviyyatı təbliğ edən din xadimindən daha çox məzhəb maraqlarına uyğun peşəkar təbliğatçı kadrlar kimi yetişməsini təmin etməkdir.

Monitorinqlər zamanı burada dini təhsil almış şəxslərin təbliğatda məntiqi ardıcıllıqla fəlsəfi biliklərindən psixoloji təsir vasitəsi kimi yararlanmaları, bunun ardınca öz fikirlərini Qura-





ni-Kərim ayələri ilə möhkəmləndirmələri onların kütləyə nüfuz edərək inandırma qabiliyyətini artıran amillərdən olduğu müəyyənləşdirilib.

Xaricdə dini təhsil alan vətəndaşlarımızın bir qismi də Mədinə İslam Universitetinə üz tuturlar. Bu ali təhsil müəssisəsində İslami bilikləri aşılayan ixtisaslarla yanaşı, riyaziyyat, tibb, tətbiqi elmlər, həndəsə, əczaçılıq kimi peşə istiqamətləri mövcuddur. Universitetdə İslam dininin tədrisi akademik səviyyədə deyil, məhdud çərçivəli şəriət müstəvisində həyata keçirilir, gerçək dini əqidə kimi "sələfi" cərəyanı öyrədilir.

Fiqhdə hənbəli, əqidədə sələfi prinsiplərini əsas götürən bu tədris mərkəzində yalnız şiə məzhəbi deyil, həm də sünni məzhəbi daxilindəki fərqli qollar inkar edilir, nəticədə təəssübkeşlik və dözümsüzlüklə müşayiət olunan dünyagörüşü "əsl İslam dini və tövhid inancı" adı ilə tələbələrə aşılanır.

Maraqlı cəhət ondan ibarətdir ki, indiyədək Mədinə İslam Universitetində qeyd olunan dünyəvi peşə istiqamətləri üzrə təhsil almış azərbaycanlıya rast gəlinməyib, təhsil alanların tam əksəriyyəti "Dəvət və üsulid-din" istiqaməti üzrə ixtisaslaşıblar.

Aydın görünür ki, vətəndaşlarımızın orada təhsilə cəlb olunmasında, üstəlik, təhsil müddətində bütün zəruri xərclərinin ödənilməsində məqsəd İslam dini adı ilə cəmiyyətimizə yad olan, dözümsüzlük, məzhəb təəssübkeşliyi, fundamentalizm, ən yaxşı halda dini ekstremizmin etiqadi formasını (zaman keçdikcə əməli formaya keçmə ehtimalı da mövcuddur) ehtiva edən ideoloji təlimi ölkədə yaymaqdır.

Əvvəllər ölkədə sələfi (vəhhabi) cərəyanı əcnəbi təbliğatçılar tərəfindən yayılırdısa, hazırda bu işi əksəriyyəti Mədinə İslam Universitetinin məzunu olan yerli "kadrlar" həyata keçirirlər. Bu təhsil müəssisəsinin məzunlarının təbliğatında "dəvət", "əqaid"

və "təfsir" mövzuları ağırlıq təşkil edir. Buna səbəb qeyd olunan mövzuların təbliğ olunan dini cərəyanı bir doqmatik prinsip kimi hədəfə götürülmüş şəxslərə çatdırmağa imkan verməsidir.

Azərbaycanlı gənclərin dini təhsil almaq məqsədilə vaxtı ilə üz tutduqları ölkələrdən biri də Suriya idi. Onların əksəriyyət Zeynəbiyyə dini hövzəsində təhsil almışlar. Orada da təhsil şəriət müstəvisində həyata keçirilir. Artıq Suriyadakı məlum vəziyyətlə əlaqədar azərbaycanlıların həmin ölkəyə dini təhsil üçün gedişi dayanıb.

1975-ci ildə iranlı din xadimi ayətullah Məhəmməd Şirazi tərəfindən yaradılmış bu təhsil müəssisəsinin məzunları "siyasətə qarışmayanlar", "ziddi-vilayət", "ziddi-inqilab" kimi təqdim olunurlar. 2001-ci ildən sonra Zeynəbiyyəyə Məhəmməd Şirazinin qardaşı Sadiq Şirazi rəhbərlik edib. Bu dini hövzənin məzunlarının təbliğatları və onlarla aparılan fərdi söhbətlərin təhlili göstərir ki, onlar siyasətə birbaşa qarışmasalar da, heç də "İslam İnqilabı" ideyası və "Vilayəti-Fəqih" konsepsiyasına zidd mövqedə deyillər.

Zeynəbiyyə məzunlarının təbliğatlarında bir çox hallarda məzhəb təəssübkeşliyi, digər məzhəbə qarşı aşağılayıcı dünyagörüşünü yaymağa çalışdıqları müşahidə edilir.

Digər tərəfdən, dini-siyasi hərəkatlara rəhbərlik etmiş ailənin (Şirazilər ailəsi - 1891-ci ildə İranda Tənbəki üsyanı, 1920-ci ildə İraq üsyanı) mənsublarının təsis etdikləri dini təhsil mərkəzində dinlə siyasətin bir-birindən ayrı tutulması inandırıcı görünmür.

Dini təhsil ardınca Türkiyəyə getmiş vətəndaşlarımızın qazandığı dini biliklər də bəzi hallarda milli və dövlət maraqlarımıza uyğun gəlmir. Digər ölkələrlə müqayisədə burada tədris prosesi akademik səviyyədə və dünyəvi mühitlə tarazlaşdırılmış formada həyata keçirilir və tələbələrə dünyəvi fənlər də öyrədilir. Lakin ölkənin xarakterik cəhəti kimi ilahiyyat fakültələri istisna olmaqla dini təhsilin əsasən fərqli camaatların təsir və ya nəzarətində olması burada təhsil alan vətəndaşlarımızın dini biliklərə təriqətçilik səviyyəsində yiyələnməsini şərtləndirir.





Digər tərəfdən, nəzərə alsaq ki, Türkiyədəki dini vəqflərin çoxu fərqli camaatların nəzarətindədir və əksər hallarda dini təhsil alanlar həmin vəqflər tərəfindən maliyyələşdirilir, məzunların müxtəlif camaatların ideoloji təsirinə düşməsi istisna olunmur. Bu da öz növbəsində Azərbaycanda milli-mənəvi sahədə həmrəylik, milli birlik kimi vacib prinsiplərlə ziddiyyət təşkil edir.

Təəssüf ki, həm xaricdə, həm də ölkə daxilində dini təhsil almış bu kontingentin bir hissəsi sonradan qeyd edilən ölkələrin "dini modellərinin" yayılması istiqamətində fəaliyyətə cəlb olunurlar.

Ciddi narahatlığa səbəb olan faktlardan biri də dini təhsil almaq məqsədi ilə xaricə getmiş gənclərin necə təhsil almasına, hansı təbliğatın təsiri altına düşməsinə, ümumiyyətlə, həmin ölkələrdə nə ilə məşğul olmalarına, demək olar ki, nəzarətin edilməməsidir.

Bu gün ölkənin dini həyatında aktivlik göstərən, xüsusilə dövlətçilik əleyhinə keçirilən tədbirlərdə təşkilatçı qismində çıxış edən şəxslərin mütləq əksəriyyəti vaxtı ilə xaricdə dini təhsil almış gənclərdir. Bu faktı 2010, 2011 və 2012-ci illərdə guya azanın və hicabın qadağan edilməsi əleyhinə keçirilən kütləvi tədbirlər və etiraz aksiyaları, eləcə də cihad adı ilə Suriyada terror qruplaşmalarının tərkibinə qatılmış radikal şəxslərlə bağlı aparılan təhlillərin nəticəsi də təsdiqləyir.

**Dövlətçilik baxımından din sahəsində savadlı kadrların hazırlanması zərurəti.**

Hazırda respublikamızda 2000-dən artıq məscid mövcuddur və onlardan təxminən 1400-ü gündəlik fəaliyyətdədir. Araşdırmalar göstərir ki, məscidlərə axund və imam statusunda təyin olunmuş din xadimlərinin ümumi sayı fəaliyyət göstərən məscidlərin üçdə biri nisbətindədir. Üstəlik, zaman keçdikcə bütün məscidlərə rəsmi axund və imamların təyin edilməsi məsələsi daha da aktuallaşır. Çünki qeyri-ənənəvi təriqətlərin mənsubları axund və imamların olmadığı, nəzarətdən kənarda qalmış məscidlərə istiqamətlənməyə çalışırlar.

Eyni zamanda, axund və imam kimi fəaliyyət göstərən din xadimlərindən bir qisminin dini və dünyəvi biliklərinin qənaətbəxş olmaması səbəbindən bu kontingent qeyri-ənənəvi təriqətlərə, zərərli meyillərə qarşı bəzən loyallıq göstərir, dövlətçilik mövqeyindən çıxış etməkdən ehtiyatlanır. Bu baxımdan həmin axund və imamların gələcəkdə daha peşəkar kadrlarla əvəzlənməsi zərurəti proqnozlaşdırılandır.

Bununla yanaşı, vaxtı ilə qeydiyyatdan keçmiş və 2009-cu ildən sonra yenidən dövlət qeydiyyatına alınmış İslam dini icmalarının ümumi sayı 700-ə yaxındır. Ölkə üzrə fəaliyyət göstərən 1400 məscidin olduğunu nəzərə alsaq, deyə bilərik ki, bundan sonra daha yeddi yüz məsciddə dini icmanın yaradılması gözlənilir. Bu da öz növbəsində yüksək ixtisaslı kadrların hazırlanması zərurətini daha da artırır.

Son illər dindar əhalinin artım statistikası, dini ədəbiyyatın nəşri və ölkəyə idxalı ilə bağlı aparılan təhlillər də təsdiqləyir ki, cəmiyyətin dindarlıq səviyyəsi sürətlə yüksəlir. Dindarlaşma gənclər və orta yaşlı insanlar arasında xüsusilə nəzərə çarpır. Təxmini hesablamalara görə, ölkə üzrə cümə namazında 135





min, bayram namazlarında 150 min dindar iştirak edir. Lakin nəzərə alınmalıdır ki, kişi dindarların bir hissəsi, qadın dindarların isə, demək olar ki, hamısı məscidlərdə cümə namazında iştirak etmir. Cümə namazında iştirak edənlərin məscidə gəlməyən dindarların beşdə biri nisbətində olduğunu zənn etsək, ölkə üzrə dindarların 675 min nəfər civarında olduğu qənaətinə gələrik. Bu rəqəm ilbəil artmaqdadır və müşahidələrə əsasən, yaxın on ildə dindarların ümumi sayı iki dəfə çoxala bilər.

Digər tərəfdən, təkcə bu faktı qeyd etmək kifayətdir ki, 2011-2015-ci illərdə ölkədə çap edilmiş ədəbiyyatın ümumi tirajı 1 milyon nüsxəyə yaxın olub və bu ədəbiyyatın əksəriyyəti xarici qaynaqlara söykənir. Bununla əlaqədar dini ədəbiyyat sahəsində xarici ədəbiyyatın milli müəlliflərimizin ortaya qoyacağı məhsullarla əvəz edilməsi dövlətin din sahəsində ideoloji işinin əsas prioritetlərindən birinə çevirilir. Bu isə öz növbəsində daha bir sahədə savadlı dini kadrlara ehtiyacı ortaya qoyur.

Bütün bunlar həm məscid və dini icmalarda, həm milli-mənəvi dəyərlərimizə cavab verən səviyyəli dini ədəbiyyatın yazılmasında, həm din sahəsində ictimai fikrin düzgün formalaşmasında, həm də dini kontingentin idarə olunmasında ixtisaslı kardlara böyük ehtiyac olduğunu və gələcəkdə bu məsələnin daha ciddi problemə çevriləcəyi qənaətini təsdiqləyir.

Əslində, bu gün Azərbaycanda xarici ölkələrdə dini təhsil alanların sayının azalması fonunda gənclər arasında yerli ali dini tədris müəssisələrinə rəğbət hissi formalaşmalıdır. Lakin ölkədə ali dini təhsil verən və böyük xidmətləri olan Bakı İslam Universiteti və Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsində təhsilin keyfiyyətini zamanın tələblərinə uyğun səviyyəyə qaldırmaq hələ də mümkün olmayıb.

Təəssüf ki, Bakı İslam Universitetinin məzunlarının bir qisminin dünyəvi və dini bilikləri, eləcə də dünyagörüşləri məhdud ol-

duğundan onların cəmiyyət tərəfindən ixtisaslı və sağlam ruhlu mütəxəssis kimi qəbul edilmələrində ciddi problemlər mövcuddur. Universitetə əsasən zəif bilikli gənclərin, daha çox da qızların üz tutması təhsilin keyfiyyətinə ciddi təsir göstərən əsas amildir. Bunun bariz nümunəsi kimi, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən Bakı İslam Universitetinə keçid balının 200 bal müəyyənləşdirilməsini qeyd etmək olar. Bu fakt hazırki tələbələrin gələcəkdə yüksək bilikli və intellektli din xadimləri kimi yetişməsinə maneə törədən əsas amil kimi səciyyələndirilə bilər.

Müşahidələr göstərir ki, Bakı İslam Universitetində təhsil alanların əksəriyyətinin əsas məqsədi formal da olsa, ali dini təhsil haqqında diplom əldə etmək, dini ayin və mərasimləri yerinə yetirmək naminə əlavə imtiyaz qazanmaq, hərbi xidmətdən möhlət almaq, ümumiyyətlə, ali təhsilin güzəştlərindən istifadə etməkdir.

Eyni zamanda, aparılan təhlillərdən aydın olur ki, ölkə ərazisində xarici dini təbliğatın qarşısının alınması fonunda bu universitetdən məzun olan kadrların potensialı tam qaneedici deyil. Belə ki, universiteti bitirənlərin bir qisminin istər dini, istərsə də dünyəvi biliklərə dərindən yiyələnməmələri, yüksək bacarıq nümayiş etdirə bilməmələri, həmçinin, xarizmatik dini şəxsiyyət kimi formalaşmamaları onların ölkə ərazisində xarici dini dairələrin maraqlarına xidmət edən qüvvələrə qarşı alternativ kimi çıxış etmək potensialını minimuma endirir. Sözügedən ali məktəbin potensialı cəmiyyətimizdə yaranmış yuxarıda sadalanan ehtiyacları və dövlətçilik baxımından boşluq kimi xarakterizə edilə bilən sahələri təmin etmək üçün yetərli sayıla bilməz.

1992-ci ildə Bakı Dövlət Universitetində açılmış İlahiyyat fakültəsində təhsilin səviyyəsi nisbətən yüksəkdir. Bu təhsil müəssisəsində dini dərslər şəriət müstəvisində deyil, akademik şəkildə tədris olunur. Dini fənlərlə yanaşı, dünyəvi fənlər də öyrədilir. Lakin İlahiyyat fakültəsində tədris prosesində məzhəblərarası balansın tarazlaşdırılmasına ehtiyac var.





Fakt budur ki, təhsil aldığı ölkənin dövlət din münasibətləri modelini Azərbaycanda tətbiq etmək istiqamətində fəaliyyət göstərənlər də daxil olmaqla xaricdə dini təhsil alanların sayı Bakı İslam Universitetinin və Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin məzunlarının ümumi sayından daha çoxdur.

Bütün qeyd olunanları nəzərə alaraq, dini sahədə mənəvi dəyərləri əsas götürən, xarici dairələrin nəzarətində olmayan, dinə məhdud çərçivədə deyil, geniş prizmada yanaşmağı bacaran, fəaliyyətində dünyəvilik, tolerantlıq və multikulturalizm kimi Azərbaycan gerçəklilərini nəzərə alan yüksək dini və dünyəvi savada malik ixtisaslı kadrların hazırlanması zəruridir. Bu məqsədlə yenidən formalaşdırılmış və ya yeni yaradılmış ali dini təhsil ocağı yüksək maddi-texniki imkanlara və pedaqoji potensiala malik olmalı, eləcə də tədris proqramında dünyəvi elmlərə və dünya dinlərinin əsaslarına üstünlük verməli, ilahiyyat sahəsində təhsili kompleks şəkildə özündə ehtiva etməlidir.

Həmin ali dini təhsil ocağının beynəlxalq dini tədris müəssisəsinə çevrilməsi məqsədilə onun təşkilində beynəlxalq təcrübədən istifadə edilməsi, həmçinin, ora təkcə Azərbaycandan deyil, Gürcüstan (Acarıstan, xüsusilə azərbaycanlılar yaşayan bölgələrdən), Rusiya (Şimali Qafqaz, xüsusilə Dağıstandan), Ukrayna (xüsusilə müsəlman tatarların kompakt yaşadıqları Krımdan), eləcə də Türkiyə, Orta Asiya və digər müsəlman ölkələrindən tələbə qəbulunun aparılması, nəticədə məzunlar vasitəsi ilə həmin ölkələrdə Azərbaycanın nüfuzunun artırılması zəruridir.

İslam dünyasındakı digər dini təhsil mərkəzləri (Qum elmi-dini hövzəsi, Əl-Əzhər Universiteti, Mədinə İslam Universiteti, Malayziya Beynəlxalq İslam Universiteti və s.) ilə rəqabət apara bilməsi üçün beynəlxalq səviyyədə tanınmış nüfuzlu din mütəxəssislərinin və ictimai sahələr üzrə alimlərin tədrisə cəlb

olunması da mümkündür. Təhsilin səviyyəsinin beynəlxalq standartlara cavab verməsi, yüksək ixtisaslı kadrların hazırlanması üçün nüfuzlu xarici universitetlər və araşdırma mərkəzləri ilə əməkdaşlıq proqramlarının (müəllim və tələbə mübadiləsi və s.) həyata keçirilməsi nəzərdə tutulmalıdır.

Tədris proqramında dünyəvilik prinsiplərinin gözlənilməsi, tələbələrə dini biliklərlə yanaşı, mükəmməl dünyəvi biliklərin də verilməsi məqsədilə beynəlxalq münasibətlər, politologiya, sosiologiya, psixologiya, idarəetmə, hüquq və s. sahələr üzrə fənlərin təhsil proqramına daxil edilməsi, xüsusilə Azərbaycanın tarixi, mədəniyyəti, etnoqrafiyasının tədrisinə ayrıca diqqət göstərilməsi və bu sahələr üzrə tanınmış mütəxəssislərin pedaqoji kollektivə cəlb olunması əhəmiyyətlidir.

Təhsil ocağının məscid və ibadət evlərini din xadimi kimi fəaliyyət göstərəcək yüksək səviyyəli axund və imamlarla təmin etməsi məqsədilə məzunların işlə təmin olunmasına, eyni zamanda sırf dini kadrlarla yanaşı, ictimai fikrə dövlətçilik prizmasından müsbət istiqamətdə təsir göstərə bilən kadrların hazırlanması üçün dünyəvi fənlər üzrə müvafiq ixtisaslaşdırmanın aparılmasına diqqət göstərilməlidir. Yalnız bundan sonra əminliklə demək olar ki, ölkə daxilində formalaşmış milli kadrlar bizi din sahəsində qarşıya qoyulan məqsədlərə çatdıra bilər.





# DİN SAHƏSİNDƏ DÖVLƏT KONSEPSİYASI ƏSASINDA KOORDİNASİYALI FƏALİYYƏT

Din sahəsi, daha doğrusu, dövlət-din münasibətlərinin çevik tənzimlənməsi ilə bağlı dövlət konsepsiyasının hazırlanması və qəbul edilməsi dünya ölkələrinin praktikasında mövcuddur. Amma bu, geniş yayılmamış təcrübədir. XX əsrin ikinci yarısından sonra beynəlxalq aləmdə, xüsusilə Yaxın Şərqdə və İslam dünyasında baş verən proseslər müstəqilliyini yeni qazanmış ölkələrin bu təcrübədən istifadə zərurətinə kifayət qədər əsas yaradır.

Müasir dövrdə dövlətlərarası münasibətlərdə, eləcə də təsir və təzyiq aləti kimi istifadə edilməsində din amilinin güclənməsi bu zərurəti daha da artırır. Mənəviyyat və hüquq məsələsi olmaqla yanaşı, həm də ideoloji, milli və ictimai təhlükəsizlik baxımından xüsusi əhəmiyyət kəsb edən din sahəsi hər bir ölkədə cəmiyyətin spesifik xüsusiyyətləri nəzərə alınmaqla çoxtərəfli, amma vahid yanaşma tələb edir.

Sovetlər birliyi dağıldıqdan sonra müstəqilliyini bərpa etmiş ölkələrdə, xüsusilə müsəlman respublikalarında dini zəmində baş verən proseslər göstərir ki, Yaxın Şərqin "din palitrası"nın həmin ölkələrə və regiona proyeksiyası planı ciddidir. Region ölkələri nə qədər müqavimət göstərsələr də, Yaxın Şərqdən əsən güclü "səmum küləyi" onlara təsirsiz ötüşmür. Əksinə, zaman keçdikcə "küləyin" təsiri güclənir.

Bütün bunlar dünyanın nisbətən sakit və monolit regionlarından fərqli olaraq MDB məkanına daxil olan ölkələrdə dinə

hərtərəfli – hüquqi, mənəvi, ideoloji, milli, ictimai təhlükəsizlik nöqteyi-nəzərindən yanaşmanı özündə ehtiva edən vahid siyasət və fəaliyyət tələb edir.

Dövlət-din münsibətlərinin tənzimlənməsində, ümumiyyətlə, din sahəsində dövlətin vahid siyasətinin və hökumət qurumlarının koordinasiyalı birgə fəaliyyətinin əsas detallarını yalnız dövlət konsepsiyası özündə ehtiva edə bilər. Çünki müəyyən müddətdən sonra dövlət-din münasibətlərinin tənzimlənməsi və idarə olunması üçün bu sahədəki qanunvericilik aktlarının, o cümlədən "Dini etiqad azadlığı haqqında" Qanunun "yetərsiz" qalması ehtimalı böyükdür. Bəzi dövlətlər, o cümlədən MDB məkanındakı bir sıra ölkələr, xüsusilə Rusiya Federasiyası, Ukrayna, Qırğızıstan və Qazaxıstan bu istiqamətdə artıq konkret addımlar atıblar. Hətta Qazaxıstanda bu sahəni tənzimləyən dövlət qurumunun səlahiyyət və imkanları genişləndirilərək ona nazirlik statusu verilib.

Dövlət-din münasibətləri üzrə ekspertlərin əksəriyyəti indiki vəziyyətdə din sahəsindəki məsələlərin və yarana biləcək problemlərin mövcud qanunlarla tam həllini mümkün saymırlar. Onların fikrincə, din sahəsində qarşıya qoyulmuş hədəflərə nail olmaq və prioritet istiqamətlərdə məsələləri kompleks tənzimləmək məqsədilə hər bir dövlət qurumu üçün yol xəritəsi hesab ediləcək dövlət konsepsiyasının hazırlanaraq qəbul edilməsi ən düzgün variant olardı.

Təbii ki, din sahəsi ilə bağlı dövlət konsepsiyasının olmasını dövlətin dinə müdaxiləsi, hətta dinin siyasiləşdirilməsi kimi emosional formada qiymətləndirənlər də var. Lakin nəzərə almaq lazımdır ki, konsepsiya şəriət problemlərinin deyil, din sahəsində cəmiyyətin və dövlətin üzləşə biləcəyi məsələlərin həllinə və tənzimlənməsinə xidmət edir. Onsuz da, konsepsiya





qəbul edib-etməməsindən asılı olmayaraq, dövlətlərin bu sahədə müəyyənləşdirdiyi və həyata keçirdiyi dövlət siyasəti var.

Hər bir dövlətin "Təhsil siyasəti", "Ailə siyasəti", "İnformasiya siyasəti" və s. olduğu kimi "Din siyasəti"nin də olması təbiidir. Dövlətin "Təhsil siyasəti", "Ailə siyasəti" dedikdə təhsilin və ailənin siyasiləşdirilməsi nəzərdə tutulmadığı kimi, dövlətin din siyasəti dedikdə dinin siyasiləşdirilməsi və ya dövlətləşdirilməsi nəzərdə tutulmur.

"Dövlətin din siyasəti" anlayışı özündə dövlətin din sahəsindəki əsas prinsip, məqsəd və hədəflərini və fəaliyyət istiqamətlərini ehtiva edir. Bu mənada şərti olaraq "Azərbaycan Respublikasının dövlət din siyasəti və ya dövlət-din münasibətlərinin tənzimlənməsi konsepsiyası" adlanan sənədin hazırlanmasına və qəbul edilməsinə zaman keçdikcə zərurət daha da artır. Bu sənəd Azərbaycan xalqının və dövlətinin din sahəsində tarixə əsaslanan, amma gələcəyə hesablanmış arzularının sözlə çəkilmiş "şəkli" olmalıdır.

Başqa sözlə, konsepsiya Azərbaycan xalqının əsrlər boyu sahib olduğu milli-mənəvi dəyərlərin qorunub-saxlanmasına, bu sahədəki mövcud potensialın inkişaf etdirilməsinə, vicdan azadlığının təmin olunmasına xidmət edən, ölkədə dövlət-din münasibətlərinin demokratik dəyərlər zəminində formalaşdırılmasına yönəlmiş dövlət siyasətinin məqsəd, vəzifə, prinsip və metodoloji əsaslarını kompleks şəkildə özündə əks etdirən, Azərbaycan Respublikasının dövlət orqanlarının bu sahədə səylərini uzlaşdıran sənəd deməkdir.

Konsepsiya Azərbaycan Respublikasının Konstitusiyasına, "Dini etiqad azadlığı haqqında" Qanununa, Milli Təhlükəsizlik Konsepsiyasına, Dövlət Miqrasiya İdarəetmə Siyasəti Konsepsiyasına, Demoqrafik İnkişaf Konsepsiyasına, Müstəqil Dövlətlər

Birliyinin iştirakçısı olan dövlətlərin terrorçuluğa və ekstremizmin digər zorakı təzahürlərinə qarşı mübarizə sahəsində əməkdaşlıq Konsepsiyasına, beynəlxalq hüququn Azərbaycan Respublikası tərəfindən tanınmış norma və prinsiplərinə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr və konvensiyalara əsasən üzərinə götürdüyü öhdəliklərə əsaslanmalı, müddəaları Azərbaycan Respublikasının qəbul edilmiş qanunları və digər hüquqi-normativ aktlarında öz əksini tapmaqla onlarla uzlaşdırılmalıdır.

Sənədin əsasını Azərbaycanda formalaşmış milli-mənəvi dəyərlər sisteminin kökündə dayanan tolerantlıq, fərqli inanc daşıyıcılarına hörmət, eləcə də dövlət-din münasibətlərində ümumbəşəri dəyərlərin milli maraqlarla harmoniyasının təmin olunmasına dair başlıca meyarlar və baxışların məcmusu təşkil etməlidir. Azərbaycandakı milli-mənəvi məkanın bölünməzliyi, dövlət suverenliyinin və ərazi bütövlüyünün təmin olunmasının zəruriliyi konsepsiyanın əsasında dayanan başlıca istiqamətlər olmalıdır.

Eyni zamanda konsepsiyada Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsinin hüquqi bazası ilə yanaşı, milli-mənəvi mühitimizə yönəlmiş təhdidlər, din sahəsində dövlət siyasətinin əsas istiqamətləri, prinsipləri və vəzifələri detallarına qədər açılmalıdır.

Nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikasının dini sahədə siyasətinin uğurla həyata keçirilməsi məqsədi ilə milli ideologiyaya və milli-mənəvi dəyərlərə uyğun dövlət-din münasibətlərinin milli modelinin düzgün formalaşdırılması və tətbiqi zəruridir. Bu modelin tətbiqi zamanı dövlət və dini qurumların fəaliyyəti müvafiq mərkəzi icra hakimiyyəti orqanı (Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi) vasitəsilə əlaqələndirilmiş şəkildə həyata keçirilməlidir.





Milli model dini təhsil, dini maarifləndirmə işinin təşkili, dini ekstremizm və radikallıqla mübarizə və din sahəsində beynəlxalq əməkdaşlıq məsələləri olmaqla konkret istiqamətləri əhatə etməlidir. Bu modelin reallaşdırılması baxımından da konsepsiyanın qəbul edilməsi zəruridir.

# DİN SAHƏSİNDƏ TƏŞKİLATİ-İNZİBATİ İDARƏETMƏNİN DÖVRÜN TƏLƏBİNƏ UYĞUN TƏKMİLLƏŞDİRİLMƏSİ

Bütün dövrlərdə dövlət-din münasibətlərinin tənzimlənməsi və idarə olunması çətinliyi və mürəkkəbliyi ilə xarakterizə edilib. Digər sahələrdən fərqli olaraq dövlət-din münasibətlərinin tənzimlənməsində təkcə dövlətlərin quruluşu və idarəetmə forması deyil, həm də ölkə əhalisinin dini, etnik, mədəni xüsusiyyətləri nəzərə alınır.

Eyni zamanda bu sahədə tarixi təcrübə əsas götürülür. Azərbaycan xalqının zəngin dövlətçilik tarixi var. Bu tarixin tərkib hissəsi kimi Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsinin tarixinin hərtərəfli araşdırılmasına və tədqiq olunmasına, həqiqətən, ciddi ehtiyac duyulur. Lakin iş ondadır ki, bizim dünyəvi dövlətçilik tariximiz o qədər də uzaq keçmişə gedib çıxmır. Onun təxminən 100 illik tarixi var.

Üstəlik, 100 ilin 71 ili ateizmə əsaslanan kommunizmin rəsmi ideologiya kimi təbliğ olunduğu sovetlər dövrünə düşür. Yerdə qalır cəmi iki il – Azərbaycan Xalq Cümhuriyyəti dövrü. Bu, qısa olsa da, şərəfli tarixdir və etiraf etmək lazımdır ki, həmin dövrü dövlət-din münasibətləri baxımından da tədqiq etməyə ehtiyac var. Bu sahədə Azərbaycan Xalq Cümhuriyyətinin qısa müddətli təcrübəsindən bəhrələnə bilərik. Lakin ümumi götürdükdə bu gün dövlət-din münasibətlərinin tənzimlənməsi baxımından tarixi təcrübə yetərli deyil. Bu sahədə tarixi təcrübədən daha çox reallıqlara əsaslanmalıyıq.





Dövlət-din münasibətlərində ən vacib elementlərdən biri din sahəsinin təşkilati-inzibati baxımdan tənzimlənməsi və idarə olunmasıdır. Konstitusiyaya əsaslanaraq dövlətin dindən ayrı olması, dünyəvi xarakter daşıması onu məsuliyyətdən sığortalamır. Dövlət dindən ayrı olsa da, dindar dövlətdən ayrı deyil və dövlət dini duruma görə məsuliyyət daşıyır. Əgər dövlətin belə bir məsuliyyəti varsa, deməli, şəriət məsələlərinə qarışmadan dini duruma nəzarət etmək, din sahəsini təşkilati-inzibati baxımdan idarə etmək onun hüququ və vəzifəsidir.

Din sahəsinin tənzimlənməsi və təşkilati-inzibati baxımdan idarə edilməsi ilə bağlı müxtəlif təcrübələr və modellər var. Təbii ki, bizim üçün əhəmiyyətli olan dünyəvi dövlətlərin təcrübəsidir. Ancaq dünyəvi dövlətlərin də təcrübəsi müxtəlifdir. Məsələn, dövlət-din münasibətləri baxımından "sərt dünyəvi" dövlətlər və "yumşaq dünyəvi" dövlətlər var. "Sərt dünyəvi" dövlət modelinə bariz nümunə Fransa sayıla bilər. Bu ölkədə dövlət dinə münasibətdə maksimum "laqeyddir". "Yumşaq dünyəvi" ölkələrdə dövlət dinə "laqeyd" deyil, əksinə, ənənəvi dinə qayğı ilə yanaşır. Məsələn, Almaniya, İsveç, İngiltərə və s.

Almaniyada "Xristian-demokratlar" partiya yaradaraq siyasi fəaliyyətlə məşğul olur, İsveçdə kilsəsinin üzvü olmayan, hökumət üzvü ola bilmir, İngiltərədə ənənəvi Anqilikan kilsəsinin rəhbərini kral təyin edir.

Keçmiş Sovetlər birliyinə daxil olan ölkələrin hamısı "yumşaq dünyəvi" dövlətlərdir. Lakin dünyəviliyə münasibət baxımından Azərbaycan onlardan fərqlənir. Rusiya, Ermənistan, Gürcüstan və digər MDB ölkələrində dövlət ənənəvi dinə əlavə imtiyazlar verir. Başqa sözlə, dövlət dinindən asılı olmayaraq, bütün vətəndaşlara bərabər hüquqlar versə də, dini qurumlar arasında "ayrı-seçkilik" edir. Məsələn, Gürcüstanda digər dini qurumlardan fərqli olaraq gürcülərin ənənəvi dini olan Gürcü-Pravoslav

Kilsəsinin statusu ölkə konstitusiyasında ayrıca maddə ilə müəyyənləşdirilib.

Eyni zamanda həmin maddəyə uyğun olaraq hökumətlə Gürcü-Pravoslav Kilsəsi arasında xüsusi saziş – Konkordant imzalanıb. Konkordanta əsasən, dövlət Gürcü-Pravoslav Kilsəsinin kəsdiyi kəbini tanıyır, ümumtəhsil məktəblərində dini biliklərin verilməsini ona etibar edir, dövlət büdcəsindən hər il bu kilsəyə vəsait ayırır, Sovetlər zamanı dağıdılmış gürcü pravoslav kilsələrinin bərpasını həyata keçirir. Lakin Gürcüstan o biri dini konfessiyalara – müsəlman, yəhudi, protestant, katolik və digərlərinə eyni imtiyazlar vermir.

Rusiyada Rus Pravoslav Kilsəsinin, Ermənistanda isə Erməni Qriqoryan Kilsəsinin buna oxşar hüquqları var. Ancaq Azərbaycanda belə deyil. Ölkə əhalisinin 96 faizini təşkil edən müsəlmanların dini-şəri məsələlərini tənzimləyən və iki əsrə yaxın tarixi olan Qafqaz Müsəlmanları İdarəsi ilə 50 nəfərlik Krişna şüuru dini icması arasında hüquq baxımından heç bir fərq və ya üstünlük yoxdur. Hətta dövlət məscidləri Qafqaz Müsəlmanları İdarəsinin mülkiyyətinə yox, icarəsinə verir, onların idarəçiliyi isə dini icmalar vasitəsilə həyata keçirilir. Qafqaz Müsəlmanları İdarəsinin məscid və ziyarətgahlara təyin etdiyi din xadimləri şəriət məsələləri ilə məşğul olur.

Bütün bunlara baxmayaraq, Azərbaycan dünyəviliyi Fransaya xas "sərt dünyəvilik"dən uzaqdır. O, mahiyyət etibarı ilə "yumşaq dünyəviliy"ə yaxın olsa da, yuxarıda qeyd edildiyi kimi, bəzi məqamlarda ondan fərqlənir. Başqa sözlə, Fransa kimi dinə laqeyd deyil, amma Ermənistan, Gürcüstan və Rusiyadan fərqli olaraq ənənəvi dini quruma əlavə imtiyazlar verib, ayrı-seçkilik də etmir. Bu mənada Azərbaycanın dünyəviliyi daha mütərəqqi və ədalətli mahiyyət daşıyır.





Ümumiyyətlə, dünyəvilik və dövlət-din münasibətlərinin tənzimlənməsi baxımından Avropa və MDB ölkələrinin modellərinin olduğu kimi Azərbaycanda tətbiqini düşünmək yanlış olardı. Çünki Azərbaycan müasir, dünyəvi, demokratik dövlət olsa da, Şərq, müsəlman ölkəsidir. Din sahəsinin təşkilati-inzibati baxımdan idarə edilməsində İslam dini ilə bağlı amili, xüsusilə bu dinin dünyəviliyə, dövlətə, şəriət məsələlərinə münasibətini nəzərə almamaq qeyri-mümkündür. Əks təqdirdə dövlət-İslam qarşıdurması qaçılmazdır.

İslam dünyasında dünyəvilik baxımından Azərbaycana ən yaxın Türkiyə modelidir. Lakin tarixi-dini ənənələri, mövcud dini mənzərəsi, xüsusilə məzhəb tərkibi, eləcə də tarixi-coğrafi mövqeyi, siyasi idarəetməsi, dövlətçilik nöqteyi-nəzərdən gələcək hədəfləri və dünyəviliyin gələcək perspektivi baxımından Türkiyə ilə Azərbaycan arasında ciddi fərqlər mövcuddur. Bu mənada "Türkiyə dünyəviliyi"nin Azərbaycana proyeksiyası qəbuledilməzdir. Əksinə, dinə, mədəniyyətə, dünyəviliyə, müasirliyə, tolerantlığa, sivilizasiyalararası dialoqa münasibət baxımından Azərbaycan türklərinin üstün cəhətlərinə əsaslanaraq formalaşmış dövlət-din münasibətləri modelimiz bütün İslam coğrafiyasında nümunəvi model kimi qəbul edilə bilər. Həqiqətən, Azərbaycanda belə bir potensial mövcuddur. Amma Konstitusiya prinsiplərinin pozulmaması şərti ilə din sahəsinin təşkilati-inzibati baxımından idarə edilməsində dövrün tələblərinə uyğun bəzi təkmilləşdirmələr aparılması qaçılmazdır.

Əslində, din sahəsinin təşkilati-inzibati baxımdan idarə olunmasında Azərbaycanla Türkiyə arasında müəyyən paralel müqayisələr aparmaq mümkündür. Məsələn, Azərbaycanda İslam ibadət evlərinə (məscid və ziyarətgahlar) din xadimləri Qafqaz Müsəlmanları İdarəsi tərəfindən təyin olunur, dövlət bu təyinatlarda rəsmi qaydada iştirak etmir. Ümumiyyətlə, ölkəmizdə

din sahəsi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qafqaz Müsəlmanları İdarəsi olmaqla əsas iki qurum tərəfindən idarə olunur və tənzimlənir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi dini fəaliyyət sahəsində mərkəzi icra hakimiyyəti orqanıdır və müxtəlif dini konfessiyalara aid bütün dini qurumları, o cümlədən dini icma, dini mərkəz, dini idarə və dini təhsil müəssisələrini dövlət qeydiyyatına alır. Qafqaz Müsəlmanları İdarəsi əsasən şəriət və təşkilati məsələlərlə məşğul olur.

Mövcud qanunvericiliyə və real vəziyyətə görə, məscidlərin idarə olunması dini icma və din xadimi (axund və ya imam) tərəfindən həyata keçirilir. Din xadimi təyin edilir, dini icma isə seçkili qurumdur və Qafqaz Müsəlmanları İdarəsinin təqdimatı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatına alınır.

Bu cür idarəetmə forması ilkin təəssüratda ikili idarəetmə təsiri bağışlayır. Əslində, belə idarəetməni sovet dövrünün mirası kimi qəbul edənlər də var. Onların fikrincə, sovet xüsusi xidmət orqanları bu variantı məqsədyönlü seçmişdi və niyyətləri ikili idarəetmə yolu ilə həm icma sədrini, həm də din xadimini bir-birilərinə nəzarətçi kimi müəyyənləşdirmək, lazım gəldikdə onların münasibətlərini gərginləşdirmək və məsciddə həmrəyliyə, sağlam mühit formalaşmasına imkan verməmək idi.

Təbii ki, fərqli fikirləşənlər də var. Bu cür düşünənlər dünyəvi dövlət quruluşuna malik ölkələrdə dini ibadət evlərinin fəaliyyətinin tənzimlənməsi baxımından din xadimi ilə yanaşı, dini icma anlayışının saxlanılmasını vacib sayırlar. Məntiqi izahları isə belədir: ibadət evlərindəki (istər məscid, istər, kilsə, istər sinaqoq olsun, fərq etməz) fəaliyyət iki hissəyə bölünür: dünyəvi məsələlər və dini-şəri məsələlər.





İbadət evinin maddi-texniki təhcizatı, əmlakı, normal vəziyyətdə saxlanılması, dindarlara ibadət üçün şərait yaradılması, texniki işçilərin əmək haqqının ödənilməsi, ümumiyyətlə, təsərrüfat işləri dünyəvi məsələlərə, kütləvi ibadətlərin icra edilməsi, ayın və mərasimlərin keçirilməsi, Qurani-Kərimin öyrədilməsi, əhalinin şəri suallarının cavablandırılması və s. isə dini-şəri məsələlərə daxildir. Qanunvericiliyə əsasən, dini icma dinə birlikdə ibadət etmək və digər dini tələbatları ödəmək məqsədilə birləşmiş dindar şəxslərin yerli dini qurumu olduğu üçün ibadət evinin dünyəvi işləri ilə icma üzvlərinin, dini məsələlərlə isə din xadiminin məşğul olması daha məntiqlidir.

Türkiyəyə gəlincə, bu ölkədə, necə deyərlər, həm Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, həm də Qafqaz Müsəlmanları İdarəsinin funksiyasını Diyanət İşləri Başqanlığı həyata keçirir. Hətta Diyanət İşləri Başqanlığının təyin etdiyi din xadimləri dövlət məmuru sayılır. Hazırda Diyanət İşləri Başqanlığının idarəçiliyində 80 mindən artıq məscid, 120 mindən çox məmur var və bu təşkilat ölkənin ən nüfuzlu dövlət qurumlarından biridir.

Məscidlərin birbaşa dövlətin təyin etdiyi məmurlar vasitəsilə idarə olunması dövlətin din sahəsini çevik idarəetməsinə və tənzimləməsinə şərait yaradır. Bu baxımdan din sahəsinin idarə olunmasında Türkiyə modelinə üstünlük verənlər kifayət qədərdir. Amma etiraf etmək lazımdır ki, Türkiyə modelinin zəif cəhətləri və tənqidçiləri də az deyil.

Məsələn, beynəlxalq təşkilatlar və Türkiyə daxilindəki siyasi qüvvələr arasında din sahəsinin bu cür idarə olunmasını həm dövlətin dinə müdaxiləsi, həm də dövlətin dindən ayrı olması prinsipinə ziddiyyət kimi qəbul edənlər var.

Üstəlik, Diyanət İşləri Başqanlığı ölkədə əsasən sünni məzhəb müsəlmanların dini məsələlərini tənzimləyir, digər məzhəblərə,

o cümlədən şiələrə məxsus məscidlərin idarə olunmasında və din xadimi təyinatında iştirak etmir. Lakin Azərbaycanda məzhəb fərqi olmadan Qafqaz Müsəlmanları İdarəsi bütün müsəlmanların şəri məsələlərini tənzimləyir və məscidlərə istisnasız din xadimi təyin etmək hüququna malikdir.

Eyni zamanda Qafqaz Müsəlmanları İdarəsinin Azərbaycanla yanaşı, ölkə xaricində, xüsusilə Gürcüstanda və Şimali Qafqazda dini fəaliyyətlə məşğul olmaq və din xadimi statusunda şəxslər təyin etmək hüququ var. Xaricdə yaşayan soydaşlarımız arasında milli maraqlarımıza uyğun dini təbliğat aparmaq və milli-mənəvi dəyərlərimizi təşviq etmək baxımından bu çox əhəmiyyətlidir.

Qeyd edilən amillər din sahəsinin təşkilati-inzibati baxımdan idarə olunmasında Azərbaycan modelinin bizim üçün daha uğurlu olduğunu göstərir. Amma etiraf edək ki, öz modelimizdə də zaman keçdikcə dövrün tələblərinə uyğun bəzi korrektələr edilməsinə həm zərurət, həm də imkanlar var.

Məsələn, indiki dini vəziyyətdə ibadət evlərinə din xadimlərinin təyinatının dövlətlə razılaşdırılması, bunun müqabilində həmin şəxslərə əmək haqqının dövlət tərəfindən ödənilməsi, habelə, dini təhsilin ödənişsiz olması, hətta, ən yaxşı məzunlara təyinat verilməsi, eləcə də ölkənin bölgələri arasında eyni dini əhval-ruhiyyənin yaranması və yerlərdə dini mühitin "oturuşmuş" bir şəxsdən asılı olmaması üçün din xadimlərinin müəyyən müddətdən sonra rotasiya qaydasında yerlərinin dəyişdirilməsi mexanizminin tətbiqi din sahəsinin çevik tənzimlənməsinə müsbət təsir göstərə bilər.





# İNTENSİV DİNİ MAARİFLƏNDİRMƏ

Qeyri-ənənəvi, bir qədər də qapalı dini cərəyanların və təriqətlərin ortaq cəhətlərindən biri budur: mənsublarına və öz sıralarına cəlb etdikləri yeni üzvlərə yalnız öz əqidələrinə uyğun dini kitabları ardıcıl və sistemli şəkildə oxutdurmaq, beləliklə, onları əqidələrində "möhkəmləndirmək", başqa təsirlərə məruz qalmalarına imkan verməmək, həmişə təəssübkeş kimi "formada" saxlamaqdır. Əslində, həmin təriqət və cərəyanların "gücü" həm də bundan – intensiv təbliğatdan qaynaqlanır.

Təcrübə göstərir ki, hansısa dini cərəyana qoşulmuş şəxs başqa və fərqli əqidələrlə yaxından tanış olduqda, alternativ variantları gördükdə onunla ortaq nöqtələr tapmaq, hətta orta məxrəcə gəlmək asan olur. Məhz buna görə, qeyri-ənənəvi cərəyanlar öz mənsublarının başqa "variantlarla" tanış olmalarına, fərqli dini ədəbiyyatlar mütaliə etmələrinə, yumşaq desək, qısqanc yanaşır.

Cəmiyyətə, qeyri-ənənəvi dini cərəyan və təriqətlərə qoşulmamış adi vətəndaşa yaxşı mənada bu prizmadan yanaşmaq lazımdır. Əgər o, zərərli dini cərəyanlara qarşı intensiv maarifləndirilmirsə, ona lazımi dini biliklər sistemli şəkildə verilmirsə, deməli, onun hansısa qeyri-ənənəvi təriqətə qoşulması ehtimalı hələ də qalır. Ona görə ki, insanları yalnız inzibati tədbirlər yolu ilə zərərli dini cərəyanların təsirindən qorumaq qeyri-mümkündür.

Cəmiyyətdə intensiv təbliğat mexanizminin qurulmasına ən yaxşı nümunə Sovet İttifaqı ola bilər. Sovetlər dövründə vətəndaşa yönəlik təbliğat bağçadan başlayaraq ardıcıl şəkildə məktəbdə, ali məktəbdə, iş yerində, komsomolda, Kommunist partiyasında, hətta ailədə davam etdirilirdi. Vətəndaş faktiki olaraq

həyatının hansısa mərhələsində ideoloji təbliğatın təsir dairəsindən kənarda qalmırdı. Bu təbliğat ardıcıl, sistemli və intensiv formada həyata keçirilirdi.

Qəribə görünsə də, biz dini maarifləndirməni bu şəkildə - aşağıdan yuxarı, cəmiyyətin bütün təbəqələrini və fərdlərini əhatə etməklə intensiv təşkil etməliyik. Əlbəttə, söhbət bağçada, orta məktəbdə dinin tədrisindən yox, dini biliklərin formalaşmaqda olan gənclərin tələbatlarına və dünya görüşlərinə uyğun verilməsindən, dini maarifçilik işindən gedir.

Məsələn, orta məktəbdə bütün şagirdlərə fizika fənni tədris edilir, amma bunda məqsəd hamını fizik etmək deyil. Dini biliklərin verilməsinə də belə yanaşılmalıdır: məqsəd hamını dindar və ya din xadimi etmək olmamalıdır, lakin hər kəs minimum dini biliklərə sahib olmalı, zərərli dini təbliğata qarşı insanlarda "immunitet" formalaşdırmalıdır.

Dini maarifləndirmə işi təkcə təhsil müəssisələrində deyil, bütün istiqamətlərdə; məhəllə, kənd, qəsəbə, şəhər, rayonlarda, silahlı qüvvələrdə, hüquq-mühafizə orqanlarında, təcridxanalarda, səhiyyə, mədəniyyət müəssisələrində, qeyri-hökumət təşkilatlarında, eləcə də ibadət evlərində, istehsal sahələrində və digər mümkün yerlərdə aparılmalıdır. Dini maarifləndirmə işində iki əsas məqam mütləq nəzərə alınmalıdır:

1. Dini maarifləndirməni kim aparmalıdır?
2. Dini maarifçilik işi özündə nələri ehtiva etməlidir?

*Dini maarifçilik işini kimlər aparmalıdır?*

İslamı, ümumiyyətlə, dinləri bilən və ya dini təhsili olan hər kəsi dini maarifçilik işinə cəlb etmək olmaz. Bu işə cəlb olunan ixtisaslı mütəxəssislərin yetərli dini bilikləri ilə yanaşı, yüksək şəxsi keyfiyyətləri, dini, həm də milli və dövlət təəssübkeşliyi olmalı, dünyəvi dövlət quruluşunu səmimi şəkildə dəstəkləməlidir. Əgər mütəxəssisin normal dini savadı olmasa, dini maarifçilik işi nəticəsiz qalacaq, şəxsi keyfiyyətləri qüsurlu olsa, insanlar onu qəbul etməyəcək, milli və dövlət təəssübkeşliyi olmasa, dünyəvi dövlət quruluşuna qarşı çıxsa, millətə, dövlətə faydasından çox zərəri dəyəcək. Bu baxımdan dini maarifçilik işinə cəlb olunmuş mütəxəssislər konkret meyarlar əsasında, hətta zərgər dəqiqliyi ilə seçilməlidir.





Din xadimlərinin təyinatı zamanı da, bu meyarlar nəzərə alınmalıdır. Xüsusilə şəxsi keyfiyyətlərində və dövlətə münasibətində qüsurlu olanların, aşırı məzhəb təəssübkeşliyi edənlərin xidmətlərindən imtina edilməlidir.

Fərz edək ki, bir kənddə həm rəsmi ruhani, həm də qeyri-ənənəvi dini cərəyana mənsub bir şəxs var. Kənd sakinləri rəsmi ruhanidən daha çox qeyri-ənənəvi cərəyan mənsubuna tərəf meyillənirlər. Səbəb çox sadədir. Rəsmi ruhani ya savadsızdır, ya da təbliğ etdiklərinə, danışdıqlarına uyğun yaşamır, yəni olduğu kimi deyil. Fakt budur ki, insanlar göründüyü kimi olmayan ruhanini qəbul etmirlər.

*Dini maarifçilik işi özündə nələri ehtiva etməlidir?*

Bəzən dini maarifləndirmə dedikdə yalnız zərərli dini cərəyan və təriqətlərlə mübarizə nəzərdə tutulur. Bu, səhv yanaşmadır. İnsanlar zərərli dini cərəyanlardan və qeyri-ənənəvi təriqətlərdən məlumatlı olmalıdırlar, amma buna paralel şəkildə əsl dinin nə olduğunu da bilməlidirlər. Əks təqdirdə biz insanlara zərərli olanı göstərsək də, doğru olanı nişan verməyəcəyik. Daha dəqiq desək, doğrunu ondan uzaq tutmuş olacağıq. Ən düzgün maarifləndirmə metodologiyası səhvlə yanaşı, doğrunu da göstərməkdir. Seçim isə insanların öz işidir.

Önəmli məqamlardan biri də dini maarifçilik işinin kompleks aparılması ilə yanaşı, həm də vahid mərkəzdən idarə və koordinasiya edilməsidir. Pərakəndə və nizamsız aparılan maarifləndirmə işinin effektivliyi azdır, həmçinin, əlavə enerji və vaxt itkisidir. Bu baxımdan ən doğru variant bütün maarifçilik işinin və prosesinin hazırda olduğu kimi eyni mərkəzdən – Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən yönləndirilməsidir. Onsuz da digər qurumların bu sahədə effektiv dini maarifləndirmə həyata keçirmək potensialı məhduddur.





# MÜNDƏRİCAT

**Ön söz** ........ 3

**I FƏSİL**
**AZƏRBAYCANDA ƏNƏNƏVİ DİNLƏRİN TARİXİ**

İSLAM ........ 10

İslamın Azərbaycanda yayılması ........ 13

XRİSTİANLIQ ........ 22

Alban kilsəsi ........ 23
Pravoslavlıq ........ 31
Katoliklik ........ 35

Protestanlıq ........ 37
Xristian təriqətçiliyi ........ 41
YƏHUDİLİK ........ 43
Dağ yəhudiləri ........ 46
Gürcü yəhudiləri ........ 49
Avropa yəhudiləri (aşkenazilər) ........ 53

## II FƏSİL
## AZƏRBAYCANDA ÜMUMİ DİNİ MƏNZƏRƏ

ƏSAS DİNİ MƏRKƏZ VƏ İCMALAR ........ 58

Qafqaz Müsəlmanları İdarəsi ........ 58
Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumu ........ 66
"Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturası" dini qurumu ........ 70
Bakı şəhəri Dağ yəhudiləri dini icması ........ 75
Avropa Yəhudilərinin Bakı dini icması ........ 79

İBADƏT EVLƏRİ ........ 82

Məscidlər və ziyarətgahlar ........ 82
*Ziyarətgahlar* ........ 86
Kilsələr və digər ibadət evləri ........ 88
Sinaqoqlar ........ 93





DİNİ TƏHSİL OCAQLARI ........ 97
Ali dini təhsil ocaqları ........ 97
Bakı İslam Universiteti ........ 99
Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsi ........ 102
Mədrəsələr ........ 104
*Şəki İslam Mədrəsəsi* ........ 104
*Əliabad İslam Mədrəsəsi* ........ 106
*"Şəbnəm" Qızlar Mədrəsəsi* ........ 107
Quran kursları ........ 108
Qeyri-İslam təhsil müəssisələri ........ 112
*"Bakı Bibliya Kolleci"* ........ 112
*"Xabad-Or-Avner" Təhsil Mərkəzi* ........ 113

## III FƏSİL
## TƏHDİDLƏR

Dinlə təhdid?! ........ 116

İSLAM DİNİ İSTİQAMƏTLİ TƏHDİDLƏR ........ 120

Dini kimliyimizin milli kimliyimizə qarşı qoyulması cəhdləri ........ 126
Dindar kontingent daxilində dünyəviliyin zəifladilməsi cəhdləri ........ 132
Dinin siyasiləşdirilməsi cəhdləri ........ 137
Ənənəvi İslamın zəiflədilməsi cəhdləri ........ 141
Dini radikalizmin gücləndirilməsi cəhdləri ........ 147

Dini zəmində xarici təsirlərin gücləndirilməsi cəhdləri ........ 153
*Məscidlərin inşası* ........ 154
*Mədrəsə və Quran kurslarının açılması və gənclərin dini təhsil almaq üçün xaricə aparılması* ........ 155
*Zərərli dini ədəbiyyatın idxalı, xaricdəki müqəddəs məkanlara məqsədli kütləvi ziyarət səfərlərinin təşkil olunması* ........ 157
Məzhəb ayrı-seçkiliyinə cəhdlər ........ 159
Dini zəmində cəmiyyətdə sosial qütbləşmənin yaradılması cəhdləri ........ 166
Tolerantlığın zəiflədilməsi cəhdləri ........ 170
Xurafatın və dünyəvi təhsilə qarşı çağırışların artırılması cəhdləri ........ 176
Dini zəmində qadın hüquqlarına və ənənəvi ailə institutuna qarşı təhdidlər ........ 180
Diasporumuza dini zəmində təhdidlər ........ 185

RADİKAL VƏ QEYRİ-ƏNƏNƏVİ DİNİ CƏRƏYANLAR ........ 189

Vəhhabilik ........ 189
*Vəhhabi qruplaşmaları* ........ 191
*Mötədil qanad* ........ 191
*Təkfirçi qanad* ........ 192
*Xəvaric qanad* ........ 193





*Təbliğat metodları* ........ 195
*Psixoloji amil* ........ 195
*Sosial amil* ........ 196
*Maddi amil* ........ 196
*Vəhhabiliyin təhlükəsi* ........ 197
Nurçuluq ........ 199
*Risaleyi-Nur külliyatı* ........ 202
*Mustafa Sunqur və "klassik" nurçular* ........ 205
*Fətullah Gülən və "Hizmət" hərəkatı (FETÖ)* ........ 206
Radikal şiəlik ........ 210
*Təbliğatın təşkilati metodları* ........ 211
*Təbliğatın mahiyyəti və vasitələri* ........ 212

DİGƏR DİNLƏR İSTİQAMƏTİNDƏ TƏHDİDLƏR ........ 219

Xristian missionerliyi ........ 219
*Azərbaycanda missionerliklə bağlı mövcud vəziyyət* ........ 223
*Missionerlik müstəvisində təhdidlər* ........ 225
"Yehovanın şahidləri" ........ 230
*Psixoloji üsullar və təsir metodları* ........ 232
*"Yehovanın şahidləri" Azərbaycanda* ........ 233
*Potensial təhdid* ........ 235
Ənənəvi olmayan dinlər ........ 236
Bəhailik ........ 236

Krişnaçılıq ........................................ 240
İbrahimilik ........................................ 245
IV FƏSİL
HƏDƏFLƏR
İSLAM DİNİ İSTİQAMƏTİNDƏ ........................................ 248
Dini-ideoloji baxımdan hədəflər ........................................ 248
Din sahəsində milli və ictimai təhlükəsizlik baxımından hədəflər ........................................ 252
PRİORİTET İSTİQAMƏTLƏR ........................................ 256
Din sahəsində milli kadrların hazırlanması ........................................ 256
*Dövlətçilik baxımından din sahəsində savadlı kadrların hazırlanması zərurəti* ........................................ 262
Din sahəsində dövlət konsepsiyası əsasında koordinasiyalı fəaliyyət ........................................ 267
Din sahəsində təşkilati-inzibati idarəetmənin dövrün tələbinə uyğun təkmilləşdirilməsi ........................................ 272
İntensiv dini maarifləndirmə ........................................ 279
*Dini maarifçilik işini kimlər aparmalıdır?* ........................................ 280
*Dini maarifçilik işi özündə nələri ehtiva etməlidir?* ........................................ 281

*Tiraj: 1000*
*Çapa imzalanmışdır: 20.11.2016*

*"Nəşriyyat XXI" MMC-nin*
*mətbəəsində çap olunub.*

108468

Az 2016/2133

**Gündüz İsmayılov**

1982-ci ildə anadan olub. Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsində, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında və Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun aspiranturasında təhsil alıb.
Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavinidir.
Ailəlidir, iki övladı var.



**Bu kitab nə elmi iş, nə analitik təhlil, nə də publisistik materialdır. Sadəcə, dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində on ildən artıq çalışan məmurun iş qeydlərini mümkün qədər saf-çürük edib bu sahə ilə bağlı fikirlərini, həm də narahatlığını ictimaiyyət ilə bölüşmək cəhdidir.**